

Tbilisi-2023

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით.

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin Elmi Şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

Kitabın orjinal adı: Örnek Nesil Peyğamber Dostları
Müəllif: Dr. M. Şerafeddin KALAY
Nəşrə hazırlayanlar: t.f.d. Abbas QURBANOV
Hacı BƏKİROĞLU
Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran: Eldəniz SALMANOV
Elmi və bədii redaktorlar: i.f.d. Rafiz MANAFOV
Ramazan QORADAYEV
Dizayn: Nicat QƏRİBOV
Elsevər ƏHMƏDOV

İslam tarixi, ilahi nurun yayılmağa başladığı ilk gün və ilk illərdən günümüzə qədər, əzablar, fədakarlıqlar, igidliklər, şan, şərəf, ibrət və irşadla doludur.

Qurani-Kərimdə:

لَقَدْ كَانَ فِي قَصَصِهِمْ عِبْرَةٌ لِّأُوْلِي الأَلْبَابِ

"(Peyğəmbərlərin) **hekayətlərində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır**" (Yusuf, 12/111) buyurulur.

Qaynaqlara əsaslanıb və bir çox cəhətləri ilə də örnək mahiyyət daşıyan bu həyat lovhələrinin, məlumat və düşüncələrin daha da təsirli olacağını düşünürük.

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის.

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

Tbilisi Georgia, Botanikuri, #32
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0105
E-mail: info.amag77@gmail.com

სამაგალითო თაობა,
შუამავლის მეგობრები

Örnək Nəsil

PEYĞƏMBƏR DOSTLARI

İslamı Necə Anladılar, Necə Yaşadılar

Dr. M. Şerafeddin KALAY
დოქტორი მ. შერაფედდინ ქალაი

Allah-Təala buyurur:

(Ya Peyğəmbər!) ***Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla - öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə - dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh*** *(güc)* ***vermişdir*** *(iman, hidayət nuru əta etmişdir).* *(Allah)* ***onları (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər*** *(Allahın dininə kömək edən kimsələrdir).* ***Bilin ki, Allahın firqəsi məhz onlar nicat tapıb*** *(əbədi)* ***səadətə qovuşanlardır.***

Giriş

بِسْمِ اللَّهِ الرَّمَنِ الرَّحِيم

الحمد للّه ذي الجلال و الفضل و الاحسان, الطيف المعين والمنعم

على عباده بانواع نعمه فى كل حين.

والصلاة والسلا م على سيّدنا محمد المبعوث رحمةً للعالمين و هدايةً

للنّاس أجمعين و على اَله وصحابه الغرّ الميامين و من سار على نَهجهم

واتّبع هداهم اِلى يوم الدين.

İslam tarixi ilahi nurun yayılmağa başladığı ilk gün və ilk illərdən günümüzə qədər, əzablar, fədakarlıqlar, igidliklər, şan, şərəf, ibrət və irşadla doludur.

Siyər kitabları, tarix kitabları, elm və irfan əhlinin həyatı haqqında tərcümeyi-hal kitabları; qulaqardı edilmiş, biganə yanaşılmış, zamanla sönməyə başlamış əzmkarlıq və səylərini gücləndirən, bitməyə başlamış enerjini yenidən bərpa edən, qəlbi sevinclə dolduran, oxuyan və eşidənə yeni bir ruh və canlılıq verən şanlı səhifələrin nümayiş etdirildiyi məkanlardır.

Qurani-Kərimdə:

لَقَدْ كَانَ فِي قَصَصِهِمْ عِبْرَةٌ لِّأُوْلِي الأَلْبَابِ

"(Peyğəmbərlərin) **hekayətlərində ağıl sahibləri üçün, söz-süz ki, bir ibrət vardır**" (Yusuf, 12/111) buyurulur.

"Qızıl dövr" dediyimiz ilk əsrdə yaşayan, susuzluğunu bulağın gözündən içərək yatızdıran mömin könüllərin həyat hekayələrində də bir çox ibrətlər, nümunələr və qəlblərə sirayət edən gözəlliklər görürük.

Rəhmana bəndəlik, Rəsuluna ümmət olmaq şərəf və izzətin yerinə iblisə xidmət etməyi üstün tutan, iki dünya səadəti yerinə müvəqqəti ehtiraslarla nəticədə cəhənnəmi seçən şər qığılcımlarının bütün güc və imkanları ilə hücuma keçdiyi bu günlərdə həm təfəkkür, həm icraat, həm də irşad sahəsində yaşadığımız bulanıq, təəccüblü, ruhsuz, sevgisiz və cəsarətsiz günlərin könlümüzdə buraxdığı dərin izləri silmək, yenidən əzmlə, həvəslə və səy göstərməklə keyliyimizi açmağa, göz bəbəklərinə çökən durğunluqları işartıya çevirmək üçün bu cür mənəvi xəzinələrə olan ehtiyacımız həqiqətən çox böyükdür.

Həmçinin sağlam xarakterlərin, alicənab və şəxsiyyət dolu davranışların həsrətini çəkməyə başladıq. Sıxıntılara, əzablara, yoxluqlara ülvi qayələr və uca hədəflər uğrunda qatlanmaq, inandığı davadan geri addım atmamaq, ümid və hədəfi itirməmək həsrətlərinin artıq silinməyə başladığını, təəssüflə seyr edərkən əlbəttə ki, əli-qolu bağlı dayana bilmərik. Bir millətin dəyərləri ilə bərabər uçuruma doğru sürükləndiyini seyr edib hər hansı bir səbəblə bizlər də eyni axıntıya düşməməliyik.

Bu səbəbdəndir ki, sevgi, şəfqət, mərhəmət, dürüstlük, qənaət, şükür, başqalarının haqq və hüquqlarına riayət, gücsüzün əlindən tutmaq, möhtaca yardım əlini uzatmaq, heç kimə zülm etməmək, dostlarla acı və şirin günlərdə bərabər olmaq; vəfa, doğru sözlülük, fədakarlıq, valideynlərə ehtiram, qohumluq münasibətlərini gücləndirmək, qonşunu himayə etmək, gülərüz, şirin və ədəbli söz, ədalət, incə ruh, sağlam zövq, zikr-tilavət oxumaq alışqanlığı, kamillik, can, var-dövlət, namus əminliyi və qardaşlıq hissləri kimi hər fərdin daşıması zəruri olan əsas xislətləri qorumaq, gücləndirmək, yaymaq və yetişən nəsilləri bu xislətlərlə yoğurmaq məcburiyyətindəyik.

Rəbbimiz:

وتَعاوَنُوا عَلى البِرِّ وَ التَّقْوى

"**...Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun...**" (əl-Maidə, 4/2) buyurur.

Bu əmri yerinə yetirmək hiss və təslimiyyəti ilə belə ibrətli hadisələrdən nümunələr verib, bunlar haqqında düşüncələrimizi dilə gətirəcək və istifadə edilməsi zəruri olan məqamları ön plana çıxaracaq bir tədqiqatı təqdim etmək qərarına gəldik.

Əsəri, arzuladığımız mənanı bütünlükdə ifadə etdiyinə görə əvvəlcə "Təzkir və Təfkir" deyə adlandırdıq.

Təzkir, yaşanmış bir hadisəni, bir əmri və ya qadağanı xatırlatmaq deməkdir. **Təfkir** isə müəyyən bir məsələyə diqqətini yönəldərək düşünməyə, müəyyən nəticələr əldə etmək üçün ağlı həmin məsələ üzərində ciddi şəkildə çalışmağa, təfəkkürə sövq etməyə deyilir. Bizim də istədiyimiz məhz bu idi.

❋

Allah-Təala buyurur:

وَكُلًّا نَقُصُّ عَلَيْكَ مِنْ أَنْبَاءِ الرُّسُلِ مَا نُثَبِّتُ بِهِ فُؤَادَكَ ۚ وَجَاءَكَ فِي هَٰذِهِ الْحَقُّ وَمَوْعِظَةٌ وَذِكْرَىٰ لِلْمُؤْمِنِينَ

(Ya Rəsulum!) **Biz peyğəmbərlərin xəbərlərindən** (başlarına gələnlərdən) **ürəyini möhkəmləndirəcək** (qəlbinə qüvvət verəcək) **nə varsa,** (hamısını) **sənə nağıl edirik. Bu** (surə) **sənə haqq, möminlərə isə moizə və öyüd-nəsihət olaraq gəlmişdir!** (Hud, 11/121)

Qaynaqlara əsaslanıb və bir çox cəhətləri ilə də örnək mahiyyət daşıyan bu həyat lovhələrinin, məlumat və düşüncələrin daha da təsirli olacağı ümid ilə...

Dr. M. Şerafeddin KALAY

Hira və Nur

Vəhyin Başlanğıcı

Həzrət Rəsulullah (s.ə.s) qırx yaşına gəldiyində, mütəmadi olaraq sadiq röyalar görməyə başladı. Bir müddətdən sonra insanlardan uzaqlaşmaq, yalnızlığa çəkilmək, təfəkkürə dalmaq, ibadətlə Rəbbinə yönəlmək hissləri gəlib daxilinə yerləşdi.

Belə ki, Buxarinin rəvayət etdiyi bir hədisdə[1], "vəhy öncə yuxuda görülən sadiq röyalarla başladı. Rəsulullahın gördüyü bütün röyalar, gündüzün işığında baş verən bir hadisə kimi aşkar və dəqiq şəkildə baş verirdi. "-deyə sözə başlanılır və davam edilir....

Bu hisslərə qərq olunca, tez-tez Məkkədəki evindən çıxır və dağarası vadilərdə, yamaclarda gəzir, hisslərinə çarə axtarırdı. Yanından keçdiyi daşlar və ağaclar; "əs-Salamu aleykə ya Rəsulallah!"-deyə onu salamladığında dönüb sağına, soluna baxar, daşlardan və ağaclardan başqa bir şey görməyincə təəccüblənər, bir az da ürpənirdi.

❋

Yenə bir gün Məkkədən ayrıldı və vadilərdən keçərək Hira dağına gəldi. Dağın zirvəsinə qalxıb oradan Cənub istiqamətinə doğru bir qədər aşağı endi. Üzü Kəbəyə tərəf olan Hira mağarasını seçdi. Vadilərə hakim, səssiz, səmirsiz və uzaqdan Beytullahı görən bu mağara, onun üçün ən əlverişli yer idi.

Daha sonrakı günlərdə bu mağarada günlərlə qalır, təfəkkürə dalır, sanki hissləri təzələnir, həssaslaşır və özünü dərin bir

1. Buxari, Bədul-vəhy (Umdətul-Qari, 1/51-52), həmçinin bax: Səhihi Müslim, İman (1/139-145) baş tərəfini zikr etdiyimiz bu hədis, vəhyin necə başladığını izah edən uzun bir hədisdir və bir çox hədis qaynaqlarında mövcuddur.

təfəkkür dünyasında hiss edərdi. Rəbbinə dua edər, gecənin səssizliyi və mənəvi rahatlıq verən zaman axışı içərisində İbrahimin (ə.s) dini üzrə şirkə bulaşmamış bir fitrətlə ibadət edərdi.

Azuqəsi bitdiyində Məkkəyə qayıdır, Xədicə anamızın ona hazırladığı azuqəni götürərək təkrar Hiraya qayıdırdı.

❋

Mənbələrdə qeyd edildiyinə görə, Ramazan ayının on yeddisi idi. O uca an gəlib çatmış, o mübarək görüş anının reallaşmasının kandarına gəlmişdi.

Rəsulullah (s.ə.s) həmin gün Hira mağarasında ikən səssizliyin və sükunətin hökm sürdüyü bir anda qarşısında Cəbraili (ə.s) gördü.

Dəhşətə gəlmişdi. Bu ucsuz-bucaqsız dağ başında bütün üfüqü örtən bir varlıqla qarşı-qarşıya dayanmışdı.

Cəbrail (ə.s) ona; "Oxu!"-deyə xitab etmiş, Rəsulullah (s.ə.s), "mən oxumaq bilmirəm"-deyə qarşılıq vermişdi.

Bundan sonra Cəbrail (ə.s) onu qucaqlayıb sıxaraq yenidən; "Oxu!"-demiş, Peyğəmbərimiz yenə qorxu və həyəcan içində; "Mən oxumaq bilmirəm,"-deyə cavab vermişdi.

Cəbrail (ə.s) təkrar onu nəfəsi kəsilənə qədər sıxıb buraxmış və:

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ (١) خَلَقَ الْإِنْسَانَ مِنْ عَلَقٍ (٢) اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ
(٣) الَّذِي عَلَّمَ بِالْقَلَمِ (٤) عَلَّمَ الْإِنْسَانَ مَا لَمْ يَعْلَمْ (٥)

"(Ya Peyğəmbər! Qurani-Kərimi bütün məxluqatı) **yoxdan yaradan Rəbbinin adı ilə** (bismillah deyərək) **oxu! O, insanı laxtalanmış qandan yaratdı.** (Ya Peyğəmbər!) **Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə** (yazmağı) **öyrətdi.** (O Rəbbin ki) **insana bilmədiklərini öyrətdi.**" (əl-Ələq, 1-5)

Beləliklə Ələq surəsinin ilk beş ayəsini ona təbliğ etmiş və gözdən itmişdi.

Rəsulullah (s.ə.s), qorxu və həyəcandan qurtula bilməmiş, lakin eşitdiyi kəlmələrin qəlbinə nəqş edildiyini və həmin qeyri-adi vəhy həzzini dərindən hiss etmişdi.

❋

Sərt qayalardan keçərək yamaclardan sürətlə aşağı enmiş, vadiləri keçərək Məkkəyə qayıdaraq evinə gəlib Xədicə anamıza: (زملونی زملونی!) "Məni örtün, məni örtün!"-buyurmuşdu.

Onun bu dəhşət içindəki halını görən Xədicə anamız, ondan heç bir şey soruşmadan istirahət etməsinə şərait yaratmış və üstünü örtmüşdü.

❋

Rəsulullah (s.ə.s) özünə gəlib titrəməsi keçdikdən sonra, anamız bu həyəcan və titrəyişin səbəbini soruşmuş, Peyğəmbərimiz də, başına gələnləri ona danışmış və sonra; "*Həmin an, özümdən qorxdum*"-deyir.

Xədicə anamız, bu son cümlədən sonra belə dedi: "Xeyr, müjdələr olsun! Allaha and olsun ki, O səni əsla peşman etməyəcəkdir. Çünki sən, qohumluq münasibətlərini saxlayır, zəiflərə kömək edir, yoxsulların əlindən tutur, onlara imkan yaradır, qonaqlarına ikram edir və haqqı qorumağa çalışanlara kömək edirsən."

Bu kamil və ağıllı qadın, tez-tez ziyarət etdiyi əmisi oğlu Vərəqə İbn Nofəldən peyğəmbərlik, peyğəmbərlər və mələklər haqqında məlumatlar əldə etmişdi.

Olduqca yaşlı olan Vərəqə İbn Nofəl, Tövrat və İncil haqqında məlumatı olan, qüreyş müşriklərinin içinə batdığı şirk bataqlığına nifrət edən, İsanın (ə.s) təbliğ etdiyi dinin təhrif edilməmiş formasını yaşayan, tövhid inancına sahib yer üzündə nadir insanlardan biri idi.

Rəsulullahın (s.ə.s) əxlaqını, dostluğunu, dürüstlüyünü, gizli və aşkar hər şeyini bilən Xədicə anamız, belə bir insana şeytan və ya cinin zərər verə bilməyəcəyini bilir; Rəbbinin onu qoruyacağına dərindən inanırdı.

Həzrət Peyğəmbərimizin əlindən tutub Vərəqə İbn Nofəlin yanına apardı. Peyğəmbərimiz başına gələnləri ona da danışdı. Vərəqə həyəcanlanmışdı. "Allaha and olsun ki, sən bu ümmətin nəbisisən. Sənə gələn, Musaya gələn Namusu Əkbərdir. Öz qövmün səni inkar edəcək, bu torpaqdan sürgün edəcək və sənə qarşı savaşacaqdır."-deyir.

Qüreyşlilərin nəzdində öz dəyərini bilən, onlar tərəfindən yaxın münasibət görən, "Sadiq" (Doğru sözlü) və "Əmin" (Etibarlı insan) kimi ləqəblər verilən Peyğəmbərimiz (s.ə.s), onun bu cümlələri qarşısında təəccüblənmiş və qeyri-ixtiyari; "*Öz millətim məni yurdumdan qovacaqmı?*"-deyə soruşur.

Vərəqə bu sula; "Bəli, sənin vəzifəni daşıyan hər Peyğəmbərin başına bu cür sıxıntılar gəlmiş; insanların bir çoxu tərəfindən düşmənlik edilmiş və şəxsinə qarşı savaş aparılmışdır,"-deyə cavab verdi.

Sonra da, "Ömrüm vəfa edər, o günləri görərəmsə, ən böyük köməyi mən edəcəyəm,"-deyərək kömək etməyə söz versə də, qısa bir müddət sonra vəfat etdi.

✺

Vəhy bir müddət kəsilmiş, Rəsulullah (s.ə.s) üçün sıxıntılı günlər başlamışdı.

Nə görmüşdü? Başına nə gəlmişdi? Vərəqənin Xədicənin dediklərinə baxmayaraq o bir xəyal görmüşdümü? Bu qədər dəqiq aşkar bir şey xəyal ola bilərdimi? Xəyal deyilsə, gördüyü bu varlığı bir daha nəyə görə görməmişdi? Bütün bu suallar və bənzərləri onu sıxıntı çəkməyə sövq etmişdi.

Yenə bir gün bu hisslərlə addımlayırdı. Səmadan gələn bir səs eşitdi; gözlərini qaldırdı. Hira dağında gördüyü o varlıq, üfüqü örtmüş bir şəkildə oturacaq üzərində əyləşirdi. Dizləri qatlanıb yerə çökdü. Daha sonra özünü ələ alaraq evinə qayıtdı. Yenə, "Məni örtün, məni örtün!"-deyərək üstünü örtdürdü, üzünə su vurdurdu.

Bu şəkildə bürünüb yatırdı ki, vəhy gəlməyə başladı:

يَا أَيُّهَا الْمُدَّثِّرُ (١) قُمْ فَأَنْذِرْ (٢) وَرَبَّكَ فَكَبِّرْ (٣) وَثِيَابَكَ فَطَهِّرْ (٤)
وَالرُّجْزَ فَاهْجُرْ (٥) وَلَا تَمْنُنْ تَسْتَكْثِرُ (٦) وَلِرَبِّكَ فَاصْبِرْ(٧)

"**Ey** (libasına) **bürünüb sarınan** (Peyğəmbər)**! Qalx** (qövmünü Allahın əzabı ilə) **qorxut! Öz Rəbbini uca tut! Libasını təmizlə!** (Nəfsini günahlardan pak et!) (Əzaba səbəb olacaq) **pis şeylərdən uzaqlaş! (Bütləri tərk et!).(Etdiyin yaxşılığı) çox bilib başa qalxma!** (Heç kəsə minnət qoyma!) **Rəbbinin yolunda** (Rəbbinin rizasını qazanmaq üçün bu yolda sənə üz verəcək bütün çətinliklərə) **səbr et!**" (əl-Müddəsir, 74/1-7)

Bunlar Yaradandan gələn bir əmr idi və təbliğ başlamışdı.

Ona ilk olaraq vəfalı zövcəsi Həzrət Xədicə iman etdi. Ona arxa və ən yaxın sirdaş oldu. Yükünü yüngülləşdirib dərdinə ortaq olurdu.

Sonra yanına alıb tərbiyəsində böyütdüyü Əli (r.a) iman etdi. Həzrət Əlidən sonra Rəsulullahın azad etdiyi Zeyd bin Harisə, daha sonra isə Sadiq dostu Əbu Bəkr Siddiq iman etdi. Onun, yeni könüllərin iman səflərinə qatılması üçün səyləri, təsəvvür edilməyəcək dərəcədə idi. O, çox vəfalı və etibarlı bir dost idi.

❋

Artıq dəvət başlamışdı... Yeni könüllər fəth edilir, islam nuru ilə şərəflənirdi.

Bu nurun ziyasına, şərəfinə, acısına, şirininə, əzabına; konkret olaraq hər şeyinə talib olan ilk igidlər, fədakarlar, cəfakeşlər və səbir ərləri bu səflərdə görünməyə başladı.

Osman İbn Affan, Zübeyr İbn Avvam, Abdurrahman İbn Avf, Sad İbn Əbi Vaqqas, Talha İbn Ubeydullah; Əbu Ubeydə İbn Cərrah, Ərqam Əbi-Ərqam, Osman İbn Mazun, Ubeydə İbn Haris, Səid İbn Zeyd, Həbbab İbn Ərət, Abdullah İbn Məsud, Ammar İbn Yasir, Süheyb... (radiyallahu anhum) bunlardan idi.

❋

Hira dağında başlayan bu nur, əsrlər boyu minlərlə fədakar möminlərin göstərdiyi xidmətlərlə, dalğa-dalğa bütün dünyanı əhatə etdi.[2] Gələrək bizə qədər gəlib çatdı.

Bu əsərdə Hirada başlayan nurun, yer üzündə necə bir nəsil yetişdirdiyini, o nurdan nəsibini alanların necə bir tarix yazdığının misallarını görəcəksiniz.

❋❋❋

2. Vəhyin başlanğıcı ilə əlaqədar daha geniş məlumat üçün bax; Səhih əl-Buxari, Bədu-l-Vəhy (Ümdətü-l-Qari, 1/51-76); Səhih əl-Müslim, İman, 1/139-145; Sirətu İbn Hişam, 1/233-255; əl-Bidayə və-n-Nihayə, İbn Kəsir 3/3-18; əl-Cami Li-Əhkami-l-Quran, İmam Qurtubi, 19/59-61, 20/118-122; Müxtəsəru İbn Kəsir, 3/567-568, 656; əs-Sirətu-n-Nəbəviyyə, ən-Nədəvi, 99-104; Bu mövzu müraciət ediləcək hər siyər və islam tarixi ilə əlaqədar kitablarda rast gəlinəcək bir mövzudur.

İslamın Səsi və Könüllərə Sirayəti

Tüfeyl İbn Amr əd-Dövsi

-radiyallahu anhu-

الطفيل بن عمر الدوسى

Tüfeyl, Dövs qəbiləsinin tanınmışlarından, comərdlik, canıyananlıq və möhtaclara əl tutmaqda nadir şəxslərdən idi.

Eyni zamanda həssas qəlbli, ağıllı və nəzakətli bir şəxs idi. Hiss, düşüncə və fikirlərini olduqca ağıllı bir şəkildə qəlblərə nüfuz edəcək tərzdə dilə gətirməyi bacaran gözəl bir ədib idi.

İslam ilə şərəflənməsini özü belə dilə gətirir:

Məkkəyə gələrkən Qüreyşin tanınmışları məni görən kimi qarşılamağa gəldilər. Son dərəcə yaxınlıq gördüm, etibar və izzətlə qarşılanaraq qonaq edildim.

Adətim olduğuna görə, əvvəllər də gəlib Kəbənin ətrafındakı bütlərə hədiyyələr təqdim edər, təvaf edərdim. Hər gəlişimdə gözəl şəkildə qarşılanır, qonaqpərvərlik və iltifat görərdim. Lakin bu dəfəki səfərim başqa bir şeyə bənzəyirdi.

Gəlişimi xəbər alan digər Qüreyş böyükləri də gəlmişdi. Qonaqlıqdan sonra söz açıldı. Mənə:

"Tüfeyl, artıq gəlmisən və bizim diyarımızdasan..."-dedilər və davam etdilər: "Aramızda elə bir insan ortaya çıxdı ki, özünü Peyğəmbər zənn edir. Hər şey alt-üst oldu. Nə edəcəyimizi bilmirik. Gücümüzü parçaladı, cəmiyyətimizi dağıtdı. Ona tabe olan gəncləri bir daha geri qaytarmaq mümkün olmur..."

Bizim başımıza gələnlərin sizin də başınıza gəlməsindən, başçısı olduğun qəbilənizin bir-birinə düşmən olmasından, dağılıb pərişan olmasından qorxuruq.

Bu adamla ünsiyyət qurma; danışma, dediklərinə qulaq asma!.. Elə sözləri var ki, inan sehr kimi insanı sehrləyir. Neçə-neçə ata ilə oğulun, qardaşla qardaşın, ərlə arvadın arasını dağıtdı!..

Bununla da kifayətlənmədilər; mənə elə şeylər danışdılar, elə əcaib xəbərlər verdilər ki, bu adamın etdiyi əcaibliklərdən özüm üçün də, qəbiləm üçün də qorxmağa başladım. Belə ki, yaxınına belə getməməyə qərar verdim. Hələm hələm heç danışmayacaq, bir şey soruşarsa belə cavab verməyəcəkdim.

Səhərin erkən saatlarında Kəbəyə üz tutdum, təvaf edəcək, həcc etdiyimiz, ziyarət etdiyimiz bütlərə lazımi təzimi, ehtiramı yerinə yetirəcəkdim. Beləliklə bərəkətlərini umurdum. Həmin anda bəlkə Muhəmmədi görərəm, bəzi sözləri qulağıma gələr deyə hər iki qulağıma da pambıq tıxamışdım.

Məscidi-Hərama girən kimi onu gördüm. Kəbənin yanında namaz qılırdı. Bizim ibadətimizdən tam fərqli bir ibadət edirdi. Görünüşü, davranışları, ibadət zamanı xüşu halı sanki məni özünə təslim etmişdi. Gördüyüm bu ibadət məni dərindən sarsıtdı. Ona tərəf yaxınlaşdığımı hiss etdim. Özümdən asılı olmadan yavaş-yavaş onun tam yaxınlığına gəlmişdim.

Allah-Təala elə murad etmişdi ki, bütün tədbirlərimə, qulağıma tıxadığım pambığa baxmayaraq namaz qılarkən oxuduğu bəzi şeyləri yenə də eşidirdim. Bunlar nə qədər gözəl, nə qədər doğru idi. Bir az daha yaxınlaşdım. Təvafa davam edəcəkdim; edə bilmirdim. Daxilimdə bir mübarizə başlamışdı.

Öz-özümə:

"Tüfeyl! Sən ədib, söz xiridarı, şair bir insansan. Gözəllə çirkini, doğru ilə səhvi bir-birindən ayırmayacaq birisi deyilsən! Bu adamın dediklərini eşitməyinə mane olan nədir?! Əgər dedikləri gözəldirsə, doğrudursa, qəbul edər, çirkin və səhvdirsə rədd edərsən. Səhvdirsə qarşılıq verməməkdən, doğrudursa doğru-

nu qəbul etməməkdənmi qorxursan?"-dedim. Daxilimdəki bu mübarizədən sonra pambıqları çıxarıb atdım.

Rəsulullah (s.ə.s), namazı bitirənə qədər gözləyib onu dinlədim. Heyranlıqla onu seyr etdim. Evinə tərəf gedərkən arxasınca getdim. Onu izləyirdim. Evinə daxil olarkən yaxınlaşıb icazə istədim; icazə verincə mən də içəri girdim.

"Ya Muhəmməd! Qövmün, sənin haqqında mənə çox şey danışdılar. Məni elə qorxutdular ki, sənin dediklərini eşitməmək üçün qulaqlarıma pambıq tıxadım. Sonra Allah nəsib etdi, dediklərini eşitdim. Çox gözəl idi. Mənə İslam haqqında danışarsanmı?" -dedim.

Rəsulullah (s.ə.s) mənə haqq dini anlatdı. İxlas, Fələq və Nəs surələrini oxudu. Allah xatirinə ömrümdə bundan daha gözəl sözlər eşitməmişdim. Mənə anlatdıqlarından daha doğru bir şey bilmirdim.

Həmin an əlimi uzatdım və Allahdan başqa heç bir ilah olmadığına, Muhəmmədin onun Rəsulu olduğuna şəhadət gətirdim.

Müsəlman olmuşdum. İslamı qəbul etmişdim.

❋

Bundan sonra Məkkədə bir müddət qalan və Rəsulullahdan islamın əmr və qadağalarını öyrənən, o günə qədər nazil olan ayeyi-kərimələri əzbərləyən Tüfeylin hekayəsi şübhəsiz burada bitmir. Bəlkə də bu şəkildə yeni başlayır. Dəvət və cihad səflərində durmadan irəliləyir. Zülqiffeyn (qoşa əlli) adı ilə olduqca məşhur olan bütü yandırmaq ona nəsib olur.

Ağacdan xüsusi işləmələrlə hazırlanan bu bütü yandırarkən dediyi misralar, sonrakı illərdə dildən-dilə gəzirdi:

يا ذِي الْكَفَّيْن لَسْتُ مِنْ عُبَّادِكاَ

مِيلاَدُنا أكْبَر مِنْ مِيلاَدِكا

اِنِّي حَشَوْتُ النَّارَفِى فُوَادِكَاَ

"Ey Zülqiffeyn! Sənə sitayiş edən qullardan deyiləm.
Bizim doğumumuz, öncədir sənin doğumundan.
Mənəm bağrına atəş doldurub, içinə atəş yandıran!"

İslamdan əvvəlki ləqəbi "Zünnur" olan Tüfeyl (r.a) Həzrət Peyğəmbərimizin vəfatından sonra, Yəmamədə şəhid olana qədər Allah yolunda xidmətlərinə və islama yeni könüllər qazanmaq üçün səylərinə davam etdi.[3]

❋❋❋

3. Tüfeyl İbn Amr (r.a) haqqında məlumat üçün bax: əs-Siratu-n-Nəbəviyyə, İbn Hişam, 1/382-385, Dəlailu-n-Nübüvvə, Beyhəqi, 5/360-364, əl-İstiab, İbn Abdilbər, 2/230-235; Usdu-l-Ğabə, İbn əl-Əsir, 3/78/81, Siyəru Əlami-n-Nübəla, 1/344-347, əl-İsabə, İbn Həcər, 2/225-226, əl-Bidayə və-n-Nihayə, İbn Kəsir, 6/342, Əlam, Zikirli, 3/227, əs-Sirətu-n-Nəbəviyyə, səh. 121, Suvarun min Həyati-s-Səhabə, Abdurrahman Rafət, 1/23-29.

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Batil düşüncənin öz varlığını, düşüncə və inanclarını, mənfəətlərini qorumaq üçün necə əmək sərf etdiyi, nə kimi səylər göstərdiyi.
- Bütün səylərə baxmayaraq ayeyi-kərimələrin yenə də könülləri fəth etdiyini qəbul etmələri.
- İslam nuru ilə nurlanan ilk islam fərdlərinin, bütün işgəncə və təzyiqlərə sinə gərdikləri, əsla geri addım atmadıqları, mübarizələrinə davam etmələri.
- Sağlam fitrətli, şəxsiyyətli insanların islamı qəbul etməyə daha münasib olduqları.
- Süni tədbirlərin Haqqın səsini boğmağa kifayət etməyəcəyi.

❋

Bir Neçə Söz

İlahi Vəhyin Könüllərə Təsirini Etiraf

Ədəbi incəlikləri başa düşən, bəlağət və ahəng qanunu yaxşı bilən, ifadə gücünü hiss edən hər kəsin başa düşdüyü bir həqiqət, Qurani-Kərimin bütün ədəbi təsəvvürlərin üzərində olduğu və bunu islama gedən kin və nifrətlə dolu bütün yollara səd çəkməyə çalışan məkkəli müşriklər tərəfindən belə qəbul edilmək məcburiyyətində qalınmasıdır. Onun könüllərə sirayət edən təsirini qıra bilmək üçün dinlənilməsinin qarşısını almağa, "sehrli", "keşmiş ümmətlərin dastanları"... olduğunu deyərək diqqətləri başqa istiqamətə yönəltməyə və ya oxuyanı susdurmağa çalışmışdırlar.

Onun ifadə gücü qarşısında susub ədəbi üslubun tələbi olaraq bir daha şeir söyləməyən şairlər, onun dərin dənizlərdəki fırtınalı havasını hiss edərək heyran qalıb islama yönələn dənizçilər, elmi möcüzələrini izləyən və hər qarşılaşdığından heyrətə düşən elm xadimləri.... vardır.

Şirkin həmin tarixdəki iki başlıca dirəyi olan Əbu Cəhl və Vəlid İbn Muğirə arasında baş verən bu söhbətin çox şey ifadə etdiyinə inanıram.

Əbu Cəhl, Vəlid İbn Muğirənin Həzrət Peyğəmbərimizin yanına getdiyini və onunla söhbət etdiyini eşitmiş və digər dostları kimi onu da itirməyin təlaşına düşmüşdü. Vəlidi itirmək, çox insanı itirmək demək idi. Çünki Vəlid siyasi ağırlığı ilə yanaşı, böyük var-dövlətə, iti bir zəkaya sahib olan ədib və şair bir insan idi. Ədəbi mövzularda olduqca məlumatlı bir adam idi. Şeir dünyasında çox zəngin cahiliyə xəzinələrinə sahib idi. Bəlağətli qafiyələri yerində söyləyər, hansı misranı harada və necə istifadə edəcəyini yaxşı bilirdi. Sözü mötəbər sayılır və fikirləri həmişə qəbul edilirdi.

Yanına gələrək qövmünün Muhəmmədin yanına getməməsi, dediklərinə qarşılıq verməməsi üçün ona pul və sərvət topladıqlarını dedi.

Vəlid əsəbləşmişdi; "Qüreyş mənim hamıdan daha çox vardövlət sahibi olduğumu bilmirmi?"-dedi. Söhbət davam etdi:

"O zaman qövmünə Muhəmmədin dediklərini xoş qarşılamadığını göstərən bəlağətli sözlər söylə."

"Nə deyə bilərəm?! Vallah aranızda məndən daha yaxşı şeir bilən, qafiyə yazmağı bacaran, qəsidələri yaxından tanıyan birisi yoxdur. Vallah onun dedikləri bunlardan heç birinə bənzəmir. Dediklərində tərifedilməz bir şirinlik, xəyalagəlməz bir gözəllik vardır. Üstü, dadından doyulmaz meyvələr, altı isə meyvələri qidalandıran rəhmət suları ilə doludur. O, üstünə çıxılmayacaq qədər üstün, daha üstünü olmayacaq qədər yüksəkdə. O, altındakını əzib yerlə yeksan edər."

Bunları eşidən Əbu Cəhl nə deyəcəyini bilmədi. Çarəni, "Əgər belə desən qövmün səndən xoşlanmaz"-deməkdə tapdı.

Vəlid; "Qoy bir az düşünüm,"-dedikdən sonra bir müddət fikirə getdi; sonra bunları dedi: "Bunlar sehrli kəlmələrdir. Əvvəlki sehrbazlardan ona keçmişdir, deyilə bilər."[4]

Bax bu doğrudur, məhz bunu demək lazımdır!

Hər nə qədər insanlar oxumaq alışqanlığını itirdilər, hətta oxuya bilməz hala gəldilər, ədəbi üslubu başa düşən insanların sayı xeyli dərəcədə azalsa da, Quran bu özəlliklərini əlbəttə ki, qorumağa davam edir və gün gələcək yenidən qəlblərə sirayət edəcəkdir.

❋❋❋

Haqq Yola Çəkilən Sədd

İslam haqqında səhv məlumat vermək, onu yanlış şəkildə tanıtmaq, zehnlərdə çəkindirici izlər buraxmaq, qorxunc bir inanc kimi göstərmək, islama gedən yollara sədd çəkmək üçün planlar hazırlayıb tətbiq etmək, əldəki imkanları səfərbər etmək... yalnız o dövrə məxsus deyildir. İblisə kölə olmağı Allaha qul olmaqdan üstün tutanlar, əsrlər boyunca buna səy göstərmişlər. Bəlkə forması, bəlkə üslubu, bəlkə surəti və təsiri dəyişmişdir, ancaq həmişə mövcud olmuşdur.

Belə ki, bir ayeyi-kərimədə:

إِنَّ الَّذِينَ كَفَرُوا يُنْفِقُونَ أَمْوَالَهُمْ لِيَصُدُّوا عَنْ سَبِيلِ اللَّهِ فَسَيُنْفِقُونَهَا ثُمَّ تَكُونُ عَلَيْهِمْ حَسْرَةً ثُمَّ يُغْلَبُونَ وَالَّذِينَ كَفَرُوا إِلَى جَهَنَّمَ يُحْشَرُونَ (٣٦) لِيَمِيزَ اللَّهُ الْخَبِيثَ مِنَ الطَّيِّبِ وَيَجْعَلَ الْخَبِيثَ بَعْضَهُ عَلَى بَعْضٍ فَيَرْكُمَهُ جَمِيعًا فَيَجْعَلَهُ فِي جَهَنَّمَ أُولَئِكَ هُمُ الْخَاسِرُونَ (٣٧)

"**Küfr edənlər öz mallarını** (insanları) **Allah yolundan döndərmək** (islamı qəbul etməyə mane olmaq) **üçün sərf edərlər. Onlar mallarını sərf edəcək, lakin sonra** (məqsədlərinə çata bilmədiklərinə görə) **peşman olacaq, axırda da məğlub ediləcəklər. Kafirlər Cəhənnəm tərəfə sürüklənəcəklər ki, Al-**

4. əl-İtqan, Suyuti, 2/149-150; Müxtəsər İbn Kəsir, 3/570

lah (orada) **murdarı** (kafiri) **pakdan** (mömindən) **ayırd etsin, sonra murdarları bir-birinin üstünə yığıb hamısını bir yerə toplasın və Cəhənnəmə atsın. Bunlar özlərinə zərər eləyənlərdir!**" (əl-Ənfal 8/36-37) buyurulur.

Ayeyi-kərimənin xəbər verdiyinə görə, zəlalət əhli haqq yola sədd çəkmək, bu uğurda var-dövlətlərini, güclərini səfərbər etmək səylərinə davam edəcəklər. Lakin sonunda itirən, ürək ağrısı keçirən, əbədi dünyada dəhşətli əzab və iztirabı sonsuza qədər dadan onlar olacaqdır.

Günümüzdə də bunun yüzlərlə misalını görür, yaşayır və iblis uğrunda çəkilən bu zəhmətlərə təəccüb edirik.

Bu gün bəlkə qulaqlara pambıq tıxamırlar, ancaq islamın səsinin çatmaması üçün daha çox müasir, daha çox bayağı və iblisin xoşlanacağı tədbirlər alınmağa çalışılır.

Radiolar, televiziyalar, qəzetlər, jurnallar... durmadan insanların beynini qarışdırır. İslamı təbliğ etməyin qaşısını almaq üçün bütün səylərini səfərbər edirlər.

Gənc nəslin məruz qaldığı mənəvi zərbələr, onları nə edəcəyini bilməz hala gətirmişdir. Özünə gəlib həyatın qayəsini düşünən, ətrafında cərəyan edən bu qədər gözəlliklərin və nemətlərin hər hansı bir təsadüfün əsəri olmayacağını, açan gülün, oxuyan bülbülün, nəhəng okeanların, axıb gedən bulaqların, su vadiləri, ovaları, yaylaqları yaşıllığa bürüyən çəmənliklərin, ağacların, rəngarəng güllərin, uçan quşların, kəpənəklərin, süfrəmizi bəzəyən meyvələrin... yaradıcısını düşünmək qorxusu ilə təfəkkür edəcək fürsətlər verilməməyə çalışılır. Gənc nəsil heyvani hisslərin arxasınca qaçmağa, bu hissləri qayə edib özünü bu hisslərin əsarətinə tərk etməyə təşviq edilir.

Elm, irfan, hikmət və nur... çeşmələri olması zəruri olan məktəblər, yaradana düşmən yetişdirmək üçün hardasa səfərbər edilməyə məcbur edilir; hər cür ehtirama layiq olması, irşad məqamını təmsil etməsi zəruri olan müəllimlərin dilindən çox hallarda mənfi sözlər çıxır.

İnsanın müəyyən xəstəliklərə qarşı müqavimətini artırmaq üçün peyvənd vurulduğu kimi, islama qarşı beyinlərə

peyvənd olunmağa, onu dərk etməyəcək, eşitməyəcək, səhv dəyərləndirəcək, maraq göstərməyəcək, dönüb arxasına baxmayacaq... hala gətirmək üçün hər cür səy göstərilir.

İslamın əmr etdiklərini mənfi göstərmək, həqiqətləri gizlətmək səyləri gözlərimizin önündə cərəyan edir.

Səviyyəsiz, bayağı, Allahın qəzəbini üzərinə çəkərək bəndələri və müəyyən qrupları razı salmaq səyləri göstərən insanlar taparaq islam adından onlar danışdırılır, insanların beyni səhv məlumat və fikirlərlə doldurulmağa çalışılır.

Allah Rəsulu (s.ə.s):

مَنِ الْتَمَسَ رِ ظَاءَ النَّاسِ بِسَخَطِ اللَّهِ وَ كَلَّهُ اللهُ اِلَىَ النَّاسِ.

"Kim Allahın qəzəbini üzərinə çəkərək insanları məmnun etməyə çalışarsa, Allah onun aqibətini, məmnun etməyə çalışdığı insanların əlinə buraxar."[5]-buyurur.

Bu, o deməkdir: Kim dünya həyatında Allahın rizasını tərk edərək, hətta qəzəbini çəkəcəyini bilə-bilə, müvəqqəti dünya mənfəətləri və məqamları üçün etdiyi davranışlarda kiminsə rizasının arxasında isə, onları razı salmaq istəyirsə, hesab günündə həmin insanlara həvalə ediləcək; "Sən dünyada bunları məmnun etməyə çalışdın. İndi onların səni mükafatlandırmağa gücləri çatırsa, mükafatını da onlardan al. Əgər səni əzabdan qurtarmağa gücləri çatırsa, heç dayanmasın qurtarsınlar."-deyiləcəkdir.

Nə yazıq ki, bu çılğınlığın, düşüncəsizliyin misallarını bu günlərdə çox görməyə başladıq.

Bu prinsipə tabe olduğunu gördüyümüz insanlar da islamın səsini bütün vasitələrlə boğmağa çalışırlar. Allahın rizasını hər şeydən üstün tutan insanlar da susdurulmağa, səsləri gurultular arasında boğulmağa çalışılır...

Lakin qarşısıalınmaz bir həqiqət vardır: Bu mübarizə, köhnəlməz və bezdirilməz bir mübarizədir. Son Şeyxülislam Mustafa Səbri Əfəndinin ifadəsi ilə: الحق يمرضولا يموت *"Haqq xəstələnə bilər, lakin əsla ölməz, öldürülə bilməz."*

5. Sünəni Tirmizi, Zöhd, 4/610, Camiu-l-Üsul, İbn əl-Əsir, 11/700-701.

Dəyişməz və ölməz doğrular, əsrlər boyu doğrudur və hər zamanda, məkanda doğrudur. Ona tərs baxan və baxtırılan gözlər düzgün baxdığı və ya əyri görülməsi üçün gözlərə qoyulan gözlüklər çıxarıldığı və ya üzəri tutulan aynalar fərq edilərək kənara qoyulduğu an həqiqətlər özünü yenidən büruzə verəcəkdir.

Konkret olaraq; dünən necə qüreyş müşriklərinin səyləri fayda vermədisə, bu günkülərin də səyləri fayda verməyəcəkdir. İslamın hikmət dolu, şəfqət və rəhmət, hər iki dünya üçün də səadət dolu səsi o gün pambıq tıxanmış qulaqlara çatdı, pambıqları dəlib keçdi, qəlbə sirayət etdisə, bu gün də çatacaqdır. Bütün səylərə, çırpınışlara, hədələrə baxmayaraq, -istəsələr də, istəməsələr də-Allah nurunu tamamlayacaqdır. İslamın nuru söndürülə bilməyəcək; onsuz da söndüyü zaman dünyanın ömrü də sona çatacaq və əbədi həyat başlayacaqdır.

Salam olsun, özünü həmin həyata hazırlayanlara, Allaha qul, Rəsuluna ümmət, möminə qardaş olanlara! İslamın şəfqət və rəhmət dolu səsini çatdırmaq, qəlblərə yaymaq üçün səy göstərənlərə! Əl-ələ verib Haqqa tərəf yürüyənlərə...

❋❋❋

Bilmək-Yaşamaq və Gözəl Üslubla Çatdırmaq

Həbəşistan Diyarında

Yayılmağa başlayan iman nuru ilə şərəflənən könüllər, imanlarında səbat etdikcə, hər keçən gün yeni vəfakarlıq, fədakarlıq, xəyallara durğunluq gətirən səbir və dözüm... nümunələri ilə tarixi bəzədikcə, müşriklər narahat olur; kin və çılğınlıqlarını yeni işgəncə üslubları ilə artıraraq, əzab və əziyyət verməkdən həzz alırdılar.

Arxasında qəbiləsi, tayfası olmayan və maddi dəstəkdən məhrum olanların uğradığı müsibətlər isə həqiqətə ürəkağrıdıcı hadisələr idi.

Mömin qardaşı əziyyət çəkərkən ona kömək əli uzatmamağın verdiyi əzab isə digərləri ilə müqayisə edilməyəcək qədər qəlblərə ağır gəlir və dözülməz hal alırdı.

Həzrət Peyğəmbərimizdən (s.ə.s) "Kaş Həbəşistan diyarına hicrət edəydiniz. İdarəsi altında heç kimsənin zülmə uğramadığı bir məliki var. Etibarlı bir diyardır. Beləliklə Allah, bu əziyyətlərdən qurtulmağınız üçün xeyirli bir yer nəsib etmiş olar"-sözləri eşidildikdə Həbəşistana hicrət üçün kiçik bir qrup hazırlanmağa başladı. Başlarında Osman İbn Məzunun olduğu 14 nəfərlik bir dəstə Həbəşistana tərəf səfərə çıxdı.

❋

Bu, islamda ilk hicrət, haqq din uğrunda ilk qürbət yolçuluğu idi.

Daha sonra Cəfər İbn Əbi Talibin tabeliyində başqa bir mömin camaat Həbəşistana hərəkət edir. Bundan sonra bir-birinin ardınca kiçik dəstələrlə bu diyara gedənlərin sayı 83 nəfərə çatdı.

Aralarında xanımlarını, kiçik uşaqlarını gətirənlər olduğu kimi, yalnız halda yola çıxıb gələnlər də var idi. Bu zikr etdiyimiz saya xanımlar, balaca uşaqlar və Həbəşistanda doğulanların sayı dəqiq bilinmədiyinə görə daxil deyildi.

✵

Hicrət edən möminlərin əzablı, işgəncə dolu kabuslu günləri geridə qoyaraq Həbəşistanda müqəddəs diyardan həsrətlə xeyirli xəbərlər gözləyərək, təhlükəsiz və xoşbəxt bir həyat sürməyə başlamaları, Qüreyşi son dərəcə narahat etmişdi.

Bu, iman nurunun sönməyəcəyini xəbər verən işarələrdən biri idi. Hicrət edənlər özlərindən uzaq, əllərinin çatmayacağı başqa bir ölkədə hər an, içinə düşdükləri inadı, küfr və zəlalətləri hədələyərək yaşayacaqdılar. Zülmlərindən qurtulan hər möminin gedərək yerləşəcəyi bir qərargah meydana gəlirdi.

Buna səssiz qala bilməzdilər. Yığışıb uzun-uzadı müzakirə apardılar, aralarından müsəlmanları Nəcaşidən geri ala biləcək, etibar qazandıqları ölkədən onları qovduracaq, zülm və işgəncə çüxuruna yenidən qaytaracaq... qabiliyyətlərini yaxından tanıdıqları iki adam seçirdilər:

Abdullah İbn Əbi Rəbiə və **Amr İbn As İbn Vail**

Qüreyşlilər nəyin bahasına olursa-olsun qayələrinə çatmaq istəyirdilər. Ona görə Nəcaşi[6] və tanınmış başçılara təqdim edilmək üçün aralarında topladıqları olduqca bahalı hədiyyələrlə elçilərini yola saldılar.

✵

Elçilər Həbəşistana çatdıqda, qüreyşin tövsiyəsi ilə hələ Nəcaşi ilə söhbət etmədən öncə bütün saray məmurlarına hədiyyələri paylayaraq könüllərini alırlar. Nəcaşinin hüzurunda məsələni açıb, müsəlmanların geri qaytarılmasını tələb etdikdə onları dəstəkləyəcəklərinə və geri qaytarılacaqlarını

6. Nəcaşi-Qeysər, Kisra və ya Padşah kimi bir vəzifədir; ad deyildir. Həmin vaxt Həbəşistanda kral olan adamın əsl adı "Ashama"dır. Başqa bir rəvayətdə də adının "Masmaha" olduğu deyilmişdir. Ashama, "Atiyyə (Allah vergisi) mənasındadır. (Dəlailu-n-Nübüvvə, Beyhəqi 2/310)"

müdafiə edəcəklərinə dair söz almışdılar. Müsəlmanlara söz haqqı verilməməsi üçün də zəruri tədbirləri görməyə diqqət yetirmişdilər.

Sonra Nəcaşinin hədiyyələrini təqdim etmişlər, qəbul etdiyini və razılığını görüncə də məramlarını bəlağətli bir üslub ilə aşkar və konkret şəkildə bu cümlələrlə dilə gətirmişdilər:

"Ey Məlik! Ölkənizə, bizlərdən əqli cəhətdən zəif bir dəstə gənc sığındı. Bunlar öz əcdadının dinini tərk etmiş insanlardır. Sizin dininizi də qəbul etmədilər. Ortaya yeni icad etdikləri bir din çıxardılar ki; nə biz belə bir din tanıyırıq, nə də siz belə bir din bilirsiniz.

Bu təcrübəsiz və düşüncəsiz gənclərin məsləhətlərini və istiqballarını, şübhəsiz öz ataları, babaları, əmiləri, qəbiləsinin tanınmışları onlardan daha yaxşı bilirlər. Onları ən azı onlar qədər düşünür, daha sağlam düşüncə ilə hərəkət edirlər. Bizi sizin yanınıza bu səbəbdən göndərdilər. Sizdən bu insanların geri qaytarılmasını xahiş edirlər."

Bu cümlələrin ardınca komandirlərdən dərhal təsdiq sözləri gəlməyə başladı:

"Doğrudur ey Məlik! Öz qövmləri bu insanların istiqbalını, məsləhətini daha yaxşı bilirlər. Onları daha yaxşı qoruyarlar. Təslim etməkdə və öz ölkələrinə geri qaytarmaqda fayda vardır. "

Komandirlərindən bu sözləri eşidən Nəcaşi, eşitdiyi sözlərdən xoşlanmamış, hətta qəzəblənmişdi.

"Xeyr! Allaha and olsun ki, mənim dostluğumu başqalarından üstün tutmuş, mənim qonşuluğumu seçmiş və ölkəmə qonaq gələn insanları eşitmədən, bu iki şəxsin özləri haqqında dedikləri sözlərə onlardan cavab almadan təslim edə bilmərəm.

Həqiqətən dedikləri kimidirsə, öz vətənlərinə geri qaytararam, yox əgər elə deyilsə geri verməyəcəm. Mənim himayəmə sığındıqları müddət ərzində onları himayə etməyə çalışacam"- deyir və örnək bir iradə nümayiş etdirdi.

Abdullah ilə Amrın qorxduqları başlarına gəlmişdi.

Müsəlmanlara xəbər göndərilərək kralın hüzuruna çağırıldılar. Nəcaşi tanınmış din xadimlərini də çağırmış, onlar da kralın hüzurunda əyləşmiş və kitablarını da özləri ilə gətirmişdilər.

Beləliklə müsəlmanlar xristian bir ölkədə alimlərin və kralın qarşısında yeni bir imtahan verirdilər.

Nəcaşi "Bir din uğrunda öz vətənimizi, millətinizi, millətinizin dinini tərk etdiniz. Bizim dinimizə , başqa bir millətin dinini də qəbul etmədiniz. Uğrunda bu qədər sıxıntıya qatlandığınız bu din necə bir dindir?"-deyə soruşdu.

Müsəlmanları təmsil edən Cəfər İbn Əbi Talib (r.a) ayağa qalxıb söz aldı. Hamının nəzəri ona yönləmişdi. Söylənəcək hər bir cümlə, yad ölkədəki bu bir ovuc mömin camaatı üçün çox böyük bir əhəmiyyət kəsb edirdi... Beləliklə sözə başladı.

"Ey Məlik! Biz cəhalət və zəlalət üzrə yaşayan, bütlərə sitayiş edən, murdar ət yeyən, günah işlər görən, qohumluq əlaqələrini kəsən, qonşuluq haqlarına riayət etməyən, imkanlarını mənfi işlərə sərf edən bir qövm idik. Aramızdan güc-qüvvət sahibi insanlar, zəif və gücsüzləri əzib məhv edirdilər. Belə bir həyat yaşayırdıq. Allah-Təala aramızdan dürüstlüyünü, iffətini, əmanətini, doğru sözlülüyünü, soyunu yaxından tanıdığımız bir Rəsul göndərdi. O, bizi Allahın dininə dəvət etdi. Yalnız Allaha qulluq etməyə, Ona ibadət etməyə, daşlardan düzəldilərək bütləşdirilmiş, ulularımızın sitayiş etdiyi və keçmişdə bizim də sitayiş etdiyimiz şeyləri tərk etməyə çağırdı..

Bizə doğru sözlülüyü, əmanətlərə riayət etməyimizi, valideynlərə, qohum və yaxınlarımızla xeyirxah əlaqələr qurmağımızı, gözəl davranışda olmağımızı və qonşu hüququna riayət etməyi öyrətdi. Haramdan əl çəkməyimizi, qan tökməməyimizi əmr etdi. Günah işlərdən, yalandan, yetim malı yeməkdən, iffətli insanlara iftira atmaqdan çəkindirdi.

Vəhdəniyyətinə inanaraq yalnız və yalnız Allaha ibadət etməyimizi, şirk qoşmamağımızı, haram buyurduqlarını haram, halal buyurduqlarını halal bilməyimizi buyurdu.

Qövmümüz bizə düşmən kəsilmişdi. Əzab-əziyyətə və işgəncəyə məruz qalırdıq. Dinimizdən dönməyə, Allaha ibadəti

tərk etməyə və yenidən bütlərə, əlimizlə düzəltdiyimiz heykəllərə sitayiş etməyə məcbur edilirdik. Bizdən rəzil, çirkab və xəbis əməlləri yenidən halal qəbul etməyimiz, xoş görməyimiz və etməyimiz tələb edilirdi.

Xor görüləncə, zülm və işgəncələrə məruz qalınca, yaşamağımız dözülməz hala gəlincə, dinimizdən və inancımızdan qoparılmağa çalışıldıqda ölkənizə köç etdik. Himayənizdə zülmə uğramayacağımızı umaraq qonşuluğunuzu və dostluğunuzu seçdik, sizi başqalarından üstün tutduq.

❋

Sakit və diqqətlə bu sözləri eşidən Nəcaşi soruşdu:

"Bu şəxsin Allahdan ona vəhy edildiyini dediyi, sizə təbliğ etdiyi şeylərdən bildiyiniz və ya əzbər bildiyiniz yerlər varmı?"

"Bəli"

"Oxuyarsanmı?"

Cəfər (r.a) xüşu içində oxumağa başladı:

كهيعص (١) ذِكْرُ رَحْمَتِ رَبِّكَ عَبْدَهُ زَكَرِيَّا (٢) إِذْ نَادَىٰ رَبَّهُ نِدَاءً خَفِيًّا (٣) قَالَ رَبِّ إِنِّي وَهَنَ الْعَظْمُ مِنِّي وَاشْتَعَلَ الرَّأْسُ شَيْبًا وَلَمْ أَكُنْ بِدُعَائِكَ رَبِّ شَقِيًّا (٤)

"**Kaf, Ha, Ya, Ayn, Sad!** (Ya Rəsulum!) **Bu sənin Rəbbinin öz qulu Zəkəriyyaya olan mərhəmətinin xatırlanmasıdır!** (Zəkəriyyaya) **Rəbbinə gizlicə dua edib yalvardığı zaman Belə demişdi: "Ey Rəbbim! Artıq sümüyüm sustalmış, başım ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə dua etməklə heç vaxt naümid olmamışam.** (Nə dua etmişəmsə, qəbul olunmuşdur)." (Məryəm surəsi, 1-4)

Oxumağa davam etdi.

Zəkəriyyədən (ə.s) sonra Yəhya (ə.s), onun arxasınca Məryəm anamızla əlaqədar ayələr bir-birinin ardınca gəlməyə başladı.

Məryəm anamızın mələklə qarşılaşması, uşağı olacağını müjdə verməsi, təəccüblənməsi, İsaya (ə.s) hamilə qalması, utanması, insanlardan uzaqlaşması, çarəsizliyi, nə edəcəyini

bilməməsi, əzabları, doğum sancısı ilə bir xurma ağacına söykənməsi, silkələyərək yerə saldığı xurmalarla qidalanması, uşağı dünyaya gətirərkən keçirdiyi hallar, onu qucağına alaraq qövmünün yanına gətirdiyində eşitdiyi sözlər...

Bütün bunlar, Quran dili ilə eşidildikdə qəlblər yumşalmış, gözlərdən yaşlar axmağa başlamışdı.

Cəfərin (r.a) bilərək seçdiyi bu ayeyi-kərimələr, xristian bir toplumun ən incə və həssas könül tellərinə toxunmuşdu. Dolmuş gözlərdən yaşlar axır, Nəcaşi və komandirlər ağlayır, xristian ölkənin alimləri və keşişləri ağlayır... göz yaşları yanaqlarından süzülür, saqqallar islanır, müqayisə üçün açılan müqəddəs kitabları damlalar dalğalandırırdı.

Cəfər (r.a) xüşu içində eşidilən bu ayeyi-kərimələrin tilavətini bitirdikdən sonra könlü dolu olan Nəcaşi başını qaldırır:

"Şübhəsiz bu eşitdiklərimlə İsanın gətirdiyi, eyni nur qaynağından gəlir!"-deyir, sonra da Qüreyşin elçilərinə üzünü tutaraq belə buyurur: "Gəldiyiniz yerə qayıdın! Allaha and olsun ki, onları sizə verə bilmərəm!"

✺

Məğlubiyyətin bellərini bükdüyü iki Qüreyş elçisi kralın hüzurundan ayrıldı.

Ayrılmışdılar, ancaq Amr İbn As, belə acı bir məğlubiyyətlə Məkkəyə geri qayıtmaq istəmir, iti zəkası ilə bütün imkanlarını səfərbər edib bu məsələni öz lehlərinə çevirəcək bir çıxış yolu axtarırdı.

Nəticədə bir çıxış yolu tapdı. Bu onların son cəhdi idi, belə ki, müsəlmanların bu hiylədən qurtulma ehtimalı yox idi. Qələbə çalacağına tam əmin idi. Fikrini yoldaşına danışdı:

Müsəlmanlar, Həzrət İsanın bəşər olduğuna inanırdılar. O, Allahın qulu və Rəsulu idi. Atasız olaraq iffətli Məryəmdən dünyaya gəlmişdi. Hər şeyə gücü çatan Allah, belə təqdir etmişdi. Lakin qulluğun və peyğəmbərliyin üzərində başqa bir sifətə sahib deyildi.

Halbuki xristianlar onun ilah (tanrı) olduğuna inanırdılar. Haşa O, Allahın oğlu idi, bəşər deyildi.

Amr İbn As, müsəlmanlarla xristianlar arasındakı bu məsələnin fərqinə varmışdı. Bu fərq adi bir məsələ deyildi. Bu bir dinin əsasını təşkil edən fərq idi. Arada keçilməsi mümkün olmayan bir uçurum var idi.

O, müsəlmanların bu zidd düşüncəsini Nəcaşinin qarşısında aşkara çıxaracaq və bu xristian camaatın nifrətini müsəlmanların üzərinə yönləndirəcək və beləliklə onları qovduracaqdı. Bəlkə də daha acı nəticələr əldə edilə bilərdi...

Amr İbn Asa görə daha mülayim və mərhəmətli olan Abdullah İbn Əbi Rəbiə: "Hər nə qədər bizə etiraz etsələr, başqa yol tutsalar da, bunlar bizim soyumuzdandır və qohumlarımızdır..."-deyərək Amrdan bu zəhərli silahı istifadə etməməsini istəyirdi.

❋

Lakin Amr İbn As[7] qərarlı idi; ertəsi günü kralın hüzuruna çıxmış və deyəcəyini demişdi:

"Himayə etdiyiniz bu müsəlmanlar, İsa haqqında nə böyük sözlər (kinayəli) deyirlər bilirsinizmi?"-deyir.

Həbəşistana hicrət edənlər arasındakı Ümmü Sələmə anamız rəvayət edir və deyir ki:

" O günə qədər belə bir kabus üzərimizə çökməmiş, bu qədər ağır müsibətlə qarşılaşmamışdıq."

---

7. Amr İbn As, ərəblərin ən məhşur dahilərindən idi. Xalid İbn Vəlid ilə birlikdə Hüdeybiyə sazişindən bir müddət sonra müsəlman olmuşdur. İslamiyyəti qəbul etməsində hicri 8-ci ildə yanına gəldiyi Nəcaşinin payı böyükdür. Nəcaşi ona; "Ey Amr! Necə olur ki, əmioğlunun vəziyyəti sənin gözündən yayınır. Allaha and olsun ki, O, həqiqətən Allahın Rəsuludur."-demiş, onun bu sözündən sonra Həbəşistandan ayrılaraq Mədinəyə üz tutmuşdur.

Amrın (r.a) davranışlarını dəyərləndirdiyimizdə, xarakterində tutduğu tərəfin qalib gəlib gəlməsi üçün əlindəki bütün imkanları səfərbər etmək hərisliyinin olduğunu görürük. Misiri fəth edən müsəlmanlara Şimali Afrika qapılarını açan odur. Şam istiqamətindəki fəthlərdə də iştirak etmiş, Hələb və Antakya xalqı ilə saziş əldə edərək onları da islam ölkəsinin hüdudları içərisinə almışdır. Hicri 43 (Miladi 664)-cü ildə Qahirədə vəfat etmişdir. (əl-İstiab 2/508-515, əl-İsabə 3/2-3, əl-Əlam, 5/79)

Nəcaşi müsəlmanları çağırtdırır və: "Məryəm oğlu İsa haqqında nə deyirsiniz?"-deyə soruşur.

Vahimələndirici və nəfəs kəsici bir sükunət çökür... Müsəlmanlar hələ başlarından aşağı tökülən bu qaynar suyun təsirindən qurtulmamışdı. Bu vahimə içində dost-düşmən hər kəs, Cəfər həzrətlərindən sükunət və vüqarla söylədiyi doğruluq, əzmkarlıq və ixlasın ən gözəl təcəlliləriндən olan bu kəlmələri eşidirdi:

نقول فيه ما جاءبه نبيّنا محمد هو عبد اللّٰه ورسوله وروحه وكلمته ألقاها
إلى مريم العذراء البتول.

"Həzrət Peyğəmbərimiz Muhəmməd (s.ə.s), onun haqqında nə təbliğ etmişsə, onu deyirik: O, Allahın qulu və doğulduğu andan etibarən danışmağı nəsib etdiyi, iffət və şərəfində ən xırda bir ləkə olmayan Məryəmin qarnında ruh verdiyi Rəsuldur."

Qurani-Kərimin İsa (ə.s) haqqında istifadə etdiyi gözəl sifətləri istifadə edən, lakin islam inancında ən kiçik bir güzəştə getməyən Həzrət Cəfərin (r.a) bu səmimi və şəffaf sözləri, Nəcaşidə dərhal təsirini göstərir və yerdən bir çöp götürərək belə dedi:

"Allaha and olsun ki, Məryəm oğlu İsa haqqında dediklərinə bu çöp qədər belə əlavə etməmişdir."

Bu kəlmələri eşidən rahiblər, donquldamağa, inanclarına zidd olduğunu ima etmək öskürərək Nəcaşini xəbərdar etməyə çalışdılar.

Onların tələbini başa düşən Nəcaşi: "Öksürsəniz də, donquldasanız da həqiqət bundan ibarətdir,"-deyərək həqiqəti bir daha təsdiq edirdi.

Daha sonra Qüreyşin göndərdiyi hədiyyələri geri qaytarır və elçilərini hüzurundan qovur.[8]

8. Həbəşistan hicrəti və orada cərəyan edən hadisələr, Nəcaşi və Cəfər (r.a) haqqında məlumat üçün bax:
Səhih əl-Buxari, (Umdətu-l-Qari-292, 293)
Səhih əl-Müslim, (4/210-213)
Sirətu İbn Hişam, (1/323-341)

Artıq müsəlmanlar əmin-amanlıq olan bu ölkədə, xeyir-xah qonşunun himayəsində xoşbəxt yaşamağa başlayırlar və Müqəddəs Diyardan gələcək xəbərləri həsrətlə gözləməyə başlayırlar.

❋❋❋

əl-İstiab, İbn Abdilbərr (1/210-213)
Usdu-l-Ğabə (1/341-344)
Siyəru Əlami-n-Nübəla (1/206-217)
əl-Bidayə və-n-Nihayə, İbn Kəsir (3/64-76)
əl-İsabə, İbn Həcər (1/237)
əs-Sirətu-n-Nəbəviyyə (səh. 99-104)
Suvarun min Həyati-s-Səhabə (4/57-85)

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Yeri gəldiyində inanc uğrunda hicrət etmək.
- Müsəlmana söz haqqının, müdafiə haqqının belə verilmək istənilməməsi və bunun arxasındakı düşüncələr.
- Şəxsiyyət və ədalət.
- İslamda əmirlik (rəhbərlik) müəssisəsi.
- Cəfərin (r.a) düşmənlərinin sözlərini diqqətlə dinləməsi, qavraması, vurğularını izləməsi və cavab üçün özünü ən gözəl şəkildə hazırlaması.
- Düşmənin sözlərini də nəzərə alaraq onların yaşadığı cəhaləti islam nöqteyi-nəzərindən dəyərləndirməsi.
- İslamı tanıtma üslubu.
- Düşməninin düşüncələrini alt-üst edib özünün müdafiə etdiyi inanc və əqidənin zehnlərdə iz buraxmasını təmin etməsi.
- İnancını və düşüncələrini müdafiə edərkən məclisdə iştirak edənlərin islama marağını oyatması, özünü müdafiə edərkən təbliği də düşünməsi.
- Xristian bir camaataa oxumaq üçün Məryəm surəsini seçməsi.
- Batil düşüncəni təmsil edən düşüncə sahiblərinin yeri gəldiyində hər cür silahı və imkanı istifadə edə biləcəyi.
- Bütün çətin şərtlərə baxmayaraq Cəfərin (r.a) islam inancında güzəştə getməməsi, adı çəkilən digər məsələlərdə olduğu kimi İsa (ə.s) haqqında da islam inancı nədirsə,

onu yaxşı seçilmiş və səmimi cümlələrlə ən gözəl şəkildə ifadə etməsi.

Bir Neçə Kəlmə

Hicrət...

İnanc uğrunda xatirələrlə dolu torpaqlardan, qohumlardan, dostlardan, var-dövlətdən, -bir çox möminlər üçün- ailədən, övladdan... ayrılıq! Yaddaşda bir sıra suallar, qəlbdə qeyri-adi boşluqlarla məchula doğru gediş... hicrət.

Adət-ənənəsi, inancı yad bir ölkədə bir dəstə mömin camaat. Vətəni ayıran dəniz və Müqəddəs Məkandan, Allah Rəsulundan, mömin qardaşlardan xəbər-ətər gəlməyən günlər, gözlənilməz hadisələr və yeni imtahanlar...

Bunlar islam bayrağının dalğa-dalğa, əldən-ələ... bizə qədər çatmasına vəsilə olan minlərlə fədakarlıq silsiləsindən biri.

❋

Nə yazıq ki, İslam nurunun çox sayda yeni fədakarlıqlar istədiyi bu günlərdə isə funksiyasını itirmiş damarlar, iradəsiz, şüursuz camaatlar, İblisin çörəyinə yağ sürtən boşluqlar, mənasız savaşlar və bitib tükənməyən inadkarlıqlar...

Haqq yolunda fədakarlığın ləzzətini bilməyən, dadmayan və könül səadəti hiss etməyən, üxrəvi həyata xeyirli azuqə hazırlamaq zövqünü dadmayanlar, hədəfi olmayan, məsuliyyətini dərk etməyən, başıboş ət və sümük yığınları...

Mənəvi boşluğun gəmirib diz çökdürdüyü cəmiyyətlər, hissiyatsız qəlblər, taqətsiz çiyinlər...

❋

Gücsüzlüyümüzün, dözümsüzlüyümüzün, əzmkarlıq və iradəmizin cılızlığına baxmayaraq, unutmamalıyıq ki, bu məsuliyyət bu gün bizim çiyinlərimizdədir. Minlərcə çeşidi ilə maddi imkanların haqq və həqiqətdən uzaq insanların əlində olması və hər vasitə ilə İblisə xidmət etmələri, bizi bu məsuliyyətdən qurtarmayacaqdır. Artıq imtahan sırası bizdədir və sabah Yara-

danın hüzurunda nəticəsi; dəhşətli əzab, ya da əbədi səadət və xoşbəxtlik olan bir hesab vardır!

Minlərlə fədakarlıq, vəfa, səmimiyyət, igidlik... nümunəsini göz önündə canlandırıb özümüzün hansı işlərlə məşğul olduğumuzu, bu yoldakı səmimiyyətimizi, nələrdən əl çəkib, nələrdən əl çəkmədiyimizi, nələri etməyimizin, necə olmağımızın zəruriliyini dərindən düşünmək vardır.

İnsan əzm edincə, dişini dırnağına tutunca, silkələnib ayağa qalxınca, iman atəşi qəlbində yanınca, Allaha təvəkkül edib yola qayıdınca... nələr baş verdiyinə, əməllərə, səylərə necə bərəkət gəldiyinə, tarix şahiddir; dünya şahiddir, biz şahidik.

Yenidən bu ruhun canlanmasına, irfanla yoğrulmuş harada və necə davranacağını bilən fədakar igidlərə ehtiyac vardır.

❋❋❋

Müsəlmana Söz Haqqı Verilməməsi Cəhdləri

Könlümüzü hidayət nuru ilə nurlandıran Rəbbimizə həmd edirik ki; kürəyimizi güvənərək dayadığımız bir inancımız, bizə yol göstərən Kitabımız, onu bizə təbliğ edən, açıqlayan, yaşayan və necə yaşanılacağını göstərən öndərimiz, Peyğəmbərimiz Muhəmməd Mustafa (s.ə.s) vardır. Əsrlər boyunca ifrat və təfritə varmadan ixlas və səmimiyyətlə, göz nuru tökərək incə bir şəkildə işləyərcəsinə Qurani-Kərimi və Sünnəni araşdıran alimlər vardır. Onu dərk etmək və başa salmaq üçün çırpınan, Allahın rizasına ən uyğun olanını tapa bilmək üçün çırpınan, elm məclislərindən ayrılmayan, Allah Rəsulunun mirasçısı olmağa səy göstərən və bu yolda təsəvvür edilməz dərəcədə fədakarlıqlar göstərən elm əhlinin qoyub getdiyi əsərlər vardır.

Yox edilməyə çalışılsa da, əldə edilməsinin qarışını almaq üçün uçurumlar qazılsa da, mürəkkəbini azğın yollarda istifadə edənlər ön plana çıxarılmağa cəhd edilsə də; bitib tükənməyən mədəniyyət xəzinələrimiz vardır.

Hər şeydən üstün, haqqı, doğrunu müdafiə etməyin verdiyi bir etibar vardır. Allah-Təalanın onun yolunu tutana bəxş etdiyi lütflər vardır. Zəhmətinə verdiyi bərəkət vardır.

O, belə buyurmurmu?

أَنِّي لَا أُضِيعُ عَمَلَ عَامِلٍ مِنْكُمْ مِنْ ذَكَرٍ أَوْ أُنْثَى.

"İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram.» (Ali-İmran, 3/195)

Başqa bir ayəyə nəzər yetirək:

وَمَنْ أَحْسَنُ قَوْلاً مِّمَّن دَعَا إِلَى اللَّهِ وَعَمِلَ صَالِحاً وَقَالَ إِنَّنِي مِنَ الْمُسْلِمِينَ

(Xalqı) **Allaha tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl danışan kim ola bilər?!** (Fussilət, 41/33)

Ona görə zəhmətlərə bərəkət verilir, iman könüllərdə yer etməyə davam edir, iman çeşməsi qurudula bilmir... Bu mənada edilən təzyiq və dirənişlər kifayət etmir. Haqq yolun qarşısına nə qədər sədd çəkilməyə çalışılırsa çalışılsın, elm yollarının qarşısı nə qədər alınırsa alınsın, haqq səsi çatdıracaq imkanlar nə qədər məhdudlaşdırılırsa məhdudlaşdırılsın.... kifayət etmir; yenə də mömin köüllərin danışmasından qorxmaq xəstəliyi davam edir. Möminə danışmaq fürsəti verilməməsi, ürəyindəkini açıb deməsinə imkan verilməməsi üçün səylər göstərilir.

Hiss və düşüncələrini müdafiə etmək, inancını söyləmək və çatdırmaq fürsəti verilməməklə yanaşı, onun adından söylənilən səhv məlumatları düzəltmək imkanları belə məhdudlaşdırılır və əlindəki ən xırda imkan yox edilməyə çalışılır.

Qüreyşlilərin o günkü qorxusu, bü günkülərə miras qaldı və bu bütün gücü ilə davam edir...

❋

Şəxsiyyət və Ədalət

Əlbəttə ki, Allah Rəsulu (s.ə.s) Rəbbinin irşadı ilə, vəhyi ilə danışır. Nəcaşi haqqında ədalətli sözünü işlədərkən, möminlərə

onun yanına hicrət etməsini tövsiyə etməsi elə-belə bir hiss ilə baş verməmişdir. Buna diqqət edərək Nəcaşinin xüsusiyyətlərinə nəzər yetirir, sağlam xarakter, gözəl əxlaq, ədalət, mülayim təbiət və haqqı təslim hisslərinin gözəlliyinə və onlara sahib olan insanın nəyə qadir olduğuna diqqət etməkdə fayda vardır.

Ona baxıb əksini düşünərək; sadistlik, batil inancda dirənmək, despotluq ruhunun, hərisliyin, kinin, nifrətin, haqdan qaçaraq İblisin bəzədiyi yalan və bər-bəzəkli dünyaya sığınmağın, haqqa qulaqları tıxmağın insanları sürükləyib apardığı yerlərə, aqibətlərə də diqqət çəkməkdə fayda vardır.

Rəsulullah (s.ə.s) islam ehkamı və ədalətlə hökm edən bir dövlət başçısını, heç bir kölgənin olmadığı o dəhşətli qızmar günündə (hesab günündə) xüsusi kölgədə kölgələndiriləcək yeddi zümrədən biri olaraq sayır.[9]

Aişə (r.anhə) anamızın rəvayət etdiyi başqa bir hədisdə də belə dua edir:

اَللّٰهُمَّ! مَنْ وَلِّىَ مِنْ أمْرِ أُمَّتِي شَيْئاً فَشَقَّ عَلَيهِمْ فَا شْقُقْ عَلَيْهِ. وَمَنْ وَمَنْ وَلِّىَ مِنْ أَمَّتِى شَيْئاً فَرَفَقَ بِهِمْ فَارْفُقْ بِهِ.

“Allahım! Kim ümmətimin başına hər hansı bir dövrdə rəhbər olaraq keçər və onlara əziyyət verər, sıxıntı çıxararsa, Sən də ona sıxıntı və çətinlik ver.

Kim də ümmətimin başına rəhbər olaraq kerçər, onlara şəfqət və mərhəmətlə davranarsa, sən də ona şəfqət və mərhəmətlə davran.”[10]

Cəfər (r.a) bu əziz insana həm vəfakarlığın, həm də mömin qardaşın mömin qardaşına dayaq durmasının bir tələbi olaraq sonrakı illərdə kömək etmiş, onu taxt-tacından endirmək istəyənlərə qarşı savaşmış, Nəcaşini qorumaq üçün qılınc çəkmiş, canından belə keçməkdə tərəddüd etməmişdir.

---

9. “Yeddi zümrə vardır ki;...”-deyə başlayan bu hədis, bir çox mənbədə keçir və fərqli rəvayət zənciri ilə bizə gəlib çatmışdır.
Hədis üçün bax: Səhih əl-Bixari, Əzan (Umdə, 4/349), Səhih əl-Müslim, Zəkat (2/715)

10. Səhih əl-Müslim, İmarət (3/1458)

Məlum olduğu kimi Allah Rəsulu (s.ə.s) yalnız onun cənazə namazını qiyabi olaraq qıldırmışdır. Yaşadığı uzaq diyarda, xristian bir cəmiyyətdə həyata gözlərini yummuş, bu namazla Allah Rəsulunun və məşhur əshabının toplu duasına nail olmuşdur.

Cəsədi uzaq diyarda qalsa da, cismani olaraq həmişə mömin qəlblərə yaxın olmuş, həmin gündən bu günə qədər xatirələrdə dürüstlüyü, ədaləti, doğrunu təslim etməkdəki alicənablığı ilə yad edilmişdir.

İslamda Rəhbərlik Müəssiəsi

Allah Rəsulu (s.ə.s) Əbu Səid və Əbu Hüreyrənin (r.a) rəvayət etdikləri bir hədisdə:

إِذَا خَرَجَ ثَلاَثَةٌ فِي سَفَرٍ فَلْيُؤَمِّرُوا أَحَدَهُمْ.

"Üç nəfər səfərə çıxdığında, aralarından bir nəfəri rəhbər təyin etsinlər."[11]-buyurur. Peyğəmbrimiz hər hansı bir yerə bir dəstə göndərdiyində, mütləq başlarına bir rəhbər təyin etmişdir.

Möminin şüarı, prinsipi budur və daim belə olmalıdır. Haqq yol aşiqi, məsuliyyətsiz və başsız ola bilməz. Bir-birinə bağlanmaq və müəyyən bir nizam daxilində yaşamaq məcburiyyətindədir.

Rəhbər təyinindəki diqqət və həssaslıq, təyin edilən əmirə itaətdə doğurdan mükəmməllik, əmirlərin də üzərinə düşən məsuliyyəti layiqincə yerinə yetirə bilmək üçün var gücü ilə səy göstərmələri, möminləri birlik, bərabərlik içində saxlamaqla yanaşı, əldə edilən uğurların da başlıca prinsipini təşkil etmişdir. Eyni zamanda bu, əmirlik məsuliyyətini üzərinə götürən insanların rəhbər vəzifələrdə təcrübələr qazanaraq məsuliyyəti üzərinə götürməyə alışmasını, özünü formalaşdırmasını və kamilləşdirməsini təmin etmişdir.

Bu, diqqətlə üzərində durulması zəruri olan bir məsələdir. Allah Rəsulunun ətrafında böyüyən, elmi ondan öyrənən, onun əxlaqı ilə kamilləşən bəşəriyyətin çoxu, əvvəllər ciddi bir təlim-

11. Sünəni Əbu Davud, Cihad (2/81, 2608 və 2609) Yuxarıda nəql edilən söz, Əbu Səid əl-Xudrinin rəvayətində keçən sözdür.
Həmçinin bax: Riyazu-s-Salihin, Ədəbu-s-Səfər (səh. 297)

tərbiyə görməmişdir. Onlar dəvət və hərəkatın içində yetişmişlər, onunla bişib kamilləşmişlər, üzləşdikləri problemləri Allah Rəsulundan öyrənərək həll edərək bir-birləri ilə öyrənmək yarışına girmişdirlər... Gün gəlmiş ordulara komandanlıq etmiş, ölkələr fəth etmiş, valilik etmiş və tarix səhifələrinə unudulmaz xatirələr yazdırmışlar.

Bu kitabda bunun nümunələrini görəcək, heyrət edəcək və tez-tez dərin düşüncülərə dalacaqsınız.

❋

Cəfər (r.a) də Həbəşistana gedən bu mömin camaatın əmiri idi. Nəcaşinin hüzurunda müsəlmanları o təmsil etmişdi. Möminlər heç bir şəkildə əmirin rəhbərliyinə etiraz etməmiş və olduqca kamil davranmışdılar. Cəfər (r.a) da, Həbəşistanda qalan son dəstə ilə birlikdə Rəsulullahın yanına gələnə qədər[12] üzərinə götürdüyü vəzifəni, hər an və hər cür şərtlər altında ən gözəl şəkildə yerinə yetirmişdir. Bu kamillik və şüur sayəsində möminlər, bir bütün olmağın nemətlərini dadmışlar.

❋❋❋

Gözəl Üslub

Bəlkə də burada ibrət götürülməsi zəruri olan ən mühüm məqam və ən çox üzərində düşünülərək təkrar-təkrar araşdırılması tələb edilən budur.

Sevdirən, nifrət etdirməyən; İslamı başa düşülməz, çətin və sərt yoxuş kimi göstərməyən; həqiqət və gözəllikləri ilə gözlər önünə gətirən; sevgi və səmimiyyət dolu qəlbləri qidalandıran düşüncə və duyğuları hiss etdirən, ülvi qayələrin həzzini dadduran bir üslub...!

Qurani-Kərimdə:

---

12. Cəfər (r.a) son Həbəşistan mühacirləri ilə birlikdə Xeybərin fərhi zamanı gəlmiş, Rəsulullah (s.ə.s): "Hansına daha çox sevinim bilmirəm. Xeybərin fəthinə, yoxsa Cəfərin gəlişinə?" –deyərək onun gəlişinə sevincini biruzə vermiş və gələnləri bağrına basmışdır."

ادْعُ إِلَىٰ سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ ۖ
وَجَادِلْهُمْ بِالَّتِي هِيَ أَحْسَنُ...

"(Ya Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə), **gözəl öyüd-nəsihət** (moizə) **ilə Rəbbinin yoluna** (islama) **dəvət et, onlarla ən gözəl surətdə** (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) **mübahisə et.**" (ən-Nəhl, 16/125) buyurulur.

Cəfərin (r.a) düşmənlərini çox diqqətlə dinlədiyini, sözlərini yaxşı ölçüb-biçdiyini; cavab üçün hazırlaşdığını; sözə başlayınca da əvvəlcə düşməninin səhvini tutduğunu, səhv məlumatları düzəltdiyini, zidd görünənlərin həqiqi üzünü ortaya qoyduğunu görürük.

O, bu sözlərin ardınca öz inandığı, bağlandığı İslamı və gətirdiyi yeni prinsipləri, həyat tərzini az və konkret bir ifadə ilə dilə gətirir, həyatın içindən misallar verir.

Sonra da hicrət səbəbini, düşmənin əlində bayraq etdiyi dəlilləri isbat edəcək üslub ilə dilə gətirir.

Bütün çıxışı ərzində mübaliğəyə varmadan, qarşı tərəfə hücum üslubu seçmədən, ancaq vurğulanması zəruri olan həqiqətləri ehmal etmədən və inandırıcı vəsfini, səmimi hisslərini heç itirmədən və düşməninin əlinə heç bir dəlil vermədən haqlı mübarizəsini müdafiə edir.

Bütün bunlar əlavə olaraq, eşidənlərin diqqətini və marağını olduqca bacarıqlı bir təbliğçi şüuru ilə öz mübarizəsinə çəkir.

Belə ki, bunun səmərəsi olaraq Nəcaşi ondan əzbərə bildiyi Allahın vəhy etdiyi, Rəsulunun təbliğ etdiyi ayələrdən misallar eşitmək istəyir. Cəfər (r.a) da, bu tələb üzərinə başqa bir ibrət nümunəsi nümayiş etdirmişdir. Xristian topluma oxumaq üçün "Məryəm surəsini" seçmişdir. Bu surənin qəlblərdə hansı hisslər meydana gətirdiyini yuxarıda görmüş, Nəcaşinin ayeyi-kərimələri eşitdikdən sonrakı sözləri ilə də tanış olmuşduq.

Bu hərəkətin nə demək olduğunu başa düşə bilmək üçün bir az daha dərindən düşünməkdə fayda vardır. Əgər Cəfər (r.a) oxumaq üçün məsələn; "Kafirun surəsini seçsəydi və tilavətini; (لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ)" "Sizin dininiz sizə, mənim dinim də mənə," (Kafirun, 109/6) deyərək bitirsəydi, eyni nəticəni əldə edə bilərdimi?

Bəlağət sahibi insan; kəlmələri seçərkən, onları istifadə edəcəyi məkan və zamanın həmin kəlmələrə uyğunluğuna da diqqət etməyi bilən və seçim etməyi bacaran insandır.

Əlbəttə ki, hər ayənin müstəsna bir dəyəri və qiyməti vardır. Ancaq yerli yerində istifadəsindəki təsirinə Cəfər (r.a) bu seçimi ən gözəl misallardandır.

Cəfər (r.a) burada bizə başqa bir gözəllik nümunəsi nümayiş etdirir. İslam düşmənlərinin yeri gəldiyində heç bir silah və hücum üslubundan qaçınmayacaqlarını göstərən bir xarakterə şahid olub, islamın İsa (ə.s) haqqındakı rəyini dilə gətirmək məcburiyyətində qalınca; əsla haqqdan ayrılmamış, yaşadığı mövcud şərtlərin (düşdüyü vəziyyətin) olduqca çətinliyinə baxmayaraq geri addım atmamış, bütün səmimiyyəti və təsəvvür edilməz bir ifadəsi ilə inandığı həqiqəti dilə gətirmiş, mükafatını da həmin anda almışdır. Əbədi həyatdakı mükafatının daha çox olacağı da başqa bir həqiqətdir. Bu bizim üçün də yaşanmış bir ibrət nümunəsidir.

Günümüzdə şahid olduqlarımız isə nə yazıq ki, heç də səviyyəli davranış tərzləri deyildir. Sıxıntılı günlər yaşadığımız bir reallıqdır. Lakin bütün bu sıxıntı və imkansızlıqlara baxmayaraq Həbəşistanda yaşayan bir ovuc müsəlmandan daha çarəsiz, daha çətin, daha əzablı günləri yaşamırıq!

Allah kəlamı Qurani-Kərimi açıb oxumaqdan nəsibi olmayanların boşboğazlıqlarını fətva kimi göstərib, müxtəlif donlar geyindirməyə çalışaraq, mətləbə gələ bilməyəndə isə; "Əslində belə demək istədi?"-deyə bayağı yozumlar gətirərək; onsuz da elm və irfan yoxluğundan yolunu azan bir milləti, yeni azğınlıqlara sürükləmək üçün əlimizdə heç bir bəhanə olmamalıdır.

İslam nurundan qaçıb, rəzilliyi baş tacı edən, rəzilləri mötəbər məqama yüksəldən, insanı yaradanından qoparıb maddəyə kölə

edən düşüncələrin, səylərin bayağılığını göstərmək; nəzakətli və incə bir üslub ilə Haqq və həqiqətə dəvət, ifadə edilən bayağılıqlardan daha çətindirmi?

Allahın qəzəbini üzərinə çəkərək bəndəni məmnun etməyə çalşmaq; sonsuz nemətlər bəxş edən Allaha şükrü, sədaqəti tərk edib, müxtəlif kaprizləri olan; axirətini unutmuş, dünyasını da bərbad etmiş insanlara yaltaqlanmaq məgər fəxr ediləcək bir haldırmı?

Şəxsiyyətli insanı dostu sevər, düşməni də təqdir edər. Şəxsiyyətsiz insan isə hər kəsin gözündə rəzildir. Nə ətrafındakıların, nə də yarınmaq istədiklərinin gözündə dəyəri vardır. Əgər özünə qarşı bir simpatiyası varsa, bu daxildən gələn bir hal deyil, mövcud vəziyyətdən istifadə ilə məhduddur...

❋

Gözəl örnək, gözəl insan Cəfər (r.a) həzrətlərini və ilk mühacirləri xeyirlə yad edirik...

❋❋❋

Acı və Şirin,
Yaxşı və Yaman Gündə
Mömin Könüllərlə Bərabər Olmaq

Osman İbn Mazun

-radiyallahu anh-

عثمان بن مظعون

İlk müsəlmanlardandır. Ondan öncə 13 nəfərin müsəlman olduğu, onun on dördüncü müsəlman olduğu rəvayət edilir.

Həbəşistana oğlu Saiblə birlikdə ilk hicrət edənlərdəndir...

Həbəşistanda, Nəcaşinin yanında Məkkədəki təzyiq və işgəncələrdən uzaq yaşayarkən, günlərin birində həsrətlə gözlənilən xəbərlə həyəcanlanıb ayağa qalxanlardandır.

❋

Gələn xəbər, məkkəlilərin müsəlman olduğu, əzab və işgəncə dövrünün bitdiyi, Qüreyşin Rəsulullah (s.ə.s) ilə birlikdə səcdəyə qapandığı, inkar etməkdəki inadkarlıqlarının artıq qırılması idi.

❋

Düşünürəm ki, bu yanıqlı xəbərin səbəbi bu idi. Rəsulullah (s.ə.s) bir gün Beytullahın yanında Nəcm surəsini oxuyurdu:

وَالنَّجْمِ إِذَا هَوَىٰ (١) مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَىٰ (٢) وَمَا يَنْطِقُ عَنِ الْهَوَىٰ (٣) إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَىٰ (٤)

"**Batmaqda olan ulduza** (Sürəyya ulduzuna) **and olsun ki, Sizin yoldaşınız** (Muhəmməd əleyhissəlam) **nə haqq yoldan sapmış, nə də azmışdır! O, kefi istəyəni** (havadan) **danışmır.**

Bu, ancaq (Allah dərgahından) **nazil olan bir vəhydir.** " (ən-Nəcm, 53/1-4)

Hamı ayeyi-kərimənin bəlağətinə heyran olmuşdu. Rəsulullah (s.ə.s) surəni bitirib səcdə ayəsinə gəlincə səcdə etdi. Onu eşidən müsəlman, müşrik, ins, cin; hamı səcdə etdi.[13] Hətta təkəbbüründən səcdəyə getməyən Ümeyyə İbn Xələfin yerdən torpağı ovcuna götürərək alnına tərəf apardığı rəvayət edilir.[14] Belə olsa belə o da özünü səcdə etməkdən saxlaya bilməmişdir.

Bəli, müşriklər möminlərlə birlikdə səcdə etmişdilər, lakin azğınlıq və inadlarından əl çəkmirdilər.

Bu xəbər hər halda Həbəşistana səhvən gəlib çatmışdır ki, qayıtmaq tədarükünü görənlər oldu.

Bu xəbərlərin dəqiqləşməsi, məkkəlilərin vəziyyətindən əmin olunmasının zəruriliyini müdafiə edənlər olsa da, bütün bunlar bir dəstə mühacirin geri qayıtmasına mane ola bilmədi. Qohumluq həsrəti, ayrılığa dözə bilməmək daha üstün gəlirdi. Onlar xəbərin doğruluğuna inanmış və yola çıxmışdılar. Osman İbn Mazun (r.a) da bu qayıdanlar arasında idi.

Lakin Məkkəyə qayıdarkən bu acı həqiqət üzünü göstərdi. Möminlərin sayı artmaqla yanaşı, müşriklərin təzyiq və şiddətləri də artmışdı. Vəziyyət əvvəlkindən daha vahiməli idi.

Hücum və işgəncəyə məruz qalmaması üçün Osman (r.a), əmisi Vəlid İbn Muğirə tərəfindən himayəyə alındı. Bu himayə Beytullahın yanında hamıya elan edildi. Vəlid Məkkənin ən nüfuzlu insanlarından biri idi. Osman (r.a) bu himayə sayəsində artıq Məkkədə rahat şəkildə gəzə bilmək imkanı əldə etdi.

✺

Bəlkə də müşriklər güclü əmisi sayəsində ona toxuna bilmirdilər, ancaq Osmana başqa bir şey toxunmağa başlamışdı... Mömin qardaşlarına əzab verilərkən, təzyiq və hücumlara

13. Səhih əl-Buxari, (Umdə, 16/51)

14. Başqa bir rəvayətdə bu adamın Vəlid İbn Muğirə olduğu, başqa birində də həm Ümeyyə İbn Xələfin, həm də Vəlidin belə etdiyi qeyd edilir. (Bax: Umdətu-l-Qari, 16/51-52.

məruz qalarkən görməsi və özünün rahat şəkildə gəzməsi. Onlara kömək edə bilməməsi, onların acısına şərik ola bilməməsi...

Osman (r.a) bu mənəvi təzyiqə çox dözə bilmədi.

Onun bu anlardakı hisslərini Beyhəqi belə bəyan edir:

Osman (r.a) Rəsulullah (s.ə.s) və əshabının məruz qaldığı hücum və təzyiqləri; kiminin atəş, kiminin qamçılarla işgəncəyə məruz qaldığını, özünün isə bu sıxıntılardan uzaq yaşadığını görüncə, hücum və işgəncələri, yaşadığı sərbəstlikdən üstün tutdu.

O belə deyirdi: "Allaha inanan, Onun və Rəsulunun əhdinə vəfa göstərənlər, Allah yolunu və onun dostluğunu seçən müsəlmanlar, sıxıntı və əzab içindədir. Şeytanın əhdinə sadiq qalanlar, onun yol yoldaşları isə sıxıntılardan uzaq və rahat yaşayırlar!" Bir qərar verməli idi.

Qərarını vermişdi belə... Vəlid İbn Muğirənin yanına getdi və; "Əmi! Məni himayə edərək yaxşılıq etdin. İndi məni tayfamızın olduğu yerə aparmağını və himayəndən məhrum etdiyini elan etməyini istəyirəm!"-dedi.

Vəlid: "Qardaşoğlu! Əziyyət çəkərsən, həqarətə məruz qalarsan, sənə edilən hücumlardan qurtula bilməzsən. İcazə ver səni himayə edim."-deyərək israr etsə də, bunu Osmana qəbul etdirə bilmədi. O artıq bu vəziyyətə dözə bilmirdi. Bir müşrikin himayəsində yaşamaqdansa, mömin qardaşları ilə işgəncə çəkməyi, onların əzabına ortaq olmağı üstün tutur, haqq yoldakı səmimiyyət və ixlası, onu bunu etməyə sövq edirdi.

Dediyini etdi. Vəlid İbn Muğirəni götürərək Kəbənin yanına gətirdi. Qüreyşlilər toplaşıb şeir dinləyirdilər.

Vəlid, Osmanın əlindən tutaraq; "Bu mənim himayəmdən çıxmağa israr edir. Onu himayə etməkdən əl çəkirəm. Özü istəmədikcə onunla əlaqəm qalmadığını qarşınızda bəyan edirəm."-dedi. Osman (r.a) da, onu təsdiq edir; Vəlidi himayəsini qaldırmağa özünün məcbur etdiyini deyirdi.

Bu elandan sonra rahatlamış, sanki üzərindən tonlarca yük qalxmışdı. Osman (r.a) bu elanın arxasınca camaatla birlikdə şeir dinləməyə başladı.

Şeiri oxuyan, məşhur şairlərdən Ləbid İbn Rəbiə idi və o belə deyirdi:

أَلاَ كُلُّ شَيْءٍ مَا خَلاَ اللهُ بَاطِلُ وَكُلُّ نَعِيمٍ لاَ مَحَالَةَ زَائِلُ

"Allahdan başqa hər şey boş, hər şey batil.
Bütün nemətlər, gəlib keçici, hamısı da zail..."

Beytin birinci misrası olan; "Allahdan başqa hər şey boş, hər şey batil" misrasını dedikdə; Osman "Doğrudur", ikinci misrası; "Bütün nemətlər gəlib keçici, hamısı da zail" dedikdə isə -bu ifadə, Cənnət nemətlərinə şamil edildiyi üçün; "Səhvdir! Cənnət nemətləri əsla sona çatıb zail ola bilməz"-deyirdi.

Eşidənlər təəccüblənmişdi; şeiri oxuyan Ləbid də təəccüblənmişdi. İndiyə qədər heç sözünün kəsildiyini xatırlamırdı.

Ləbid misranı təkrar etdi; Osman (r.a) da sözlərini...

Artıq olan olmuşdu. Osman (r.a) elə ilk gün hücuma məruz qalmış, bir gözü göyərib yumulmuşdu.

Onun bu halını görən Vəlid, yenidən himayə təklif edir, lakin həm o, həm də digər müşriklər Osmandan bu cümlələri eşidirdi.

"Allaha and olsun ki, digər gözüm də qardaşlarımın məruz qaldığı aqibətə uğramağa hazırdır. Yetər ki, mömin qardaşlarımla bərabər olum."

✺

Bu əziz, fədakar və vəfakar səhabə, Mədinəyə də hicrət edərək "iki hicrətli"lər arasında yerini almaqla yanaşı, Bədr mücahidləri arasında da ən tanınmış şəxslərdən oldu.

Bədr savaşından qısa bir müddət sonra xəstələnir və Mədinədə vəfat edib Cənnətül-Baqidə torpağa verilən ilk mühacir səhabə olur.

Cənazəsi yuyulub kəfənləndikdən sonra Rəsulullah (s.ə.s) onun alnından öpmüş və Cənnətül-Baqidə torpağa dəfn etmişdi. Onu torpağa tapşırarkən;

"نعم السلف هو لنا عثمان بن مظعون." *"Osman İbn Mazun bizim üçün nə gözəl bir sələf, axirətə bizdən öncə gedən necə gözəl bir insandır."*-buyurur; ona olan hisslərini ifadə edir və qəbrinin başına daşı öz əlləri ilə basdırır.

Çox keçmədən Peyğəmbərimizin oğlu İbrahim vəfat edir. Peyğəmbərimiz çox sevdiyi və kiçik yaşda ölən oğluna xitab edərək; "Xeyirxah sələf Osman İbn Mazuna sən də qoşul"-dedi.[15]

❋

Mömin qardaşları ilə çətində, sevincdə bərabər olmağın ən aşkar və gözəl misallarından birini verən Osman İbn Mazunu (r.a) xeyirlə yad edir; "-Bizim üçün də nə gözəl bir sələfdir"-deyirik.

❋❋❋

15. Osman İbn Mazun (r.a) haqqında məlumat üçün bax: Sirətu İbn Hişam (1/370), əl-Müstədrək, Hakim (4/209, 210), Dəlailu-n-Nübüvvə, (2/291-293), əl-İstiab (3/85), Usdu-l-Ğabə (3/598-601), Siyəru Əlami-n-Nübəla (1/153-160), əl-Bidayə və-n-Nihayə (3/90), əl-İsabə (2/464), Həyatu-s-Səhabə, Qandəhləvi (2/274-275), əs-Sirətu-n-Nəbəviyyə, (səh. 108)

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Qurani-Kərimin məna və məzmununun qəlblərə təsiri.
- Müsəlmanın özünə çatan xəbərlər mövzusunda daim gözüaçıq olması, hissləri ilə hərəkət etməməsi.
- Şəxsiyyətli insan üçün mənəvi işgəncənin, cismani işgəncədən daha ağır olması.
- Osmanın (r.a) çətin gün və anlarda mömin qardaşları ilə birlikdə olmağı, rahat gəzib dolaşmaqdan üstün tutması.

❋❋❋

Bir Neçə Söz

Çətin və sevincli anlarda möminlərlə birlikdə olmaq.

Haqq bir mübarizə səmimi və vəfakar insanların çətinliklərə sinə gərməsi ilə ucalır. Haqq mübarizə, mənsublarına şərəf və izzət verməklə yanaşı, mənsublarının fədakarlığı və xidmətləri ilə həyatda mövcudluğunu davam etdirir və könüldən könülə keçərək bəşəriyyəti öz ağuşuna alır.

İslam tarixində bu fədakarlıq və səmimiyyətin saysız-hesabsız misalları vardır. Bəzilərinin üzərində dayanıb saatlarla təfəkkürə dalmaq lazımdır. İrəlidə bu dair misalları zikr edəcək, bəlkə də bu ifadəni sıx-sıx təkrar edəcəyik. Çünki bu həqiqəti vurğulamağa ehtiyacımız vardır.

Bir adamın özünü işgəncədən qurtarması üçün başqasından dəstək alması, qorunması üçün başqası tərəfindən göstərilən fədakarlığı qəbul etməsi əlbəttə bir qüsur deyildir. Lakin, Osman

(r.a) bu davranışı ilə hər vəziyyətdə mömin könüllərlə birlikdə olmağı, onlara dəstək olmağı, könül rahatlığı hiss etməyi, canını əzablardan qurtarmaqdan daha mühüm olduğunu vurğulamışdır. İşgəncə və əzab çəkən qardaşına əməli olaraq kömək edə bilmədiyi halda onunla eyni əzabları çəkməyə hazır olduğunu göstərərək onlara cəsarət vermiş, möminlərə əsrlər boyu nümunə olacaq bir davranış göstərmişdir. Məcbur olmadığı bir halda belə qardaşına dəstək olaraq, çətin anlarda dəstək olması zəruri olanların kömək etməməsinin nə qədər böyük bir xəta olduğunu vurğulayan həqiqi bir ibrət nümunəsi nümayiş etdirmişdir.

❋

Haqq mübarizənin ciddi imtahan keçirdiyi bu günlərdə əzabı ilə, sevinci ilə mübarizənin içində yer alacaq, sarsılmayacaq, laqeydlik göstərməyəcək, şeytanın hiylələrinə aldanmayacaq, haqq yolda fədakarlıqdan qaçmayacaq mömin könüllərə ehtiyac vardır.

Qurani-Kərimdə Həcc surəsinin 11-ci ayəsindəki bu ilahi xəbərdarlığa diqqət edilməsini istəyir və çox gözəl başa düşülməsinin zəruriliyinə inanıram:

وَمِنَ النَّاسِ مَنْ يَعْبُدُ اللَّهَ عَلَىٰ حَرْفٍ....

İnsanlardan eləsi də vardır ki, Allaha şəklə ibadət edər. (əl-Həcc, 22/11)

Ayədə keçən "hərf" kəlməsi, ərəb dilində bir şeyin yan tərəfi, kənarı deməkdir.

Bir uçurumun, yarğanın kənarına, bir çayın qırağına,

Bir dağın iki tərəfə baxan belinə

Bir qılıncın iki üzünün birləşdiyi kəskin ağzına ... "hərf" deyilir.

Həmçinin "hərf", bir dağın yamaclarındakı kiçik təpəciklərdir. Sihahın müəllifi Cövhəri, "hərf"i tərif edərkən belə deyir.

”حرف كل شيءٍ طرَفُه و شفيرُه وحدُّه. ومنه حرفُ الجبل : وهو أعلاه المحدَّد.“

“Bir şeyin hərfi deyilincə bu; həmin şeyin kənarı, kəskin yeri, bir kənarı ilə o birinin birləşdiyi yer deməkdir. Dağın yüksək və kəskin belinə ona görə “dağın hərfi” deyilir”[16]

Bundan başqa;

- “Bir işin kənarından tutmağa
- Bir şəhərin kənar evlərinə
- Bir ordunun savaş mərkəzindən uzaq üç nöqtələrinə də “hərf” deyilir.

Hərf kəlməsinin qısaca da olsa lüğət mənalarını tanıdıqdan sonra, indi də bu məlumatlara diqqət edərək ayeyi-kərimənin mənasına yenidən baxaq:

“**İnsanlardan eləsi də vardır ki, Allaha şəklə ibadət edər. Əgər ona bir xeyir toxunsa,** (dini barəsində) **arxayın olar** (islamdan möhkəm yapışar)**. Yox, əgər ona bir bəla** (müsibət) **üz versə, çöhrəsi dəyişər** (islamdan üz döndərib yenə küfrə qayıdar).”

Əzhəri həm hərf kəlməsinin, həm də ayədəki istəyin başa düşülməsi üçün belə deyir: “Sanki xeyirxahlıq, verim və bərəkət bir yana; zərər, şər və xoşa getməyən şeylər bir yana olaraq təsvir edilmişdir. Hərf də bu iki tərəfin birləşən kənarıdır. Bəndə, yaradanına yaxşı və xoşuna gedən günlərdə iman edib qulluq etdiyi kimi, əziyyət və çətinlik gördüyü günlərdə də iman edib qulluq etməlidir.”[17]

Şeyxulislam Əbussuud Əfəndi də bu bu ayənin təfsirində belə deyir: “İnsanlardan elələri vardır ki, onlar dinin kənarından tutmuş kimi Allaha qulluq edərlər. Dində səbatları yoxdur. Eynilə ordunun kənar və təhlükədən uzaq hissələrində olanlar

16. əs-Sihah, Cövhəri (4/1342)

17. Lisanu-l-Arab, İbn Manzur (9/42-43)

kimi, qələbə əldə ediləcəyini hiss edərlərsə orduya qoşulur, əks təqdirdə ordudan uzaqlaşıb qaçarlar."[18]

Belə ki ayeyi-kərimənin davamı da bizə konkret olaraq "hərf" kəlməsindən muradın nə olduğunu açıqlayır və belə buyurur:

فَإِنْ أَصَابَهُ خَيْرٌ اطْمَأَنَّ بِهِ ۖ وَإِنْ أَصَابَتْهُ فِتْنَةٌ انْقَلَبَ عَلَىٰ وَجْهِهِ

"**Əgər ona bir xeyir toxunsa,** (dini barəsində) **arxayın olar** (islamdan möhkəm yapışar)**. Yox, əgər ona bir bəla** (müsibət) **üz versə, çöhrəsi dəyişər** (islamdan üz döndərib yenə küfrə qayıdar)**.**

Və ayədə iki son söz:

خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ۚ ذَٰلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ

"**O, Allahı buraxıb özünə nə zərər, nə də xeyir verən bütlərə tapınar. Haqq yoldan azıb uzaq düşmək də budur!**" (əl-Həcc, 22/11)

❋

Bir adamın bütün kainat sarsılsa belə sarsılmaması zəruri olan, hər şeyini itirsə belə, itirməməsi zəruri olan inancı olmalıdır.

Bir hədisi-şərifdə belə buyurulur:

ثَلاَثَ مَنْ كُنَّ فِيهِ وَجَدَ حَلاَوَةَ ٱلإيمانِ: أَنْ يَكُونَ اللَّهُ وَرَسُولُهُ أَحَبَّ إِلَيْهِ مِمَّا سِوَاهُمَا, وَأَنْ يُحِبَّ الْمَرْءَ لاَ يُحِبُّهُ إِلاّ لِلَّهِ, وَأَنْ يَكْرَهَ أَنْ يَعُودَ فِى الْكُفْرِ كَمَا يُقْذَفَ فِى النَّارِ.

"Bu üç xislət özündə olan insan, imanın həzzini hiss edər. Allah və Rəsulunun həmin insana, başqa hər şeydən daha sevimli olması, könlünün onların sevgisi ilə dolu olması, sevdiyi bir in-

18. İrşadu-l-Əqli-s-Səlim, (6/97)

sanı yalnız Allah rizası üçün sevməsi, yenidən küfrə qayıtmağı, atəşə atılmaq kimi qəbul etməsi, küfr və zəlalətə nifrət etməsi."[19]

❋

Əqidənin, inancın özü mükafatdır. Ən böyük nemətdir. Könül onunla aram tapar. İnsan, əzab-əziyyət çəksə belə, onunla fərəhlik hiss edər, onun uğrunda etdiyi fədakarlıqlardan başqa bir həzz alar. Zəfərdə, bolluq və bərəkətdə, vəzifə və rütbədə.... sevinc və fərəh hiss etdiyi kimi, əziyyətində də başqa bir şirinlik, başqa bir həzz duyar. Bütün bunlara Yaradanının uğrunda qatlanması, qəlbini səadət və fərəhlə doldurar. Sələflərimiz bunun minlərlə misalını tarixə nəqş etmişdirlər.

Lakin acı bir həqiqət vardır ki; hər əsrdə dil ucu ilə inananlar, haqq mübarizədən uzaq duranlar, ordunun təhlükədən uzaq nöqtələrində (arxa cəbhədə) xidmət edənlər, dağın aşırımında mövqe tutanlar..., qənimət olunca hamıdan əvvəl qaçanlar, fədakarlıq; canı, malı ortaya qoymaq istənildiyində mübarizədən üz çevirib uzaqlaşanlar, heç əlaqəsi yoxmuş kimi davrananlar, qarşı səflərə keçənlər olmuş, acı imtahanlar belə insanların ələnməsinə vəsilə olmuşdur.

❋

Tarixdə həqiqətən araşdırılmağa, fərd-fərd gözdən keçirilməyə dəyən imtahan dövrləri gəlib keçmişdir. Son dövr tarixi də acılı şirinli misallarla dolu bir dövrdür. Eşidənləri təəccübləndirəcək ibrət dolu səhnələrin keçdiyi günlər, anlar yaşanmışdır. Yaşanmağa da davam edəcəkdir.

Əzablı günlər, fədakarlıq istəyən anlar, həqiqi mübarizləri ortaya çıxarır. Həqiqi igidlər onlara ehtitac duyulan anlarda meydana çıxarlar. Onlar əzab və əziyyətlərlə yoğrular, cəfa və səbatla bişər, könül xoşbəxtliyi ilə dünyanı tərk edərlər. Əlbəttə ki, əbədi səadət onlara, müjdələr onlara aiddir.

وَبَشِّرِ الصَّابِرِين.

"**Səbr edənlərə müjdə ver!**" (Bəqərə, 2/155)

19. Hədis, müttəfəqun aleyh hədisdir. Bax. Səhih əl-Buxari, İman (Ümdətü-l-Qari, 1/166), Səhih əl-Müslim, İman (1/66)

Ulularımızın fədakarlıqlarını, üzərimizdəki haqlarını biz unutmuruq, gələcək nəsillər də bu günkü fədakarlıqları unutmayacaqlar.

❋❋❋

Səlim Fitrət-Güclü Şəxsiyyət
Təbliğ Eşqi və Əzmi

Zeydü-l-Xayr

-radiyallahu anh-

زيد الخير

İslam günəşi hələ doğmamış, qəlbləri aydınlatmamışdı. Ərəbistan yarımadasında hələ cahiliyyə küləkləri əsir, yaxşılıqla pisliklər, gözəlliklə çirkinliklər iç-içə yaşanırdı.

Bu dövrün xəbərlərini rəvayət edənlərdən Şeybani, Əmir oğullarından yaşlı bir insandan rəvayət edir:

Çox quraqlıq illərdən biri idi. Əkinlər qurumuş, heyvanlar bir-bir ölməyə başlamış və sağmal heyvanların südü qurumuşdu. Qəbilə fərdləri bir-birindən ayrılmağa, hər kəs öz başının çarəsinə baxmaq üçün yollar axtarmağa başlamışdı.

Bizim qəbiləmizdən bir nəfər də ailəsi ilə Hirə[20] tərəflərinə köç etmişdi. Ailəsini burada münasib bir yerə yerləşdirdikdən sonra onlara; "Məni burada gözləyin, yanınıza qayıdacağam"- deyərək oradan ayrılmışdı.

❋

Özünü və ailəsini qurtaracaq bir şey əldə etmədən geri qayıtmamaq üçün and içmişdi. Ölsə belə əliboş geri qayıtmamağı qarşısına məqsəd qoymuşdu.

Bu düşüncə ilə yol azuqəsini hazırlayıb səfərə çıxdı. Gün boyu yeridi. Axşam olub günəşin son işıqları üfüqdə yox olanda bir çadıra rast gəldi. Çadırın yaxınlığında bağlı bir dayça var idi.

20. Hirə- İraq ərazisində Nəcəf ilə Kufə arasında bir şəhərdir.

Öz-özünə: "Bu ilk qənimətdir"-dedi və dayçaya yaxınlaşmağa başladı. Dayçanın ipini açıb belinə tullanmışdı ki, arxadan bir səs eşitdi: "Heyvanı burax; canını qurtar!"

Çarəsiz qalıb atdan endi və səsin haradan gəldiyinə belə baxmadan yoluna davam etdi.

✺

Yeddi gün yol qət etdi. Vadilər, səhralar keçdi. Artıq içinə ümidsizlik düşmüşdü. Nəhayət bir ağılın yanına gəldi. Ağılın yaxınlığında böyük bir çadır var idi. Çadırın üstü dəri ilə örtülmüşdü. Çadırın zəngin bir adama aid olduğu bəlli idi. Öz-özünə dedi ki, bu çadırın mütləq dəvələri və sakinləri vardır.

Çadıra yaxınlaşıb gizlincə içəri baxdı. Çadırda çox yaşlı bir adam var idi. Çox yavaş hərəkət edirdi.

Günəş qüruba yaxınlaşmış, kölgələr uzanmışdı. Çadırdan içəri girdi. Qocaya hiss etdirmədən arxasında münasib bir yerdə gizləndi.

✺

Çox keçmədən hələ Günəş batmamış uzaqdan bir atlı göründü. Atlı getdikcə yaxınlaşırdı. Gizləndiyi yerdən dəhşətlə ona baxdı. Ondan daha cüssəli, daha əndamı gözəl birisini görməmişdi. Özü kimi çox hündür boylu bir ata minmişdi. Ətrafında adamları da var idi. Yüzə qədər dəvə ilə arxasınca gəlirdilər. Dəvələrin önündə isə nəhəng bir nər dəvə sürübaşı olaraq irəliləyirdi. Ağıla yaxınlaşınca sürübaşı çökdü, digər dəvələr də ətrafında yerə çökdülər.

Süvari yanındakılardan birinə səsləndi: "Bu dəvəni sağ! Südünü ağana təqdim et!

Bunları deyərkən iri bir dəvəyə işarə edirdi. Adam deyiləni dərhal yerinə yetirdi. Südü qocanın qarşısına qoydu və kənara çəkildi. Yaşlı adam süddən bir-iki qurtum içdi, sonra yan tərəfinə qoydu...

✺

Bundan sonra isə gizlənən adama diqqət edək:

Daha çox səbr edə bilmədim və gizlincə qaba tərəf iməklədim. Südün hamısını götürüb başıma çəkdim və qabı əvvəlki yerinə qoydum. Südü hazırlayıb təqdim edən adam geri qayıdaraq qabı götürdü. Bu dəfə sevinclə ağasına səsləndi: "Ağam, südün hamısını içmişdir!"

Süvari bu xəbərə çox sevindi. Dərhal başqa bir dəvəyə işarə edərək; "Bunu da sağ ver içsin!"

Deyilən edildi. Qoca yenə süddən bir udum içib kənara qoydu. Onu da götürüb yarısını içdim. Süvarinin diqqətini çəkməmək üçün hamısını içmədim.

Gənc süvari bu məqamda başqa bir adamına səslənərək bir qoyun kəsməsini əmr etdi. Qoyun kəsilib hazırlanaraq gətirildi.

Onu özü qızartdı. Sonra da əli ilə qocaya yedizdirdi. Qoca doyduqdan sonra, adamları ilə birlikdə özü də yeməyini yedi.

Çox keçmədən günün yorğunluğu ilə yataqlarına uzandılar. Qısa bir müddətdən sonra da yuxuya getdilər.

✺

Dərin yuxuya getdiklərində sürübaşı dəvəyə yaxınlaşıb ipini açdım. Belinə minib sürdüm, o yola düzəlincə digər dəvələr də onu izləməyə başladılar.

Bütün gecəni səhərə qədər yol getdim. Səhər açılıb dan yeri söküldükdən sonra ətrafı gözdən keçirdim. Aradakı məsafəni artırmaq və arxamca düşməkdən qurtulmaq istəyirdim. Yoluma davam etdim. Günəş artıq yüksəlmişdi. Gəldiyim istiqamətə təkrar qayıdıb nəzər saldım. Sanki mənə tərəf bir qartal uçurdu. O getdikcə yaxınlaşdı. Görüntü artıq aydın görünməyə başlamışdı. Bu, atının belində sürətlə yaxınlaşan bir süvari idi. Kifayət qədər yaxınlaşınca gələn adamı tanıdım. O, dünən axşam gördüyüm iricüssəli dəliqanlı idi və şübhəsiz dəvələrinin dalınca gəlmişdi.

Dayanıb mindiyim nər dəvəni möhkəm bağladım. Sadağımdan bir ox çıxararaq yayıma yerləşdirdim. Dəvənin önünə keçib yayımı dartdım...

Süvari arada məsafə saxlayaraq dayanıb səsləndi: "Nər dəvənin ipi aç!"

"Xeyr!"-dedim. "Arxada, Hirədə qadın və uşaqları qoyub gəlmişəm. Onlara bir qənimət aparmadan geri qayıtmamaq üçün and içdim. Ölsəm belə fikrimdən daşınmayacağam."

"O zaman özünü öldü zənn et! Sənə deyirəm dəvənin ipini aç!"

"Açmayacağam!"

"Çox məğrur və dikbaşlısan!"

Sonra məndən dəvənin cilovunu tərpətməyimi istədi. Tərpətdim. Cilovda üç düyün var idi. Soruşdu ki: "Oxu hansı düyünə vurmağımı istəyirsən?"

Çaşıb qalmışdım. Ortadakını işarə etdim. Yayını gərib oxu buraxdı. Ox əli ilə qoyurmuş kimi orta düyünə sancıldı. Sonra ikinci və üçüncü düyünü hədəfə aldı. Artıq məsələni başa düşmüşdüm. Yayımı endirib çarəsiz halda təslim oldum.

Yanıma gəlib yayımı və qılıncımı əlimdən aldı. Sonra; "Tərkimə min!"-dedi və mən mindim. Məni aparırdı.

❋

Yolda mənə; "Sənə nə edəcəyimi zənn edirsən?"-deyə soruşdu. "Təxmin edilənlərin ən pisini"-deyə cavab verdim.

"Nəyə görə?"

"Sənə etdiklərimə görə"-dedim. "Sonra səni yordum; sıxıntılara səbəb oldum və sən də məni əsir götürdün."

Cəsarət verici bir səs tonu ilə; "Həqiqətən sənə pislik edəcəyimi zənn edirsən?! Sən dünən gecə **Mühəlhəl**in yeməyini, içəcəyini paylaşdın. Ona hər hansı bir pislik də etmədin"-dedi.

Mühəlhəl deyərkən atasını nəzərdə tuturdu. **Mühəlhəl** adını eşidərkən çox təəccüblənmişdim; dərhal soruşdum:

"Sən **Zeydü-l-Xayr**sənmi?"

"Bəli."

Kimin əlinə düşdüyümü indi başa düşmüşdüm. Ona; "Əsir götürənlərin ən xeyirlisi ol!"-dedim.

"Qorxma,"-deyə cavab verdi. Artıq onun tərkində özümü daha rahat hiss edirdim.

❋

Məni çadırların olduğu yerə gətirdi. Oraya çatdıqda mənə dönərək:

"Allaha and olsun ki, bu dəvələr mənim olsaydı, hamısını sənə təslim edərdim. Bunlar bacımın dəvələridir. Bir neçə gün qonağımız ol. Yeni bir qənimət əldə etməliyəm. Qənimətdən əldə etdiyim dəvələri sənə verərəm."

Üç gün sonra dediyi hücumu həyata keçirdi. Bu hücum uzun müddətdən bəri aralarında savaş olan Numeyr oğulları qəbiləsinə qarşı edilmişdi.

Qənimət olaraq ələ keçirilən yüzə qədər dəvəni mənə verdi. Yanıma adamlarından bir dəstə də qoşmuşdu. Bu dəstə Hirəyə çatana qədər məni qorudu.

❋❋❋

Bu cahiliyyə dövründəki Zeydü-l-Xayrlın həyatından kiçik bir epizod idi. O, uzun boyu, iri və güclü cüssəsi, gözəl siması, sağlam xarakteri, vəfası, zəkası, xitabəti, cəsarəti və dillərdə gəzən şeirləri ilə görən, görməyən hər kəsi valeh edən bir insan idi.

O, Zeydü-l-Xeyl İbn Mühəlhəl İbn Zeyd idi. Tayy qəbiləsinin ağası, biləyi bükülməz süvarisi idi.

Ucsuz, bucaqsız səhraların, vadilərin dostu idi...

❋

Əsl adı Zeyd idi. At sürüləri çox olduğu, atları vadiləri doldurduğuna görə ona Zeydü-l-Xeyl (Atlı Zeyd) deyilmişdir. Çovqan yarışlarında iştirak edən atları olduğu, atlar artıq həyatının bir hissəsi halına gəldiyi və Zeydi atsız təsəvvür etmək mümkün

olmadığı üçün bu adın verildiyini deyənlər də vardır. Lakin o, həmişə bu ad ilə yad edilirdi.

❋❋❋

İslam günəşi doğmuş, ziyası ərəbistan yarımadasına yayılmağa başlamışdı.

Hicaz diyarına qismən uzaq olan yarımadanın şimal hissəsinə tərəf, İraq torpaqlarına yaxın bölgələrdə yayılan İslam Tayy qəbiləsinin yaşadığı torpaqlara, səhralara da çatmağa başlamışdı. Gələn məlumatlar dəqiq deyildi, lakin Zeydü-l-Xeylin diqqətini çəkməyə başlamışdı. Eşitdikləri qeyri-dəqiq məlumatlar idi.

Tayy qəbiləsi, çox böyük bir qəbilə idi. Qəbilənin məşhurlarını bir yerə topladı. Mədinəyə -o günkü adı tanınmış adı ilə **Yəsrib**ə getmək, Allah Rəsulunu (s.ə.s) yaxından tanımaq, dediklərini yaxından eşitmək, nə etmək istədiyini bilmək istəyirdi.

❋

Tayy qəbiləsinin tanınmışlarından ibarət olan olduqca qələbəlik bir dəstə ilə yola çıxdı. Karvanda; Zürr İbn Sədus, Malik İbn Cübeyr, Əmir İbn Cüveyn və bir çox məşhurlar var idi.

Mədinəyə gəldiklərində Peyğəmbər məscidinə tərəf irəliləməyə başladılar. Dəvələrinin məscidin qapısının qarşısında çökdürdülər və içəri girdilər.

❋

İçəri daxil olduqlarında Rəsulullah (s.ə.s) minbərdə idi. Məscidi dolduran möminlərə xitab edirdi... Çox gözəl şeylər danışırdı.

Həm dediyi sözlər, həm də səhabələrin onu dinləməsi, ona bağlılıqları, davranışları, dediyi sözlərin onların üzərində təsiri... hamısı bir-birindən təsəvvür edilməyəcək dərəcədə gözəl idi. Heyranlıqla seyr etdilər, dinlədilər.

Gələn karvanda artıq fikir ayrılıqları yaranmağa başlamışdı. Zürr İbn Sədus, Allah Rəsulunun (s.ə.s) bu heyranlıq verən durumunu görmüş, onun ətrafına toplaşmış möminləri seyr etmiş,

ona sevgi və ehtiramla baxan gözlərin parıltısını çox yaxşı dərk etmiş, nə yazıq ki, daxilində həsəd hissləri baş qaldırmış, qəlbini qorxu basmış; axırda da dünya və axirətini qaraldacaq bir qərar vermişdi.

Yanındakı yoldaşlarına üz tutub belə dedi: "Bütün ərəbləri ələ keçirəcək birisini görürəm. Lakin məni əsla ələ keçirə bilməyəcək; mən ona baş əyməyəcəyəm."

Bu cümlələrdən sonra məsciddən çıxmış, heyətdən ayrılmış və miniyinə minərək Şama tərəf üz tutmuşdu. Bizanslıların tabeliyində olan xristianlığın hakim olduğu Şama gəldi və başını qırxdıraraq xristian olub orada qaldı.

❋

Zeydu-l-Xeylin düşüncələri isə bam-başqa idi. O, Rəsulullahı (s.ə.s) diqqətlə dinləyirdi... Kim bilir həmin anda nələr hiss edirdi...

Allah Rəsulunun xütbəsi bitdikdən sonra irəliyə doğru addımlamağa başladı. Allah Rəsulunun qarşısında dayandı.

Bütün gözlər bu heybətli insana zillənmişdi. Bu boy, bu əndam, bu sima gözəlliyi və bu yaradılışa uyğun gur və səlis səs:

يا محمد! أشهد أن لا إله إلا اللّه وأنك رسول اللّه!

"Ey Muhəmməd! Şəhadət edirəm ki, Allahdan başqa heç bir ilah yoxdur və sən Allahın Rəsulusan."

Rəsulullah (s.ə.s) sevgi dolu gözlərini ona çevirib soruşdu:

"Sən kimsən?"

"Zeydu-l-Xeyl İbn Mühəlhəl."

Peyğəmbərimiz onu uzaqdan uzağa tanıyır, məşhur şöhrətini bilirdi. Cavab verdi:

"Xeyr, artıq sən Zeydu-l-Xeyl deyil, Zeydu-l-Xayirsən." Sonra da bu sözləri əlavə etdi:

اَلْحَمْدُلِلّٰهِ الَّذِى جَاءَ بِكَ مِنْ سَهْلِكَ وَجَبَلَكَ وَرَقَّقَ قَلْبَكَ لِلاِسْلاَمِ.

"Səni dağlarından, ovalarından alıb gətirən, qəlbini islama meyl etdirən Allaha həmd olsun."

Allah Rəsulunun bu şükrü, dərindən hiss etdiyi sevinci də ifadə edirdi.

❋

Artıq adı **Zeydu-l-Xayir** (Xeyirxah Zeyd) idi. Bu tarixdən sonra bu şəkildə tanındı və yad edildi.

❋

Allah Rəsulu (s.ə.s) onu evinə apardı. Yanlarında Ömər (r.a) ilə, səhabələrdən bir dəstə də var idi.

Evə gəlib çatdıqlarında, Peyğəmbərimiz yaslanması üçün ona bir yastıq verdi. Rəsulullahın (s.ə.s) hüzurunda yaslanmaq ağırına gedirdi. Yastığı geri qaytardı, lakin Peyğəmbərimizin israrı ilə qəbul etmək məcburiyyətində qaldı.

Hər kəs əyləşmiş, söz sözü gətirmişdi. Peyğəmbərimiz Zeydu-l-Xayirə xitab edərək belə buyurdu:

يَازَيْد! مَاوُصِفَ لِي رَجُلٌ قَطُّ ثُمَّ رَأَيْتُهُ إِلاَّ كَانَ دُونَ مَا وُصِفَ بِهِ إِلاَّ أَنْتَ.

"Ya Zeyd! Mənə mədh edilən, xüsusiyyətləri haqqında danışılan, təsvir edilən insanlar olurdu. Hər kim belə öyülər, təsvir edilərsə, onu gördüyümdə danışılandan aşağı səviyyədə görür, bir qədər mübaliğə edildiyini görürdüm. Lakin sən fərqlisən."

Zeyd, normal bir ata mindiyində sanki ulağa minirmiş kimi ayaqları yerə dəyərdi. Ona görə atı da seçmə idi.

Peyğəmbərimiz Zeydu-l-Xayrin başqa gözəlliklərinə diqqət çəkərək belə buyururdu:

يَازَيْد! إِنَّ فِيكَ لَخَصْلَتَيْنِ يُحِبَّهَا اللَّهُ وَرَسُولُهُ

"Ya Zeyd! Səndə iki xislət vardır ki; bu xislətləri Allah da sevər, Rəsulu da."

"Bu xislətlər hansılardır, ya Rəsulallah?"

الأَنَاةُ وَالْحِلْمُ *"Vüqar və Helm"* (Xoşgörü və mülayim xasiyyət və xarakter).

Zeydu-l-Xayir, sevincini; "Mənə, Allah və Rəsulunun sevdiyi xislətləri bəxş edən Rəbbimə həmd edirəm"-deyərək dilə gətirdi.

❋

Sonra yenə söhbətə davam edərkən Zeyd (r.a) Peyğəmbərimizə; "Ya Rəsulallah, mənə 300 igid ver. Bizansa hücum edim. Söz verirəm ki, onları məğlub edəcəyəm."

Peyğəmbərimiz onun bu cəsarət və əzm dolu sözləri qarşısında təbəssüm edir; "Allah rizası üçün Zeyd! Sən necə bir insansan?"-deyə iltifat edirdi.

❋

Zeydlə birlikdə qalan bütün yoldaşları müsəlman oldu.

Mədineyi-Münəvvərədə 7 gün qonaq qaldılar. Səhabələrlə qaynayıb-qarışmış, islam haqqında xüsusi məlumatlar əldə etmişdilər. Zeydin (r.a) sevinci yerə-göyə sığmırdı. Bir an öncə yaşadığı məkanlara, qəbiləsinin yanına qayıdıb islamı onlara təəbliğ etmək, hidayətlərinə vəsilə olmaq istəyirdi.

Peyğəmbərimizdən icazə istədi. Gedib İslam nurunu qəbiləsinə çatdırmaq istəyirdi. Daha küfr bataqlığında qalmayacaqdılar.

❋

Peyğəmbərimizlə vidalaşdı. Peyğəmbərimiz onu yola salmış və üfüqdə uzaqlaşıb gözdən itərkən, kədərli bir səslə:

أَيُّ رَجُلٍ هَذَا! : كَمْ سَيَكُونُ لَهُ مِنَ الشَّأْنِ لَوْ سَلِمَ مِنْ وَبَاءِ الْمَدِينَةِ.

"Nə qəhrəman bir adam idi! Əgər Mədinə vəbası yaxasını buraxsaydı, islam tarixində böyük bir yeri olardı."-buyurdu.

Bəlkə də onu bir daha görə bilməməyin kədərini yaşayırdı...

❋

İbn Hişam; Nəcid torpaqlarında "Fərdə" deyilən suya çatdıqlarında Zeydin xəstələndiyini qeyd edir.[21]

Xəstəliyinə baxmayaraq yola davam etmək istəmiş, xəstəliyi ağırlaşıb taqətdən düşüncə; "Məni Qeys qəbiləsinin yanına aparın, onlar tərəfə gedin!"-deyir.

Qeys qəbiləsi keçmiş düşmənlərindən idi. Silahdaşları, Zeydu-l-Xeylin yaxınlıqlarından keçdiyini; xəstə və taqətsiz olduğunu eşitsələr, onu sağ buraxmayacaqları qənaətində idilər. Təəccüblə Zeydə baxdılar. Onlar tədbirli davranmaq və qeyslilərə bildirmədən bir an əvvəl bu məkanlardan uzaqlaşmaq istəyirdilər. Lakin bir neçə gün öncə islam nuru ilə şərəflənən Zeydu-l-Xeyirdən bu ibrətli sözləri eşidirlər:

"Onlar, cahiliyyə dövrünün, irqçilik və tayfapərəstlik düşüncəsinin gətirdiyi axmaqlıqlar idi. Allaha and olsun ki, nə olursa olsun Rəbbimin hüzuruna çıxana qədər heç bir müsəlmana qarşı savaşmayacağam!"

Qeys qəəbiləsi daha əvvəl müsəlman olmuşdu. Zeyd, bütün olanları unutmuş, düşmən olduğu qəbiləyə iman qardaşlığı ilə bağlanmış və islamın verdiyi o uca şüurla danışırdı. Yanlarına gedib cahiliyyə dövrünün kirlərini təmizləmək istəyirdi.

Qeys qəbiləsi, Zeydu-l-Xeyiri pərt etmir, onu qarşılayır və iman qardaşlığının ən gözəl örnəklərini nümayiş etdirir; özlərini, heyvanlarını doyuzdurub, istirahət etmələri üçün şərait yaratdılar. Hələ dünənə qədər cahiliyyə rüzgarlarının əsdiyi bu torpaqlar, islam qardaşlığının sevgi selinə şahid olurdu.

Zeydu-l-Xeyiri müalicə edə bilmək üçün bütün imkanlar səfərbər edilir, lakin xəstəliyin qarşısı heç cür alına bilinmir.

Bu əziz və igid insan yoluna davam etmək istəyirdi. Qəbiləsinə çatmaq, onlara islamı təbliğ etmək, islam ilə şərəflənmələrinə vəsilə olmaq istəyirdi. İslamı ondan eşidincə etiraz etməyəcəklərini, haqq mübarizəyə nadanlıq edib etiraz etməyəcəklərini bilirdi.

---

21. Sirətu İbn Hişam (2/578)

İndi xəstəliklə yarış başlamışdı. Xəstəlik irəliləyir, qəbiləsinə çatmaq üçün Zeyd irəliləyirdi.

Axırda yarışda xəstəlik qələbə çaldı. Məğlubiyyət bilməyən Zeyd xəstəliyə təslim olmuşdu. Öz torpaqlarına girib qəbiləsinə yaxınlaşarkən, yolda həyata gözlərini yumdu.

O, bu məğlubiyyətlə də böyük bir zəfər qazanmışdı. İman ilə ölümü arasında heç bir günahı yox idi. Ülvi bir mübarizənin eşqi ilə gözlərini yummuşdu. O iman nuru ilə nurlandığı günlərdə həmişə onun həyəcanını və təbliğ eşqini daşımışdı.

Qəbiləsinə çatmadan cənazəsi çatır. Lakin silahdaşları onun hisslərini, həyəcanını, ümidlərini və xəyallarını Tayy qəbiləsinə çatdırırdı. Həyatda ikən arzuladığı dünya, tərk etdikdən sonra reallaşdı. Beləliklə Tayy qəbiləsi islam ilə şərəf və izzət gördü. Zeydin ümidlərini boşa çıxarmadılar.

❋

Daha sonra oğlanları **Mükənnəf** və **Haris** (r.a) Peyğəmbərimizin yanına gəlir, Onun söhbətlərində və yaxınlığında olurlar. Peğəmbərimizin vəfatından sonra da Xalid İbn Vəlidin (r.a) komandanlığında mürtədlərə qarşı cihadda iştirak edirlər.[22]

❋❋❋

22. Zeydu-l-Xeyir (r.a) haqqında məlumat almaq üçün bax; Sirətu İbn Hişam (2/577-578), Dəlailu-n-Nübüvvə, Beyhəqi (5/337-338), əl-İstiab (1/563), əl-İsabə (1/572), əl-Bidayə və-n-Nihayə (5/57), əl-Əlam, H. Zirki (3/61), Suvərun min Həyati-s-Səhabə (2/71-85), əs-Sirətun-n-Nəbəviyyə, ən-Nədəvi (səh. 323).

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Sağlam fitrət və sağlam xarakterin gözəlliyi.
- Zeydu-l-Xayrin eşitdiklərinin haqq olduğunu başa düşüncə, vəzifə və şöhrətpərəsliyə hərislik göstərmədən bütün varlığı ilə islama bağlanması və müsəlman səflərinə qoşulması.
- Səhabələrin Rəsulullaha (s.ə.s) qarşı hörmət və ehtiramının, ədəb və tərbiyəsinin kənardan baxan insanlar üzərində təsiri.
- Rəsulullahın (s.ə.s) islama uyğun olmadığı adları, islami bir ad ilə dəyişdirməsi. İndiki əcaib adlar.
- Peyğəmbərimizin qonaqlarına qarşı göstərdiyi qonaqpərvərlik.
- Vüqar və helmin Allah Rəsulunun sevdiyi xislətlərdən olması.
- Peyğəmbərimizin möcüzəsi.
- Bir insanın nə zaman və necə öləcəyini, Peyğəmbər olsa belə bir bəndənin bilməsi mümkün deyildir. Lakin Rəbbinin vəhyi ilə bilməsi mümkündür. Qeybi bilən yalnız Allahdır.
- Zeydu-l-Xayrin islamı təbliğ əzmi və eşqi. Qəbiləsinin, qohumlarının islam nuruna qovuşması istəyi.
- İslam nuru və qardaşlığının, qəlbindəki bütün cahiliyyə adətlərini təmizləməsi.
- İslam qardaşlığının gözəl örnəkləri; irqçilik və milliyyətçilik düşüncəsinin rəddi.

- Qədərə razılıq.
- Səmimi hiss və davranışların ölümdən sonraya təsiri.

❋❋❋

Bir Neçə Söz

İnsanlar Təbii Sərvətlər Kimidir

Həzrət Rəsulullah (s.ə.s)

اَلنَّاسُ مَعَادِنَ: خِيَارُهُمْ فِى الْجَا هِلِيَّةِ خِيَا رُهُمْ فِى ٱلْإِسلاَمِ إِذَا فَقِهُوا.

"İnsanlar təbii sərvətlər kimidir."

Qızılı vardır, gümüşü, platini vardır; almazı, yaqutu, misi, dəmiri vardır; civəsi vardır, nefti vardır. Paslananı vardır, əsla pas tutmayanı vardır. Kirlənəni vardır, kir tutmayanı vardır. Xarab olanı vardır, xarab olmayanı vardır.

"Cahiliyyə günlərində xeyirxah, şəxsiyyəti güclü, xarakteri sağlam olanınız, dərk edərək elm və irfanla yaşadığı müddət ərzində islamda da xeyirxah olanınızdır."

Elə də olmuşdur. Dürüst olanlar, xətalı olsa belə doğru etdiyinə inanaraq davrananlar, vəfakar, comərd, fədakar olanlar, inandığı şeylər uğrunda çətinliklərə sinə gərə bilənlər; sadə, müvəqqəti həyat zövqlərinin bezdirmədiyi, xarakterini zədələmədiyi insanlar, islam ilə şərəflənincə; bu sağlam xislətləri, həqiqətlə uzlaşdığı, ilahi əmr və qadağalarla bütünlük təşkil etdiyi, təşviq gördüyü üçün islama böyük xidmətlər etmişdirlər.

Əbu Bəkr, Ömər, Həmzə, Osman, Bilal, Musab, Əbu Ubeydə (r.a) ilk ağıla gələnlərdəndir. Məlum olduğu kimi; Ömər (r.a) müsəlman olmadan bir neçə saat əvvəl Allah Rəsulunu öldürmək üçün yola çıxmışdı. Qarşısında yenə başqa bir sağlam xarakter nümunəsi, bacısı Fatiməni görmüş, onun cəsarətli və qərarlı davranışı, Ömərin hidayətinə vəsilə olmuşdur.

Tarixdə dərin izlər buraxan neçə-neçə səhabələrin keçmiş həyatı araşdırıldığında qarşımıza həmişə belə sağlam iradəli insanlar çıxır...

Bəli insanlar təbii sərvətlər kimidir...

❋

İslam şüur və səmimiyyətini daşıyanların, gələcək nəsillərin sağlam xarakterli, sağlam məlumatlı yetişməsi üçün əlindən gələn səyi göstərməsi lazımdır. Elmlə yoğrulmuş, fəth şüuru daşıyan, gözəl əxlaqlı, vəfalı, fədakar və sarsılmaz mömin könüllərə ehtiyacımız vardır.

Sad İbn Əbi Vaqqas (r.a) uşaqlarını necə və hansı şüurda yetişdirdiklərini ifadə etmək üçün; "Allah Rəsulunun savaşlarını, Qurandan bir surə öyrədirmiş kimi uşaqlarımıza öyrədirdik,"-deyir.

Bu həqiqətin əsla qulaqardı edilməməsi lazımdır... Bu düşüncə ilə yetişmiş bir nəsilə daim ehtiyac var, bizim isə daha çox ehtiyacımız vardır.

Hədəfinə doğru addım atanlar, müəyyən məsafə qət edir. Hər addımda məsafələr qısalır. Səy göstərilmədən keçən itkidir.

Təbliğ Əzmi və Eşqi

Allah Rəsulu:

مَنْ دَعَا إِلَىَ هُدًى كَانَ لَهُ مِنَ ٱلأَجْرِ مِثْلَ أُجُورِ مَنْ تَبِعَهُ, لاَ يَنْقُصُ ذَلِكَ مِنْ أُجُورِهِمْ شَيْئًا...

"Hidayətə dəvət edən və insanların hidayətə çatmasına vəsilə olan bir adam, hidayətə çatmasına vəsilə olduğu insanların savabı qədər savab qazanar. Onun nail olduğu bu savab, hidayətə çatanların savabından heç bir şey əskiltməz."[23]-buyurur.

Zeydu-l-Xeyir (r.a) qəbiləsinin bir gün daha artıq cahiliyyə bataqlığında qalmasına razı olmamış, özü təbliğ edincə qə-

23. Səhih əl-Müslim, Elm (4/2060), Sünəni Əbi Davud; Sünnə (4/15-16), Sünəni Tirmizi, Elm (5/43)

biləsində mövcud olan insanların ona və haqq inanca etiraz etməyəcəklərini bildiyinə görə bir an öncə onlara çatmağa çalışmışdır. Yorğunluğa əhəmiyyət verməmiş, xəstəliyə fikir verməmiş, bu hiss, bu ümid, bu həsrət və həyəcanla səhralarda irəliləməyə davam etmişdir. Xəstəliyin yaxasını asanlıqla buraxmayacağını hiss etmiş, edəcəyi ən son iş bu olsa belə yol qət etməyə davam etmiş, bezməmiş və qədərinə razı olaraq yoluna davam etməyi üstün tutmuşdur.

Bir yandan bu arzu və ümidlə irəliləməyə davam edərkən, bir yandan da səmimiyyət və şüurunu göstərən davranışlar nümayiş etdirmişdir.

Bir adamın illərlə davam edən, hardasa həyatının əsasını təşkil edən cahiliyyət savaş və düşmənçiliklərindən bir anda əl çəkməsi, keçmişindən və Allah rizasına uyğun gəlməyən hər şeyi bir anda silib atması, üstəlik bu səmimiyyətini həyatı bahasına isbat etməsi elə-belə bir hadisə deyildir.

Bu gözəlliyi Zeydu-l-Xeyirdə gördüyümüz kimi, Qeys qəbiləsinin fərdlərində də görür, islam nurunun cahiliyyə adətlərini, necə silib atdığını, sevgi selinin, şəfqət və qardaşlıq rəhmətinin barbarlığı necə yox etdiyini görürük.

İslamın reallığı və həqiqi üzü məhz bundan ibarətdir. Bu qarşısına keçib heyranlıqla seyr etməyə dəyən gözəllikdə bir mənzərədir.

Cahiliyyət -düşüncə, adət-ənənə və düşmənliklərinin qızışdırılmağa başladığı, elm və irfanın azalmasından istifadə edilərək ağıl və hisslərlə oynanıldığı, nadanlığın baş alıb getdiyi bu günlərdə həqiqi islam şüuruna, əxlaqına, qardaşlığına, birlik və bərabərliyinə, təmiz və pak hisslərinə nə qədər həsrətik, nə qədər möhtacıq!..

❋

Çox söz deməyə nə ehtiyac vardır! Ehtiyaclarımızı başa düşmək üçün dön, Zeydu-l-Xeylin, Zeydu-l-Xeyirə və Rəbbinə qovuşmağa doğru uzanan bu qısa həyatını anlayaraq, hiss edərək bir daha oxu və düşün...

İslam nuru ilə dolu-dolu bu qısa həyat, bəlkə də bir çox insan tərəfindən bilinmir, tanınmır[24] ancaq o, əsrlər öncəsindən bizə çox şeylər anladır.

Üfüqlərə, səmalara baxaraq, təravətini itirməyən yaşıllıqlara, çağlayıb daşan bulaqlara, ucsuz-bucaqsız ümmanlara... bir sözlə bizə təqdim edilən minlərlə nemət, minlərlə imkan və gözəlliklərə baxaraq arada bir gözlərini yumaraq bir daha düşün.

❋

Milliyyətçilik və İrqçilik.

Rəbbimiz Qurani-Kərimdə:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَىٰ وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا ۚ إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ ۚ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

"**Ey insanlar! Biz sizi bir kişi və bir qadından** (Adəm və Həvvadan) **yaratdıq. Sonra bir-birinizi tanıyasınız** (kimliyinizi biləsiniz) **deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır** (pis əməllərdən ən çox çəkinəninizdir). **Həqiqətən, Allah** (hər şeyi) **biləndir,** (hər şeydən) **xəbərdardır.**" (əl-Hucurat 49/13) buyurur.

Reallıq budur, başlıca prinsip budur. Yer üzündə yaşayan milyonlarla insan üçün əsl reallıq budur. Şəhər evlərinin məhəllələrə, qəsəbələrin və şəhərlərin ölkəyə yayılması, hər bir məhəllənin, hər bir kəndin, qəsəbənin, şəhərin... özünə məxsus xüsusiyyətlərinin olması, şivələri, danışıq və ifadə tərzləri, adət-ənənələrinin çeşidlərə ayrılması, iqlim, həyat tərzi və qidaların təsiri, araya girən minlərlə ilin gətirdiyi dəyişikliklərə baxmayaraq, həqiqət budur, Yaradanımızın buyuruğu budur...

---

24. İnşallah bu sətirlərdən sonra tanınacağına və xeyirlə yad ediləcəyinə inanıram. Onun kimi islama qovuşduqdan sonra həyatı qısa olan, Allah nuruna çatdıqdan sonra bu nurla nurlanaraq həyata göz yuman başqa səhabələr də vardır. Uhud savaşında bunlardan daha bir örnək görəcəksiniz.

Əlbəttə ki, bu müxtəlifliklərdə bir gözəllik və hikmətlər vardır.[25] Kainatdakı müxtəliflikləri və çeşidlərdə də gözəlliklər və hikmətlər vardır. Həcc mövsümündə Beytullahın ətrafında, Arafatda, Müzdəlifədə və Minada yüzlərlə müxtəlif irqin mömin könüllər olaraq qaynaşması seyr edilməyə və yaşanmağa dəyər gözəllikdədir. İslamın əmr etdiyi və öyrətdiyi bir çox xislətin itirilməsinə, zəifləməsinə baxmayaraq yenə də gözəldir. Birbirinə salamlaşmaq üçün uzanan əllərin, gülümsəyən gözlərin anlatdıqları gözəldir.

Bu gözəllik islam qardaşlığı ilə və ən xeyirlinin ən təqvalı olan olduğunu idrak etməklə mümkündür.

Şübhəsiz, hər insanın iç-içə yaşadığı, aralarında yaxın qan qohumluğu olan insanlara; doğulduğu, uşaqlığını, gəncliyini yaşadığı min bir xatirəsini daşıyan bölgəsinə qaşı könlündə fərqli hisslər vardır. Bu hisslər, şəri prinsiplərə uyğun olduğu təqdirdə islamın bəyəndiyi, hətta təşviq etdiyi hisslərdir.

Qohumlara əl tutmaq, qohumluq münasibətlərini qoruyub saxlamaq, valideynlərə hörmət və ehtiram, ... yalnız bu hisslərin tələbi deyil, eyni zamanda islami bir vəzifədir.

Dünyaya göz açılan, boy atıb böyüyərkən nemətlərindən istifadə edilən, xatirələrdə silinməz izlər buraxan, dağları ilə, meşələri ilə, çəməni ilə, bulaqları ilə iç-içə yaşanılan torpaqlara qarşı biganə qalmaq qeyri-mümkündür.

Allah Rəsulu, Məkkədən ayrılarkən Məkkəyə olan sevgisini dilə gətirir, zorla çıxarılmasa, oradan ayrılmayacağını dilə gətirirdi. Abdulla İbn Adiyy rəvayət edir: "Hazura deyilən yerdə Rəsulullahı miniyinin belində gördüm. O, belə deyirdi:

وَ اللَّهِ إِنَّكَ لَخَيْرُ أَرْضِ اللَّهِ وَأَحَبُّ أَرْضِ اللَّهِ إِلَى اللَّهِ , وَلَوْلاَ أَنِّي أُخْرِجْتُ مِنْكَ مَا خَرَجْتُ.

25. Bax. Rum surəsi, 20, 21 və 22-ci ayələr və təfsirləri.

"Allaha and olsun ki, Sən Allahın xeyirli bölgəsi, Allahın ən sevimli torpağısan. Əgər səndən ayrılmaq məcburiyyətində olmasaydım, ayrılmazdım."[26]

Başqa bir hədisdə də Məkkəyə xitab edərək belə buyurduğu rəvayət edilir:

مَا أَطْيَبَكَ مِنْ بَلَدٍ وَ أَحَبَّكَ إِلَيَّ , وَلَوْلاَ أَنَّ قَوْمِي أَخْرَجُونِي مِنكَ مَا سَكَنْتُ غَيْرَكَ.

"Nə gözəl bölgəsən və səni nə qədər sevirəm! Əgər qövmüm məni səndən çıxarmasaydı, başqa bir bölgədə yaşamazdım."[27]

❋

Aişə anamız Mədinədə xəstələnən Bilaldan (r.a) bu misraları eşitmiş və Allah Rəsuluna söyləmişdir:

أَلاَ لَيْتَ شِعْرِي هَلْ أَبِيتَنَّ لَيْلَةً بِوَادٍ وَحَوْلِي اِذْخِرُ وَ جَلِيلُ؟

وِهَلْ أَرِدَنْ يَوْمًا مِيَاهَ مَجَنَّةٍ وَهَلْ يَبْدُوَنْ لِي شَامَةٌ وَطَفِيلُ؟

"İzhir otları, sünbüllər ətrafımı sararkən
Ax! Yenə o vadidə bir gecə yata biləcəyəmmi?
Gün gəlib məcənnə suyundan içib
Yenə Şamı və Taifi[28] *görə biləcəyəmmi?"*[29]

Bundan sonra Rəsulullah (s.ə.s); "Ya Rəbb! Bizlərə Məkkəni sevdirdiyin kimi Mədinəni də sevdir..." deyə dua etmiş, beləliklə həm Məkkənin qəlblərdəki sevgisini dilə gətirmiş, həm də Mədinə sevgisi və bu hicrət yurdunun sağlam bir məkan olması üçün Rəbbinə dua etmişdir.[30]

Rəsulullahın səfərlərdən qayıdarkən Uhud dağı görününcə sevindiyi, onu salamladığı və:

---

26. Sünəni Tirmizi, Mənaqib (5/722), Müstədrək, Hicrə (3/7)
27. Sünəni Tirmizi, Mənaqib (5/723), əs-Siratu-n-Nəbəviyyə (səh. 140)
28. Məkkədə yerləşən iki təpənin adları.
29. əl-Bidayə və-n-Nihayə (3/220), Lisanu-l- Arab (11/120, 404)
30. əl-Bidayə və-n-Nihayə (3/220-221)

(هَذَا جَبَلٌ يُحِبُّنَا وَ نُحِبُّهُ.) *"Bu Uhud dağıdır, o bizi sevir, biz də onu sevirik"* buyurduğu məlumdur.[31]

Eyni hissləri Mədinə üçün də dilə gətirmişdir. Əbu Humeyd (r.a) belə rəvayət edir:

أَقْبَلْنَا مَعَ النَّبِيِّ مِنْ تَبُوكَ حَتَّى أَشْرَفْنَا عَلَى الْمَدِينَةِ فَقَالَ : (هَذِهِ طَابَةٌ!)

"Rəsulullah (s.ə.s) ilə birlikdə Təbukdan qayıdırdıq. Uzaqdan Mədinə görünmüşdü. **"Bax budur, gözəl Şəhər"**-buyurdu."[32]

❋

Qürbətdəki bir insan üçün vətən və qohumluq həsrətini, əsrlər boyu neçə-neçə şairlər dilə gətirmiş, neçə-neçə ədiblər qələmə almışdır. Bu bir neçə misal, həmin hissləri qəlbimizdə canlandırmağa kifayət edəcəyini zənn edirəm.

Azərbaycan şairi Şəhriyar bu həsrəti belə dilə gətirir:

Yada düşər bağçaların, bağların
Ala qarlı, boz dumanlı dağların
Qocalırsan keçər cavan çağların
Bir gün olar vətən deyib ağlarsan

Şəhriyarın illərlə vətənindən uzaqda yaşadıqdan sonra doğulduğu qəsəbənin yanındakı dağa səslənərək yazdığı uzun şeir, qürbətdə yaşayan bir insanın hisslərini dilə gətirməsi baxımından oxunmağa dəyər. Onun hisslərinə dair örnək bir neçə misra bu şəkildədir:

Heydər baba, kəkliklərin uçanda
Kol dibindən dovşan qalxıb qaçanda
Bağçaların çiçəklənib açanda,
Bizdən də bir mümkün olsa yad elə
Açılmayan ürəkləri şad elə

Bayram yeli çardaxları yıxanda,
Novruz gülü, qar çiçəyi çıxanda,

31. Bax. Səhih əl-Buxari, Cihad (Umdətu-l-Qari, 8/425)

32. Səhih əl-Buxari, Həcc (Umdətu-l-Qari, 8/425)

Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eləyən sağ olsun,
Dərdlərimiz qoy dikəlsin dağ olsun.

Heydər baba gün dalıvı dağlasın,
Üzün gülsün, bulaqların ağlasın,
Uşaqların bir dəstə gül bağlasın,
Yel gələndə ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana

Hər birimiz bu cür hisslərə sahibik. Uçan durnalarla, əsən küləklərlə, axıb gedən buludlarla qohumlara göndərilən salamlar, sətirlərə sığmayacaq qədər çoxdur.

❋

İslamiyyətdə "sileyi-rəhimə" verilən əhəmiyyət inkar edilməz bir həqiqətdir. Acı və şirin günlərində qohumların yanında olmaq, onlara əl tutmaq, qohumluq əlaqələrini kəsməmək, onların yaxşılığını istəmək... və bu yolda səy göstərmək, əlbəttə ki, doğru və təqdir edilən əməllərdir. Sələflərimizin həyatı bu məsələyə aid misallarla doludur.

❋

Şəri prinsiplərə əməl etməyərək bu hissləri qohumluq, milliyətçilik, tayfa və irqçilik məsələsinə çevirmək isə böyük bir xəta olmaqla yanaşı, əsrlər boyunca bəşəriyyətin ən böyük müsibətlərindən biri olmuş, minlərlə qanlı savaş və bədbəxt hadisələrin yaranmasına səbəb olmuşdur. Çox sayda zülmlərə və azğınlıqlara vəsilə olmuşdur.

Tərəfini saxladığı, müdafiə etdiyi məsələ nə olursa olsun; "mənim sülaləm və tərəfini saxladığı..." və ya "mənim irqim və onun fikir və özəllikləri ən doğrudur, ən gözəldir," məntiqi digər insanların kənarlaşdırılmasına, haqq və həqiqətin yox olmasına, nifrətlərin meydana gəlməsinə səbəb olur. Belə ki, tarixdə belə hadisələr çox sayda olmuşdur.

Qəbiləçilik dövründən qalma bu kor-koranə təfəkkürün gücü, heç də az səviyyədə deyildir.

Günümüzdə əhalisi milyardları keçən keçən islam aləmini, əsrlər boyunca qardaşlıq hissləri içində yaşadıqdan sonra parça-parça edən və birbirindən uzaq salaraq düşmən halına gətirən bu təfəkkürdür. Bu təfəkkür günümüzdə də davam edir və təəssüf ki, daxili və xarici düşmənlərimizin çox məharətlə istifadə etdiyi bir silahdır.

❋

Həqiqətə baxılması zəruri olan gözləri, yerinə görə kor edən bu təfəkkürün qaranlığını təsəvvür etmək istəyirsinizsə, Həzrət Peyğəmbərimizin (s.ə.s) həyata göz yummasından sonra cərəyan edən bu hadisəyə diqqət edin:

Səhabələrdən bir nəfər, Müseyləmətu-l-Kəzzabın qəbiləsindən birisinə aralarındakı köhnə tanışlığa əsaslanaraq Müseyləmənin peyğəmbərlik iddiası ilə bağlı qənaətini soruşur: "Allah xatirinə düzü söylə! Sən Muhəmmədi (s.ə.s) də tanıyırsan, Müseyləməni də. Muhəmmədin həyat tərzini və əxlaqını da bilirsən, Müseyləmənin də. Muhəmmədə vəhy edilən ayələri də eşidirsən, Müseyləmənin boşboğazlıqlarını da. Sən bu ikisi arasında bir bənzərlik görürsənmi? Müseyləmənin əxlaqı, həyat tərzi, rəvayət etdikləri Muhəmmədə bənzəyirmi?"

Verilən cavab dürüst, lakin dəhşətli:

واللّه أنَّ مسيلمةَ كذَّاب, ومحمدًا صادق. لكن كذّاب ربيعة أحبّ إلينا من صادق مُضَر.

"**Allaha and olsun! Bilirəm və şahidlik edirəm ki, Müseyləmə yalançı bir insandır. Muhəmməd isə doğrudur, həqiqi peyğəmbərdir. Lakin bizim Rəbiə qəbiləsinin yalançısı, Mudar qəbiləsinin[33]" doğrusundan daha çox xoşumuza gedir.**"[34]

Bu kəlmələr, milliyətçilik təfəkkürünün son nöqtəsinin aşkar bir ifadəsi idi. İnsafı olan insanı heyrətə gətirsə belə, bu yaşanan bir reallıq idi.

33. Mudar qəbiləsi: Qüreyşlilərin əsli. Atalarından Mudar İbn Nizara nisbətlə belə adlandırılmışdır. Mudar Peyğəmbərimizin soyundandır. İradəli və səsinin çox gözəl olduğu rəvayət edilir. (Əlam, H. Zirikli, 7/249)

34. Suvərun min Həyati-s-Səhabə (1/75)

Osmanlı dövləti daxilində ilk ərəb milliyətçiliyinə aid cəmiyyət 1847-ci ildə Beyrutda qurulmuşdur. Qurulan cəmiyyətin içərisində bir nəfər belə müsəlman yox idi.

Diqqət edin Corc Antonius bu cəmiyyəti "Ərəblərin oyanışı" adlı kitabında necə və hansı kəlmələrlə dilə gətirir:

انبثق فجرُ حركة العرب في ديار الشام وكن ذالك عم ١٨٤٧ م
بتأسيس جمعية متواضعة في بيروت يرعاها الأمركن.

"Şam diyarında[35] ərəb milliyətçiliyi hərəkatının şəfəqi doğmağa başlamışdı. Miladi 1847-ci il idi. Beyrutda Amerikanın qoruyub dəstək olduğu, yardım etdiyi bir cəmiyyət qurulmuşdu."[36]

Eyni il Beyrutda qurulan və Cəmiyyəti-Fünun və Ulum adını daşıyan cəmiyyətin üzvlərindən biri də Çörçildir.

Bu cəmiyyətlərin necə və kimlərin dəstəyi ilə qurulduğunu, üzvlərinin kimlər olduğunu araşdıranların bir çox ibrətli səhnələrlə qarşılaşacağına əminəm.

Yaxın tariximiz bu istiqamətdəki qəflətlərlə doludur. Cildlər dolduracağına inandığım bu misallara daha artıq müdaxilə etmək imkanım yoxdur. Lakin, qeyri-müsəlman bir ərəb milliyətçisinin bizim də diqqətimizi cəlb edəcək bir neçə məqama diqqət yetirək.

Şeir yazır, şeirində milliyətçilik məsələsinə toxunur təhrik edici və düşmənpərəst misraların arxasınca bu misraları yazır:

"İrqçilik, milliyətçilik küfrdür deyirlər,
Müzəffər olsun da hələ irqim mənim

أهلاًوسهلاً بعده بجهنم

Ondan sonra xoş gəlir, səfa gəlir cəhənnəm"

Biz də belə deyirik:

"Batil düşüncəyə saplanıb qaldınız madam,

35. Şam ölkəmizdə şəhər adı ilə tanınır. Şam, əsasən bu şəhərin də içində olduğu geniş bir bölgənin adıdır. Bu günkü xəritədə Suriya torpaqlarını əhatə etdiyi kimi Livanı və İordaniyanı da əhatə edir. Şam deyə bilinən şəhərin əsl adı isə Dəməşqdir.

36. Muaməratu Fəsli-d-Dini ani-d-Daulə (diplom işi), Məhəmməd Kazım (səh.96)

Batilə saplananları gözləyər cəhənnəm!

Buna bənzər başqa bir irqçiliyi təbliğ edən şeirə diqqət yetirək:

القومية بالنسبة إلينا نحن القو ميِّين العرب دينُ له جنتُه وناره ولكن فى هذه الدنيا.

"İrqçilər olaraq bizim üçün milliyətçilk, cənnəti və cəhənnəmi olan bir dindir. Lakin hamısı bu dünyadadır."

❋

Allah-Təala buyurur:

فَإِذَا نُفِخَ فِي الصُّورِ فَلَا أَنْسَابَ بَيْنَهُمْ يَوْمَئِذٍ وَلَا يَتَسَاءَلُونَ

Sur çalınacağı gün artıq aralarında nə qohumluq (əlaqəsi) **olar, nə də onlar bir-birindən soruşub hal-əhval tutarlar.** (Qiyamət günü heç bir qohumluq fayda verməz, qohumlar bir-birini tanımaz; hərə öz hayında olar). (Muminin, 23/101)

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاءَ لِلَّهِ وَلَوْ عَلَىٰ أَنْفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالْأَقْرَبِينَ

Ey iman gətirənlər! (Şahidliyiniz) **sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun!** (Əleyhinə şahidlik edəcəyiniz şəxs) **istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə** (sizdən) **daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin!** (Nisa, 4/135)

❋

Peyğəmbər (s.ə.s) bu mövzuda belə demişdir:

إِنَّ اللَّهَ قَدْأَذْهَبَ عَنْكُم عُبِّيَّةَ الجَاهِلِيَّةَ وَفَخْرَهَا بِالْاٰبَاءِ, إِنَّمَا هُو مُؤْمِنٌ تَقِيٌّ أَو فَاجِرٌ شَقِيٌّ. النَّاسُ بَنُو اٰدَمَ, وَاٰدَمُ خُلِقَ مِنْ تُرَابٍ.

"Allah sizlərdəki cahiliyyə kibrini, atalarla fəxr etmə xəstəliyini yox etmiş və təmizləmişdir. Bir insan ya Allaha tabe mömin, ya da üsyan edən facirdir. İnsanlar Adəmin soyundandır. Adəm də torpaqdan yaranmışdır."[37]

Başqa bir hədisdə Peyğəmbər (s.ə.s) milliyətçiliyi "cahiliyyənin iyrənc qoxusu" "نتن الجاهلية " olaraq adlandırmışdır.

❋

Bu məsələ ilə əlaqədar bir hadisəni birlikdə gözdən keçirək:

"Bilal (r.a) hər birimizin bildiyi kimi Həbəşistan əsillidir və köləlikdən gəlmədir. İslama ilk günlərdə könül bağlamış, inancı uğrunda qatlandığı əzablar və apardığı mübarizələr dillərə dastandır.

Bu əziz səhabə bir gün, qəbiləsinin tanınmışlarından olan başqa bir səhabə ilə bir məsələ haqqında mübahisə edirlər. Qarşısındakının israrına baxmayaraq öz fikrindən dönmür. Sözünə cavab qaytarılmasına alışqan olmayan bu səhabə, həmin anda düşdüyü vəziyyətin təsiri ilə Bilal həzrətlərinə: اسكت يابن السوداء "Sus, ey qara qadının oğlu!" –deyir."

İslam nuru ilə nurlandığı gündən bəri Bilal (r.a) mömin qardaşlarından belə bir söz eşitməmişdi və eşidəcəyini də zənn etmirdi. Bunu eşidən Bilal (r.a) çox üzülür və qarşılıq vermədən evinə tərəf gedir.

Özündə olmadan bu sözləri söyləyən səhabə də çox üzülmüşdü. Beynində müxtəlif fikirlərlə Həzrət Peyğəmbərimizin yanına getdi. Peyğəmbərimiz üzülməklə yanaşı həm də onun bu hərəkətinə qəzəblənərək: أَنْتَ امْرِئٌ فِيكَ نَتنُ الجَاهِلِيَّةِ "Sən, canında cahiliyyənin iyrənc qoxusundan iylər qalmış bir insansan,"-deyib etdiyi xətanın böyüklüyünə diqqət çəkdi.

Səhabə çox peşman olmuşdu. Lakin, küsməmiş, daralmamış və əksinə olaraq xətasının böyüklüyünü dərk etmişdi.

Bundan sonra etdiyi hərəkət həqiqətən örnək və bir səhabəyə yaraşacaq davranış idi. Bilalın evinə gedir, bayırdan Bilala səslənir və başını qapının kandarına qoyur, qapıya çıxan Bilaldan ona bu sözləri söyləyən ağızın üstünə ayaq basmadan bu qapıdan çıxmamasını istəyir.

---

37. Sünəni-Əbu Davud, Ədəb, 5/339-340.

Bilal (r.a) onun peşmanlığını, peşmanlıq dərəcəsini başa düşmüş, könlündəki bütün küskünlüklər yox olub getmişdi. Qucaqlayaraq onu qaldırmağa çalışdı və haqqını halal etdiyini dedi. Lakin səhabə qərarlı idi, and içmişdi ki, ayağa qalxmayacaq. Onu fikrindən daşındıra bilməyəcəyini başa düşən Bilal yavaşca ona toxunur və qaldıraraq bu əziz dostuna, din qardaşına yeni bir sevgi ilə sarılır.

İndi isə yenidən əsl mürşidlər mürşidi, Həzrət Peyğəmbərimizə diqqət yetirək:

يَا أَيُّهَا النَّاسُ إِنَّ رَبَّكُمْ وَاحِدٌ, إِنَّ اَبَاءكُمْ وَاحِد. أَلاَ لاَفَضْل لِعَرَبِيٍّ عَلَى عَجَمِيٍّ وَلاَ لِعَجَمِيٍ عَلَى عَرَبِيٍّ وَلاَ لأَ حْمَرَ عَلَىَ أَسْوَدَ عَلَىَ أَحْمَرَ إِلاَّ بِالتَّقْوِىَ...

"Ey İnsanlar! Rəbbiniz bir, atanız birdir. Diqqət edin! Ərəbin ərəb olmayana, ərəb olmayanın ərəbə, ağ dərilinin qara dəriliyə üstünlüyü yoxdur. Üstünlük, yalnız təqva ilədir."[38]

إِنَّ اللَّهَ لاَ يَنْظُرُ إِلىَ صُوَرِكُم وَأَمْوَالِكُمْ وَلَكِنْ يَنْظُرُ إِلىَ قُلُوبِكُمْ وَأعْمالَكُم.

"Allah, sizin zahiri görünüşünüzə, var-dövlətinizə baxmaz. O sizin qəlblərinizə və əməllərinizə baxar."[39]

Həqiqət bundan ibarət olduğu halda, hansımız deyə bilərik ki, hal-hazırda ucqar bir dağ kəndində yaşayan birindən daha xeyirliyik.

38. Müsnəd, Əhmən İbn Hənbəl (5/411)

39. Səhih əl-Müslim, Birr (4/1987)

Qürbətdə İlk Dəvətçi

Musab İbn Umeyr

-radiyallahu anh-

مصعب بن عمير

Çox gözəl bir gənc idi. Çiyinlərinə tökülən çox gözəl saçları var idi. Hamının diqqətini cəlb edəcək qədər yaraşıqlı idi.

Ailəsi onu çox sevərdi. Xüsusilə anası imkanlı bir qadın idi. Şamdan, Hindistandan ən gözəl parçalar gətirtdirir və oğluna heyran olacaq qədər gözəl libaslar tikdirirdi.

Gözəl ətirlər vurar, Hadramövtdən gətirilən xüsusi ləpiklər geyinərdi.

Rəsulullah (s.ə.s) onun bu halını xatırlayır və; "Məkkədə Musab İbn Umeyrdən daha gözəl saçlı, daha gözəl geyimli, daha çox nemətlər içində yaşayan birisini görməmişdim."-buyururdu.

O, Allah Rəsulunun (s.ə.s) dəvətini eşitmişdi. Bəzi ayələr dillərdə gəzirdi. Onları eşidir, müsəlman olanların davranış və yaşayışlarına diqqət edirdi. Eşitdikləri və gördükləri onun üzərində dərin təsir buraxmışdı.

Rəsulullahın (s.ə.s) Dərul-Ərqamda olduğunu, dəvətə buradan davam etdiyini öyrənmişdi. Oraya getdi və Allah Rəsulunun (s.ə.s) hüzuruna daxil oldu, hüzurundan müsəlman olaraq ayrıldı.

Artıq yeni bir həyəcanla həyata atılmışdı. Lakin bunu aşkar şəkildə nümayiş etdirməsi çox çətin idi. Anasının və qəbiləsinin göstərəcəyi əks təsirdən çəkinirdi; çünki onların islama baxış tərzlərini yaxından bilirdi. Hərəkətləri ilə müsəlman olduğunu onlardan gizlətmək məcburiyyətində qaldı.

Allah Rəsulunun yanına gizlincə gəlib-gedirdi. Bir gün qüreyşlilərdən bir nəfər[40] onu namaz qılarkən gördü. Gedib anasına və qəbiləsinə xəbər verdi.

Artıq məsələ məlum idi. Bütün ailənin sevdiyi, ipək paltarlar içində küçələrdə yerişini seyr edərkən fəxr etdiyi Musab, anası və qohumları tərəfindən evə həbs edildi.

Həbəşistana hicrət üçün Peyğəmbərimiz tərəfindən icazə verildiyini eşidənə qədər həbsdə qaldı. Hicrət xəbərini alınca həbsədn qaçaraq hicrət karvanına qoşuldu və o da Həbəşistana hicrət etdi.

Bir müddət Həbəşistanda qaldı. Daha sonra geri qayıtdı. Geri qayıdarkən artıq əynində o gözəl libaslar yox idi...

✺

Rəsulullah (s.ə.s) Aqabə[41] adlanan yerdə, mədinəli Həzrəc qəbiləsindən bir qrupla qarşılaşmış, onlarla tanış olub islam haqqında onlara məlumat vermişdi.

Yəhudilərlə birlikdə eyni bölgədə yaşayan, peyğəmbərlər haqqında cüzi də olsa məlumatları olan, son Peyğəmbərin gəlişinin yaxınlaşdığını bilən mədinələlilər, fitrətlərinə uyğun və hər cümləsi başqa bir həqiqəti ifadə edən bu dəvəti qəbul etmiş, vətənlərinə iman edərək, Allah Rəsulunu (s.ə.s) təsdiq edərək qayıtmışdılar.

Qayıtdıqdan sonra boş oturmamış, başqa könülləri də iman nuruna təşviq etmiş, onları xəbərdar etmiş, öyrəndiklərini öyrətmiş və bir çox qəlbi Haqq yola hazır hala gətirmişdir.

Bir il sonra eyni mövsümdə 12 nəfərlik bir dəstə yenə Aqabədə idi. Rəsulullahı (s.ə.s) tapıb tövhid inancını qoruyacaqlarına, oğurluq və zina etməyəcəklərinə, qız uşaqlarını öldürmə-

40. Bu adamın Osman İbn Talha olduğu rəvayət edilir. (əl-İstiab, 3/471, Həyatu-s-Səhabə 1/283)

41. Aqabə- Mina ilə Məkkə arasında, Minanın sərhəddi bitdikdən sonra başlayan vadinin adıdır. Beyət edilən yer, bu vadidə Cəməri-Aqabə (Böyük Cəmərə)dən Məkkə istiqamətinə doğru təxminən 200 metr getdikdən sonra yolun sağında 25 metrə qədər içəri tərəfdədir. Beyət edilən yerdə inşa olunmuş məscid əsas yoldan görünür.

yəcəklərinə, xeyirxah əməllər edəcəklərinə, doğru yoldan ayrılmayacaqlarına dair beyət etmişdilər. Bu beyət, "Birinci Aqabə beyəti" kimi tarixə yazıldı.

❋

Rəsulullah (s.ə.s) Musabı onlarla birlikdə Mədinəyə göndərdi. Onlara Quran öyrədəcək, islam haqqında məlumatlar verəcək və onları bu yolda tərbiyə edəcəkdi.

Bu dəstə ilə birlikdə Mədinəyə gəldi. Əsəd İbn Zürarənin evində qonaq edildi. Əsəd (r.a) islamı təbliğ məsələsində ondan heç bir köməyini əsirgəmədi.

Bu gözəl əxlaqlı, gözəl Quran oxuyan dəvətçi, digər möminlərlə birlikdə qibtə ediləcək bir zəhmət sərf edirdilər. Oxuyur, oxudur, namaz qıldırır, islamı təbliğ edir; davranışları və sözləri ilə sevgi, ehtiram qazanırdı; hər gün könüllərin fəthində bir neçə addım daha irəli atırdı.

❋

Yəsribdə[42] iki başlıca qəbilə var idi. Evs və Həzrəc qəbilələri. Uzun illərdən bəri bir-birləri ilə savaş içində yaşayırdılar. Mütəmadi olaraq yəhudilərin təhriki ilə Mədinəni özləri üçün cəhənnəmə çevirirdilər.

"Yaumu Buas" adlanan savaş günü, hələ də gündəmdə idi. Həmin gün yenə yəhudilərin təhriki ilə hərəkətlənməyə başlamışlar və qırx gün müharibə hazırlığı görmüşlər; Mədinə yaxınlığında "Buas" adlanan yerdə üz-üzə gəlmişdilər.

Bu müharibə təxminən hicrətdən beş il əvvəl baş vermiş, hər iki tərəf də dirənib geri addım atmadığı üçün güclər bərabər olduğuna görə çox itkiyə səbəb oldu və Evs tərəfindən Həzrəcin evləri atəşə verildi.

Mədinəlilər bu dəhşətli müharibənin yaralarını hələ sarıya bilməmişdilər.

Bu kor-koranə savaşın mənasız olduğunu, təhriklərə getdiklərini tez-tez hiss edir və dilə gətirirdilər. Lakin silinməsi çox

42. Yəsrib-Mədinənin islamdan əvvəlki adıdır.

ağır olan izlər əmələ gəlmişdi. Deyilən və dillərdə gəzən şeirlər isə həmişə xatirələrdə gəzmişdir.

✺

Musab (r.a) bütün bunları bilirdi. O, yəhudilər kimi qızışdırmır, sakitləşdirməyə çalışırdı. Bu iki qəbiləni bir-birinə qırdırmaq, aralarındakı düşmənlikdən yararlanmağa çalışmır; əksinə yaraları sarımağa, islam qardaşlığını könüllərə yerləşdirməyə çalışırdı.

Həm Evs, həm də Həzrəc qəbiləsindən insanları ziyarət edir, onlara islamı tanıdır, köməkçisi İbn Ümmi Məktum və Mədinəli gənclərlə islam nurunun daxil olmadığı ev qoymamaq üçün gecəsini gündüzünə qatırdı.

Qəbiləsinin ehtiram göstərdiyi Səid İbn Muaz ilə Üseyd İbn Xudayr[43] müsəlman olur; artıq Mədinə, bahar fəslinin gətirdiyi təravət kimi Mədinəyə görülməyəcək yeni bir dəyişiklik gətirirdi.

✺

Bir il sonra Musab Məkkəyə qayıdarkən yanında müsəlmanlarla yanaşı, könlü islama meyl etmiş, ancaq islam nuruna qovuşmamış insanlar da var idi.

Rəsulullah (s.ə.s) yanında olan və hələ də müsəlman olmayan əmisi Abbasla birlikdə Aqabədə yenə bu dəstə ilə görüşdü. İkisi qadın[44] olmaqla 75 nəfərdən ibarət idilər. Bəra İbn Mərur onlara başçılıq edirdi. Rəsulullah (s.ə.s) onlara islam haqqında məlumat verdi, Quran oxudu və onlardan beyət aldı[45]. Rəsulullaha ilk beyət edən Bəra İbn Mərur oldu.

Musab (r.a) beyətdən sonra təkrar Mədinəyə qayıtdı. O mədinəlilərin müəllimi idi. İslamın başqa bölgəyə göndərilən ilk

43. əl-Bidayə (3/149-151) Həyatu-s-Səhabə (1/168-171)

44. Bu iki qadından birincisi; Nüseybədir. Ləqəbi Ümmü Ammara, atası Kəb İbn Amrdır. Cihad ruhu və fədakarlıqları ilə tanınır. (Günümüzdə daha çox Nəsibə kimi yad edilir.) İkincisi, Əsmadır. Ləqəbi Ümmi Mənidir. Amr İbn Adiyin qızıdır. Muaz İbn Cəbəlin (r.a) anasıdır. (Sirətu İbn Hişam, 1/466, 457, əl-İstiab, 4/475-478, əl-İsabə, 4/230, 479)

45. Sirətu İbn Hişam (1/438-467), əl-Bidayə və-n-Nihayə (3/146-163), əs-Sirətu-n-Nəbəviyyə (129-135).

dəvətçisi idi; İslamı ən gözəl şəkildə yaşayaraq könüllərə sirayət etməsinə vəsilə olan bir insan idi.

Onun, İbn Məktum və onlara dəstək olan mədinəli möminlərin səyləri ilə Mədinə, möminlərin və Allah Rəsulunun (s.ə.s) hicrəti üçün hazır hala gətirildi.

Bu səyləri sayəsində səmimiyyət, xidmət eşqi və uğurla islam tarixində müstəsna yerlərini aldılar.

Bədr savaşında islam bayrağı onun əlində idi. Zəfərin son anına qədər məhz o bayrağı əllərində dalğalandırdı.

Uhud savaşında da bayraq ona həvalə edilmişdi. Savaş başlamış, hələ ilk dəqiqələrdə müsəlmanların əzmkarlıqla və cəsarətlə hücumu sayəsində düşmən ordusu param-parça olub qaçmağa başlamışdı.

Lakin Cəbəli-Ayneynə yerləşdirilən və müsəlmanlara arxadan edilə biləcək hücumun qarşısını almaq vəzifəsi verilən, başlarına Abdullah İbn Cübeyrin əmir olaraq təyin edildiyi 50 oxçudan çoxu, Rəsulullahın (s.ə.s) bütün əmr və xəbərdarlıqlarına, Abdullahın israrına baxmayaraq artıq qələbə çalındığını zənn edərək yerlərini tərk etmişdilər. Bu fürsəti əldən verməyən və başlarında Xalid İbn Vəlidin olduğu müşrik süvari ordusu, müsəlmanlara arxadan hücum etdi. Qaçmağa çalışan müşrik ordusu bunu görüncə geri qayıtmış və iki tərəfdən hücuma məruz qalan və onsuz da sayları az olan müsəlmanlar, gözlənilmədən baş verən bu hadisə qarşısında dağınıq hala gəlmiş, vahid komandanlığı itirmiş və Allah Rəsulu təhlükələrlə üz-üzə qalmışdır.

Bir dəstə müsəlman igid, Rəsulullahın (s.ə.s) ətrafından ayrılmamış, nəyin bahasına olursa-olsun yorulmadan cihada davam etdi.

Bunlardan biri də, islamın bayraqdarı Musab (r.a) idi. Şəhid olana qədər mübarizəyə davam etdi. O şəhid olduqdan sonra bayrağı Əli (r.a) aldı.

Bu vəfakar, cəfakeş, örnək dəvətçi, gözəl simalı, gözəl əxlaqlı, gözəl qari.. hər şeyi ilə gözəl insan, bu dünyaya vida edib, əbədi həyata köç etməyin ən gözəlinə nail oldu.

Lakin o, artıq əvvəllər olduğu kimi çox gözəl paltarlar içində deyildi. Uzaq diyarlardan gətirilən parçalar, ipək geyimlər yox idi.

İslam nuru ilə nurlanan bir şairin:

اَلْحَمْدُ لِلَّهِ إِذْ لَمْ يَأْتِنِى أَجَلِى حَتَّى لَبِسْتُ مِنَ الْإِسْلاَمِ سِرْبَالاً

"Allaha həmd olsun ki, gəlib çatmadan əcəlim, İslamın o nurlu libasını mən də geyindim."[46] dediyi kimi, üzərində islamın nurlu libası var idi. Uğrunda torpağa düşdüyü mübarizəsi var idi; üfüqdə əbədi səadət və əbədi aləmdəki nemətlər, libaslar var idi.

❋

Dəfn edilərkən üstündəki paltar, kəfən olaraq bədənini örtməyə kifayət etməmiş, paltarı ilə baş tərəfi örtülmüş, ayaqları "izhir" otları ilə örtülmüşdü.

İmam Buxari rəvayət edir[47]; Rəsulullahın (s.ə.s) bayraqdarı, islamdan öncə Qüreyş gənclərinin ən çox nemətlər içində yaşayanı şəhid olmuş və əynindəki paltarı ilə kəfənləndi. Paltar, baş tərəfinə örtülsə ayaqları, ayaqları örtülsə, başı açıq qalırdı. Allah Rəsulu (s.ə.s) "Baş tərəfini paltarı ilə örtün, ayaqlarını da izhirlə örtün" buyurdu.

Uhud şəhidliyində, şəhidliyin ortasında qara daşlarla əhatələnmiş kiçik yerdə Şəhidlər Sultanı Həmzə (r.a) ilə birlikdə yan-yana yatan odur. Yanlarında başqa bir şəhid də vardır, o Abdullah İbn Cahşdır.

Hamısını rəhmət və qibtə ilə yad edirik.[48]

---

46. Şeir Ləbid İbn Rəbiəyə aiddir. Bu beyti dedikdən sonra Qurana xidmət üçün bir daha şeir söyləmədiyi və ya söyləməməyə əzm etdiyi rəvayət edilir.

47. Səhih əl-Buxari, Məğazi (Umdətu-l-Qari 14/140-141)

48. Musab İbn Umeyr (r.a) haqqında məlumat üçün bax:
Sirətu İbn Hişam (1/431-438, 2/73), əl-İstiab (3/468), Siyəru Əlami-n-Nübəla (1/145-150), əl-İsabə (3/421), Usdu-l-Ğabə (5/181-184), Dəlailu-n-Nübüvvə (2/430-441,

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Musabın (r.a) doğru olduğuna inandığı mübarizəni bütün dünya nemətlərindən, valideynlərindən və qohumlarından üstün tutması.
- İnancını, inandığı kimi yaşaya bilmək üçün hicrəti.
- Birinci və ikinci Aqabə beyətlərinin əhəmiyyəti və sonraya təsiri.
- Musabın, dəvətçi və öyrədən şəxs qismində başqa bölgəyə göndərilən ilk səhabə olması.
- Gözlə əxlaqı, gözəl Quran oxuması, daxildən gələn mülayim yanaşma tərzi və bitib tükənməyən səyi ilə əldə etdiyi nailiyyət.
- Onu Mədinədə qonaq edən Əsəd İbn Zürarənin (r.a) həm ev sahibi, həm də bir mömin olaraq dəvət mərhələlərinin hər anında bu əziz qonağına arxa olması və əlnidən gələni əsirgəməməsi.
- Abdullah İbn Məktumun (r.a) ona arxa durması, onunla çiyin-çiyinə dayanaraq dəvət və xidmətdə göstərdiyi səy.
- Yəhudilərin bir çox bölgədə olduğu kimi öz varlıq və təmtəraqlı həyat tərzlərini başqalarının acı, iztirab, ayrılıq və düşmənlikləri üzərində bina etmələri.

3/238-278), əl-Bidayə və-n-Nihayə (3/149-151, 4/46), Həyatu-s-Səhabə (1/168-170, 283, 2/273), əs-Sirətu-n-Nəbəviyyə (səh. 130, 134, 199)

- İslam qardaşlığının, cahiliyyə savaşlarını silib aparması, möminlərin qarşısında birlik, bərabərlik, izzət və şərəfə doğru uzanan yeni üfüqlər açması.
- Rəsulullahın (s.ə.s) Musaba olan sevgisi, etibarı və onu təqdir etməsi; həm Bədrdə, həm də Uhudda islam bayrağını ona təslim etməsi.
- Bu gözəl insanın, gözəl ölümü və ibrətli dəfni. Bu dəfnin köhnəsi ilə, yenisi ilə onu tanıyanların üzərində buraxdığı təsir.

❋

Bir Neçə Söz:

Musab İbn Umeyr (r.a) əsrlər boyunca daha çox iki xüsusiyyəti ilə yad edilmiş, həm onunla birlikdə yaşayan səhabələrə, həm də sonrakı əsrlərə ibrət olmuş, yol göstərmişdir. Bu iki xislət, onu xatırlayan hər insanı kövrəltmiş, həyatına istiqamət verməsinə səbəb olmuşdur.

Bunlardan birincisi; islamda əvvəlki zahiri görünüşü ilə islamla şərəfləndikdən sonrakı görünüşü.

İkincisi; bir dəvətçi kimi əldə etdiyi uğur.

Bu iki görünüş arasındakı fərqin, bu qədər diqqət çəkməsi, əlbəttə ki, bu əziz səhabənin gözəl əxlaqı, fədakarlığı, örnək davranışı, təvazökarlığı və bütün bunlara əsaslanaraq mömin könüllərdə taxt qurması idi. Bu iki xislət üzrə yaşadığı həyatın hər anının qibtə ediləcək gözəlliklərlə dolu olması idi.

❋

İmanı Zəlalətdən, Haqqa Xidməti Dünya Malından Üstün Tutmaq

Musab (r.a) bir çox dünya nemətini imanı uğrunda arxada qoymuşdur. İnandığı yolda yoxluqlara razı olmuşdu. Fədakarlıqlarla dolu həyatı şəhadətlə sona çatacağı ana qədər bu nemətlərdən ona dünya həyatında düşən pay çox az idi. Şəhid ol-

duğu və dəfn ediləcəyi andakı libasının bədənini örtməyə kifayət etməməsi, daranmamış yundan toxunması və bir çox yerinin yamaqlı olması, gəncliyindəki geyimini yaxından tanıyanların əlbəttə ki, kədərlənəcəyi, biganə qalmayacağı bir həqiqət idi.

O, iki hicrətin ikisində də iştirak etmişdi. Dünya malına əhəmiyyət verməmiş, apardığı mübarizəni anlatmaq, yaymaq və yaşatmaq üçün hər yoxluğa qatlanmış, keç kimdən dünya malına aid bir tələbi olmamışdır. O, islamın ilk qürbət eldə dəvətçisi, cihadlardakı bayraqdarı idi və islam şəhidi olaraq izhir otları ilə örtülərək dünyanı tərk etdi. Bəlkə də Rəbbi bu cəhəti ilə unudulmayan bir nümunə olmasını istəmişdi. Həqiqətən də unudulmadı və unudulmayacaqdır.

Abdurrahman İbn Avf həyatda cənnətlə müjdələnən on nəfərdən biri idi. Təsəvvür edilməyəcək qədər comərd, vəfakar, imkanlı və dünya malına hökm etməsini bilən bir insan idi.

Çox oruc tutardı. Bir gün yenə oruc tutmuşdu. İftar üçün qarşısına yeməklər qoyulmuşdu. Qarşısındakı yemək növləri diqqətini çəkdi. Bir anlıq möminlərin yoxluq və əzablı günlərini xatırladı. İftar anının da verdiyi hisslər içində bu sözləri söylədi:

"Musab İbn Umeyr məndən daha xeyirli bir insan idi. Şəhid edildiyində kəfəni belə olmadı. Paltarı ilə başını örtdüyündə ayaqları, ayaqları örtüldüyündə baş tərəfi açıq qalırdı...

Sonra dünya və dünya nemətləri qarşımıza sərildi...

İçimə qorxu bir gəlir; əcəba bizim etdiklərimizin qarşılığı bizə dünyada ikənmi verilir?"

Sonra göz yaşlarını saxlaya bilmədi.[49]

Musabın (r.a) həyatı bütünlükdə göz önünə gətirilərək həyatımızın da çox ciddi mühasibəyə ehtiyacı vardır.

---

49. Səhih əl-Buxari, Məğazi (Umdətu-l-Qari 14/140-141) Suvərun min Hayati-s-Səhabə (4/55) Abdurrahman (r.a) ilə əlaqədar məlumat irəlidə veriləcəkdir.

Qürbətdəki Dəvətçi

Bunu unutmadan, əsla gözdən və könüldən iraq etmədən üzərində həssaslıqla dayanmağımız, nümunə götürməyimiz zəruri olan Musabın digər bir cəhəti də dəvətçilik vəsfidir. Apardığı mübarizəni çatdırmaq, könüllər qazanmaq üçün göstərdiyi səy, izlədiyi üslub və əldə etdiyi nailiyyətdir.

Oxuyur, oxudur, başa salır, dinləyir; danışdığı hər kəlmə qulaqlara xoş gəlir, könüllərə başqa bir həzz verirdi. Ev-ev gəzir, hamı ilə tanış olur, imanın həyata əks etməsinin ən gözəl meyvələrini verir və onun səmimiyyəti könüllərdə dərin izlər buraxırdı.

Tilavət etdiyi Qurani-Kərim, səsindəki lətafət və səmimiyyət; ədəbi incəliklərə düşgün, məna dərinliklərindən ayrı bir həzz duyan dinləyicilərin qəlblərinə sirayət edir, qəlblər yumşalır, saxlanılması imkansız göz yaşları yanaqlardan süzülür və iman karvanına yeni qoşulanlar günbəgün artırdı. Yanına dümən kimi gələnlər belə, ayrılarkən çox fərqli hisslərlə geri qayıdırdılar.

Məhz onlardan biri:

Useyd İbn Xudayr, Evs qəbiləsinin tanınmışlarından idi. Sad İbn Muaz ilə birlikdə əyləşmişdilər. Musabın yaxınlıqlarındakı bağçada bir dəstə ilə söhbət etməyə gələciyini eşitmişdilər. Onu bu bağçaya gətirməyə cürət edən şəxs Əsəd İbn Zürarə idi. Əsəd, Sad İbn Muazın xalası oğlu idi. Bu səbəbdən onu susdurmağa Sad deyil, Useyd İbn Xudayr gedirdi. Zirehini götürüb bağçaya tərəf üz tutmuşdu. Çox qəzəbli idi. Musab və Əsədin bu qədər cürətli davranması, artıq həddini aşmaq idi. Onlara elə bir dərs verəcəkdi ki, bir daha onların torpaqlarına ayaq basmayacaqdılar.

Əsəd onun gəldiyini görür və; "Vay bizim halımıza! Bu gələn, qövmünün ağası, ən uzaqgörəni, ən şəxsiyyətlisi və ən çox sözü eşidilənidir... Bu gələn Useyd İbn Xudayrdır!"-deyirdi. "O müsəlman olsa neçə-neçə insan onun arxasınca gedər..."

Useyd gəlib zirehi əlində üzünü Musaba tutaraq; "Sizi bizim diyarımıza gətirən, zəiflərimizin ağlını başından almasına vadar edən nədir? Əgər başının salamat qalmasını istəyirsənsə, bizim bölgəmizdən uzaq durun!"-dedi.

Hirsli olduğu hər halından bəlli idi. Danışarkən qəzəbini büruzə verirdi. Danışarkən əmr edər bir tərzdə danışırdı. Ciddi bir gərginlik yaranmışdı. Musab (r.a) təbəssüm edən gözləri ilə ona baxdı. Hər davranışından xoş niyyət və səmimiyyət sezilirdi. Mülayim və sakit bir tərzdə ona xitab edərək:

"Ey qövmünün möhtərəmi! Bundan daha xeyirxah bir iş görmək istəyirsənmi?"

"Nədir o xeyirxah əməl?"

"Yanımıza əyləş, dediklərimizi dinlə. Əgər dediklərimiz doğrudursa, xoşuna gedər qəbul edərsən; xoşuna getməzsə bəyənmədiyini deyərsən. Biz də buradan gedər və bir daha sizi narahat etmərik."

Təəccüblə deyilənin doğru olduğunu hiss edərək o da "doğrudur!"-dedi. Qılıncını yerə sancıb əyləşdi.

Musab (r.a) danışmağa başladı. Diqqətlə baxan gözlər, eşidən qulaqlar, kövrələn qəlblər... Sonra oxunan Qurani-Kərim, dəyişən sima, könüldə rahatlıq və dodaqlardan süzülən kəlmələr: "Nə qədər gözəl sözlərdir! Tilavət etdiyin nə qədər şirin, nə qədər gözəldir! İslamı qəbul edərkən nə edilməlidir?[50]"...

Usdu-l-Ğabədə Musab (r.a) üçün; "Useyd İbn Xudayr ilə Sad İbn Muazın islam nuruna qovuşmasına o vəsilə olmuşdur ki, bu da islam yolunda həqiqi mənada iftixar ediləsi ən gözəl xidmətlərdəndir."[51]... deyir.

❋

O, Mədinəyə gəldiyi günlərdə yad edildiyi kimi; "Məkkəli gənc, Məkkəli dəvətçi, Muqri (Quran müəllimi) idi.

O, dəvət eşqi daşıyan hər möminin örnək olması zəruri olan bir insan idi. O, hicrət yurdunun hazırlanmasında böyük əməyi olan bir insan idi. O, ilk bayraqdarımız, unudulmaz şəhidimizdir... "

50. Sirətu İbn Hişam, (1/435-436), Dəlailu-n-Nübüvvə (2/437-440), Suvərun min Hayati-s-Səhabə (3/25-28).

51. Useyd İbn Xudayr (r.a) həqiqətən islama böyük xidmətləri olan səhabədir. Həyatını ayrıca araşdırmağa dəyər.

Məsuliyyət Hissi və Haqq Mübarizənin Cəfakeşləri ilə Birlikdə Olmaq

Abdullah İbn Məktum

radiyallahu anh

عبدالله بن أم مكتوم

Rəsulullah (s.ə.s) bir gün qüreyşin tanınmışları ilə söhbət edirdi.[52] Onları itirməmək, onların müsəlman olması ilə geniş ətraflarının da islama meyl edəcəyinə ümid edirdi.

Söhbətin tam məqamında Abdullah İbn Məktum (r.a) gəldi. Rəsulullahdan bir şey soruşmaq istəyirdi:

يارسول اللّه! علّمني مما علّمك اللّه!

"Ey Allahın Rəsulu! Rəbbinin sənə öyrətdiyindən mənə də öyrət!"

Rəsulullah (s.ə.s) sözünü yarımçıq kəsmək istəmirdi. Bu onun mübarək simasından da bəlli idi. Yenidən üzünü qüreyşlilərə çevirdi və onlarla söhbətini bitirdi. Onların islamla şərəflənməsini istəyir, ümidini gerçəkləşdirməyə çalışırdı.

Aralarındakı söhbət bitmiş, Rəsulullah (s.ə.s) onları yola salmış, ailəsinə tərəf qayıtmağa başlamışdı ki, vəhy gəlməyə başladı. Olduğu yerdə dayandı və vəhy gəlməyə başladı:

عَبَسَ وَتَوَلَّىٰ (١) أَنْ جَاءَهُ الْأَعْمَىٰ (٢) وَمَا يُدْرِيكَ لَعَلَّهُ يَزَّكَّىٰ (٣)

52. Bu adamların kimlər olduğu mövzusunda müxtəlif məlumatlar vardır. Əbussudu (rəhmətullahi əleyh) təfsirində bu adamların, Rəbiənin iki oğlu Utbə və Şeybə, Əbu Cəhl, Abbas İbn Əbdülmüttəlib, Ümeyyə İbn Xələf, Vəlid Bin Muğirə olduğunu rəvayət edir. Bu barədə məlumat əldə etmək üçün bax: İrşadu Əqli-s-Səlim (9/107), əl-Cami Li-Əhkami-l-Quran, Qurtubi (19/211-212), Müxtəsər Təfsiri İbn Kəsir (3/599-600)

"(Peyğəmbər) **qaşqabağını töküb üzünü çevirdi. Yanına korun** (Abdullah ibn Ümmi-Məktumun) **gəlməsindən dolayı. Nə bilirsən, bəlkə də, o** (səndən islama dair soruşub öyrənəcəkləri ilə) **təmizlənəcəkdir!**" (Əbəsə, 80/1-3)

Surənin əvvəlində keçən 16 ayə bu nüzul səbəbinə əsasən vəhy edilirdi.

✺

Allah Rəsuluna (s.ə.s) bu mübarizəyə sahib çıxan, əzablarına qatlanan insanlara yaxınlıq göstərməsi, onlara ikinci plana atmaması, biganə yanaşmaması əmr edilirdi.

Rəsulullah (s.ə.s) daha sonrakı günlərdə Abdullahı gördükcə ona yaxınlıq göstərir, mütəmadi olaraq "Mərhaba! Rəbbimin məni danlamasına (xəbərdar etməsinə) səbəb olan insan!"-deyərdi. Yanına əyləşib könlünü xöş edərdi.

✺

İbn Ümmi Məktum deyə məşhur olan bu əziz səhabə, hər zaman belə yad edilir, artıq əsl adı belə çətin xatırlanırdı. Bir çox kitabda adının Abdullah olduğu rəvayət edilir. İraqlılar isə Amrdır deyirlər. Anasının adı Ətiqə, atasının adı isə Qeys idi.

Həmçinin Xədicə anamızın dayısının oğludur. Xədicə anamızın anasının adı Fatimə, Fatimənin qardaşı da İbn Ümmi Məktumun dayısı Qeys İbn Zaidədir.

İlk müsəlmanlardan, ilk nura qovuşan və ilk əzabları çəkənlərdən... Allahın əmrinə könüldən bağlanıb, Allah Rəsulunun yanında yer alanlardandır.

Mədinəyə Musab (r.a) ilə ilk hicrət edənlərdən. Onunla birlikdə Mədinədə ev-ev gəzib Allah nurunu yaymaq mübarizəsi verənlərdəndir.

Haqq mübarizədə keçirdiyi həyatının hər mərhələsi fədakarlıqlarla doludur.

Lakin onu əsl yad etməyimizə səbəb; onun ilahi əmrlər qarşısındakı həssaslığıdır.

Bədr savaşından sonra cihadın və mücahidlərin fəzilətləri, üstün rütbəsi, cihaddan uzaq duranlardan fərqini, imana sahib olmaq, onu yaşamaq və yaşatmaq mübarizəsinin izzət və şərəflə dolu hissini ifadə edən ayələr endirildikdən sonra sanki bu ayələr cihadla bağlı məsələdə də, minlərlə səhabə arasından onu nəzərdə tuturmuşcasına müdhiş bir məsuliyyət hissinə qapılaraq Rəsulullahın (s.ə.s) yanına gəlmiş və:

يارسول! والله لو أستطيع الجهاد الجاهدت...

"Ya Rəsulallah! Allaha and olsun ki, cihad etməyə imkanım olsa, edə bilsəm edərdim,"-deyir.

Daha sonra göz yaşlarını saxlaya bilməyərək :

اللهمّ أنزل عذري...اللهمّ أنزل عذري!

"Ya Rəbb! Üzrümü bəyan edən ayə nazil et! Üzrümü bəyan edən ayə nazil et!"-deyə dua etdiyi rəvayət edilir.[53]

Zeyd İbn Sabit (r.a) rəvayət edir: İbn Ümmi Məktum, Rəsulullah (s.ə.s) mənə vəhyi yazdırarkən gəlmiş və bu sözləri demişdi. Həmin anda Rəsulullahın (s.ə.s) dizinin bir hissəsi dizimə toxunurdu. Birdən dizi ağırlaşmağa başladı. Vəhy gəlməyə başlamışdı. Dizimin əziləcəyini zənn etdim. Birazdan yüngülləşdi. Mənə dönərək; "Zeyd, yazdığını oxu!"-buyurdu. Oxudum.

لاَيَسْتَوِي الْقاعِدُونَمِنَ الْمُؤْمِنِينَ...

"Möminlərdən savaşda iştirak etməyənlər.... bir deyildir"

Rəsulullah (s.ə.s) əlavə etdirdi:

"غَيْرَ أُولى الضَّرر ***"Üzrlü olanlar xaric...***" Sonra da ayeyi-kərimələri yazdırmağa davam etdi.

Rəbbimiz ayeyi-kərimələrdə belə buyururdu:

---

53. Səhih əl-Buxari, Cihad və Siyər (Umdətu-l-Qari, 11/373), Müxtəsər Təfsiri İbn Kəsir (1/466).

لَا يَسْتَوِي الْقَاعِدُونَ مِنَ الْمُؤْمِنِينَ غَيْرُ أُولِي الضَّرَرِ وَالْمُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ ۚ فَضَّلَ اللَّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ عَلَى الْقَاعِدِينَ دَرَجَةً ۚ وَكُلًّا وَعَدَ اللَّهُ الْحُسْنَىٰ ۚ وَفَضَّلَ اللَّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا (٩٥) دَرَجَاتٍ مِنْهُ وَمَغْفِرَةً وَرَحْمَةً ۚ وَكَانَ اللَّهُ غَفُورًا رَحِيمًا (٩٦)

“**Zərər çəkmədən** (üzrsüz səbəbə görə evlərində) **əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən** (vuruşan) **kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları** (evlərində) **əyləşənlərdən** (cihada getməyənlərdən) **dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına** (hər ikisinə savab) **vəd etmişdir.** (Lakin) **Allah mücahidlərə** (evlərində) **oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir.** (Onları) **Allah tərəfindən yüksək dərəcələr, bağışlanma və mərhəmət gözləyir. Allah bağışlayandır, rəhm edəndir.**” (ən-Nisa, 4/95-96)

Bu ayə ilə cihadın və mücahidlərin fəziləti dilə gətirilərkən, o və onun kimilərin birbaşa cihaddan, qızmar döyüşlərdə iştirak etməkdən məsul olmayacağı, aşkar və qəti şəkildə ifadə edilirdi. Lakin onun bu həssaslığı unudulacaq kimi deyildi.

Gücünün çatdığı heç bir xidmətdən çəkinmirdi. Musab (r.a) ilə dəvətçi, Bilal ilə Allah Rəsulunun (s.ə.s) müəzzini idi. Onu biz daha çox Bilal ilə oxuduğu əzanlarla tanıyır, bu cəhəti ilə xatırlayırıq.

Cihada gedilərkən dəfələrlə Mədinə ona əmanət edilir, Mədinənin əmiri o olurdu. Mənbələrdə təxminən 13 dəfə Mədinə əmiri olaraq qaldığı rəvayət edilir.[54] Belə ki, Məkkənin fəthində də Mədinə əmiri o idi.

Abdullah (r.a) üzrlü idi. Cihada gedə bilmirdi və cihadda iştirak etmək məsuliyyəti daşımırdı. Lakin hər cihada gedənlə könlü də gedirdi. Allah Rəsulunun vəfatından sonra cihad meydanlarında da görünməyə başladı. Cihad meydanına çıxmağın

54. əl-İstiab (2/502), əl-İsabə (2/523), Müxtəsər Təfsiri İbn Kəsir (1/426)

yolunu tapmışdı. Bayrağı istəyir; "Məni səflər arasına qoyun, bayrağı əlimə verin onu əsla buraxmaram. Mən onsuz da qaça bilmərəm..."-deyirdi.

Və hicri on dördüncü il.

Dünyanın iki nəhəng imperatorluğundan biri olan Fars imperatorluğuna qarşı cihad çağırışı dalğa-dalğa vadilərdə uzanıb gedirdi.

Xəlifə Ömərin (r.a) dəvətiylə Mədinəyə mücahidlər axışırdı. Səhralardan cihada gələn igidlərin təkbir səsləri bütün ətrafa yayılırdı.

Ömər (r.a) bu müdhiş orduya müsəlmanların hədəfini yayındırmaz oxçusu Sad İbn Əbi Vaqqası komandan təyin etdi. Ona vəsiyyət edir, onu və fəth ordusunu yola salırdı.

Bu unudulmaz ordu ilə birlikdə Abdullah İbn Ümmi Məktum (r.a) da yola çıxmışdı.

❋

Ordu Qadisiyə meydanında mövqe tutdu. Birdən zirehini geyinmiş halda Abdullah göründü. Hər şeyi ilə hazırlanmışdı. İslam bayrağını o daşımaq istəyirdi. Şəhid ediləna qədər bayrağı əlindən buraxmayacaqdı. Bayraq ona verildi.

Düşmən ordusu nizamlı, təlim keçmiş, sayca çox, o dövrün ən modern silahları ilə silahlanmış, fillərlə təchiz edilmiş bir ordu idi.

İki ordu Qadisiyə meydanında döyüşə girdi. Bir qədər sonra tarixdə çox az rast gəlinən bir müharibə başladı. Elə bir müharibə ki, göz gözü görmürdü.

Üç gün davam ağır müharibədə xəyalagəlməz hadisələr baş verdi. Üçüncü gün diz çökən nəhəng imperatorluq ordusu qarşısında islam ordusu zəfər çaldı. Tövhid bayrağı, atəşə sitayiş edən və dünyaya meydan oxuyan fars torpaqlarında dalğalanmağa və təkbir səsləri hər şeyi lərzəyə gətirməyə başladı.

Hər qələbənin bir bədəli vardır. Bu qələbənin bədəli də minlərlə şəhid, minlərlə fədakarlıq, düşməni dəhşətə gətirən və onu diz çökdürən səbir... Allah rizası üçün cihad.

❋

Yaralılar, şəhidlər yığılır. Şəhidlər arasında daha bir şəhid var[55]. İslam bayrağını qucaqlamış, onu qanı ilə sulamış bir şəhid. Abdullah İbn Ümmi Məktum.[56]

❋

O, bizlərə məsuliyyət hissini, xidmət eşqini, cihad ruhunun nə olduğunu öyrədir və şəhidlər səfindəki yerini alırdı. Onun bədəni, həsrətini çəkdiyi cihad meydanında, fəth torpaqlarında qaldı...

❋❋❋

55. Bu savaşda təxminən ordunun beşdə birinin şəhid olduğu rəvayət edilir. Bax. Qisasi-Ənbiya, Əhməd Cevdət (2/176-177)

56. Abdullah İbn Ümmi Məktum (r.a) haqqındakı məlumat və araşdırma üçün bax. Səhih əl-Buxari, Cihad və Siyər (Umdətu-l-Qari, 11/373), əl-İstiab (2/259-260, 501-502), Siyəru Əlami-n-Nübəla (1/360-365), Əl-İsabə (2/523-524), Əhkamu-l-Quran, Qurtubi (19/211, 215), İrşadu Əqli-s-Səlim, Əbu-s-Suud (9/107), Muxtəsəru Təfsiri İbn Kəsir (3/599-600), Suvərun min Həyati-s-Səhabə (2/116-128)

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Haqq mübarizəni ilk anlarından etibarən çiyinlərində daşıyan, fədakarlıq anlarında fədakarlıqlardan çəkinməyən, onunla gülüb onunla ağlayan insanların haqq mübarizədə mötəbər yerinin olduğu.
- Maddi imkanı, sosial vəziyyəti nə olursa, olsun onların xidmətlərinin qədir və qiymətlərinin unudulmaması, onlarla olan münasibətin qorunması.
- İlahi əmr və qadağalara qarşı həssaslıq.
- Mal və bədən ilə edilən cihadın dəyər və əhəmiyyəti.
- Üzrlü insanların da yeri gəldiyində və kifayət qədər əzmkar olduğunda çox böyük xidmətlər edə biləcəyi.

Bir Neçə Söz

Haqq Mübarizənin Cəfakeşləri İlə Bərabər Olmaq

Maddi imkanın olması və bu imkanların xeyirə istifadə edilməsi və bu imkanlarla xidmət edilməsi əlbəttə qibtə ediləcək bir şeydir. Bir fərdin cəmiyyət içindəki məqamı və vəziyyəti nə olursa olsun, Rəbbinin hüzurunda təqvası ilə dəyər qazanacağı da unudulmaması zəruri olan bir həqiqətdir.

Haqq mübarizəni çiyinlərində daşıyan, ondan uzaq durmayan, heç bir fədakarlıqdan çəkinməyən, neçə-neçə boynu bükük, zavallı, hətta adı-sanı çox xatırlanmayan, özünü tanıtmaq kimi bir niyyəti olmayan bir çox insan mövcud olmuşdur. Haqq yolun xidmətkarı, cəfakeşi, igidi və vəfakarı neçə-neçə könüllər yetişmişdir.

Bu həqiqəti də "Abəsə" surəsinin nüzul səbəbindəki ilahi xəbərdarlığı unutmadan və könüllərdə oyandırdığı hissi itirmədən Rəbbimizin bu buyuruğuna birlikdə diqqət yetirək:

وَاتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنْ كِتَابِ رَبِّكَ ۖ لَا مُبَدِّلَ لِكَلِمَاتِهِ وَلَنْ تَجِدَ مِنْ دُونِهِ مُلْتَحَدًا (٢٧) وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ ۖ وَلَا تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيَاةِ الدُّنْيَا ۖ وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَنْ ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا(٢٨)

"**Rəbbinin kitabından sənə vəhy olunanı oxu. Onun sözlərini heç kəs dəyişdirə bilməz.** (Allahdan) **başqa heç bir sığınacaq tapa bilməzsən!** (Pənah yalnız Allahadır!) **Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar** (nəfsini qoru)**. Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan** (yoxsul möminlərdən) **çevirmə. Qəlbini Bizi** (Quranı) **xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və** (hər) **işində ifrata varan bir kimsəyə itaət etmə!**" (əl-Kəhf, 18/27-28)

Bu ayələr üzərində dərin-dərin düşünmək lazımdır. Təfəkkür, ibrət və mühasibəyə üfüq açmaq ümidi ilə bir neçə incə və həssas məqama diqqət çəkmək istəyirəm.

İlk ayeyi-kərimədə "Rəbbinin kitabından sənə vəhy edilənləri tilavət et, oxu!"-buyurulur və xüsusilə "tilavət et!" kəlməsi istifadə edilir. Bu, "Quranın əslini tərtil üzrə təcvidə uyğun oxu!"-deməkdir.

Allahın vəhyini, vəhy edildiyi kimi oxumaq, dilimizdə zikr etmək, həyatda rəhbər etmək; onun nurlandırdığı yolla getmək əlbəttə ki, hər möminin şüarı olmalıdır.

Bu buyruq və arxasınca gələn cümlələr, Qurani-Kərimin nazil olduğu kimi oxumasını belə bizə çox görənlərin keçmişdəki zülm və təzyiqləri fayda verməyincə, boğazdan yuxarı cümlələr və bayağı ifadələrlə; "başa düşmək və kədərlənmək istəyirəm" kimi yeni yanaşma metodlarından istifadə edildiyi dövrümüzdə daha təsirlidir.

Həqiqi mənada kədərlənmək, hiss etmək və yaşamaq istəyən qardaşlarımızdan belə ifadələr eşitmirik.

Sonra başa düşmək, hiss etmək, Yaradanımızın kitabına qulaq asmaq üçün vəhy dilini tərk etmək, Quranın əslindən uzaqlaşmaqmı lazımdır? Dərk etmək üçün başqa cür səy göstərmək mümkün deyildirmi? Allahın endirdiyi əsl kəlmələrin yox edilməsi, həmin kəlmələrdəki məna dərinliyinin itirilməsimi lazımdır?

Qısaca olaraq bu yolun ucu hara gedib çıxır? Bu səfər hansı dayanacaqda sona çatar...?

❋

Ayeyi-kərimədə keçən "ملتحد" kəlməsi, "sığınmaq", "sığınılacaq yer" deməkdir. Rəbbimiz; "başqa bir sığınacaq, həqiqətən səni qoruyacaq, əbədi səadət və əminamanlıq hiss edəcəyin bir yer tapa bilməzsən"-buyurur.

Bu məhdud həyatın günləri bitdiyində sığınacaq kimimiz var? Həqiqətən özümüzdən gedərcəsinə təfəkkürə dalaraq heç bunu düşünürükmü?..

Və əsl üzərində durmaq istədiyimiz:

وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ...

"Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar (nəfsini qoru)**.!**"-buyruğunda "səbir" kəlməsinin keçməsi nəyisə xatırlatmırmı?. Bu kəlmə əlbəttə ki, üzərində durulması və düşünülməsi zəruri olan bir kəlmədir. Bu kəlmənin irşadı ilə dərk edirik ki; şan-şöhrət və vəzifə sahibi insanlara meyl etmədən, qərib və cəfakeş insanlarla bərabər olmaq və bu xüsusiyyəti qoruyub saxlamaq sıradan bir iş deyil, səbir tələb edən bir işdir.

Yaşadığımız həyatda da bu həqiqəti nə qədər canlı və dəyişik cəhətləri ilə görür, irşada möhtac olduğumuzu hiss edirik. Bu məsələdə hər nəfsin özünü yenidən hesaba çəkməsinin zəruri olduğunu düşünürəm.

Rəsulullah (s.ə.s) qərib, kasıb və gənc insanlar arasında əyləşib söhbət edir, onların zikr və elm məclislərində tez-tez iştirak edər:

الحمد لله الذي جعل فى أمتى من أمرني أن أصبر نفسي معهم

"Onlarla bərabər olmağımı, onlarla birlikdə olmağa səbr etməyimi əmr etdiyi insanları, ümmətimin arasında var edən Allaha həmd edirəm!"-deyərdi.[57] Qurtubinin təfsirində keçən rəvayətdə, Rəsulullahın (s.ə.s) yuxarıdakı sözlərə əlavə olaraq onlara; "həyat da sizinlə, ölüm də sizinlə" buyurduğu rəvayət edilir.[58]

Abdullah İbn Abbas (r.a):

لاَ تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيَاةِ الدُّنْيَا...

"**Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan** (yoxsul möminlərdən) **çevirmə.**"; başqa bir ifadə ilə; "gözünü onlardan ayırıb, dünya həyatının bər-bəzəyinə meyl edənlərindən olma!" buyurduğunu; Haqq yolunda səmimi olan bu insanları tərk edərək maraq və diqqətini, vəzifə, var-dövlət sahibi insanlara çevirmə!"-sözləri ilə təfsir edir.

Rəbbimizin bizə əmr etdiyi məhz budur! Həyatda məhz düstur etməyimiz zəruri olan İlahi əmr budur. Haqq mübarizədə səmim olanlarla; cəfasını çəkən, əməyini əsirgəməyən, əzmini itirməyən, qafillikdən uzaq olanlarla, qəlbində ixlas, dilində xeyir, könlündə xüşu olanlarla; vəzifəsi, imkanı və ad-sanı nə olursa olsun haqq yolunda gedənlərlə birlikdə olmağın əmridir bu!

Bu nəfsinə uyub, dünya malına meyl edib; haqqa gedən yolun insanlarını, çətinliklərə sinə gərərək mübarizəni çiyinlərində daşıyan igidləri tərk edərək, şan-şöhrətə, dəbdəbəyə, vəzifə və dünyalığa aldanmayıb, gözü, üzü və qəlbi dünya malı və vardövlət sahibi insanlara çevirməməyin əmridir!

Mömin qaynayıb qarışmalı, heç kimə arxa çevirməməli, dünya malına hökm etməyi bacarıb islama böyük xidmətləri olan,

57. Müxtəsər Təfsiri İbn Kəsir (2/416)

58. Bax. əl-Cami li-Əhkami-l-Quran (10/391)

şükr etməyi bacaran imkanlı insanların qədrini bilməli; lakin onlar da daxil olmaqla ümumi mənada yuxarıda ifadə edilən həqiqəti də yaddan çıxarmamalıdır.

Başqa bir diqqət çəkmək istədiyim məqam da, ayədə keçən "فُرُطًا" kəlməsinin mənası və gözümüzün önünə gətirdiyi səhnələrdir.

Bu hissədə belə buyurulur:

وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَنْ ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا.

"**Qəlbini Bizi** (Quranı) **xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və (hər) işində ifrata varan bir kimsəyə itaət etmə!**"

"فُرُطًا" kəlməsi; "həddini aşmaq, cığırından çıxmaq, özünü göstərmək və çılğınlıq..." deməkdir.

Bu eyni zamanda həyat tərzinə və dostluğuna həvəslənilməməsi, arxalarınca gedilməməsi arzu edilən insanların necə insanlar olduğunu açıqlayan az və konkret təsviridir...

Bu çılğınlıqlar, hər dövrdə müxtəlif formalarda mövcud olduğu kimi, günümüzdə də min bir növü ilə vardır. Bunları qısaca da olsa dilə gətirərkən gözlərimizin önündən insanın necə cığırından çıxıb heyvaniləşdiyini, hətta minlərcə dəfə daha iyrənc səviyyəyə gəldiyini göstərən mənzərələr gəlib keçir. Bunu sözlə ifadə etmək belə çətindir.

Rəbbimizdən bizi; Quran tilavəti ilə könülü səadət və xüşu dolanlardan, haqq mübarizənin yolçusu, cəfakeşi, salehlər və ariflərlə bərabər olanlardan, habelə onlardan ayrılmayanlardan olmasını arzu edirik.

❋

İlahi Əmr və Qadağalara Qarşı Həssaslıq

Çılğın şəkildə axıb gedən bir həyatın içində yaşadığımız hədəfsizlik, qayəsizlik, bezginlik və səssizliklə qarşılaşdığımız bir həqiqətdir. Ət və sümükdən sıyrılıb ülvi xislətlərin da-

dını hiss etməmək, mənanın maddədə əriməsi, təfəkkür, hiss və dərin düşüncələrdən uzaqlıq artıq alışqanlıq halına gəldi. Yaşanılan həyat tərzini, insanların arasında yaşadığı cəmiyyəti, ətrafımızda cərəyan edən hadisələri, insanlar üçün biçilən yaşayış, düşüncə, hətta inanc şəkillərini bulanıq gözlər, təsəvvür edilməz xəyallarla seyr etməyə başladıq.

Bu gəlib keçən ömür haradan gəlib, haraya gedir? Böyüyən, həyatının baharını yaşayan uşaqlarımız üçün necə bir həyat tərzi, nə kimi gələcək hazırlanır?

Biz kimik? Bu həyatın harasındayıq? Nə edirik? Nə etməyimiz lazımdır? Qayəmiz nədir? Necə bir sabah, nə kimi bir son xəyal edirik?

Bu sualları çoxaltmaq, beynimiz daha ağır şeylərlə yükləmək mümkündür. Lakin bir reallıq vardır. Biz bu və bənzəri sualların cavabını düşünmək və ümmət olaraq hansı səviyyədən hansı səviyyəyə gəldiyimizi düşünmək məcburiyyətindəyik. Ani bir düşüncə ilə hissiyatımızı itirməyə başladığımızı, qəlblərimizin qatılaşmağa başladığını göstərir. Quranın səhifələrini vərəqləyərkən Rəbbimizin xəbərdarlığı ilə qarşılaşınca, daxilimizdə bir kədər, ürəyimizdə bir acı hiss edirik:

أَلَمْ يَأْنِ لِلَّذِينَ آمَنُوا أَنْ تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللَّهِ وَمَا نَزَلَ مِنَ الْحَقِّ وَلَا يَكُونُوا كَالَّذِينَ أُوتُوا الْكِتَابَ مِنْ قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ ۖ وَكَثِيرٌ مِنْهُمْ فَاسِقُونَ

“**İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan** (Quran) **üçün yumşalması vaxtı gəlib çatmadımı?! Onlar özlərindən əvvəl kitab verilən kimsələr** (yəhudilər və xaçpərəstlər) **kimi olmasınlar. Onlarla** (öz peyğəmbərləri arasında) **uzun bir müddət keçmiş və** (öyüd-nəsihəti unutduqları üçün) **qəlbləri sərtləşmişdir. Onların çoxu** (Allaha asi olan) **fasiqlərdir!**” (əl-Hədid, 57/16)

Bunları düşünmək və arxasınca ayeyi-kəriməni oxumaq bizə nəyi xatırladır? Yoxsa, bizim də qəlblərimiz daşlaşmağa başladı? Axıb gedən zaman seli bizidəmi biganə hala gətirdi?

سَمِعْنَا وَأَطَعْنَا غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ.

"(Allahın hökmlərini) **eşitdik** (anladıq) **və itaət etdik.**" (əl-Bəqərə, 2/285) deyən və bunu isbat edən bir millət, bu gün nə haldadır?

Qısaca olaraq Abdullah İbn Ümmi Məktumun göstərdiyi həmin həssaslıq bu gün harada?

O görmürdü. O, Rəbbinin məsul tutmadığı insanlardan idi. Ancaq özünü necə dərhal məsul hiss etmiş, əlindən bir şey gələ bilmədiyi üçün çox üzülüşdü. Şair belə bir hissi dilə gətirərkən nə gözəl ifadə edir:

يَا رَاحِلِينَ إِلَ الْبَيْتِ الْعتِيقِ لَقَدْ سِرْتُمْ جُسُومًا وَسِرْنَا نَحْنُ أَرْوَاحا

إِنَّا أَقَمْنِا عَلىَ عُذْرٍ وَعَنْ قَدَرٍ وَمَنْ أَقَامَ عَلىَ فَقَدْ رَاحا.

"Ey Beytullaha səfər edənlər, yol tutub gedənlər, Siz bədənlərinizlə addımlayarkən, biz addımlayırıq ruhlarımızla. Qalmışıqsa, bizi bağlayan üzrümüz, qədərimizdir. Üzrün qalmağa məcbur etdiyi, buraxmadığı bir kimsə, bil ki, səfər etmişdir; o da yolçularla getmişdir."[59]

Abdullah (r.a) bu hisslərlə yaşadı və bu düşüncəsini şəhid qanı ilə zehnimizə bir ibrət səhnəsi olaraq həkk edərək Rəhmana qovuşdu.

Qovuşduğu Rəbbi Qurani-Kərimdə belə buyurur:

إِنَّا لاَ نُضِيعُ أَجْرَ مَنْ أَحْسَنَ عَمَلاً.

"**İman gətirib yaxşı əməllər edənlərə gəldikdə isə Biz** (o cür) **yaxşı işlər görənlərin mükafatını zay etmərik!**" (əl-Kəhf 18/30)

وَذَكِّرْ فَإِنَّ الذِّكْرَىٰ تَنْفَعُ الْمُؤْمِنِين

"**Sən** (onlara Quranla) **öyüd-nəsihət ver. Çünki öyüd-nəsihət möminlərə fayda verir.**" (əz-Zariyat, 51/55)

59. Müxtəsər Təfsiri İbn Kəsir (1/426)

Hicrətdən Xatirələr

Hicrət

(Məkkədən Mədinəyə)

Aqabə beyətlərindən sonra , Musab İbn Umeyr, Abdullah İbn Ümmi Məktum və onlara dəstək və köməkçi olan Əsəb İbn Zürarə, Sad İbn Muaz, Useyd İbn Xudayr kimi ənsarın səyləri ilə Mədinədə hardasa islamın daxil ola bilmədiyi ev qalmamışdı. Hər keçən gün, "Bəldeyi-Tayyibə" (Gözəl Vətən) olmağa namizəd bu şəhərdən könülə sevinc verən yeni xəbərlər gəlirdi.

Rəsulullah (s.ə.s) onunla birlikdə Məkkədə olan müsəlmanlara, Mədinəyə hicrət etmələrini, orada yaşayan mömin qardaşlarına qoşulmalarını istəyir və belə deyirdi:

"إِنَّ اللَّهَ عَزَّ وَ جَلَّ قَدْ جَعَلَ لَكُمْ إِخْوَانًا وَدَارً تَأْمَنُونَ بِهاَ."

"Allah-Təala, sizlərə qardaşlar və etibar edəcəyiniz bir bölgə nəsib etmişdir"-buyururdu.

Möminlər, kiçik dəstələr halında Mədinəyə hicrət etməyə başlamışdı. Ev-eşik, qohumlar, bəzən ailə və uşaqlar, var-dövlət, uşaqlıq xatirələrinin keçdiyi yerlər tərk edilir, Allah rizası üçün dini-mubin uğrunda məchula tərəf səfərə çıxırdılar. Hicazın qərbindəki Seravat dağları və aralarında uzanan vadilər hər gün bir və ya bir neçə mühacirə şahid olur, dolanbac yollarla səfərə çıxırdılar.

Qüreyş, hicrət icazəsini eşitmiş, boş dayanmırdı. Hicrətə mane olmaq üçün çalışır, son işgəncə növlərinə əl atır, gedənlərin əllərindən mallarını almağa çalışır, mallarını qoyub getmək məcburiyyətində qalanların qoyub getikləri hər şeylərini ələ keçirirdilər.

Məkkədən ayrılan möminlər, Mədinəyə çatmağa başlamışdı. Beləliklə Məkkə, yavaş-yavaş sinəsindəki müsəlmanları Mədinəyə verirdi.

Mədinəlilər onlara pənah gətirən din qardaşlarını bağırlarına basır, yardımlaşmanın ən gözəl nümunələrini nümayiş etdirirdilər. İslam tarixi ənsarın bu qardaşlıq hisslərini, fədakarlıqlarını əsla unutmayacaqdır.

Allah Rəsulu (s.ə.s) möminləri yola salır, özü də Məkkədən ayrılmaq, Mədinəyə hicrət etmək üçün Rəbbindən icazə gözləyirdi.

Ömər, Talha, Həmzə, Zübeyr (r.anhum) hamısı hicrət etmişdi. Məkkədə yalnız həbs edilən və xüsusi nəzarət altında olanlarla, Əbu Bəkr və Əli (r.anhumə) qalmışdı.

Müşriklər Rəsulullahın (s.ə.s) da hicrət edəcəyini bilirdilər. O da gedəcək, hökmranlıq edə bilmədikləri bir şəhərdə möminlərin başına keçəcək və bir daha qarşısını almaq çox çətin olacaqdı.

❋

Müsəlmanların Məkkədə ikən göstərdikləri səbir, səbat və fədakarlıq nümunələrinə çoxdan bələd idilər. Kim bilir Mədinədə nələr baş verəcəkdi? Buna göz yuma bilməzdilər.

Uzun zamandan bəri atalarından Qusayyın evini məclislərin keçirildiyi yer halına gətirmişdilər. Bu ev artıq **"Dəru-n-Nədva"** deyə adlandırılırdı. Qüreyşlilər orada yığışır, orada qərarlar alınır və tətbiq edilməsinə oradan nəzarət edilirdi.

Yenə orada toplaşdılar. Çox məsələlərə toxunuldu, çox fikirlər irəli sürüldü... Nəticədə belə bir qərara gəlindi:

Hər qəbilədən güclü, sülaləsi tanınmış bir gənc seçiləcək, bunlar hamısı birdən Rəsulullahın (s.ə.s) üstünə hücum edəcək, tək bir qılınc kimi bir zərbə ilə onu öldürəcəkdilər; Haşim oğulları bütün qəbilələrə qarşı qan davası aparmayacaq, diyetə razı olacaq, bu diyet də artıqlaması ilə veriləcək və bu məsələ beləliklə bağlanacaqdı. Düşünülmüş bir qərar idi və onlara görə müsbət nəticə əldə olunacaqdı.

❋

Rəsuluna risalət vəzifəsini verən Rəbbi əlbəttə ki, onu qoruyacaqdı. Qurulan hiylə barəsində ona xəbər vermişdi. Yenə də hicrət baş verdi.

Günəşin şüalarını saçdığı bir zamanda və insanların əksəriyyətinin istirahətə çəkildiyi vaxt Allah Rəsulu Əbu Bəkrin yanına gəldi. Həmin vaxt yaşı kiçik olan Aişə anamız Allah Rəsulunun evlərinə həmişə ya səhərin erkən saatlarında, ya da axşam vaxtı gəldiyini, belə bir vaxtda ilk dəfə qapılarının döyüldüyünü rəvayət edir və "Onun bu gəlişindən, çox ciddi bir şey üçün gəldiyini hiss etmişdik."-deyir. Allah Rəsulunun bu vaxtda gəlişi, Əbu Bəkri də həyəcanlandırmışdı. Təəccüblə Rəsulullaha baxarkən O; "Allah, çıxış və hicrət üçün icazə verdi."-buyurdu.

Əbu Bəkr (r.a) çox sevindi; "Ey Allahın Rəsulu! Yol yoldaşlığımı?"-deyə soruşdu.

"Bəli yol yoldaşlığı."-Hicrət yoldaşlığı.

Bu əziz insanın sevinci, göz yaşlarına çevrilmişdi. Günlərdir bu ümidlə gözləyirdi. Yol üçün münasib dəvələri hazırlamış; yol bələdçisi tutmuş və hazır vəziyyətdə gözləyirdi.

Aişə anamız hələ ata evində idi. Bu söhbəti bacısı Əsma ilə birlikdə onlar da eşitmişdilər. "O günə qədər sevincdən ağlayan birisini görməmişdim."[60] deyərək öz hisslərini dilə gətirərkən bu tarixi anı və atasının hisslərini də beləliklə gələcək nəsillərə nəql edər.

Rəsulullah (s.ə.s) bu xəbəri verdikdən sonra evə qayıtdı.

O gecə... Hicrət gecəsi, Əlini (r.a) yatağına yatırmış, əbasını üzərinə örtmüş və "məqsədləri məni öldürməkdir, sənə bir zərər verməyəcəklər"-buyurdu. Ona verdiyi əmanətləri sahiblərinə paylamasını istədi.

Gecənin qaranlığında Rəsulullahı qətl etmək istəyən dəstə onun evinin çıxışında gözləməyə başlamışdılar.

Lakin Rəsulullah (s.ə.s) evindən çıxdığında heç də hazır deyildilər. Rəsulullah (s.ə.s) yerdən bir ovuc torpaq götürərək

60. Sirətu İbn Hişam (1/485)

üzərlərinə atır, qeyri-adi adi bir ağırlıq çökür, gözlər görmür və "Yasin" surəsinin ilk ayələrini oxuyaraq oradan ayrılır.

Allah Rəsulu (s.ə.s) uzaqlaşır, onlar isə hələ də gözləməyə davam edirdi. Bir nəfər qaçaraq dayandıqları yerə gəldi və; "Niyə dayanmısınız?!"-deyə soruşdu.

"Muhəmmədi gözləyirik"-dedilər.

"Ay axmaqlar! O çoxdan çıxıb gedib!"

Çox təəccübləndilər və içəri boylandılar. Baxdılar ki, bir nəfər içəridə yorğana bürünüb yatır. Biraz tələşləri keçdi və rahatlaşdılar. Geri çəkilib gözləməyə başladılar, çünki işlərini bayırda görəcəkdilər. Evə hücum edib illərlə pis şəkildə yad edilməmək, hədəflərini azdırmamaq onlara tənbeh edilmişdi. Bu səbəbdən gözləməyə başladılar.

Onlar orada gözləyərkən Rəsulullah (s.ə.s) Əbu Bəkrin yanına gəldi. Evdə qısa bir müddət söhbətləşmədən sonra evin arxa tərəfindən çıxaraq gözdən itdilər.

Aylardan Rəbiül-Əvvəl, günlərdən bazar ertəsi idi. Məkkədən çıxaraq cənub istiqamətində irəliləyərək Sevr dağına gəlib çatdılar; yamacları dırmaşaraq demək olar ki, dağın zirvəsindəki mağarada gizləndilər.

Burada gizlənməkdən məqsədləri düşmənləri çaşdırmaq idi. Mədinə şimalda idi, onlar əks istiqamətdən çıxaraq ilk təqibdən qurtulmaq üçün Sevr mağarasına sığınmışdılar.

Yol boyunca Əbu Bəkrin (r.a) qəlbi Allah Rəsulu üçün narahat idi. Həmişə təhlükə gələ biləcək yerlərə baxır, yolları, yamacları və mağaraya yaxınlaşdıqda mağaranı əvvəlcədən gözdən keçirir, yol yoldaşlığının ən gözəl nümunələrini nümayiş etdirirdi.

Səhər açılanda Rəsulullahın (s.ə.s) yatağından Əli (r.a) qalxdı və ona verilən vəzifəni yerinə yetirməyə başladı. Nəzarət etdikləri yataqdan Rəsulullahın qalxacağını gözləyən müşriklər nə baş verdiyini başa düşə bilməmişdilər. Belə bir əndişə ilə Dəru-n-Nədvaya qaçdılar.

✺

Məkkədə hamı təlaşa düşmüşdü. Dəstələt hazırlanır, süvarilər hər yerdə Rəsulullahı (s.ə.s) axtarırdılar. Onun izinə düşmək üçün bir ip ucu axtarırdılar.

Digər yandan Əli (r.a) ona əmr edildiyi kimi, əvvəlcə Rəsulullahın verdiyi əmanətləri paylamağa başladı. Təəccüblüdür ki, qüreyşlilər Allah Rəsuluna (s.ə.s) düşmən idi, ancaq bir səfərə çıxdıqları zaman ona etibar edir, qızılını, gümüşünü, qiymətli daş-qaşlarını ona əmanət edirdilər. Üstündə əsilən, etibar edilməsi istənilən mallar, əmanət olaraq ona verilirdi. Əli (r.a) bu əmanətləri paylayırdı. Etibar edilən, ancaq yaşadığı vətəndən çıxmaq məcburiyyətində qalan Allah Rəsulu, beləliklə üzərinə düşən son vəfakarlığı da yerinə yetirdi.

❋

Əbu Bəkrin yanında işləyən və heyvanlarını otaran Əmir İbn Fuheyrə heyvanları üzərində gəzdirərək izləri itirmişdi.

❋

Fədakarlıq Nümunələri

Burada diqqət çəkilməsi, ibrət alınması və əsla unudulmaması zəruri olan bəzi fədakarlıqları yad etmək istəyirəm:

Yuxarıda adı keçən Əmir (r.a) izləri itirməyə çalışmaqla yanaşı, gecələr bir neçə südlü heyvanı təpəyə yanınlaşdıraraq bu canından əziz yolçuların süd ehtiyacını təmin edirdi.

Əbu Bəkrin oğlu Abdullah, yaşının kiçik olmasına baxmayaraq heç kimin diqqətini cəlb etmədən Məkkədə gəzir; hər yığıncağı, hər söhbəti izləyir; hansı istiqamətə dəstələr gedir, hansı məkanlarda axtarış aparılır və nə düşünürlər?... Bütün bu məlumatları əldə edib gecənin qaranlığında Məkkə ilə Sevr arasındakı yamacları dırmaşaraq əldə etdiyi məlumatları Rəsulullaha (s.ə.s) çatdırırdı.[61]

Əbu Bəkrin qızı, Aişə anamızın böyük bacısı, Zübeyrin xanımı olan Əsma (r.a) yemək gətirirdi.

---

61. əl-Bidayə və-n-Nihayə (3/182)

Rəsulullah (s.ə.s) və atası Əbu Bəkr, həmin gecə tələsik Məkkədən ayrılmışdılar. Əsma onlara yol azuqəsi hazırlayır, bacısı Aişə də ona kömək edirdi.

Azuqələri hazırlayıb boxçalara yığırdılar. Boxçaların ağzını bağlamağa ip tapa bilməyincə o günün şərtlərində olduqca qiymətli olan qurşağını iki yerə bölərək biri ilə boxça və torbaları bir-birinə bağladı. Digəri ilə iki yerə ayırdığı torbaları xurcun kimi ata bilmək üçün istifadə etdi.

Bu yükü ilə balaca qardaşı Abdullah kimi gecənin qaranlığında yamaclarla Sevr dağına dırmaşaraq ərzaqları atasına və Rəsulullaha (s.ə.s) çatdırırdı.

Onun əzmkarlığını və qiymətli qurşağına qıydığını görən Rəsulullah (s.ə.s), ona **"Zatu-n-Nitaqeyn"** (Qoşa kəmərli) deyə ləqəb verir; bu kəmərin qarşılığı Cənnətdə qoşa kəmərlə mükafatlandıracağını müjdə verdi. Bu eyni zamanda Cənnət müjdəsi idi. Əsma (r.a) bu xəbərə çox sevinir və ömrü boyu bu ləqəblə çağırılmaqdan xoşlanırdı.

Görülən bütün tədbirlərə baxmayaraq müşriklərdən bir dəstə izə düşərək Sevr dağına çıxaraq mağaranın qarşısına qədər gəlirlər.

Onların gəldiyini hiss edən Əbu Bəkr (r.a) tələşlanır. Rəsulullahın başına bir iş gələcəyindən qorxurdu. Mağara bir o qədər böyük deyildi. Əyilsələr içərini və içəridəkiləri görəcəkdilər. Onun tələşlandığını görən Rəsulullah (s.ə.s):

يَاأَبَا بَكْرٍ! مَا ظَنُّكَ بِاثْنَيْنِ اللَّهُ ثَالِثُهُمَا؟ (لاَتَحْزَنْ إِنَّ اللَّهَ مَعَنَا.)

"Ey Əbu Bəkr! Iki nəfərin üçüncüsü Allah olarsa, onlara bir zərər gələ biləcəyinimi zənn edirsən?"[62] ***Üzülmə Allah bizimlə bərabərdir!"***[63]-buyuraraq ona təsəlli verdi.

62. Səhih əl-Buxari, Fəzail (Umdətu-l-Qari, 13/242), Səhih əl-Müslim, Fəzail (4/1854), Rəvayət Ənəs (r.a) vasitəsiylə Həzrət Əbu Bəkrdən rəvayət edilmişdir.

63. Bax: Tövbə surəsi (9/40)

Allah, Rəsulunu (s.ə.s) qorumuş mağaranın ağzı hörümçək toru ilə hörülmüş və iki göyərçin girişə yaxın bir yerdə yuva qurmuşdur.

Mağaranın ağzının hörümçək toru ilə bağlı olduğunu görən və mağaranın girişindəki göyərçin yuvası diqqətlərini çəkən müşriklər içəriyə baxmağa lüzum görmədən yollarına davam edirlər.

Rəsulullah (s.ə.s) və Əbu Bəkr (r.a) bu mağarada üç gecə qalmalı oldular. Sonuncu gecə balaca dəliqanlı Abdullah yenə gəlir və müşriklərin artıq ümidlərini kəsdiyini, dallarınca düşənlərin əliboş və yorğun halda geri qayıtdıqlarını xəbər verir.

Bundan sonra Əbu Bəkrin kiraladığı yol rəhbəri Abdullah İbn Ureykıt dağın ətəklərinə çağırılır və özü ilə gətirdiyi dəvələrə minilərək cənub istiqamətindən qərbə doğru sahil kənarı ilə Mədineyi-Münəvvərəyə tərəf yola çıxırlar...[64]

Artıq yeni bir tarix başlayırdı...

Mədinə Yollarında...

Bu kiçik dəstə Məkkənin cənubundan fırlanaraq sahil tərəfinə keçir. Usfa deyilən yerin aşağı hissəsindən şimala tərəf üz tuturlar. "Əməc" vadisini dəniz tərəfindən keçərək yollarına davam edirlər və "Qudeyd" vadisinə tərəf üz tuturlar.[65]

Qüreyş Muhəmmədi gətirənə 100 dəvə vəd etdi. Verilən bu vəd bir çox insanın diqqətini cəlb etməyə başladı.

Suraqa İbn Malikin qəbiləsi "Qudeyd" vadisində yaşayırdı. Vəd edilən bu mükafatdan o və qəbiləsi də xəbərdar idi. Lakin Muhəmmədən və getdiyi yerdən xəbər-ətər yox idi. Bir anda gözdən itmiş və izinə heç yerdə rast gəlinmirdi.

Gerisini Suraqanın dilindən eşidək:

---

64. Daha ətraflı məlumat üçün bax:
Sirətu İbn Hişam, (1/480-495, Dəlailu-n-Nübüvvə, (2/465-510), əl-Bidayə və-n-Nihayə, (3/175-183), Qisasi-Ənbiya, Əhməd Cövdət (1/114-124), əs-Sirətu-n-Nəbəviyyə (səh. 135-144), Fiqhu-s-Sirə, əl-Buti (177-183)

65. Gedilən yol üçün bax; Sirətu İbn Hişam (1/491-492)

Qəbiləmizin yığıncaq üçün istifadə etdiyi salonda idim. Söhbət edirdik. Bizdən bir adam çıxıb gəldi və yanımıza gəlincə həyəcanla danışmağa başladı:

"Mən üç miniklə hərəkət edən bir dəstə gördüm. Muhəmməd və silahdaşları olduğunu zənn edirəm."

Cəld susmasını işarə etdim. Arxasınca; "Onlar başqa adamlardır; itmiş heyvanlarını axtarırlar"-dedim.

Bu sözlərin ardınca bir müddət onlarla əyləşdim. Şübhələnmələrini istəmirdim. Sonra qalxıb evimə keçib atımın hazırlanmasını əmr etdim. At hazırlanaraq irəlidəki çüxurda gözdən iraq bir yerə bağlanmışdı. Silahlarımı da arxa tərəfdən çıxarılmasını əmr etmişdim. Onları da götürərək atıma mindim və Muhəmmədin dalına düşdüm. Çox istəyirdim ki, onu yaxalayıb Qüreyşə təslim edərək həm məşhur olum, həm də yüz dəvəni əldə edim.

✺

Lakin çox keçmədən dördnala çapdığım atımın ayağı büdrədi və atla birlikdə yerə yıxıldıq. Öz-özümə; "Mənə nə oldu görəsən?"-dedim.

Özümü ələ alıb təkrar atıma mindim. Yenidən dallarına düşdüm. Sürətlə gedərkən atım yenə büdrədi və yenə yıxıldım. Daha da təəccüblənməyə başladım. "Bu nə məsələdir"-dedim.

Çox israrlı idim. Onları izləməkdən əl çəkən deyildim. Yenidən özümü ələ alaraq atıma minərək arxalarınca getməyə başladım. Onları görürdüm, ancaq atım üçüncü dəfə büdrədi və mən atdan üçüncü dəfə yıxıldım. Bu dəfə qabaq ayaqları quma batmışdı. At çırpınaraq batmış ayaqlarını qumdan çıxardı. O, qurtulan kimi hər tərəf quma qərq oldu. Əsən külək hər tərəfi toz-dumana bürüdü. Əcaib hadisələr baş verirdi.

Başa düşdüm ki, Onunla aramda bir pərdə var. Ona çata bilməzdim. O, qorunurdu və arxalarınca qışqırmağa başladım.

"Məni eşidirsinizmi? Mən, Cüsümün nəvəsi Suraqayam! Allaha and olsun ki, sizə bir zərər verməyəcəyəm! Məndən sizə bir pislik gəlməyəcək!"

Rəsulullah (s.ə.s) Əbu Bəkrə; "Bax gör bizdən nə istəyir?"-buyurdu. Əbu Bəkr ona yaxınlaşaraq nə istədiyini soruşdu.

"Əlimə bir yazı verin zamanı gəlincə onu sizə göstərib özümü sizə tanıdım"-dedim.

Rəsulullahın əmri ilə Suraqaya istədiyi yazını Əmir İbn Fuheyrə verdi. Suraqa yazını sadağına[66] yerləşdirdi. Geri qayıtmağa hazırlaşırdı ki, Allah Rəsulunun (s.ə.s) bu cümlələrini eşitdi:

يَاسُرَاقَة! كَيْفَ بِكَ إِذَا لَبِسْتَ سِوَارَيْ كِسْرَي؟

"Ya Suraqa! Bir gün gələr Qeysərin bilərziklərini geyinərsən."

Həmin gün Rəsulullah (s.ə.s) kiçik bir dəstə ilə Mədinəyə tərəf səhralarla üz tutub gedirdi. Öz yurdundan çıxarılmış, hicrət edirdi.

Məkkəli möminlərin vəziyyəti də belə idi. Zülmə qarşı çıxacaq maddi gücləri, orduları və dövlətləri yox idi.

Ona, yoxluqlar dünyasından, dünyanın iki nəhəng imperatorluğundan birinin başında olan insanın bilərzilklərini gəzdirəcəyini müjdələyir, vəd edirdi. Xəyal belə edilməyəcək bir müjdə idi. Bunu təsəvvür etmək qeyri-mümkün idi. Onsuz da Suraqa o gün həmin müjdədən çox şey başa düşə bilməmişdi.

Rəsulullaha (s.ə.s) yol azuqəsi vermək istədi; qəbul etmədi. Yalnız "Arxamızca gələnlərin qarşısını almağa çalış."-buyurdu.

Suraqanın könlündə o günə qədər heç hiss etmədiyi hisslər canlanmışdı. Nə edəcəyini bilməyəcək bir halda idi. Yoluna davam edən bu karvanı arxadan seyr etməyə başladı. Sonra qəlbi dolu halda geri qayıtdı və üzərinə düşən vəzifəni yerinə yetirmək üçün çalışdı.

❋

Aradan illər keçmiş, Allah Rəsulu (s.ə.s) **"Rəfiqu-l-əlanı"** seçib Rəbbinə qovuşdu. Geridə iman, eşq və şövqlə dolu, Allahın Cəlal ismini bir addım daha irəliyə aparmaq əzmi ilə hər şeyini

66. Sadaq: ox qabı. Daha çox belə taxılan və içinə ox qoyulan incə uzun ox qabı.

fəda etməyə hazır olan mömin qəlblər və iman nurunun hökm etdiyi gənc bir dövlət qoyub getdi.

Fəthlər bir-birinin ardınca gəlir, islam mücahidləri yeni üfüqlərdə at çapırdılar. Suraqa da bu mücahidlər arasında idi.

Günlərdən Ömərin (r.a) xəlifə olduğu günlər idi. Nəhəng fars imperatorluğu diz çökdürülmüş, xəzinələri hissə-hissə Mədinəyə daşınırdı. Qeysərin tacı, kəməri və bilərzikləri də gətirilmişdi. Ömər (r.a) bilərzikləri görüncə ona tərəf irəlilədi. Allah Rəsulunun Suraqaya verdiyi vəddən xəbərdar idi. Bu vədi həyata keçirmək ona nəsib oldu. Bilərzikləri götürərək Suraqanı yanına çağırdı və onun qoluna taxdı.

Şübhəsiz Suraqa həmin anda illər öncəsi hicrət anını, Allah Rəsulu ilə ilk qarşılaşma və müjdə anlarını yaşayırdı[67]...

❋❋❋

Hicrət yolunda şahid olanların unuda bilmədiyi başqa bir möcüzə reallaşırdı.

Kiçik karvan səfərdə ikən Əbu Məbədin səhradakı çadırına getdi. İçəridə Ümmü Məbəd[68] var idi. Yaşlı bir qadın idi. Qonaqlar çadırda kişi olmadığını başa düşüncə çadırdan bayıra çıxırlar. Ümmü Məbəd onlara necə xidmət edəcəyini bilmirdi. Çox kasıb idi. Karvandakılar satın almaq üçün ət və yemək soruşdular; yox idi. Çarəsiz halda çadırın içində bir şey axtarırdı.

Yolçulardan bir nəfər Ümmü Məbədə çadırın yanındakı yaşlı və zəif qoyunu soruşdu. Qoyun, yeriyə bilmədiyinə görə sürüdən geriyə qalmışdı.

"Onu sağa bilərəmmi?"-dedi. Qoyun qısır idi və qocalıb əldən düşmüşdü. Kaş sağılsaydı və bütün südü qonağın olsaydı. Bundan başqa bir söz deyə bilmədi.

---

67. Sirətu İbn Hişam (1/489, 490), əs-Sirətu-n-Nəbəviyyə (səh. 142-143)

68. Ümmü Məbəd ləqəbidir. Əsl adı Ətiqə, atasının adı Xaliddir. Atası Xalid Huzaa qəbiləsinin Kəb oğullarındandır.

Lakin bu mübarək simalı insan, qoca qoyunun yanına gəldi. Əli ilə qoyunun döşünü sığalladı və bismillah deyib dua etdi.

Qoyunun döşü süd ilə doldu. Qab istədi və sağmağa başladı. Qoyun sağılır, ancaq südü bitmək bilmirdi. Hamı təəccüblə bunu seyr edirdi. Qablar dolur, Ümmü Məbəd və qonaqlar içir, hamı doyunca içir və çadır sahibi Əbu Məbədə də kifayət edəcək süd qalır.

Axşam olarkən Əbu Məbəd heyvanları ilə birlikdə çadıra qayıtdı. Süd dolu qabı görüncə təlaşlandı.

"Ümmü Məbəd! Bu süd hardandır. Heyvan qoca və qısır idi. Evdə süd yox idi, süd verəcək heyvan da yox idi."

Ümmü Məbəd; "Xeyr yox idi. Bu gün çadırımıza mübarək bir adam gəldi..."-deyə başlayaraq o gün gördüklərini və yaşadıqlarını dilə gətirdi.

Onun gözəl sifətləri ilə başa saldığı bu adamla əlaqədar sözləri eşidən Əbu Məbəd; "Qüreyşin axtardığı adam olduğunu zənn edirəm."-deyir; "imkanım olarsa, onun dostları arasında yaşamaq istəyərəm"-deyərək arzusunu dilə gətirdi.[69]

❋

Mədinədə ilk Dayanacaq

Rəbiül-Əvvəl ayının on ikisi bazar ertəsi günü idi. Bu kiçik karvan, Mədinə yaxınlığındakı "Quba" qəsəbəsinə yaxınlaşmağa başlamışdı.

Mədinəli möminlər və əvvəlcədən hicrət edən səhabələr Allah Rəsulunun Məkkədən ayrıldığını və Mədinə istiqamətində hərəkət etdiklərini eşitmişdilər. Mədinəyə çatacağını ümid etdikləri günlərdə həsrətlə onu gözləyirdilər. Sabah namazından sonra bayıra çıxaraq günəş yüksəlib kölgələr yox olana qədər yollara baxır və təkrar evlərinə girirdilər.

---

69. Sirətu İbn Hişam (1/487-488), əs-Siratu-n-Nəbəviyyə (səh. 143-144)

Həmin gün yenə belə etmişdilər. Qızmar günlərdən biri idi. Günəş yüksəlmiş, istilik artmış, ümidlər kəsilmiş və gözləyənlər yenə evlərinə qayıtmışdılar.

Rəsulullahın (s.ə.s) və yol yoldaşlarının gəldiyini ilk dəfə bir yəhudi görür. "Ey Bəni Qaylə![70] Gözlədiyiniz gəlir!"-deyə bütün gücü ilə qışqırdı.

Birdən Mədinə və ətrafında müdhiş bir canlanma başlandı. Getdikcə səslər yüksəlir və Mədinə tarixi bir günü yazmağa hazırlaşırdı.

Ənəs (r.a) "O günkü mənzərənin bənzərini heç yaşamadıq! Görmədik!"-deyir.

O günlərdə hələ uşaq deyiləcək yaşlarda olan Bəra İbn Azib (r.a) belə rəvayət edir:

Rəsulullah (s.ə.s) Mədinəyə gəlmişdi və mədinəlilərin Allah Rəsulunun gəlişinə sevindiyi qədər heç bir şeyə sevindiyini görmədim.

İnsanlar yollara tökülmüş, Mədinə sevincə bürünmüşdü. Rəsulullah (s.ə.s) qarşılanaraq Qubaya gətirildi və İmrau-l-Qeysin nəvəsi Gülsümün[71] evinə qonaq edilir.[72]

Möminlər üçün yeni diyarda tam yeni günlər başlayırdı...

❋❋❋

70. Evs və Həzrəcdən öncə bu qəbilə bu soyun anası olan "Qaylə" adındakı qadına nisbət edilərək yad edilirdi. Daha sonra bu soydan gələn Evs və Həzrəcə nisbət edildi və iki başlıca qola ayrıldı. Hər qol öz atasının adı ilə yad edilməyə başladı. Lakin Bəni Qaylə sözü unudulmadı. Qaylə, Kahil İbn Uzrənin qızıdır və cəsarətli bir qadındır. (Sirətu İbn Hişam, 1/218-219, Lisanu-l-Arab 11/580)

71. Gülsüm İbn Hədəm. Ləqəbi Əbu Qeysdir. Gülsüm yaşlı bir qadın idi. Peyğəmbərimizin gəlişindən qısa bir müddət sonra vəfat etdi. Həzrət Peyğəmbərimizin Mədinəyə gəlişindən sonra Evs qəbiləsindən ilk vəfat edən səhabə odur. (İbn Hişam, 1/493, Siyəru Əlami-n-Nübəla, 1/241). Günümüzdə Gülsüm adı qadın üçün istifadə edilir. Səbəbi, Ümmü Gülsüm və kəlmənin tələffüzündən qaynaqlanır.

72. Sirətu İbn Hişam (1/492-493), əs-Siratu-n-Nəbəviyyə (səh. 162-164)

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

Hicrət içində bir çox ibrətlər daşıyan, hər mərhələsi başqa bir dərinlikdə araşdırılması zəruri olan bir hadisədir. Vidalaşmaqla xoş gəlişin, qovulma ilə bağıra basılmanın, bir dəftəri bağlayıb başqa bir dəftəri açmağın, vətəndən qürbətə, camaatdan dövlətə keçidin dərin izlərini, kədər və sevincini özündə ehtiva edən tarixi bir andır.

Biz bu hissləri yaşayaraq, ancaq dərininə varmadan bəzi məqamlara diqqət çəkəcəyik.

- Vərəqə İbn Nofəlin də xəbər verdiyi kimi, hər Peyğəmbərin başına gələn, Rəsulullahın (s.ə.s) da başına gəlir, o da yaşadığı diyardan, daha öncə onu sevən, təqdir edən, "Muhəmmədu-l-Əmin" deyə adlandıran insanlar, qohum və yaxınları tərəfindən qovulmaq məcburiyyətində qalır; öldürülməsi üçün planlar hazırlanırdı.
- Mömin könüllər Allah rizası üçün əbədi səadəti müvəqqəti dünya mənfəətlərindən üstün tutaraq bütün var-dövlətlərini və dünyalıq hesablarını arxada qoyaraq Hicrət edirdilər.
- Mədinəlilər hicrət edərək onların diyarlarına gələn mömin qardaşlarına dünya durduqca qibtə ediləcək bir qardaşlıq nümayiş etdirirdilər.
- Rəsulullah (s.ə.s) onun dalınca gələn müşrikləri xəyal edə bilməyəcəkləri şəkildə çaşdırır, bu isə müşriklərin axtarışlarını boşa çıxarır.

- Əbu Bəkr (r.a) bu tarixi səfərin əhəmiyyətini çox yaxşı başa düşmüş və yol yoldaşı seçildiyi üçün sevincini gizləyə bilməmişdi.
- Yol boyunca göstərdiyi maddi-mənəvi fədakarlıqlar həqiqətən yad edilməyə dəyər. Reallıqda onun islamdakı bütün həyatı səmimiyyət və fədakarlıqlarla doludur. O, "Siddiq" idi. O, "hicrət yoldaşı" idi. O, Qurani-Kərimin ifadəsi ilə; "mağaradakı iki nəfərin ikincisi" idi. O, kainatın əfəndisinin sevdiyi, özünə yoldaş etdiyi insan idi.
- Əmir (r.a) bir çoban idi. Lakin bir mömin olaraq üzərinə düşəni etməyin mübarizəsini gücünün çatdığı nisbətdə ən gözəl şəkildə vermişdi.
- Əbu Bəkrin (r.a) oğlu Abdullah, uşaq idi, ancaq gördüyü iş böyük idi. Onu unutmaq mümkün deyildi. Onun bu səyləri həmişə yad edilməli, hər zaman könüllərdə yaşamalı idi.
- Yenə Əbu Bəkrin (r.a) qızı Əsma, başqa bir fədakarlıq və əzmkarlıq nümunəsi nümayiş etdirirdi.
- Hicrət edən (mühacir)lər yeni bir tarix yazmağa gedirdi.
- Möcüzələr könül rahatladır; çətin günlərdə verilən möcüzəvi müjdələr daha sonrakı illərdə reallaşdıqca, aparılan mübarizələri, dözülən çətinlikləri, yoxluqları göz önünə gətirir, əzmkarlıq göstərir, duyğulu anların yaşanmasına vəsilə olurdu.

Bir Neçə Kəlmə

Hicrətin, hicrət olaraq bizə çox şeylər xatırlatdığını bilirəm. Yenə də yuxarıda dilə gətirilən bir neçə ibrət səhnəsi qarşısında dayanıb düşünməkdə fayda vardır.

Qardaşlıq

Rəbbimiz mədinəli möminləri Qurani-Kərimdə belə öyür:

وَالَّذِينَ تَبَوَّءُوا الدَّارَ وَالْإِيمَانَ مِنْ قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِي صُدُورِهِمْ حَاجَةً مِمَّا أُوتُوا وَيُؤْثِرُونَ عَلَىٰ أَنْفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ ۚ وَمَنْ يُوقَ شُحَّ نَفْسِهِ فَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ

"**Onlardan** (mühacirlərdən) **əvvəl** (Mədinədə) **yurd salmış və** (Muhəmməd əleyhissəlama qəlbən) **iman gətirirmiş kimsələr** (ənsar) **öz yanlarına** (şəhərlərinə) **mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd** (qəzəb) **duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar.** (Allah tərəfindən) **nəfsinin xəsisliyindən** (tamahından) **qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə** (Cənnətə) **qovuşanlardır!**" (əl-Həşr, 59/9)

Bu öygü, tarix durduqca davam edəcək bir öygüdür. Mədinəlilər də bu öygü ilə şərəflənərkən həqiqətən unudulmayacaq, hər biri ayrı-ayrı yad edilməyə dəyər qardaşlıq, comərdlik, mərdlik, vəfakarlıq, səbir və səbat nümunələri göstərmişlər, bir çox mövzuda mühacir qardaşlarını özlərindən, onların ehtiyaclarını öz ehtiyaclarından üstün tutmuşdurlar.

Məlum olduğu kimi Həzrət Peyğəmbərimiz Mədinəyə hicrətdən sonra mühacirlərlə mədinəli müsəlmanları qardaş etmişdi. Mədinəlilər mühacir qardaşlarına ən azı öz qardaşları qədər yaxınlıq, səmimiyyət və fədakarlıq göstərmiş, əlindəki bütün imkanları qardaşına təqdim etmişdi. Mühacirlər də bu qardaşlıq hissinin dolu-dolu həzzini hiss etmişlər, qardaşlarına yük olmamağın onlarla yardımlaşmağın, qaynayıb-qarışmağın ən gözəl nümunələrini göstərmişdirlər.

Buna gözəl bir misal verilərsə, Abdurrahman İbn Avf ilə Səd İbn Rəbi arasında keçən bu tarixi söhbət zikr edilə bilər.

Abdurrahman İbn Avf ilə qardaş elan edilən Səd İbn Rəbi bütün malını, hər şeyini ortalığa tökür; "Bunların yarısı sənindir. Ürəyinin istədiyini ala bilərsən!"-dedi.

Onun bu davranışı qarşısında Abdurrahman İbn Avf, qardaşı Sədə; "Allah, aliləni və var-dövlətini sənin üçün mübarək eyləsin,

bərəkətli etsin. Sən mənə bazarın yolunu göstər!"-deyərək onun qardaşlığından başqa heç bir dünya malını almır və bazara gedir. Ticarətdəki qeyri-adi qabiliyyəti ilə çox keçmədən qardaşına və başqalarına yardım edəcək səviyyəyə gəlir.[73]

Bunun müxtəlif nümunələrini digər qardaşlar arasında da görmək mümkündür.

Mədinələlilər bu fədakarlığı yalnız Rəsulullahın (s.ə.s) Mədinəyə gəlişindən sonra göstərmirdi. Yüzlərlə mühacir var-dövlətini Məkkədə qoyaraq Mədinəyə gəldiyində də onlara qucaq açmışdı. Bir çox mühacir onları evinə qonaq edən mədinəli qardaşlarının çox olması səbəbiylə püşk atılaraq paylanılmışdı. Püşkdə adı çıxan mədinəli, sevinclə qonağını alıb evinə aparır, heç bir sərvətini ondan əsrgəmirdi.

Hicrətin arxasınca çox keçmədən Bəni Nazir qəbiləsinin malları qənimət olaraq ələ keçirilmiş, mədinəlilər bu malların mühacirlərə verilməsini üstün tutmuşlar; bu seçimi edərkən qəlblərində "nəyə görə onların olsun?"-kimi bir hissləri olmamışdı.

❋

Beləliklə həqiqətən layiq olduqları; "köməkçi, yardım qucağını açan" mənasına gələn "əl-Ənsar" ləqəbini almışdılar. Artıq onlardan hər biri qiyamətə qədər "əl-Ənsari" olaraq yad ediləcəkdi.

Bu barədə Rəsulullah (s.ə.s) belə buyurur:

لَوْ أَنَّ الْأَنْصارَسَلَكُوا وَادِيًا أَوْ شِعْبًا لَسَلكْتُ فِي وَادِي الأَنْصَارِ.

وَلَوْلاَ الْهِجْرَةُ لَكُنْتُ امْرُأً مِنَ الأَنْصَارِ.

"Əgər Ənsar bir vadi və ya dağ arasına üz tutarsa, mən də onların getdiyi vadidən gedərdim.

Əgər hicrət olmasaydı, mən də Ənsardan bir fərd olardım."[74]

Ənəsdən (r.a) rəvayət edilən bir hədis də;

73. Səhih əl-Buxari, Fəzail (Umdətu-l-Qari, 13/333)

74. Səhih əl-Buxari, Fəzail (Umdətu-l-Qari 13/332)

أَنْتُمْ مِنْ أَحَبِّ النَّاس إِلَيَّ *"Siz ən çox sevdiyim insanlardansınız"*[75] buyurur və bunu üç dəfə təkrar edirdi.

Yuxarıda zikr edilən ayəni izləyən ayeyi-kərimədə daha sonrakı əsrlərdə yaşayan və özlərindən öncəki mömin qardaşlarını xeyir və ehtiramla yad edənlər dilə gətirilir və bizləri irşad etmək üçün belə deyir:

وَالَّذِينَ جَاءُوا مِنْ بَعْدِهِمْ يَقُولُونَ رَبَّنَا اغْفِرْ لَنَا وَلِإِخْوَانِنَا الَّذِينَ سَبَقُونَا بِالْإِيمَانِ وَلَا تَجْعَلْ فِي قُلُوبِنَا غِلًّا لِلَّذِينَ آمَنُوا رَبَّنَا إِنَّكَ رَءُوفٌ رَحِيمٌ

"**Onlardan** (mühacirlərdən və ənsarlardan) **sonra gələnlər belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş** (din) **qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə** (həsədə) **yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!**" (əl-Həşr 59/10)

Ayeyi-Kərimə təbiilərin şəxsində islam ümmətinin daşıması zəruri olan xislətləri dilə gətirir və belə olmasının zəruriliyinə diqqət çəkir. İbrət və irşad üçün bu ayəyə qulaq asmaq və üzərində dərindən düşünmək məcburiyyətində olduğumuzu zənn edirəm. Ayə, aşkar və konkret. Dua nə gözəl. Artıq sözə nə hacət!...

Haqq Mübarizəyə Xidmət Etmək

Əmir (r.a) Əbu Bəkrin yanında xidmət edən, onun mal-qarasını otaran bir insandır.

Əvvəllər Tufeyl İbn Abdullahın köləsi idi. Kölə olduğu illərdə islamı seçdi. Zülm və təzyiqlərin acılarını o da daddı. Bezmədi, yolundan dönmədi və iman nurundan qopmadı. Əxlaqı gözəl idi və islamı yaşayışı da gözəl oldu.

Əbu Bəkrin (r.a) sayılmayacaq qədər xeyriyyəçiliklərindən biri olaraq onun tərəfindən satın alındı və azadlığına qovuşduruldu.

---

75. Səhih əl-Buxari, Fəzail (Umdətu-l-Qari, 13/334)

O da bir mömin olaraq üzərinə düşəni edir, müşriklərin izlərinə düşülməməsi üçün Rəsulullah (s.ə.s) və Əbu Bəkrin (r.a) izlərini itirməyə çalışır, otardığı heyvanları izlər üzərində gəzdirir, beləliklə heç kimə hiss etdirmədən ətrafa baxır, axşam qaranlıq düşərkən bir-iki südlü heyvanı yamaclara doğru çıxararaq bu iki əziz yolçunun süd ehtiyacını qarşılamağa çalışırdı.

Onun bu səylərindəki səmimiyyəti dərindən hiss edir, xeyirlə yad edirik.

O həyatı boyunca islama xidmət etməyə davam etmişdir. Yuxarıda da qeyd edildiyi kimi, Allah Rəsuluna xidmət üçün hicrət karvanında iştirak etmiş, üzərinə düşən vəzifəni ən gözəl şəkildə yerinə yetirmişdi. Bədr və Uhud savaşlarında iştirak etmiş, hicrətin dördüncü ilində təbliğ məqsədi ilə gedərkən Maunə quyusu yaxınlığında gecələdikləri bir məqamda **"Usayyə"**, **"Dal"** və **"Zəqvan"** qəbilələri tərəfindən mühasirəyə alınaraq şəhid edilənlər arasında yer almış, Allah yolunda şəhid olaraq həyata gözlərini yummuşdu.

İslamı yaşayışı gözəl idi, xidməti gözəl idi və axirətə köçməsi də gözəl oldu.

Kilab qəbiləsindən Cabbar, nizə ilə onu arxadan vurmuşdu. Arxadan iki qol kürəyinin arxasından girən nizə sinəsindən çıxarkən, bu əziz insanın dilindən; "Allaha and olsun ki, mən qazandım! Qələbə mənimdir!"-sözləri eşidilirdi. Cabbar bu sözlərə çaşıb qalmışdı. Düşünürdü görəsən bu adam nə qazanıb? Görünüşdə qazanan (qələbə çalan) o idi. Əmiri arxadan vuraraq öldürmüşdü. Ölüm ayağında olan bir adam nə qazana bilərdi ki... Çox təəccüblənmiş, lakin tapmacanın cavabını tapa bilməmişdi. Daha sonra bir müsəlmandan Əmirin nə qazandığını öyrənir və eşitdiyi sözlərin təsirindən qurtula bilmirdi. O, illərdir axtardığı şəhidliyi qazanmışdı. Cənnəti qazanmışdı. O, əldə edilə biləcək şeylərin ən gözəllərindən birini əldə etmişdi...

Cabbar onun nə qazandığını öyrənincə; "Allah haqqı üçün o qazandı?"-deyirdi. Əmirin şəhid olarkən dediyi bu sözlər, onu şəhid edən Cabbarın islam ilə şərəflənməsinə, bir qəlbin canlanmasına səbəb oldu.[76]

❋

Əsma (r.a) isə xeyir, feyz və bərəkətlə dolu bir evin ixlas, səmimiyyət və fədakarlıqla dolu bir qızı idi. Aişə anamızın bacısı, Əbu Bəkrin (r.a) qızı, Peyğəmbərimizin bibisi Səfiyənin gəlini, cənnətlə müjdələnən səhabələrdən Zübeyrin (r.a) xanımı, hicrətin ilk uşağı Abdullah İbn Zübeyrin anası idi. İlk müsəlmanlardan, ilk cəfakeşlərdən idi.

Yalnız dağın ətəyindən başlayaraq Sevr dağının təpəsində yerləşən mağaraya dırmaşmaq üçün iti addımlarla 1.5 saata getmək mümkündür. Əsmanın ərzaq yükü ilə gecənin qaranlığında qət etdiyi məsafə, keçdiyi sərt qayalıqlar və dırmaşdığı təpə heç də adi bir məsafə və yüksəklik deyildir.

Gecənin qaranlığında eyni yolları geri qayıtmağı da nəzərdən qaçırmamaq lazımdır. Həmçinin Əbu Cəhlin hücumuna məruz qaldığı da mənbələrimizdə keçən bir həqiqətdir. Bunu öz dilindən dinləyək:

"Rəsulullah (s.ə.s) ilə Əbu Bəkr (r.a) evdən ayrılıb getmişdi. Daha sonra qüreyşdən aralarında Əbu Cəhlin də olduğu bir dəstə gəlib Əbu Bəkrin evinin qapısında dayandı. Qarşılarına çıxdım. Əbu Cəhl mənə; "Atan haradadır Əbu Bəkrin qızı?!" –dedi. "Vallah hal hazırda harada olduğunu bilmirəm."-deyə cavab verdim. Kobud, iricüssəli və xəbis bir adam idi. Əlini qaldırıb üzümə elə bir sillə vurdu ki, sırğam qulağımdan qopub düşdü. Sonra çıxıb getdilər."[77]

❋

76. Əmir İbn Fuheyrə ət-Təmiminin (r.a) həyatı haqqında bax: Əl-İstiab, İbn Əbdilbərr (3/7-8), Usdu-l-Ğabə (3/136-137), əl-İsabə, İbn Həcər (2/256), əl-Bidayə və-n-Nihayə (5/303), Biri Maunə faciəsi ilə əlaqədar bax: Sirətu İbn Hişam (2/183-189), əl-Bidayə və-n-Nihayə (4/73-76), əs-Sirətu-n-Nəbəviyyə (səh. 2029)

77. Sirətu İbn Hişam (1/487), əl-Bidayə və-n-Nihayə (3/177)

Onunla əlaqədar yad edilməsi zəruri olan başqa bir ibrət səhnəsinə diqqət edək:

Əsmanın (r.a) da çox keçmədən hicrət etdiyi, Qubaya gəldiyində hicrətin ilk uşağı olan Abdullah İbn Zübeyri dünyaya gətirdiyi məlumdur.

Üstəlik yəhudilərin; "Mədinənin havası məkkəlilərə yaramayacaqdır; burada nəsilləri kəsiləcək, soyları davam etməyəcək..." sözlərinin təsiri ilə doğum və uşağın sağlam olması xəbəri müsəlmanlar tərəfindən təkbir səsləri ilə qarşılanmışdı. Müjdə dildən-dilə gəzməyə, bir anda Mədinəyə yayılmağa başladı. Bu ləyaqətsiz təbliğat bir anda alt-üst oldu və yəhudilərin arzusu gözündə qaldı. Yəsrib,[78] Taybə (Gözəl şəhər) olmağa hazırlaşırdı.

Dünyaya gətirdiyi körpəsi belə könüllərə sevinc gətirmiş, möminlərin sevincinə vəsilə olmuş, ona yol yorğunluğunu unutdurmuşdu. Qısa bir zamanda özünə gəldi və əziz körpəsini qucağına götürərək gətirib Allah Rəsulunun (s.ə.s) qucağına qoydu.[79] Körpəsi ilk baharın tər çiçəyi yeni açılmışdı.

Lakin diqqət edilməsi zəruri olan başa bir məsələ də vardır. Onun bu xidməti və hicrətinə diqqət edildiyində bir həqiqət ortaya çıxır. Əsma (r.a) belindəki yüklə o yamaclara və təpələrə dırmaşarkən təxminən 7-8 aylıq hamilə idi. Hicrətin ilk uşağını da qarnında daşıyır və hicrəti də onunla birlikdə edirdi.[80]

❋

Gənc qızlarımıza və qadınlarımıza örnək axtarılır? Məhz bu qadın canlı nümunədir!..

❋

Abdullaha (r.a) gəlincə; o da Əsmanın və Aişənin qardaşı, Əbu Bəkrin oğlu, Peyğəmbərimizin qaynıdır.

78. Yəsrib: Mədinənin islamdan əvvəlki adıdır. Yəsribdə malyariya xəstəliyi geniş yayılmışdı. Xüsusilə bu xəstəliyə kənardan gəlin və havasına öyrəşməyən insanlar yaxalanırdı.

79. Səhih əl-Buxari, Fəzail (Umdətu-l-Qari 14/37-38)

80. Əsmanın (r.a) həyatı ilə əlaqədar məlumat üçün əl-İstiab, İbn Əbdilbər (4/232-234), Usdu-l-Ğabə (7/9-10), Siyəru Əlami-n-Nübəla (1/287-296), əl-İsabə, İbn Həcər (4/229-230), Suvərun min həyati-s-Səhabə (7/55-69)

Həmin vaxt uşaq deyiləcək yaşda idi, ancaq bacardığı iş çox böyük idi. Ağıllı, cəsur, səbirli və dözümlü idi. Eyni zamanda gördüyü iş, kəşfiyyatın nə dərəcədə mühüm olduğunu göstərir.

O yaşdakı uşağın belə yüksək zəkaya sahib olması, yorulmadan, çəkilmədən əzmlə işinə davam etməsi, gecənin qaranlığında qorxmadan, tərəddüd etmədən təpələri keçərək hər gün Sevrə çıxması, unudulmaması, qibtə edilməsi zəruri olan bir xidmətdir. Abdullah da uşaqlarımız üçün ideal bir örnəkdir. Uşaqlarımızı necə tərbiyə etməyimizin zəruriliyinə dair bir ibrət nümunəsidir.[81]

❋

Uşaq Tərbiyə Etmək

Uşaq tərbiyə etmək, istənilən xislətlərə sahib yeni bir nəsil yetişdirmək... Dildə asan; ancaq bu gün bataqlıqlarla dolu həyatın içində mübarizə apararkən heç də asan olmayan bir işdir. Bütün çətin şərtlərə baxmayaraq əsla biganə yanaşılmaması, qafillik edilməməsi zəruri olan bir vəzifədir. Bir canavarın ağzından ovunu almaq qədər çətin, ancaq son dərəcə əhəmiyyətlidir.

Rəsulullah (s.ə.s) uzun bir hədisi-şərifində hesab günündə, o dəhşətli qızmarın hakim olduğu anda Allahın xüsusi kölgədə kölgələndirəcəyi yeddi zümrədən biri olaraq, Rəbbinə ibadətlə yetişən, boy atıb böyüyən, sümükləri, əzələləri bu hiss və təslimiyyətlə inkişaf edib bərkiyən gənci sayır və belə buyurur:

سَبْعةٌ يظلّهم اللّه يَومَ لاَ ظِلَّ إلاَّ ظِلُّه: .. وَشَابٌّ نَشَأَ فِي عِبَادَةِ رَبِّهِ..

"Yeddi zümrə vardır ki, Allah onları öz kölgəsindən başqa heç bir kölgənin olmadığı hesab günündə öz xüsusi kölgəsində kölgələndirəcəkdir:... Rəbbinə qulluq və Ona ibadətlə böyüyüb boya-başa çatan gənc.."[82]

---

81. Abdulla İbn Əbu Bəkr (r.a)-nın həyatı haqqında məlumat üçün bax: Usdu-l-Ğabə (3/299-300), əl-İsabə, İbn Həcər (2/283)

82. Hədis muttəfəqun əleyh hədisdir. Hədisin tam mətninə bax: Səhih əl-Buxari, Azan (Umdətu-l-Qari, 4/349), Səhih əl-Müslim, Zəkat (2/715).

Bir uşağı, bir gənci tərbiyə etmək deyincə; onu maddi-mənəvi cəhətdən gözəl xislətlərlə böyütmək üçün çalışmaq, tərbiyə etmək nəzərdə tutulur. Bu isə öz-özlüyündə başqa bir araşdırma mövzusudur.

Abdullahı (r.a) yad etmişkən, onun göstərdiyi cəsarəti və xidməti nəzərə alaraq, cəsur, əzmli və özünə inamı olan bir nəslin tərbiyə edilməsi ilə əlaqədar bir neçə kəlmə söyləmək istərdim.

❋

Xəlifə Ömər (r.a) Rəsulullahın (s.ə.s) sünnəsinə bağlılığın tələbi olaraq valilərə yazdığı bir yazıda belə əmr edirdi:

عَلِّمُوا أَوْلاَدَكُمُ الرِّمَايَةَ وَالسِّبَاحَةَ, وَمُرُوهُمْ فَلْيَثِبُوا عَلَى الْجَيْلِ وَثْبًا.

"Uşaqlarınıza atıcılığı və üzməyi öyrədin. Onlara, bir sıçrayışda ata minəcək hala gəlmələrini əmr edin!"[83]

O, canlı, güclü, qüvvətli, qabiliyyətli və özünə güvənən, cihad ruhlu bir gənclik istəyirdi.

Belə ki, Rəsulullah (s.ə.s):

اَلْمُؤْمِنُ الْقَوِيُّ خَيْرٌوَأَ حَبُّ إِلَى اللَّهِ مِنَ الْمُؤْمِنِ الضَّعِيف. وَفِي كُلٌّ خَيْرٌ...

"Güclü bir mömin, zəif bir mömindən daha xeyirli və Allahın hüzurunda daha sevimlidir. Əlbəttə ki, hər mömində xeyir vardır,"[84]-buyurur.

Şübhəsiz Rəsulullah (s.ə.s) yalnız bir baxımdan güclü olmağı nəzərdə tutmur.

❋

Cəsarət, dikbaşlığa; açıq sözlülük ədəbsizlik və küstahlığa dönmədən, güclü, cəsur, ağıllı, düşüncələrini yaşının səmimiyyəti və sadəliyi içində ifadə qabiliyyəti olan, ona dəyər verildiyində özündən çıxmayan, ona etibar edən, dürüst, inanclı və islami dəyərləri bilən və onlarla bişərək yetişən yeni bir nəsilə

83. Tərbiyətu-l-Övlad, Abdullah Nasih (1/310)

84. Səhih əl-Müslim, Qədər (4/2052)

olan ehtiyacımız; suya, havaya olan ehtiyacımız qədər qəti və zəruridir.

Ubadə İbn Samit (r.a) rəvayət edir:

بَايَعْنَا رَسُولَاللَّهِ عَلىَ السَّمْعِ وَ الطَّعَةِ فِي الْنْشَطِ وَالْمَكْرَهِ فِي العُسْرِ وَالْيُسْرِ... وَعَلَى أَنْ نَقُولَ بِالْحَقِّ أَيْنَمَا كُنَّا, لاَنَخْشَي فِي اللَّهِ لَوْمَةَلاَئِمٍ...

"Biz Allahın Rəsuluna (s.ə.s) xoşumuza gedən-getməyən, acı-şirin, yaxşı-pis gündə, çətinlik və rahatlıqda itaət etmək və nə vəziyyətdə oluruqsa olaq, Allah uğrunda heç kimin qınağından, təzyiqindən qorxmadan, çəkinmədən və haqqı dilə gətirmək üzrə beyət etdik."[85]

Bu gün buna hazır bir nəslin həsrətindəyik.

Yerə ayaq basmış, orada gəzən ciyərparalarımızı, vəhşiləşən həyata qurban verib-verməmək məsələsində çox yaxşı düşünmək; düzgün qərarlar vermək, hisslərimizə, aldadıcı görüntülərə qapılmamaq məcburiyyətindəyik. Hamısından da üstünü uşağımızı necə görmək istəyiriksə, elə tərbiyə edə bilmək üçün tədbir görmək, digər mömin qardaşlarla əlbir olmaq və bu əzmi şüurlu şəkildə laqeyd yanaşmadan və biganəliyə tərk etmədən qorumaq məcburiyyətindəyik.

Səd İbn Əbi Vaqqas (r.a):

كُنَّا نُعَلِّمُ أَوْلاَدَنَا مَغَازِي رَسُولَ اللَّهِ كَمَا نُعَلِّمُهُمُ السُّورَةَ مِنَ الْقُرْآنِ.

"Allah Rəsulunun (s.ə.s) savaşlarını uşaqlarımıza eynilə Qurandan bir surə öyrədirmiş kimi öyrədir, əzbərlədirdik,"-deyir və bu sözləri ilə uşaqların bu ruh, bu şüur və cəsarətlə tərbiyə edilməsinin zəruriliyinə işarə edir.

❋

Yuxarıda adı keçən hicrətin ilk uşağı Abdullah İbn Zübeyr (r.a) küçədə dostları ilə oynayırdı. Küçənin başında bütün heybəti ilə Xəlifə Ömər (r.a) görünür, onun gəldiyini görən

85. Bu beyət, ikinci Aqabə beyətində edilmişdir. Səhih əl-Buxari, Ehkam (Umdətu-l-Qari, 20/162)

bütün uşaqlar qaçıb gizlənir. Abdullah isə qaçmır və dayanıb Xəlifənin keçməsini gözləyir. Onun sakit duruşu, ədəbi və özünü aparması Ömərin (r.a) diqqətini cəlb edir. Ona yaxınlaşır və; "Dostların qaçdı, sən niyə qaçmadın?"-deyə soruşur. Doğurdan da təəccüblənmişdi. Aldığı cavab isə soruşmağına dəyərdi:

لَسْتُ جَانِيًا فَأَفِرُّ مِنْكَ, وَلَيْسَ فِي الطَّرِيقِ ضِيقٌ فَأُوَسِّعُ لَكَ.

"Günah etmədim ki, səndən qaçım, yol dar deyil ki, keçəsən deyə yolu boşaldam."[86]

Əsrlərə sığmayan möminlərin Əmiri dodaqlarındakı təbəssümlə yoluna davam etdi.

✺

Ömər İbn Əbdüləziz (r.a) qısa davam edən xilafət dövründə mömin könüllərin heyranlığını və xeyir-dualarını qazanmış, unudulmaz xatirələr qoyaraq dünyanı tərk etmiş bir insan idi.

Bir bayram günü oğlunu görür. Əynində nimdaş və yamaqlı bir paltar var idi. Gözləri yaşarır. Uşaq onun dolmuş gözlərini görüncə soruşur: "Ey möminlərin Əmiri! Niyə ağlayırsan?"

يَابُنَيَّ أَخْشَى أَنْ يَنْكَسِرَ قَلْبُكَ إِذَا رَآكَ الصِّبْيَانُ بِهذَا الثَّوْبِ الخَلِقِ.؟!

"Oğlum! Uşaqlar bu yamaqlı paltarlarda səni görüncə qəlbin qırılar, ürəyin xarab olar deyə qorxuram. "

Uşağın mənə verdiyi cavab, böyüklərə dərs verəcək bir kamillikdə:

Atacan!Allah rizasını itirənin və ya valideynlərinə qarşı çıxanın qəlbi sınıq olar, kədərli olar. Mən isə sənin rizanı qazanaraq Rəbbimin rizasına nail olmaq ümidi içindəyəm.[87]

Məhz bu insandır möminlərin əmiri və ona da yaraşan bir oğul!..

✺

86. Eyni adlı əsər, (1/303)

87. Eyni adlı əsər, (1/303-304)

Səhih əl-Müslimdə Səhl İbn əs-Sədidən rəvayət edilir:

إنَّ رسول أتى بشراب فشرب منه وعن يمينه غلام وعن يساره أشياخ. فقا للغلام: (أتأذن لى أن أعطى هؤلاء؟)

فقل الغلام: لاواللّه! لاأوثربنصيبي منك أحداً. فتلّه رسول اللّه فى يده.

"Rəsulullaha bir içki gətirildi. Gətirilən içkidən içdi. Sağında bir uşaq dayanmışdı, solunda yaşlı insanlar var idi. Uşağa, Mənə icazə verərsənmi, içkini onlara verim?"-buyurdu.

Uşaq; Xeyr vallah! Səndən gələn nəsibi başqasına vermərəm, başqasını bu məsələdə özümdən üstün tuta bilmərəm, dedi.

Bu sözlərdən sonra Rəsulullah (s.ə.s) qabı onun əlinə verdi."

Rəsulullah (s.ə.s) də orada olan səhabələr də bunun bir ədəbsizlik olmadığını, balaca uşağın Allah Rəsuluna qarşı hisslərini, daxildən gələn və aşkar bir ifadə ilə çəkinmədən dilə gətirmiş və arzusuna çatdığını bilirdilər.

❋

Hişam İbn Malikin xilafətdə olduğu günlər idi. Səhralarda üç il davam edən bir qıtlıq baş vermiş, yoxluq insanları çarəsizlik içində qoymuşdu.

Səhradan gələn bir heyət, Hişamın hüzuruna çıxdı. Yardım istəyəcəkdilər. Heyətdəki insanlar danışmağa çəkinirdilər. Heyətin arasında Virdas İbn Hubeyb də var idi. O hələ uşaq idi. Hişam onu görüncə, hüzuruna girənləri buraxmaqdan məsul olanı danlayaraq; "Hər gələni yanıma buraxırsan, hətta balaca uşaqları belə..."-deyir.

Lakin çox keçmədən hüzurundakı uşaq bütün sükunəti pozdu.

"Ey möminlərin Əmiri! Üç qıtlıq ili keçdi. Birincisi bədənimizdəki piyləri əridib bitirdi, ikincisi ətimizi yeyib bitirdi, üçüncüsü isə sümüyümüzün iliyini sorub bitirdi.

Əlinizdə çoxlu mal-dövlət var. Əgər bu mallar Allaha aiddirsə, onu Allahın bəndələrinə payla, yox əgər mallar xalqa aid-

dirsə, nəyə görə onların mallarını yığıb saxlamısan? Əgər sizə aiddirsə, onda sədəqə olaraq paylasan nə gözəl olar! Bunda dar gün ola bilməz."

Təəccüblə bu sözləri eşidən Hişam; "Bu uşaq hər üç halda da bizə çıxmağa qapı buraxmadı."-deyir və gələn heyətə min dinar qızıl, Virdasa min dirhəm (gümüş) verilməsini əmr edir.

Virdas; "Ey möminlərin Əmiri! Onu da digərlərinin yanına qoydur. Verdiyinizin onların ehtiyaclarını ödəməyəcəyindən qorxuram."

"Sənin ehtiyacın yoxdurmu?"

"Mənim digər müsəlmanlardan başqa bir ehtiyacım yoxdur."

Virdas istehza edilərək daxil olduğu bu məkandan həmin toplumun ən məşhur insanı olaraq ayrılır.[88]

Gənliyin səmimiyyət və açıq sözlülüklə bütünləşməsi, baharın canlılığı və təravəti kimi həyat baharına da başqa bir gözəllik və canlılıq gətirər.

Lakin əxlaq gözəlliyi bütünü ilə hisslərə və ifadələrə sığmayacaq bir gözəllikdir. Onu görüncə və yaşayınca hiss edərsiniz. Yaddaşınızda unudulmaz bir xatirə və dərin izlər buraxar. Sizi təbiətin gözəlliyindən daha çox təsirləndirər.

Bir gülün tumurcuğundakı təzəlik, bahar yarpaqlarının körpəliyi, balaca quzuların yaşıllıqlar üzərində tullanıb düşməsi, yaşıllıqlarda açan çiçəklər, şırıldayan bir bulağın səsi, su içməyə çalışan bir sərçənin hərəkətləri... qəlbinizdə təsəvvür edilməz oyanışlara və səadətə səbəb olar.

Əxlaq gözəlliyi, bütün bunların üzərində səadət və oyanışlara, gözəl xislətlərin bəslənməsi və canlanmasına səbəb olan başqa bir gözəllikdir. Onunla dolu-dolu olan bir nəsilə ehtiyacımız vardır.

---

88. Tərbiyətu-l-Övlad, Abdullah Nasih (1/305-306), Safahat, M.A. Ersoy (birinci kitab səh. 113-117) Lakin safahatda bu balaca dəliqanlının adı "Dirvas" şəklində zikr edilmişdir. Kitabın islami hərflərlə yazılmış əslinə qayıdaraq adın dəqiqləşdirilməsinə ehtiyac vardır.

Allah Rəsulu; "Ən xeyirliniz, görüldüyü zaman Allahın xatırlandığı insandır"[89]-buyurur.

Reallıq budur ki, həqiqi dost, onu görüncə sizdə xeyirli hisslərin oyandığı, əbədi həyatın xatırlandığı, ağıla gözəl şeylərin gəldiyi, gözəl şeylər etmək əzminin canlandığı... dostdur.

❋

Uhud savaşı üçün ordu Mədinədən ayrılmış, şəhərdən çıxdıqdan sonra Mədinə ilə Uhud arasında yerləşən "Şeyxeyn"[90] deyə adlandırılan yerdə gecələmişdi.

Rəsulullah (s.ə.s) ordunu burada son bir dəfə daha gözdən keçirdi. Müsəlmanların sayı düşmənlə müqayisədə az və silahlar da hamıya çatmırdı. Bütün igidlər cihada çağırılmış, Allah Rəsulunun yanında cihad etmək istəyən mücahidlər, bir anda səflərdə yerlərini tutdular. Lakin "Şeyxeyn" deyilən qonaqlama yerindəki bu ordu təftişi, gözləri yaşardacaq bir həqiqəti gözlər önünə gətirirdi. Səflər arasında 13-15 yaşlarında uşaqlar da var idi.

Onların bu halı, igidliklə və cəsur duruşları, cəsarətləri Rəsulullahı (s.ə.s) son dərəcə təsirləndirir, ancaq onları səflərdən ayırır. Bu hadisəni daha sevimli hala gətirən, bu balaca dəliqanlıların boylarını uzun göstərmək üçün ayaqlarının üzərinə qalxmağa çalışmaları, bəzilərinin isə gözə batmamaq üçün səflərin arasında gizlənməyə çalışmaları idi.

Həmin gün savaşa çıxmasına razı olunmayan səhabələr arasında Ömərin (r.a) oğlu Abdullah, Rəsulullahın (s.ə.s) yanında böyüyən Zeydin oğlu Üsamə; həmçinin Zeyd İbn Sabit, Bəra İbn Azib, Əbu Səid əl-Xudri, Rəfi İbn Xadic, Səmurə İbn Cündüb... (r.anhum) da var idi.

Bunların əksəriyyəti 14 yaşında idilər. Rəfi (r.a) isə, həmin gün 15 yaşına çatmışdı. Atası oğlunun cihad səflərindən ayrılma-

89. Sünəni İbn Macə, Zöhd (2/1379)

90. Rəsulullah (s.ə.s) bu qonaqlamada ikindi, axşam və ertəsi günün sübh namazlarını burada qılmışdır. Bunun xatirəsinə tikilən məscid, "Məscidi-Şeyxeyn" deyə yad edilir. Artıq məhəllələr arasında qalan bu yerdə, hələ də beş vaxt namazın qılındığı və daha çox "Məscidi-İstirahə" deyə tanınan bir məscid var.

sını istəmir və Rəsulullahın (s.ə.s) yanına gələrək; "Ya Rəsulallah! O, çox yaxşı ox atır. Mahir bir oxçudur!"-deyir və oğlunun cihad səflərində iştirak etməsini istəyirdi. Bunu gözdən qaçırmayan və yaxşı dəyərləndirən daha bir nəfər var idi. Səmurə İbn Cündüb (r.a). O da, Allah Rəsulunun yanına gələrək; "Ya Rəsulallah! Rəfiyə icazə verdin, məni savaşa qəbul etmədin. Mən onu güləşdə yıxıram!"-deyir və güləşdə doğurdan da onu məğlub edir və səflərə qoşulur.[91]

Uhud savaşına aparılmayan bu balaca igidlər, Xəndək savaşında cihad səflərinə qoşuldular. Abdullah İbn Ömər (r.a); Rəsulullahın (s.ə.s) Uhud savaşında onu gördüyünü və həmin vaxt yaşının 14 olduğunu, onun savaşda iştirak edilməsinə icazə verilmədiyini, Xəndək savaşı zamanı 15 yaşa çatdığını, Allah Rəsuluna göstərildiyini və Xəndək savaşında iştirak etməsinə icazə verildiyini nəql edir.[92]

Bu balaca igidlərin əzm və cəsarətinin digər səhabələri necə həvəsləndirdiyini uzun-uzadı düşünməyə ehtiyac yoxdur.

❋

Uşaqlar bizim yer üzündə gəzən ciyərparələrimizdir; onların haqq yolda olmaları və iki dünya səadətinə çatmaları əlbəttə ki, ən böyük arzumuzdur.

Qurani-Kərimdə:

وَالَّذِينَ يَقُولُونَ رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا

"**Və o kəslər ki: "Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan** (sənə itaət eməklə bizi sevindirib) **gözümüzün işığı** (bəbəyi) **olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam** (rəhbər) **et! – deyərlər.**" (əl-Furqan 25/74)-buyurur.

91. Sirətu İbn Hişam (2/66), əs-Sirətu-n-Nəbəviyyə (səh. 192), Həyatu-s-Səhabə (1/583)

92. Səhih əl-Buxari, Məğazi (Umdə, 14/171)

Biz də Rəbbimizin Qurani-Kərimdə buyurduğu kimi dua edir; arzu və ümidlə Ona yönəlir, bu istiqamətdə ciddi çalışmaların lüzumuna diqqət çəkmək istəyirik.

❋❋❋

Haqqı Axtarış

Salman Farisi

-radiyallahu anh-

سلمان الفارسي

Salman (r.a) daha çox Xəndək savaşından öncə aparılan məsləhətləşmələrdə dilə gətirdiyi fikri ilə tanınır.

Əhzab savaşı deyə də adlandırılan bu savaş üçün Rəsulullah (s.ə.s) səhabələri toplayıb məşvərət edir. Salman (r.a); "Ey Allahın Rəsulu! Biz güclər arasındakı səviyyə böyük olunca müdafiə savaşına çəkilir, şəhərimizin ətrafını qala və xəndəklərlə əhatəyə alardıq. Burada ən əlverişli olan düşmənin keçə biləcəyi ərazinin qarşısının xəndəklə kəsilməsidir..."-deyərək fikrini bildirmiş; təklifi qəbul edilmiş və Rəsulullah (s.ə.s), onun təcrübəsi sayəsində müdhiş bir əzmkarlıq və səylə Mədinənin açıq hissəsini xəndəklə mühasirəyə aldırmış, Mədinə üzərinə islam nurunu söndürmək niyyəti ilə gələn düşmənin güclü ordusu, bu xəndəyin qarşısında ilişib qalır.

Bu savaş, o gündən sonra daha çox "Xəndək savaşı" deyə yad edilmişdir. Xəndək savaşı hər cəhəti ilə araşdırılması zəruri olan bir savaşdır. İnsanı təəccübləndirəcək ibrət səhnələri ilə doludur.

❋

Lakin Salman Farisinin (r.a) bir "həqiqət, hidayət axtarışçısı"olaraq yad edilməyə daha çox layiq olduğunu zənn edirəm. İstəyirsinizsə, onun bu axtarışını öz dilindən eşidək:

İsfahan[93] şəhərində şəhərində yaşayan fars əsilli bir gənc idim. Bu şəhər yaxınlığındakı "Ceyyan" deyilən qəsəbədə yaşayırdım. Atam qəsəbənin başçısı, ən varlısı və ən tanınmış insanı idi. Hamının ehtiram göstərdiyi məcusi bir din xadimi idi.

Dünyaya gəldiyim gündən etibarən yer üzündə ən çox sevdiyi varlıq mən idim. Bu sevgi hər keçən gün daha da artırdı. Üzərimdə o qədər əsirdi ki, axırda gənc qız kimi evdən çıxmaz hala gətirildim.

Atəşpərəstlikdə həqiqətən həssas və vəfalı bir xidmətlə, atəşə baxan vəzifəsinə yüksəldilmişdim. Məcusilikdə bu yaxşı bir vəzifə idi. Gecə-gündüz yanan bu atəş, artıq mənə əmanət edilmişdi. Atamın rəhbəri olduğu böyük bir sitayiş yeri var idi. Ona aid olan bu məbədin gəliri də həddindən çox idi. Rəhbərliyini atam etdiyinə görə, ianələrini də atam yığırdı.

Bir gün işi çıxdı və üzünü mənə tutaraq;

"Oğlum, görürsən ki, bu gün məşğulam. Atəşgaha get və mənim yerimə oranı bu gün sən idarə et"-dedi.

Atəşgaha getmək üçün yola çıxdım. Yolda xristianlara aid bir kilsənin qarşısından keçərkən içəridən gələn səsləri eşitdim. Dua edirdilər. Diqqətimi çəkdi, lakin xristianlar haqqında heç bir məlumatım yox idi. Doğrusu uzun illər evə bağlı qaldığıma görə digər dinlər bir o qədər tanımırdım. Eşitdiyim səslər diqqətimi cəlb etdi və içəri daxil oldum.

Xor halında dua etmələri, ibadətləri və intizamlı halları xoşuma getdi. Onların bu ibadəti qəlbimdə özünə yer elədi. Özözümə; "Bu din bizim dinimizdən, bu ibadət də bizimkindən daha xeyirlidir"-dedim. Həmin gün, Günəş batana qədər kilsədən ayrılmadım və atamın atəşgahına getmədim.

Ayindən sonra onlardan bu dinin mərkəzini və ətraflı məlumat ala biləcəyim yeri soruşdum. "Şam diyarı"-dedilər.

Axşam olunca evə qayıtdım. Atam məni qarşıladı və nə etdiyimi soruşdu. Səmimi şəkildə baş verənləri ona danışdım: "Ata-

93. Bu şəhərin adının ərəb dilində tələffüzü, "Asbahan" şəklindədir. Salmanın (r.a) bəzi mənbələrdə İraq yaxınlığında yerləşən "Rəməhürmüz" şəhərindən olduğu qeyd edilir. Bax: Səhih əl-Buxari, Fəzail (Umdətu-l-Qari, 14/61)

can! Bu gün bir kilsədə dua və ibadət edən insanların yanına getdim. Onların dinlərinin daha kamil olduğunu gördüm. Bu din və ibadət daha çox xoşuma getdi. Günəş batana qədər də onların yanında qaldım."

Atam eşitdiklərindən dəhşətə gəlmişdi. "Oğlum! O dində xeyir yoxdur. Atalarının, əcdadının dini onlardan daha xeyirlidir,"-deyir və təlaşı gözlərindən sezilirdi.

"Xeyr" -deyə etiraz edərək, "Onların dini bizimkindən daha xeyirlidir"-dedim.

Atam dediklərimdən qorxmuşdu. Dinimdən dönəcəyimdən təlaşlanırdı. Məni evə həbs etdi və ayaqlarımı da zəncirlədi.

Bir fürsət taparaq xristianlara xəbər göndərdim: "Şama gedəcək bir karvan gələrsə, mənə xəbər verin"-dedim.

Çox keçmədən gözlədiyim xəbər gəldi. Yaşadığımız şəhərə Şama gedən bir karvan gəlmişdi. Karvanın gəldiyi və yola çıxacağı gün xəbər verilincə, səfərdən öncə çalışıb zəncirləri açdım və gizlincə evdən qaçaraq karvana qoşuldum. Karvanla birlikdə Şama gəldim.

Şama gəlincə oradakılara; "Bu dini ən kamil şəkildə bilən kimdir?"-deyə soruşdum.

"Kilsəyə baxan rahib"-cavabını verdilər.

Haqqında söhbət edilən rahibin yanına gələrək xristian olmaq istədiyimi, yanında qalaraq ona xidmət etməyi, ondan elm öyrənmək və onunla birlikdə ibadət etmək istədiyimi dedim.

"Buyur, gəl!"-deyərək içəriyə dəvət etdi. Kilsəyə daxil oldum və həmin andan etibarən bu rahibin yanında xidmət etməyə başladım.

Çox keçmədən bu adamın elminə və tutduğu vəzifəyə baxmayaraq heç də yaxşı bir insan olmadığını başa düşdüm. İnsanları sədəqə verməyə təşviq edir, sədəqənin savabından bəhs edir... ancaq Allah yolunda xərcləməsi üçün verilən sədəqələri özünə götürür, kasıb və möhtaclara heç bir şey vermirdi. Bu şəkildə yeddi iri küp dolusu qızıl və gümüşdən ibarət bir xəzinəsi var idi.

Bu həqiqəti görüncə ona çox qəzəbləndim. Bütün xəyallarım alt-üst olmuşdu. Bununla yanaşı o, çox şey bilirdi və inandığı din, məcusilikdən daha üstün bir din olduğu məlum idi.

Çox keçəmədən bu adam öldü və ətrafdakı xristianlar cənazə mərasiminə yığışdılar. Böyük bir qələbəlik onu dəfn etmək üçün bir yerə yığışmışdı.

Qələbəliyə xitab edərək; "Ey insanlar! Ehtiram göstərərək dəfni üçün yığışdığınız bu adam pis bir insan idi. Sizdən sədəqə verməyinizi istəyir, verilən sədəqələri özünə götürür və kasıblara heç nə vermirdi!"-dedim.

Mənə əsəbləşmişdilər. "Bunu haradan bilirsən?"-deyə soruşdular. Onlara, "Sizə xəzinəsini göstərimmi?"-dedim. "Bəli göstər"-dedilər.

Onlara bu adamın yığdığı ianələri gizlətdiyi yeri göstərdim. Göstərdiyim yerdən yeddi küp dolusu qızıl və gümüş çıxardılar. Bunu görən insanlar çox qəzəbləndi. "Allaha and olsun ki, biz bu adamı dəfn etməyəcəyik"-deyərək onun cəsədini asıb daş-qalaq etdilər.

Çox keçmədən yerinə başqa birisini təyin etdilər. Ona tabe oldum və xidmət etməyə başladım. Bu adam digərinin əksinə olaraq çox yaxşı bir insan idi. Ondan daha çox axirəti sevən, dünyaya qiymət verməyən, gecə-gündüz özünü ibadətə həsr edən bir insan görmədim. Onu çox sevirdim. O, tövhid inancına sahib bir insan idi. Allahın birliyinə inanır, tayı, bənzəri olmadığını qəbul edir, İsanın (ə.s.) təbliğ etdiyi təhrif edilməmiş inanca sahib idi. Onun yanından heç ayrılmadım və həmişə onunla birlikdə oldum. Ölüm döşəyinə düşüncə ondan soruşdum: "Mənə nə vəsiyyət edirsən? Səndən sonra kimin yanına getməyimi istəyirsən?"

"Əzizim! Mənimlə eyni inancı daşıyan Mosulda bir alim vardır. Ondan başqa tövhid inancına sahib olan, inancını ləkələməyən, təhrif etməyən, yer üzündə bu inancla yaşayan başqa birisi varmı, bilmirəm. Sən onun yanına get. Gedib onu taparsan."-dedi.

Bu əziz insan öldükdən sonra Mosula gedərək haqqında danışdığı alimi tapdım. Yanına gəldiyimdə başıma gələnləri və yanında qaldığım alimin onu tövsiyə etdiyini dedim. "Sənin haqq dindən ayrılmadığını"-deyirdi.

"Gəl yanımda qal!"-dedi. O ölənə qədər onun yanında qaldım. Həqiqətən o da çox yaxşı bir insan idi. Haqqında deyilən xeyirli sözlər doğru idi. Lakin çox keçmədən əcəl onun da qapısını çaldı.

Vəfatından öncə ona; "Gördüyün kimi Allahın əmri sənə də gəldi. Məni və niyyətimi, nə arzu etdiyimi çox yaxşı bilirsən. Məni kimə vəsiyyət edirsən? Kimin yanına getməyimi istəyirsən?"-deyə soruşdum.

"Oğlum! Bizimlə eyni inancı paylaşan, bizim kimi yaşayan Nusaybində bir alim tanıyıram. Ondan başqa birisini tanımıram. Nusaybinə get; onu tap və ona qoşul!"

Onu dəfn etdikdən sonra Nusaybinə üz tutdum. Adı çəkilən alimi tapdım. Ona başıma gələnləri və məni göndərən alim arzusunu çatdırdım.

"Yanımızda qal, bizimlə ol!"-dedi. Onun yanında qaldım. Digər iki dostu kimi o da çox yaxşı bir insan idi. Lakin o da qısa bir müddətdən sonra vəfat etdi.

Vəfat edərkən ona da eyni şeyləri dedim. O da mənə Ammuriyədə yaşayan bir alimi tövsiyə etdi. Onun yanına getdim. Başıma gələnləri ona danışdım və onun yanında qaldım. O da çox yaxşı bir insan idi. Bir müddət onun yanında qaldım. Bir yandan da işlədim, inəklərim və bir neçə qoyunum oldu. Qısa bir zamandan sonra o da vəfat etdi.

Vəfat edərkən eyni sözləri ona dedim. Mənə kimi tövsiyə edə biləcəyini soruşdum.

"Oğlum! Yer üzündə bizim kimi inanan, bizim kimi yaşayan birisi varmı, bilmirəm. Lakin ərəbistan yarımadasında İbrahim (ə.s.)-in dini üzrə tövhid inancını təbliğ edəcək bir Peyğəmbərin gəliş vaxtı yaxınlaşdı. O yaşadığı torpaqlardan, iki tərəfi yanıq

qayalıqlarla əhatələndiyi, yanıq qayalıqlar arasındakı xurmalıqların yerləşdiyi bir yerə köçəcək.

Onun müəyyən xüsusiyyətləri vardır. Ona sədəqə verilərsə sədəqəni qəbul etməyəcək, hədiyyə verilərsə qəbul edəcəkdir. İki kürəyinin arasında nübüvvət (peyğəmbərlik) möhürü vardır.

Bu ərazini tapa bilsən, oraya get; Ona qoşul!"

Daha sonra həyata gözlərini yumdu. Onun ölümündən sonra daha bir müddət Ammuriyədə qaldım. Ərəbistan yarımadasına gedəcək bir karvan gözləyirdim.

Çox keçmədən "Kəlb" qəbiləsindən bir karvan gəldi. Yanlarına gedərək; "Məni də özünüzlə birlikdə Ərəbistan yarımadasına aparın. Bunun müqabilində inəklərimi və qoyunlarımı sizə verim"-dedim. Qəbul etdilər; "Gətir"-dedilər. Heyvanları onlara verdim.

Karvanla birlikdə yola çıxdım. "Qura" vadisinə gəldiyimizdə, gözlənilmədən üzərimə hücum etdilər. Əlimi, qolumu bağlayıb məni kölə deyə bir yəhudiyə satdılar. Beləliklə satıldığım adama xidmət etməyə başladım.

Aradan bir müddət keçdikdən sonra Bəni Qureyza qəbiləsindən bir adam bu yəhudini ziyarətə gəldi. Yəhudinin əmisi oğlu idi. Məni görüncə bəyəndi. Ağamdan xahiş edərək məni ondan satın almaq istədi. O da əmisi oğlunun xahişini yerə salmayaraq məni ona satdı. Yeni ağam məni Yəsribə gətirdi.

Yəsribi görüncə çox sevindim; qara qayalıqlar arasında xurma bağları uzanıb gedirdi. Bu şəhər, Ammuriyədəki rahibin haqqında danışdığı şəhər idi. Onun dediyi bütün xüsusiyyətlər burada var idi. Hər şeyə razı olaraq ağamın yanında bu şəhərdə qalmağa başladım.

✺

Həmin vaxt Rəsulullah (s.ə.s) Məkkədə dəvətə başlamışdı. Kölə olmağım və davamlı olaraq ağamın işləri ilə məşğul olmağım dünyaya marağımı azaldırdı. Bu səbəbdən dəvətdən və baş verən hadisələrdən xəbərim yox idi.

Gün gəldi Rəsulullah (s.ə.s) Mədinəyə hicrət etdi. O gəldiyində ağama aid bir xurma ağacının başında işləyirdim. Ağam isə xurma ağacının altında əyləşmişdi. Əmisinin oğlu gələrək onunla danışmağa başladı:

"Allah, Bəni Qaylənin[94] canını alsın!"-deyir və söhbətə davam edir. "Hal hazırda Qubada Məkkədən gələn və özünün peyğəmbər olduğunu deyən bir adamın ətrafında yığışmış insanlar vardır."

Onun sözlərini eşidincə sanki qızdırma xəstəliyinə tutuldum və titrəməyə başladım. Dizlərimin taqəti kəsildi. Az qala ağamın üstünə yıxılacaqdım. Cəld ağacdan aşağı endim və həyəcan içində adama;

"Sən nə dedin? Dediyin xəbəri təkrar et!"-dedim. O təəccüblənmiş, ağam isə əsəbləşmişdi. Mənə pis bir yumruq vurdu; "Sənə nə oldu? Cəld ağaca dırmaş və işini gör!"-dedi. İstəristəməz işimə qayıtdım.

Axşam olunca yığdığım xurmalardan bir qab götürərək Rəsulullahın (s.ə.s) qonaq olduğu evə getdim. Sizə sədəqə olaraq verə biləcəyim bir az xurmam var. Bu xurmanı sizdən daha münasib birisinə verə bilməyəcəyimi zənn edirəm."-deyərək xurmanı ona uzatdım. Ətrafındakı səhablərə; "Yeyin"-buyurdu. Özü xurmaya nə əl uzatdı, nə də yedi. Həyəcanlanmışdım, özözümə "bu birinci"-dedim.

Sonra hüzurundan ayrıldım və Mədinəyə qayıtdım. Yenidən xurma yığmağa başladım. Həmin vaxt Rəsulullah (s.ə.s) Mədinəyə keçmişdi. Yığdığım xurmanı götürərək təkrar yanına gəldim. Ona təqdim edərək; "Gördüm ki, sədəqə yemirsən. Bu gətirdiyim hədiyyədir. Sənə bunu hədiyyə olaraq ikram etmək istədim,"-dedim. Mən belə deyincə yedi və səhabələrə də yemələrini əmr etdi. Onlar da Rəsulullah (s.ə.s) ilə birlikdə yeməyə başladılar. "Bu da ikincisi"-dedim.

Artıq təəccüblənmişdim. Möhürü görmək istəyirdim, ancaq bu istəyimi dilə gətirə bilmirdim.

---

94. Bəni Qaylə: Evs və Həzrəc qəbiləsinin hər ikisinə birdən verilən addır.

Yenə bir gün bu ümidlə Cənnəül-Baqidə ikən yanına gəldim. Səhabələrdən birini torpağa tapşırmışdılar və o əyləşmişdi. Salam verdim; sonra arxa tərəfə keçdim. Diqqətlə belinə baxmağa başladım. Bəlkə Ammuriyədəki rahibin dediyi möhürü görə bilərəm deyə ümid edirdim. Mənim diqqətlə belinə baxdığımı görmüş, arzumu başa düşmüşdü. Kürəyindəki ridanı aşağı endirdi. Möhürü gördüm və artıq axtardığımı tapmışdım! Ona sarıldım; öpüb ağlayırdım. İllərlə davam edən həsrət və axtarış bitmiş, axtardığıma qovuşmuşdum...

Rəsulullah (s.ə.s) təəccüblənmişdi. Maraqla soruşdu; "Başına gələnləri danışarsanmı?"

Başıma gələnləri Allah Rəsuluna danışdım. Xoşuna gəldi və başıma gələnləri səhabələrin də eşitməsini istəyirdi. Onlara da danışdım. Çox sevindilər və məni təqdir etdilər."

O, axtara-axtara ən son və mükəmməl səmavi dini tapmış, Peyğəmbərlər sultanı, son Peyğəmbərin ümmətindən ən məşhur bir fərd olmuşdur...

Salman (r.a) uzun illər yaşamış, İslama xidmət etmək üçün hər şeyini ortaya qoymuşdu. Artıq o, İslamın Salmanı idi.

Bir gün ətrafındakı səhabələr, keçmiş adətlərin təsiri ilə silsilə halında atalarını sayaraq, şərəfli soylarını iftixar vəsiləsi edərkən sıra özünə gəlincə; "Mən isə İslamın oğlu Salmanam"-deyir. Səhabələr nə etdiklərinin fərqinə varır və çox utanırlar. Daha sonrakı illərdə də onun İslama nisbət edilməsini istəyir. Başqa bir təxəllüslə yad edilmək istəmirdi.

Əl-İstiabda[95] "Ona kimin oğlusan? -deyə soruşulduğunda; "İslamın oğluyam, Adəmin (ə.s.) soyundanam"-dediyi rəvayət edilir.

Mühacirlər və Ənsar Salmanı paylaşa bilmirdilər. Artıq o, İslam qardaşlığı hissləri ilə hamının sahib çıxdığı bir insan olmuşdu. "Salman bizdəndir"-deyirdilər. Allah Rəsulu (s.ə.s) onların sözlərini eşitmiş və Salmanı ömrü boyu sevindirən bu sözləri deyir:

95. əl-İstiab, İbn Abdilbərr (2/57)

سَلْمَانُ مِنَّا مِنْ أَهْلِ بَيْتِنَا *"Salman bizdən, Əhli-Beytdəndir."*

Əliyə (r.a) Salman haqqında soruşurlar, o da belə cavab verir: "O həm əvvəlkilərin, həm də sonrakıların elmini bilən bir adamdır. O bitib tükənməyən bir ümmandır. O, bizdən; Əhli-Betdəndir."

Mədinəli Ənsar ilə mühacirlər qardaş elan edilərkən, illərdir qürbət ellərdə yaşayan bu əziz səhabə də Əbu Dərda (r.a) ilə qardaş elan edilmişdi. Əbu-d-Dərda (r.a) onun üçün doğurdan da xeyirli bir qardaş olmuşdu.

Salman (r.a) güclü bir xarakterli və uzun ömürlü bir insan idi. Məcusilik, xristianlıq və yəhudilik haqqında dərin bir məlumatı var idi. Vedaları, Tövratı və İncili çox yaxşı bilən bir insan idi. Çox təvazökar, zahid, kamil, cəsur və xeyirxah bir insan idi. Bir çox savaşlarda iştirak etmiş, fəthlərə qoşulmuşdur.

Daha sonra Mədaində vali oldu. O, özünə verilən maaşı paylayaraq öz qazancı ilə yaşayırdı. Günümüzdə fındıq, qamış çöplərindən səbət hazırlandığı kimi, o da xurma yarpaqlarından səbət və müxtəlif əşyalar hörər; hördüyü əşyaları satar və onlardan əldə etdiyi gəlirlə dolanırdı... Möhtac olduğu zamanlarda belə heç kimdən dünyalıq bir şey qəbul etməzdi.

Onu rəhmətlə, qibtə ilə yad edir; haqqı, doğrunu axtarışına, zöhdünə, səbir və dözümünə, vəfasına heyranlığımızı ifadə edirik.[96]

❋❋❋

96. Salman (r.a) haqqında məlumat üçün bax: Sirətu İbn Hişam, (1/214-222, 1/70), Səhih əl-Buxari, Fəzail (Umdətu-l-Qari, 14/61-62), əl-İstiab, İbn Abdilbərr, (2/56-61), Usdu-l-Ğabə, (2/417-421), Siyəru Əlami-n-Nübəla (1/505-557), Umdətu-l-Qari, (10/12), əl-İsabə, İbn Həcər (2/62-63), Suvərun min Həyati-s-Səhabə (2/37-51)

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Hər insanın bir haqq axtarışında olmasının zəruriliyi və ülvi axtarışın qiyməti.
- Səmavi bir dinin hər nə qədər əsas mənbədən uzaqlaşsa, təhrif edilmə və dəyişmələrə məruz qalsa belə digər dinlərə qarşı üstünlüyünün sağlam fitrətli insanlar tərəfindən dərhal hiss edilə biləcəyi.
- Haqqı axtarış üçün yeri gəldiyində nələrə qatlana biləcəyi və nələr edə biləcəyi.
- Son peyğəmbərin gələcəyinin və bəzi xüsusiyyətlərinin səmavi kitablarda bildirildiyi və bu həqiqətin bir çox insan tərəfindən bilindiyi.
- Allah Rəsulunun məşvərətə verdiyi əhəmiyyət və əshabının irəli sürdüyü fikirləri dəyərləndirməsi, həyata keçirməsi.
- Təvazökarlıq, İslamiyyətə yaraşmayan hiss və davranışlardan uzaqlaşma, hər cəhəti ilə haqqa təslimiyyət.
- İrqçi bir düşüncənin, cahiliyyə düşüncəsi olduğu və islam ilə uzlaşmadığı.
- Dünya malına həddindən çox dəyər verməmək və insanın öz zəhməti, alın təri ilə əldə etdiyi qazancın dəyəri.
- Təvazökarlıq və sadəliyin insanı ucaltdığı.

Bir Neçə Kəlmə

Haqqı Axtarış

Bu barədə Salmanın (r.a) həyatı bizə bizə çox şeyi xatırladır. Onun başına gələnləri öyrəndikdən və özümüzü hesaba çəkdikdən sonra demək olar ki, əksəriyyətimizin dilə gətirə biləcəyi bir şey vardır. Bizim iman nemətinə çox asanlıqla sahib oluruq və kifayət qədər dəyərini bilmirik. Axtararaq, həsrəti ilə yanaraq, mübarizələr apararaq, uğrunda bir çox fədakarlıqlara qatlanaraq əldə edə bilmədiyimizə görə, əlimizdəki və qəlbimizdəki nemətdən həqiqi mənada xəbərdar deyilik.

Bir çox insanımızın, gənclərimizin də yaşadığı boş və məqsədsiz həyat yolçuluğundan uzaqlaşaraq iki dünya səadətinə gedən həqiqəti əldə edə bilmir, mənəvi həzzini dada bilmir.

Səylərimiz və əzmimizlə bu maneələri keçmək, özümüzə gəlmək iman nurunun dəyərini bilmək və onu könüllərə çatdırmaq, çatmasına maneə yaratmaq və ya səhv şəkildə çatdırılması üçün səy göstərənlərə qarşı mübarizə aparmaq, Rəbbimizin vəhy etdiyi, Rəsulunun təbliğ etdiyi və öyrətdiyi kimi saf və şəffaf şəkildə islamın yaşanmasını təmin etməyə səy göstərmək məcburiyyətindəyik.

Hissiyatsız, ümidsiz, əməlsiz və biganə yanaşan insanlardan olmamalıyıq.

Yolumuz çətinlik və əzablarla doludur. Lakin bu çətinliklərə sinə gərməkdə feyz və rəhmət, bu əzablara qatlanmaqda həzz və əbədi səadəti əldə etmək nailiyyəti vardır.

Unutmayaq ki, Allahın haqq yolundakı saleh əməllərə bərəkət verəcəyinə dair vədi vardır.

Yenə unutmayaq ki, Rəbbimizin:

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ إِنَّا لَا نُضِيعُ أَجْرَ مَنْ أَحْسَنَ عَمَلًا

"**İman edib saleh əməllər edənlər bilməlidirlər ki, biz gözəl əməllər edənlərin mükafatını zay etmərik.**" (əl-Kəhf, 18/30) müjdəsi vardır.

Məşvərət

Rəsulullahın (s.ə.s) həyatına baxan hər bir şəxs onun nə dərəcədə məşvərətə əhəmiyyət verdiyini və həssas yanaşdığını dərk edəcəkdir.

Bədr müharibəsindən öncə müharibə mövzusunda, daha sonra Bədr əsirləri ilə əlaqədar olaraq, Uhud savaşından önəcə, Xəndək savaşından öncə və bir çox digər məsələlərdə onu həmişə əshabı ilə məşvərət edərkən görürük və səhabələrin təkliflərinə doğurdan da dəyər verdiyinə şahid oluruq. Çünki onu Rəsul göndərən Rəbbi belə əmr edir:

...وَشَاوِرْهُمْ فِي الْأَمْرِ ۖ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ ۚ إِنَّ اللَّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ.

"**Görəcəyin işlərdə onlarla məşvərət et. Qərarını verdiyində artıq Allaha təvəkkül et, Ona arxalan, Ona təvəkkül et. Əlbəttə ki, Allah ona güvənib təvəkkül edənləri sevər.**" (Ali-İmran, 3/159)

Və möminləri:

وَأَمْرُهُمْ شُورَىٰ بَيْنَهُمْ. **"Onların işləri, aralarında etdikləri məşvərət ilədir."** (Şura 42/38) buyuraraq öyür.

Həsəm əl-Bəsri (rəhmətullahi əleyh) məşvərətin əhəmiyyətini belə dilə gətirir:

مَاتَشَاوَرَ قَوْمٌ قَطُّ إِلاَّ هُدُوا اِلأَرْشَدِ أُمُورِهِمْ.

"Məşvərət edən hər toplum, məşvərət etdiyi məsələdə ən münasib və doğru olanı əldə edər."

İbn Ərəbi (rəhmətullahi əleyh) də belə deyir: " Məvərət camaatın könüllərinin qaynaşmasına, ağlının çalışmasına, doğruya çatmasına vəsilədir. Məşvərət edən hər cəmiyyət, məşvərət etdiyi məsələdə ən əlverişli və dəqiq olanı tapar."[97]

Məşvərət bir çox zəkadan, məlumatdan, baxış tərzindən, təcrübədən istifadə etməyin yoludur. Verilən qərara başqalarını da şərik edərək onların dəstəyini qazanmağın, əldə ediləcək

97. əl-Cami li Əhkami-l-Quran, Qurtubi (16/36-37)

müvəffəqiyyətdə paylarının olmasını təmin etməyin yoludur. Onların könlünü qazanmağın, fikirlərinə qiymət verildiyini isbat etməyin, təklif irəli sürməyə təşviq etməyin, irəli sürülən təklifləri aktiv hala gətirməyin, sonrakı həmlə üçün təcrübə qazandırmağın yoludur. Fikirlərin şəxsilikdən uzaq olduğunu ən gözəl ifadədir. Verilən qərarların hərtərəfli və hər cəmiyyəti təmsil edəcək insanlarla müzakirə edildiyinin bilinməsi insanlara mənəvi rahatlıq və etibar verəcək, tənqidlərə sinə gərənlər və müdafiə edənlər çoxalacaqdır.

Məşvərət edilə biləcək dərəcədə yetişmiş, kamilləşmiş, təcrübə sahibi olmuş insanların yoxluğunu iddia etmək doğru bir iddia deyildir. Əks halda onlarla kifayətlənməməli, insanlar yeni inkişaflarla təcrübələr əldə etməli; ən qısa zamanda axtarılan xüsusiyyətdəki insanların yetişdirilməsi üçün zəruri işlər görülməlidir. Buna çox ehtiyacımız vardır və hər keçən dəqiqə əleyhimizə keçən dəqiqədir.

Hal hazırda ciddi ölçüdə siyasi sahədə, iqtisadi sahədə, təhsil sahəsində, texniki sahələrdə, hərbi sahədə, xarici dünya ilə bağlı məsələlərdə, hüquqi sahədə, sağlamlıq məsələlərində, rəhbəlik məsələsində və s. məlumatlı, praktik zəkalı, kamil, islami biliklərə sahib, kamil; mömin qardaşlarının xeyirini, gələcəyini öz gələcəyindən üstün tuta bilən, haqq yolunda fədakarlıqlara sinə gərən, adi səbəblərlə küsməyən, inciməyən, camaatdan və cəmiyyətdən uzaqlaşmayan qardaşlardan meydana gələn bir məşvərət məclisinə nə qədər ehtiyacımız vardır. Hər birinin başqa bir sahədə daha bariz şəkildə nəzərə çarpan bilik və qabiliyyəti bizə nə qədər çox şey qazandıracaqdır. Buna, yağışa həsrətlə çatlamış torpaqlar qədər susuzuğumuz var.

Belə bir dəstəni hazırlamağa aciz deyilik. Xarici güclərin təsirinə baxmayaraq, çarəsiz də deyilik.

Bu gün ən azı 10-15 nəfərdən meydana gələn belə bir dəstə aramızda olsaydı, bölgə-bölgə gəzib insanların fikirlərini öyrənsəydi, digər bölgəninkiləri oradakılara çatdırsaydı, insanların bir-birindən istifadəsinə körpü olsaydı, başa düşülməyən məsələlərə aydınlıq gətirsəydi, küskünlükləri aradan qaldırsaydı, yaralara məlhəm olsaydı, aşağı təbəqədə hiss edilənləri yu-

xarı təbəqəyə çatdırsaydı, açılması çətin qapıları açmaqda öndər olsaydı, xəta etmərəm deyənlərin xətalarını münasib bir dil və üslubla düzəltsəydi, müalicəsinə kömək etsəydi, nə qədər çox şey dəyişərdi.

Bizim bütün bunlara ehtiyacımız yoxdurmu? Buna layiq parlaq beyinlərimiz, səmimi hisslərlə dolu qəlblərimiz yoxdurmu? Hər batili yox edəcək güclü inancımız, inancımızın bəslədiyi fikirlərimiz və haqq mübarizəmiz yoxdurmu?

❋

Məşvərətin əhəmiyyəti, lüzumu, şərtləri, biganə yanaşılmaması, ona olan ehtiyac, faydaları, şəxsi ilə məşvərət ediləcək insanlarda axtarılan şərtlər... üzərində ciddi şəkildə durulması, araşdırılması və bunların örnəklərlə açıqlanması lazımdır. Ən qısa zamanda praktik hala gətirilməsi olduqca zəruridir.

Bu məqamda bu qədərlə kifayətlənməyi üstün tutur; gördüyü işləri məşvərət ilə edən, hiss və düşüncələrini bir-biri ilə bölüşən, həyata keçməsi üçün yardımlaşan bir ümmət olmağımızı ümid və niyaz edirəm.

Bu ümmətin həqiqi vəsfi budur. Bu vəsfin yenidən qazanılmasına həsrətik.

❋❋❋

Böyük Qazanc

(İmanı, əbədi səadəti dünya malından üstün tutmaq)

Süheyb ər-Rumi

-radiyallahu anh-

صهيب بن سنان الرّومي

Süheyb ər-Rumi Məkkəyə gəlib məskunlaşır və Məkkənin məşhurlarından Abdullah İbn Cudan ilə razılaşaraq onun himayəsinə girərək ticarətlə məşğul olub dolanışığını təmin etməyə başlayır. Qısa bir zamanda hamı tərəfindən etibarlı bir insan kimi tanınır və zəngin bir şəxs olur.

Qızılı saçları olan alicənab bir insan idi. Bizans torpaqlarında yaşayarkən, son peyğəmbərin yaxın tarixdə bu diyara gləcəyini öyrənir. Beytullahın ətrafına gələrək görəcəyini ümid etdiyi, bəşəriyyəti zülmətdən nura çıxaracaq peyğəmbərlər sultanının yolunu gözləməyə başlayır.

O, Bizans saraylarında nə cür oyunların getdiyindən xəbərdar olan bir insan idi. Dünyanın ən böyük imperatorluqlarından biri olan bu imperatorluqda yaşanan çirkab həyatı, azğınlıqları, zülmü... yaxından bilir və mütəmadi olaraq özünü saxlaya bilməyib; "Belə bir cəmiyyəti yalnız tufan (fırtına) təmizləyər"- deyirdi. Bu sağlam əqidəli və təvazökar insan səhvləri görür, doğrunu əyridən seçə bilirdi. Yolu ilə gedəcəyi, ümməti olacağı kainatın fəxrini gözləyirdi.

❋

Aylar, illər, günlər bu həsrətlə bir-birini əvəz edirdi. Yenə karvanı ilə birlikdə uzaq bir səfərdən qayıdırdı. İllərdir həsrətlə gözlədiyi xəbəri eşitdi və ummadığı bir anda eşitdiyi sözlərdən həyəcanlandı. İslam nuruna dəvət başlamışdı. Bu dəvət; tövhidə

dəvət idi. Bu dəvətlə bəşəriyyət ədalətə, yaxşılığa, ixlasa və xeyirə təşviq edilir; şirk və zəlalətlə birlikdə rəzilliklər, pisliklər və zülm qadağan edilirdi. Eşitdiyi bir neçə kəlmə belə bunun əlamətlərini göstərirdi. Bunlar elə-belə məsələlər deyildi.

Bu dəvəti bəşəriyyətə çatdıran insanı soruşdu, dedilər. "Sözünü etdiyiniz bu adam, "Əmin" (etibarlı) ləqəbi ilə tanınan insan deyilmi?", "Bəli" dedilər.

"Onu harada görə bilərəm?"

"Səfa yaxınlığında "Dəru-l-Ərqam"da."

"Onu görmək istəyirsənsə çox diqqətli olmalısan. Məkkədə arxa duracaq qohumların və tayfan olmayan bir insansan. Qüreyşlilər səni görərsə çox əziyyət verərlər."-deyirlər.

Süheyb gizlincə və ətrafını güdərək Dəru-l-Ərqama gəlir. Qapıya yaxınlaşdığında Ammar İbn Yasiri görür. Onu əvvəlcədən tanıyırdı. O da bunun kimi tərəddüd içində idi. Davranışlarının arxasında gizli nəsə var idi.

Hadisəni İbn Əbdilbərrin nəqlindən dinləyək:[98] Ammar bu qarşılaşma və sonrasını belə dilə gətirir: Süheyb İbn Sinanı Dəru-l-Ərqamın qapısının ağzında gördüm. Allah Rəsulu içəridə idi. Qısa bir durğunluqdan sonra soruşdum.

"Nə etmək istəyirsən?"

"Muhəmmədin (s.ə.s) yanına getmək və dediklərini özündən eşitmək istəyirəm."

"Mən də eyni şeyi istəyirəm."

"O zaman birlikdə içəri girək."

Və elə də etdik.

İçəriyə birlikdə daxil olduq. Həmin gün qaranlıq düşənə qədər Allah Rəsulunun yanında qaldıq. Onu dinlədilər və haqq yola könül bağladılar. Əllərini beyət üçün uzatdılar və dilləri kəlimeyi-şəhadət gətirdilər. Sonra bu hidayət çeşməsindən sözlər eşitməyə başladılar.

98. əl-İstiab (2/177)

Bu evdən gecənin səssizliyində könülləri iman nuru ilə dolu halda çıxdılar...

Bu iman nuru, bütün dünyaya yayılacaq və əsla sönməyəkdi. O sönüncə kainat da bitəcəkdir. Belə bir nurun ilk insanlarından olmaq şərəfinə nail oldular.

Süheyb (r.a) da, iman karvanına qoşulan Bilal, Ammar, Yasir, Habbab, Sümeyyə və s. kimi ilk əzabları çəkən, işgəncələrə qatlanan, iman gücünün nə olduğunu Qüreyşə və bütün dünyaya isbat edənlərdən biridir.

Siyəru Əlami-n-Nübəlada Süheybə nə deyəcəyini bilməyəcək hala gələnə qədər işgəncə verildiyini, davamlı olaraq dəmir zireh geyindirilərək huşunu itirib yerə yıxılana qədər qızmar günəşin altında saxlanıldığı rəvayət edilir.[99]

❋

Lakin, Süheyb (r.a) daha çox Mədinəyə hicrət zamanı göstərdiyi şücaətlə tanınır:

Könlü Peyğəmbərimizlə birlikdə hicrət etməkdən yana idi. Lakin Qüreyş onun davranışlarından, əlindəki var-dövlətini sataraq yükünü yüngülləşdirməsindən, mallarını nəğd pula çevirməsindən niyyətini başa düşmüş, onun Allah Rəsulu ilə birlikdə hicrətinin qarşısını almışdı. Onu nəzarətdə saxlamağa, davranışlarını yaxından izləməyə başlamışdılar. Həmçinin Rəsulullahın da bütün hərəkətləri addım-adım izlənilirdi.

O, bu müqəddəs səfərdə Allah Rəsulu ilə birlikdə gedə bilmədi. Lakin onun müşriklərin əlindən çıxaraq Mədinəyə üz tutmasına çox sevinir. Yolda ona çata bilmək, onun hicrət karvanına qoşula bilmək üçün fürsət tapır, ancaq bu da baş tutmur. Hər addımı nəzarət altında idi və qaçmaq imkanı tapa bilmir.

Nəhayət onu izləyənlərin diqqətini yanıltmaq üçün bir hiyləyə baş vurmaq məcburiyyətində qalır.

Soyuq bir gecədə tələsik bir işi və sıxıntısı varmış kimi bayıra çıxır. Ayaqyoluna gedirmiş kimi bir qədər irəli gedib sonra geri qayıdır. Çox keçmədən təkrar çıxır və sonra geri qayıdır. Daha

99. Siyəru Əlami-n-Nübəla (2/21)

sonra bu çıxışlarını artırır. Sanki xəstə və sıxıntılı bir halı varmış kimi görünür.

Günlərlə onu izləyənlər düşünürlər ki, bu adam xəstədir. Aralarından bir nəfər:

"Gözünüz aydın, ürəyiniz rahat olsun. Lat və uzza[100] onu qarnının dərdinə saldı. Bu ishal ilə yola çıxa bilməz."-dedi.

Onu izləyəndən bəri rahat yuxu yata bilməmişdilər. Həmin gün arxayın olub rahat şəkildə uzanıb yatdılar.

Süheyb (r.a) onların yuxuya getdiyindən əmin olunca evdən çıxdı. Gecənin qaranlığında Məkkəni tərk edərək Mədinəyə üz tutdu.

Çox keçmədən onu izləyənlərin biri oyandı. Oyanan adam şübhələndi. Digərləri də oyandılar. Qorxu ilə, "evdədirmi yoxsa qaçıb tələşı ilə Süheybin evinə yaxınlaşdılar. Süheyb getmişdi. Həyəcan, qorxu, kin və qəzəb son həddə idi. Hazır vəziyyətdə dayanan atlarına mindilər və atlarını dördnala Mədinə istiqamətində çapmağa başladılar."

Çox keçmədən Süheybə çatdılar. Süheyb (r.a) onların gəldiyini hiss etmişdi. Bir yüksəkliyə çıxdı və sadağından oxlarını çıxarıb yanın düzdü. Yayını gərdi və oxlardan birini yaya yerləşdirərək yüksək səslə arxasınca gələnlərə səsləndi:

"Ey qüreyşlilər! Məni yaxşı tanıyırsınız. Allaha and olsun ki, ən yaxşı oxçulardan olduğumu və oxlarımın hədəfdən yayınmayacağını bilirsiniz. Hər bir oxun qarşılığında biriniz yerə sərilmədən mənə yaxınlaşa bilməzsiniz!

Sonra da qılıncımı əlimə alaraq ən xırda parçası əlimdə qalana qədər şimşək kimi çaxmağa davam edəcəyəm."

Süheybin arxasınca gələnlərdən bir nəfər danışmağa başladı: "Sənin var-dövlətinlə birlikdə qaçıb getməyinə icazə verə bilmərik. Bizdən həm malını, həm də canını qurtara bilməzsən. Məkkəyə gəldiyində əlində-ovcunda heç bir şey yox idi. Kasıb bir adam idin. Zəngin oldun və bu günkü hala gəldin."

---

100. Lat və uzza qüreyşlilərin ən məşhur bütlərindən ikisinin adıdır.

Süheyb onun sözünü kəsərək bu malları sizə versəm yaxamı buraxıb yolumdan çəkilərsinizmi?"

"Bəli"-dedilər.

Qızıl və gümüşlərini Məkkədən ayrılmadan evin münasib bir yerində gizləmişdi. Onlara yerini dedi.

Qüreşlilər istədiklərini əldə etdikdən sonra Süheybdən əl çəkdilər.

Uzun illər ərzində əzab-əziyyətlə yığdığı var-dövlətini, yadlara verərək Mədinəyə tərəf üz tutdu. Peşman deyildi, çünki o, əbədi səadəti üçün, inandığı səadəti üçün dünyalığını vermişdi. O, çox bacarıqlı bir tacir idi. Əldə etdiyinin daha çox qazanclı olduğunu yaxşı bilirdi.

Hər şeyi arxada qoyub yürüyərək yamacları, vadiləri aşıb yeni ümidlərə doğru irəliləyirdi. Yorulub nəfəs almaq üçün biraz dayandıqda, Allah Rəsuluna qovuşmaq hissi gözlərinin önünə gəlincə yenidən şövqlə yerindən qalxıb yoluna davam edirdi.

❋

Uzaqdan Mədinə görününcə daha da həvəslənir. Qubaya yaxınlaşarkən Allah Rəsulu onun yaxınlaşdığını görür və sevinclə onu qarşılayır. Süheybin, bütün möminlərin və tarixin unutmayacağı bu müjdəni verir:

رَبحَ الْبَيْعُ يَاأَبَا يَحْيى ... رَبحَ البَيْعُ!

"Ey Əbu Yəhya! Etdiyin ticarət qazanclı bir ticarətdir, bu ticarət qazanclı bir ticarətdir.!"

Təxəllüsü Əbu Yəhya olan Süheybin qəlbi sevinclə dolur. Ondan öncə Mədinəyə heç kim gəlməmişdi. Allah Rəsulu, onun seçiminin qazanclı olduğunu müjdələyirdi.

Bu ticarət tarixə yazılır və Süheyb yad edildikcə o da Süheyb ilə birlikdə yad edilir.

Ticarəti doğurdan da qazanclı idi. İbn Abbas (r.a) və bir çox alim, bu ayənin nüzul səbəbinin Süheyb (r.a) olduğu qənaətindədirlər;[101]

وَمِنَ النَّاسِ مَنْ يَشْرِي نَفْسَهُ ابْتِغَاءَ مَرْضَاتِ اللَّهِ ۗ وَاللَّهُ رَءُوفٌ بِالْعِبَادِ.

"**İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda** (Allah rizası üçün) **öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!**" (əl-Bəqərə, 2/207)

Xatirələrdən silinməyəcək bu qazanc üçün biz də Süheybi (r.a) təbrik edir və xeyirlə yad edirik.

O, bu gün Bəldeyi-Tayyibədə Cənnətu-l-Baqidə minlərlə səhabənin arasında, Rəsulunun ətrafında hüzurla yatır.[102]

❋❋❋

101. əl-İstiab (2/178), Əl-Cami li-Əhkami-l-Quran, Qurtubi (3/20), Müxtəsər Təfsir İbn Kəsir (1/184-185), əl-İsabə (2/195)

102. Süheyb (r.a) haqqında məlumat üçün bax: Sirətu İbn Hişam (1/261-262, 477), əl-İstiab (2/36-39), Usdu-l-Ğabə (2/417-421), Siyəru Əlami-n-Nübəla (2/17-26), əl-İsabə (2/195-196), əl-Cami li Əhkami-l-Quran, Qurtubi (3/20), əl-Bidayə və-n-Nihayə (3/171-172), Müxtəsər İbn Kəsir Təfsiri (1/184-185), Həyatu-s-Səhabə, (1/344-346), əl-Əlam, H. Zirikli (3/210), Suvərun min Hətayi-s-Səhabə (3/81-94)

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Sağlam fitrətli, gözəl əxlaqlı insanarın, cahiliyyə həyatının çirkab bir həyat olduğunun, xəta və zəlalətlərlə dolu olduğunun fərqinə vardıqları.
- Bu cahiliyyə həyatının, bütpərəst insanlar arasındakı həyat tərzi ilə, əhli-kitabın həyat tərzi arasındakı fərqlərin mövcudluğu. Lakin bu fərqlərin zəlaləti silib atacaq ölçüdə olmaması. Çünki istək və arzunun həyatın bir çox sahəsinə hakim olduğu, iblisin və onu dəstəkləyənlərin köməyi ilə büllur səmavi çeşmədən gələn vəhyin təhrif edildiyi və həyatın da kirləndiyi.
- Əhli-kitab arasında yetişən insanların, səmavi kitabların verdiyi məlumatlarla, son peyğəmbərin gələcəyi və onun xüsusiyyətləri haqqında daha çox məlumata sahib olduqları.
- Hicrətin fədakarlıqlarla dolu olduğu və bir əzablarla reallaşdığı.
- İmanı və əbədi səadəti üstün tutmağın həqiqi qazanc olduğu.

Bir Neçə Söz

Dünya Malı Uğrunda Yarış

Çılğın şəkildə yaşanan bir həyat axışı içində sürüklənib getdiyimiz bir həqiqətdir. Sürətlə gedən bir maşının arxasından yapışaraq yerə yıxılmamaq qorxusu ilə maşını buraxmır və sürətini artıran maşının hakimiyyətindən qurtula bilmirik. Beləliklə bu çılğın yarış davam edir.

Sabahından əmin olmayan insanlar, hardasa bütün himmət və səylərini dünya malı qazanmaq üçün sərf edir. Kimə soruşsan, kiminlə dərdləşsən bu həqiqəti qəbul edir və özünün də bu axına düşməsindən şikayət edir. Lakin bu axının təsirindən qurtulmaq üçün ciddi sayıla biləcək heç bir səy göstərmir. Bu gedişharada bitəcək, heç kimsə də bilmir.

Allah Rəsulu (s.ə.s) belə buyurur:

إِنِّي لَسْتُ أَخْشَى عَلَيْكُمْ أَنْ تُشْرِكُوا بَعْدِى, وَلَكِنِّي أَخْشَى عَلَيْكُمُ الدُّنيَا أَنْ تَنَافَسُوا فِيهَا.

"Məndən sonra yenidən şirkə düşməyinizdən qorxmuram. Lakin dünya malına hərislik etməyinizdən, dünya malı uğrunda yarışa girməyinizdən qorxuram."[103]

Nə yazıq ki, bu yarışa girişmiş, həm də var gücüylə çılğınlığına qapılmış görünürük.

Yorğun keçən bir günün axşamında hər fərd, yaşadığı günün saatba-saat hesabını aparsa, görəsən necə bir nəticə ortaya çıxar? Keçən saat və dəqiqələrin nə qədəri ümid edilən dünya səadəti, nə qədəri vəd edilən əbədi səadət üçündür? Hətta nə qədərini ailəsinə, uşaqlarına, valideynlərinə, yaxınlarına və dostlarına ayırmışdır. Dünya səadəti bunlar olmadan necə reallaşa bilər?

Qısaca olaraq nə etdiyimizin, hara doğru sürüklədiyimizin fərqindəyikmi? Nə etməyimizin zəruriliyini düşünür; düşündüyümüzü həyata keçirmək üçün irəli addımlar atırıqmı? Nə zaman təmənnilərdən təşəbbüsə keçid edəcəyik? Nə zaman hər haqq sahibinin haqqını geri qaytararaq könül rahatlığı ilə yaşayacağıq?

Nə zaman əl çəkməyi, kiçik qazanclardan böyük qazanclara doğru məsafə qət etməyi bacaracağıq? Nə zaman tarzlığı qoruyacağıq?

103. Müslim, Fəzail (4/1796)

Rəbbimiz:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَلْتَنْظُرْ نَفْسٌ مَا قَدَّمَتْ لِغَدٍ ۖ وَاتَّقُوا اللَّهَ ۚ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ (١٨) وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنْسَاهُمْ أَنْفُسَهُمْ ۚ أُولَٰئِكَ هُمُ الْفَاسِقُونَ (١٩)

"**Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə** (axirət üçün özünə nə hazırladığına) **nəzər salsın. Allahdan qorxun. Həqiqətən, Allah etdiklərinizdən xəbərdardır! Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu** (xeyirlərini başa düşməyən) **kimsələrə bənzəməyin! Onlar** (Allahın itaətindən çıxmış) **fasiqlərdir!**" buyurur (Əl-Həşr, 59/18-19)

Əvvəlcədən nə göndəririk? İmtahan müddəti bitib nəticəni gözləyərkən necə bir nəticə gözləyirik? Bu gözləmə müddətinin həyəcanlı olacağını bilirik; ancaq bu həyəcan ümidverici bir həyəcandır? Yoxsa özündə qorxu və dəhşətləri daşıyır? Geridə buraxdığımız həyat daxilən bizə əzab-əziyyət verirmi?

Allahı unutduqmu? Dünyada da Allah yoxmuşmu kimi davrandıq? Əfv və bağışlanma yağarkən biz də unudulacağıqmı?

Əgər qəlbimizdə səmimiyyət varsa, qəlbimizdəki xoş hisslər hələ pas atmamışsa, mənəvi gözəlliklərin cücərtilərini hiss ediriksə, bunları nə zaman aşkara çıxaracağıq? Nə zaman onları həyata keçirəcəyik, canlandıraraq böyüdüb irəliyə doğru addım atacağıq?

❋

Çürük özüllər üzərində duran bir həyat daxilində etimad edilməz hala gətirilmiş ailəni keçindirməyin, halal loğma qazanmağın, şəxsiyyəti qorumağın, ailə bütövlüyünü qorumağın o qədər də asan olmadığını əlbəttə bilirik. Lakin məlum olan ikinci reallıq da; bizi sürükləyən bu çılğın axının sürükləməsindən qurtulmağın, haqqa doğru meyl etməyin, irəliləməyin bu yolda mömin könüllərlə əl-ələ verməyin, yardımlaşmağın; elm, irfanla yoğrulmağın və hədəfini bilərək yol almağın zərurətidir.

Yaşadığımız həyat şərtləri nə olursa olsun bunu etmək, Haqqa doğru yol almaq məcburiyyətindəyik.

Gəlin Qurani-Kərimə diqqət edək:

وَسَارِعُوا إِلَىٰ مَغْفِرَةٍ مِنْ رَبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالْأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ

"**Rəbbinizin məğfirətinə və genişliyi göylərlə yer üzü qədər olan, müttəqilər üçün hazırlanmış Cənnətə tələsin.**"(Ali-İmran, 3/133)

❋

وَقُلِ اعْمَلُوا فَسَيَرَى اللَّهُ عَمَلَكُمْ وَرَسُولُهُ وَالْمُؤْمِنُونَ

"**De: "**(Ey insanlar, ey tövbəkarlar! İstədiyinizi) **edin. Allah, Onun Peyğəmbəri və möminlər əməllərinizi görəcəklər.**" (ət-Tövbə, 9/105)

Son olaraq bizə Süheybi unutdurmayan bu ayeyi-kəriməni yenidən eşidək:

وَمِنَ النَّاسِ مَنْ يَشْرِي نَفْسَهُ ابْتِغَاءَ مَرْضَاتِ اللَّهِ ۗ وَاللَّهُ رَءُوفٌ بِالْعِبَادِ.

"**İnsanların elə də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!**" (Bəqərə, 2/207)

Başlamaq üçün münasib vaxt, insanın içində yaşadığı vaxtdır. Sabah gec olacaqdır.

❋❋❋

Yetimlikdən Cihad Rəhbərliyinə

Zül-Bicadeyn

-radiyallahu anh-

"ذو البجادين"

عبد الله بن عبد نهم بن عفيف المزنى

Gənc bir cəngavər... Abdullah əl-Müzəni.

Atası vəfat etmiş, qəbiləsində boynu bükük və əzilmiş halda əmisi tərəfindən böyüdülmüşdür.

Yayılmağa başlayan islam nurunun cücərtiləri yavaş-yavaş qəbiləsinə qədər gəlir. Üzərində fikir mübahisələri edilirdi. Gələn məlumat və xəbərləri hamı öz baxış prizmasından dəyərləndirirdi. Təəssüf ki, insaf ölçüləri itmiş; həqiqətə təslimiyyət ruhu kor hala gəlmiş və ehtiras cahiliyyətin illər boyu yığıb meydana gətirdiyi çirkablar qarşısında məğlub olmuşdur.

Bütün bu ağır şərtlərə baxmayaraq, Rəsulullahdan (s.ə.s) gələn hər xəbər, sanki Abdullahın qəlbinə nəqş olunur; onun Allah Rəsuluna həsrəti durmadan artır... Saf könlü, sağlam xarakteri hidayət və hikmət çeşməsindən doya-doya içməkdən zövq alırdı. Bu həsrətlə gələn hər xəbərə qulaq verir; eşidir, qavrayır, səhvini, şişirtməsini, əlavə ediləni, çıxarılanı araşdırır, beynini qurcalayanları soruşur, ətraflı məlumat ala bilməyincə də üzülürdü.

Allahın rizasını, başında duran böyüklərin rizasından üstün tutmaması, haqqa qarşı üsyan edilib əyri doğrudan üstün tutulunca, qomuhluq əlaqələrinin iman bağlılığı qarşısındakı cılızlığını dilə gətirməsi bir o qədər də xoş qarşılanmırdı.

Allaha, Rəsulullaha düşmənliyin şiddəti artdıqca, müdafiə hissləri də artır; müdafiə etdikcə baş verən söhbətlər, mübahisələr onu təfəkkürə sövq edir; haqqa susuzluğu daha da artır, susuzluğu artdıqca, Haqq yolda qarşısına sədd çəkən qəbiləsi və əmisi ilə aralarındakı soyuqluq daha da artırdı.

Mütəmadi olaraq amansızlaşan, hədəyə çevrilən mübarizədə ümidsiz deyildi. Artıq heç kimdən çəkinmir; imanını bütün səmimiyyəti ilə dilə gətirirdi. İmanı uğrunda hər şeyə dözmək əzmi, davranışlarından və sözlərindən hiss edilirdi. Rəsulullahın (s.ə.s) yanına gedib onun hüzurunda olmaq, mömin qardaşları ilə bərabər olmaq və haqq mübarizəni çiyinlərində daşımaq arzusu ürəyini yandırır, bu hissini artıq gizlədə bilmirdi.

Onun bu halından təlaşlanan qəbiləsi, ard-arda keçirilən toplantılar nəticəsində qərar verirlər ki, Mədinəyə qaçmaq ehtimalı olmasın deyə bütün paltarlarını əynindən çıxarsınlar. Sonra başından aşağı sərt tükdən hörülmüş bir çuval keçirilir və ələ salınaraq:

"Artıq bu halı ilə heç bir yerə gedə bilməz"-deyirlər.

❋

Əynində başı deşilmiş sərt çuval, yalın ayaqları, çuvalın dəliklərindən bayıra çıxarılmış çılpaq qolları, açıq başı ilə qul gözündə olduqca gülünc görünən bu gənc, artıq ya bu halı ilə gəzərək Allaha və Rəsuluna olan arzusunun qarşılığı olaraq zillət içində yaşayacaq; uşaqlar tərəfindən ələ salınacaq, hər gün yeni bir lağ-lağaya, yeni bir hücuma qatlanacaq, ya da evə qapanıb utandığından heç bir yerə çıxmayacaqdı.

Qərarı verənlər üçün hər ikisi də məqbul idi. Problem həll edilmiş və verilən qərar tətbiq edilmişdi.

Lakin, onu bu hala gətirənlərə görə Abdullahın qarşısında bunlardan daha yaxşı bir seçim var idi. İnancından dönəcək, arzusundan imtina edəcək, yenidən onlarla eyni dəyərləri paylaşacaq, qəbilənin başçılarına etiraz etməyəcək, onları aciz vəziyyətə salmayacaq "siz nə deyirsinizsə, doğrudur"-deyərək onlara tabe olacaqdı. Onlara görə belə olarsa daha gözəl olacaq və eyni zamanda onun bu halı hamıya ibrət olacaqdı.

Lakin Abdullahın bunların hamısından daha gözəl bir seçimi var idi...

O, gecənin qaranlığına, yalın ayağına, əynindəki narahat geyimə fikir vermədən qayalar, tikanlı səhralar, yollar, dağlar keçərək Mədineyi-Münəvvərəyə üz tutdu. Qan içində qalan ayaqlarının verdiyi iztirabı, artıq hiss etməz hala gəlmiş, quruyan dodaqları suyu unutmuş, geclər ulduzları, gündüzlər qızmar günəşi özünə yol yoldaşı etmişdi. Mədinəyə, Rəsulullaha yaxınlaşdıqca artan sevinc dalğaları və ürək çırpıntıları içində yoluna davam edirdi.

Mədinəyə yaxınlaşınca münasib bir yerdə gecələdi. Uzaqdan görünən bu nurlu bölgəni seyr etdi. Əvvəllər adı "Yəsrib" olan bu şəhər, artıq nurlu şəhər olmuşdu. Kainatın fəxri, islamın ilk mücahidləri, cəfakeşləri, fədakarları orada idi. Hər gün yeni bir tarix yazırdılar.

Uzun-uzadı Mədinəni seyr etdi və bir qədər dincəldi. Allah Rəsulu ilə qarşılaşdığı anı xəyal etdi. Birdən dönüb öz halına baxdı və utandı... Bu halı ilə Rəsulullahın yanına gedə bilməzdi. Sonra əynindəki çuvalı çıxararaq iki yerə böldü; bir hissəsini belinə sarıyaraq bədəninin alt hissəsini örtdü. Digər hissəsini də kürəyinə atdı... Rəsulullahın (s.ə.s) hüzuruna bu şəkildə çıxdı!

Məscidi-Nəbiyə daxil olarkən onu görənlər dəhşətə gəlirlər. Təəccüblə ona baxırlar. Saçı-başı dağınıq, əl-ayağı parçalanmış bir vəziyyətdə idi. Çəkdiyi hər iztirabı, qatlandığı hər məşəqqəti üzündən oxumaq mümkün idi. Bu əcaib geyimlə çox acınacaqlı bir halı olduğu üzündən sezilirdi. Lakin gözləri, sevdiyi yolun yolçusu olduğu Peyğəmbərlər sultanını görməklə par-par yanır, könlü möminlərin safına qoşulmaqla dolu idi.

"Mən gəldim ya Rəsulallah! İman edərək gəldim. Allahı bir, Muhəmmədi Onun Rəsulu bilərək gəldim" –deyir.

Və qızıl halqadakı yerini tutdu...

❋

O gündən etibarən Rəsulullahın (s.ə.s) sevgisinə nail olmuş, sevdiyi insanlar arasında yer almış, ilk günkü mənzərəsi

heç unudulmamış, ləqəbi də ذو البجادين (Zül-Bicadeyn= iki çullu, cüt kilimli) olmuş, Allah Rəsulunun ordusunda, onun yanında cihaddan cihada keçmiş; mütəmadi olaraq cihad ordusuna komandanlıq etmiş, səhralardan keçərək ordunu hədəfinə çatdırmışdı.

❋

Zaman sel kimi axıb getmiş, günlər müsəlmanların böyük imtahanlar keçirdiyi Təbuk savaşı günlərinə gəlib çatmışdı. Əsgərlərin gecələdiyi çadırlar arasında gecənin qaranlığında üç nəfər bir məşəl işığında cənazə daşıyırdılar.

Bu üç nəfər: Həzrət Rəsulullah (s.ə.s), Əbu Bəkr və Ömər (r.a) idi. Daşınan cənazə isə "Zülbicadeynin cənazəsi idi."

Abdullah İbn Məsud (r.a) belə rəvayət edir:

Yuxuya getməmişdim. Gecənin qaranlığında mücahidlərin çadır qurduqları yerin kənarında hərəkət edən bir işıq gördüm. Durub onu izlədim. Gözümü ayırmadan ona yaxınlaşdım. Bir də nə görsəm: Rəsulullah (s.ə.s), Əbu Bəkr və Ömər, Abdullah Zülbicadeyni daşıyırlar. Bir yerə gəlib qəbir qazdılar. Rəsulullah (s.ə.s) qəbirə endi. Əbu Bəkr və Ömər (r.a) cənazəni Peyğəmbərimizə vermək üçün hazırladılar.

Peyğəmbərimiz; "Qardaşınızı mənə tərəf yaxınlaşdırın!"-buyurdu; yaxınlaşdırdılar.

Onu qucağına götürən Rəsulullah (s.ə.s) uzanacağı yerə qoyduqdan sonra doğruldu və;

"Ya Rəbb! Mən ondan razıyam, həmişə razı olaraq gəldim; sən də razı ol!.."-deyə dua etdi.

Ürəyim fərəhlə doldu. Ona qibtə etdim. Həmin an; "Kaş bu qəbirin sahibi mən olaydım! Oraya bu şəkildə mən basdırılaydım."-deyə nə qədər arzu etdim![104]

❋❋❋

104. Zülbicadeyn haqqında məlumat üçün bax: Sirətu İbn Hişam (2/527-528), Xilyətul-Övliya və Tabaqatu-l-Əsfiya, İsfahani(1/121-122), əl-İstiab, (2/292-293), əs-Sirətu-n-Nəbəviyyə (səh. 314).

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Həqiqətlərin qarşısına qoyulan süni maneələrin uzun müddət mövcudluğunu qoruya bilməyəcəyi.
- Abdullahın ətrafının verdiyi səhv məlumatlara və bu məlumatlara əsaslanan səhv dəyərləndirmə və tənqidlərə qapılmadığı. Onları tanıyaraq reallıqları dərk etməsi.
- Yalnızlığına, sahibsizliyinə baxmayaraq doğru bildiyi şeyləri müdafiə etməsi.
- Verdiyi cəsur qərarla ona qurulan bayağı tələlərdən qurtuluşu və onu susdurmaq istəyənlərin əməllərini boşa çıxartması.
- Haqqı susdurmağa çalışanların ən çox istifadə etdikləri taktikalardan birinin də, doğrunu müdafiə edən insanları ələ salmaq, onları gülünc vəziyyətə salaraq verdiyi məlumatları və müdafiə etdiyi fikirlərin ciddiyə alınmamasını təmin etmək, təsirini önləmək olduğu.
- Allahın, haqqa təslim olan, ixlasla və səmimiyyətlə çalışanların əməyini bərəkətləndirəcəyi, ona əbədi həyatada rütbələr qazandıracağı.
- Allah Rəsulunun fədakar və vəfalı insanların haqq mübarizəyə olan xidmətlərini əsla unutmadığı və onlara olan hisslərini səmimiyyətlə ifadə etməsi.
- Səhabələrin, Allah Rəsulunun sevib bağrına basdığı, onlar üçün Yaradana dua etdiyi insanlardan olmaq arzu və həvəsi.

Bir Neçə Söz

Həqiqətləri İstehza (ələ salmaq) Pərdəsi Altında Örtmək Cəhdləri

Öz qəbiləsi arasında boynu bükük yaşayan, bu əziz səhabənin islamla şərəfləndikdən sonrakı həyatının, həyata göz yumduğu andakı halının, Allah Rəsulunun onu torpağa verərkən etdiyi duanın bizlərə çox şey başa saldığını zənn edirəm.

O qədər şey anladır ki, Cənnətlə müjdələnən səhabələrdən, səhabələrin cəsarət, elm və irfan çeşmələrindən olan Abdullah İbn Məsudu (r.a) qibtə edəcək hala gətirir.

Lakin onun həyatında diqqət edilməsi zəruri olan başqa bir məqam da vardır. Könlünün ilk andan etibarən haqq və həqiqətə meyilli olması. İnandığı şeyləri dilə gətirməkdən çəkinməməsi və bunu edərkən başa düşülməyən bir üslubla deyil, haqqı təslim edən bir üslub ilə dilə gətirməsidir.

Bunun müqabilində isə öz camaatının, qohumlarının, daha kamil və doğru düşünməsi zəruri olan böyüklərinin ona qarşı davranışı və onun yetimliyindən, kimsəsizliyindən yararlanaraq edilən təzyiq və zülmlər.

Razı salmaqda, öz fikir və düşüncələrini müdafiə etməkdə aciz olanların, bu acizliklərini ələ salmaqla ört-basdır etməyə çalışmaları, bu da kifayət etməyəndə əlavə olaraq təzyiq, hədə, maddi gücdən istifadə etmək tarix boyu yaşanan çirkinliklərdəndir. O zaman olduğu kimi bu gün də vardır. Öz fikirlərinə etimad etməyənlərin, əsaslandıqları düşüncələr boş və mənasız olanların, düşündüklərini, yaşadıqlarını müdafiə etməyənlərin əlindən başqa nə gəlir ki?

Qarşısında dura bilmədiyi düşüncəni və onu müdafiə edənləri ələ salmaq, insanı gülünc hala salmağa çalışmaq və beləliklə başqalarına təsirinin qarşısını almağa səy göstərmək, onun son çırpıntıları və çarəsizliyidir.

Həmişə eyni siyasət, hər zaman eyni bəsitlik. Nə yazıq ki, hələ də bəsirəti olmayanlar üçün məqbul bir metod. Onlar üçün məqbul olduğundan mütəmadi olaraq tətbiq edilən bir yol.

Ələ salmaq, aşağılamaq cəhdləri. Haqq günəşinin üzərini örtməyə kifayət etməyən palçıq olsa da, istifadə etməyə davam edilir.

Bu şərtlər altında Haqq yol dəvətçilərinin çox səbirli və çətinliklərə sinə gərməyə hazır olmaları, bezməmələri, bəsirət dolu könüllər qazanmağa çalışmaları, irfanla yoğrulmuş bir nəslin yetişməsi üçün bezmədən, yorulmadan çalışmaları və Loğman Hakimin oğluna olan bu sözlərini unutmamaları lazımdır:

يَا بُنَيَّ أَقِمِ الصَّلَاةَ وَأْمُرْ بِالْمَعْرُوفِ وَانْهَ عَنِ الْمُنْكَرِ وَاصْبِرْ عَلَىٰ مَا أَصَابَكَ ۖ إِنَّ ذَٰلِكَ مِنْ عَزْمِ الْأُمُورِ.

"**Oğlum! Namaz qıl,** (insanlara) **yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə.** (Bu yolda) **sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu** (dediklərim) **vacib əməllərdəndir!**"(Loğman, 31/17)

Təzyiqlər və hədələr son həddə çatsa da hamısına sinə gərmək və irəliyə doğru yürümək məcburiyyətindəyik. Dünya səadətimizi düşünərək addımlayacağıq. Axirət səadətimizi düşünərək irəli gedəcəyik. Bəşəriyyəti düşünərək irəliləyəcəyik. Gələcək nəsilləri düşünərək irəliləyəcəyik.

Nuh qövmü də Nuhu (ə.s.) ələ salmışdı. Gəlib keçdikcə düzəltdiyi gəmiyə baxıb gülüşür, ələ salır;[105] "Dəli oldu" deyirdilər. Lakin yağan yağışların, fışqıran suların, axan sellərin qarşısını ala bilmədilər.

"Ad qövmü" də Hudu (ə.s.) ələ salır; مَنْ أَشَدُّ مِنَّا قُوَّةً

"Bizdən daha güclü kim ola bilər?"[106] deyir, əsən küləyə sinə gərirlər, əl-ələ verib lağ-lağa edir, bəzən də çox nalayiq hərəkətlər edirdilər. Lakin getdikcə sürətini artıran fırtına ilə xurma kötükləri kimi yıxılmağa, küllər kimi havada sovrulmağa başla-

105. Bax: Hud surəsi, 11/28

106. Fussilət surəsi (4/15), Ad qövmü iricüssəli, çox güclü bir qövm idi və özlərinə çox güvənirdilər.

dıqlarında güclü və iri cüssələri, meydan oxuyan hərəkətləri heç nəyə yaramadı.[107]

Onlardan geriyə xarabalıqlardan başqa bir şey qalmadı. Əlbəttə ki, tarix onlar və onların bənzərlərinə aid misallarla doludur.

Rəbbimiz:

قَدْ خَلَتْ مِنْ قَبْلِكُمْ سُنَنٌ فَسِيرُوا فِي الْأَرْضِ فَانْظُرُوا كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ.

"(Ey Müsəlmanlar!) **Sizdən əvvəl bir çox vaqilər (ibrətli əhvalatlar) olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün!**" (Ali-İmran, 3/137)

İbrətlə baxan gözlərə əlbəttə dedikləri çox şey vardır.

❋❋❋

107. Bax. Qəmər surəsi (54/9-cu ayə və sonrası)

Gözəl Əxlaq-Gözəl Sima

Ümmətinin Əmini

Əbu Ubeydə İbn Cərrah

-radiyallahu anh-

أبو عبيدة بن الجراح

Allah Rəsulunun gətirdiyi hidayəti, öyrətdiyi elm və irfanı ən gözəl şəkildə dərk edən, bədəninin hər zərrəsi ilə ona tabe olan, yaşayan, uğrunda hər şeyini fəda etməyə hazır olan, öyrəndiyini bərəkətləndirən, ən gözəl əməl meyvələri verən birisini tanımaq istəyirsinizmi? Məhz sizin heyran olacağınız bir səhabə;

Əbu Ubeydə İbn Cərrah (r.a)

✺

Gözəl simalı, gözəl əndamlı və incə uzunboylu bir insan... Onu qısaca olaraq tərif etmək istəyənlər, incə, uzun, zərif, keyfiyyətli bir dəmirdən hazırlanmış, par-par yanan ustalıqla düzəldilmiş bir qılınca bənzədirdilər. Zərif və sağlam. Gözəl və güclü. Parlaq və kəskin...

Görənlərin dərhal qanı qaynadığı, ünsiyyət qurduğu təvazökar, utancaq xarakterli, ancaq savaş meydanında igid, çətin anların aslanı idi. Həyatda ikən Cənnətlə müjdələnən on səhabədən biri idi. O, bu ümmətin əmini idi.

Ləqəbi **Əbu Ubeydə**dir. Təxəllüsü ilə məşhur oldu. Əsl adı Əmir, atasının adı Abdullah, babasının adı Cərrahdır. Qüreyşin soyundandır.

Əbu Ubeydə ilk müsəlmanlardan və Əbu Bəkrin müsəlman olduğu günün ertəsi günü onun dəvəti və vəsilə olması ilə müsəlman olanlardandır.

Rəsulullahın (s.ə.s) hüzuruna onunla birlikdə, Abdurrahman İbn Avf, Osman İbn Mazun, Ubeydə İbn Haris, Əbu Sələmə, Ərqam İbn Əbi Ərqam da getmişdi. Hamısı eyni gün kəlimeyi-şəhadət gətirmişlər və müsəlmanların ilk toxumunu birlikdə meydana gətirmişdilər.

Abdullah İbn Əmir (r.a) onu bizə xüsusi olaraq belə tanıdır:

"Qüreyşdən üç nəfər vardır ki, onlar həqiqətən bu ümmətin ən məşhurlarından, əxlaqı ən gözəl, həya hissi ən çox olanlarındandır. Danışarkən əsla yalan danışmazlar və sən danışarkən əsla eyibini axtarmazlar. Bunlar:

Əbu Bəkr əs-Siddiq
Osman İbn Afvan
Əbu Ubeydə İbn Cərrahdır."

❋

Məkkədə hər zaman mömin qardaşlarının yanında idi. O günləri birlikdə yaşamışlar, səbr etmişlər və imanları uğrunda əzablara qatlanmağın mənəvi həzzini dadmışdılar.

Lakin onun əsl və ən ağır imtahanı islamın ilk böyük cihadı və zəfəri olan Bədr savaşı günü idi. Bu imtahan dəhşət deyiləcək dərəcədə ağır və xəyal edilməyəcək qədər ağır bir imtahan idi.

Savaş çox şiddətli şəkildə davam edirdi. Özünə çox güvənən müşriklər, heç gözləmədikləri bir müqavimətlə qarşılaşırlar, bir ovuc islam mücahidi meydanda aslanlar kimi döyüşürdü. Nizamsız, sayca az və savaş mövzusunda təcrübəsi olmayan insanlar, axirətini dünyasından çox sevən, iman nurunu yaşatmaq üçün hər şeyini ortaya qoymuş mücahidlər halına gəlmişdilər. Bədr qaziləri olaraq tarixdə ad qoyaraq, islam tarixində özünəxas bir yer tutaraq və əsla unudulmayacaq olan bu qazilərdən biri də Əbu Ubeydə idi. Onu bu savaşda unudulmaz edən başqa bir şey də var idi.

Ölümü unutmuş qorxusuz bir igid ədasında idi. Bu igid pəhlivan şimşək kimi çaxırdı. Yerə-göyə sığmır, sanki meydan ona dar gəlirdi. Çox keçmədən müşriklərdən biri xüsusi olaraq onu izləməyə başladı. Qarşısına çıxıb sürətini azaltmağa çalı-

şır, onunla döyüşməyə məcbur edirdi. Əbu Ubeydəni hər görən və onun sürətinə çata bilməməkdən çəkinən müşrik döyüşçülər ondan uzaq durmağa çalışarkən bu adam onun arxasını buraxmırdı.

Əbu Ubeydə onu hər gördüyündə məharətlə müdafiə olunur, qarşısına çıxan heç kimsədən çəkinmədiyi halda ondan yan keçməyə çalışırdı. Düşməni onun arxasınca gəlir, o isə qarşısındakı bu maneəni sürətli manevrlərlə keçirdi.

Bu qovalamaca bir müddət davam etdi. Axırda bu adamın istədiyi oldu. Əbu Ubeydənin çıxa bilməyəcəyi bir dalana onu sıxışdırdı. Əbu Ubeydə yoldaşlarının yanında olması, cihad meydanında üzərinə düşəni etməsi üçün bu adamı keçməli idi. Qarşısındakı yollar bağlanıb, möminlərlə arasına sədd çəkilincə qərarını çox cəld verdi. Düşmənindən uzaq durmağa çalışan Əbu Ubeydə, birdən ox kimi sıçradı və şimşək kimi çaxdı. Bir anda düşmənini yerə sərdi. Onu keçdikdən sonra təkrar din qardaşları və iman mücahidləri ilə çiyin-çiyinə vuşumağa başladı.

Yerə sərdiyi bu amansız adam kim idi əcəba? Öz atası, Abdullah İbn Cərrah idi. Verdiyi imtahan onun üçün çox böyük idi. Lakin o, endirdiyi qılınc zərbəsi ilə yalnız atasını öldürməmişdi. Atasının şəxsində şirki, zəlaləti, azğınlığı, haqq yolun qarşısına sədd çəkən düşüncəni öldürürdü. Bu, imanı qan, ət və sümükdən üstün tutmağın ən güclü ifadəsi idi.

Çox keçmədən Mücadilə surəsinin son ayəsi vəhy edildi:

لَا تَجِدُ قَوْمًا يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ يُوَادُّونَ مَنْ حَادَّ اللَّهَ وَرَسُولَهُ وَلَوْ كَانُوا آبَاءَهُمْ أَوْ أَبْنَاءَهُمْ أَوْ إِخْوَانَهُمْ أَوْ عَشِيرَتَهُمْ ۚ أُولَٰئِكَ كَتَبَ فِي قُلُوبِهِمُ الْإِيمَانَ وَأَيَّدَهُمْ بِرُوحٍ مِنْهُ ۖ وَيُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا ۚ رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ ۚ أُولَٰئِكَ حِزْبُ اللَّهِ ۚ أَلَا إِنَّ حِزْبَ اللَّهِ هُمُ الْمُفْلِحُونَ

“(Ya Peyğəmbər!) **Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla – öz**

ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə - dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh (güc) **vermişdir** (iman, hidayət nuru əta etmişdir). (Allah) **onları** (ağacları) **altından çaylar axan cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər** (Allahın dininə kömək edən kimsələrdir). **Bilin ki, Allahın firqəsi məhz onlar nicat tapıb** (əbədi) **səadətə qovuşanlardır.**" (Mücadilə, 58/22)

❋

Onun bu davranışı heç vaxt yaddan çıxmayacaq. O, iman əlaqəsini bütün əlaqələrdən üstün tutan bir insan idi. Görkəmli və etibarlı bir şəxsiyyət idi. Həmişə belə tanındı.

O, mücahid, komandan, rəhbər, müəllim və son peyğəmbərin ümmətinin etibarlı bir şəxsiyyəti idi.

Yəmənlilər Allah Rəsulunun yanına gələrək onlara islamı, sünnəni öyrədəcək bir adam göndərməsini istəyirlər. Rəsulullah (s.ə.s) Əbu Ubeydənin əlini tutaraq;

هَذَا أَمِينُ هَذِهِ الأُمَّةِ! *"Bu, bu ümmətin əminidir"*[108]-buyurdu. Muhəmməd İbn Cəfər rəvayət edir:

Xristianlardan bir dəstə Həzrət Peyğəmbərimizin yanına gələrək: "Ey Əbu Qasım! Biz, sizə inanırıq. Daxilən özümüzü rahat hiss edirik. Səhabələrin arasından razı olduğun, etibar etdiyin bir adamı bizimlə göndər. Aramızda baş verən anlaşılmazlıqlarda ona müraciət edək. O hökm versin, biz isə qərarlarına tabe olaq."

Həzrət Peyğəmbərimiz (s.ə.s); "Zöhrün axırında gəlin. Sizinlə güclü, sağlam və etibarlı birisini göndərəcəyəm."

Həzrət Ömər (r.a); "Həmin gün zöhr namazına erkən getdim. Heç vaxt o günkü qədər rəhbərliyə həvəslənməmiş, əmir olmaq istəməmişdim. Rəsulullahın zikr etdiyi xüsusiyyətlərə sahib olan bir adam olmağı ümid edirdim.

108. əl-İsabə (2/252)

Allah Rəsulu bizə zöhr namazını qıldırdı. Namazdan sonra ətrafına baxmağa başladı. O ətrafına göz gəzdirərkən məni görər ümidi ilə gözə batacaq dərəcədə boylandım. Bu göz gəzdirmək, Əbu Ubeydəni görənə qədər davam etdi. Onu görüncə yanına çağırdı və:

أُخْرُجْ مَعَهُم, فَاقْضِ بَيْنَهُمْ بِالحَقِّ اخْتَلَفُوا فِيهِ.

"Onlarla get, aralarında baş verən ixtilaflarda qərarı sən ver!"

Bundan sonra; "Bütün bu xüsusiyyətləri də Əbu Ubeydə alıb apardı."-dedim.

❋

O, hər şeyi ilə yoluna baş qoyduğu haqq mübarizəyə təslim idi. Allah Rəsulunun əmrini yerinə yetirmək üçün ibrətli bir səfəri birlikdə yad edək:

Rəsulullah (s.ə.s) onu üç yüz nəfərlik bir ordunun başında Qırmızı dəniz sahillərinə göndərir. Qüreyşin güclü və mühafizə edilən bir karvanının qarşısını alacaqdı. Çətin günlər idi. Allah Rəsulunun bu orduya verə bildiyi bütün yol azuqəsi bir torba xurmadan ibarət idi.

Ordudakı səhabələr, Əbu Ubeydənin onlara bu xurmadan gündə bir dənə verdiyini, verilən xurmanı ağızlarında soraraq yemək vaxtını uzadıb aclıqlarını onunla qarşıladıqlarını və üstündən su içərək bu şəkildə keçindiklərini deyirlər.

Bir müddət sonra əllərindəki xurma bitmiş, ağaclardan yarpaq qopararaq onunla aclıqlarını aparmağa çalışırlar.

Sahilə gəldiklərində isə heç ummadıqları, xəyal belə edə bilmədikləri bir hadisə ilə qarşılaşırlar. Gözlərinə inana bilmirdilər. Nəhəng bir balığı dalğalar sahilə atmışdı.

Orada gecələdilər. Dərhal balığı doğrayıb bişirərək yedilər və özlərinə gəldilər. Bir aya yaxın burada istirahət etdikləri rəvayət edilir. Bu müddət ərzində balığın ətindən və yağından doyunca yedilər.

Balığın sümüyünü kəmər kimi yerə sancırlar və uzunboylu bir süvari, hündür bir dəvə ilə rahat şəkildə altından keçir. Özləri üçün belə əyləncələr təşkil edirlər.

Mədinəyə gəldiklərində başlarına gələnləri Rəsulullaha (s.ə.s) danışırlar. Peyğəmbərimiz balıq üçün; "Allahın sizə bəxş etdiyi nemətdir"-buyurur; "Yanınızda ətindən bizim də yeyə biləcəyimiz bir yeri qalıbmı?"-deyə soruşur.

Hadisəni danışan Cabir (r.a); "Yanımızdakı ətdən Rəsulullaha da göndərdik, o da yedi"-deyir.[109]

❋

Əbu Ubeydə (r.a) Uhudda başqa bir igid idi. Çətin anlarda Allah Rəsulunun ətrafından ayrılmamış, hər təhlükəyə sinə gərmişdir. Yorulmadan, bezmədən axıra qədər döyüşmüşdür.

O, igidliyi ilə yanaşı bu müharibə başqa bir xatirə də daşıyırdı. Müharibə zamanı Rəsulullahın dişi qırılmış, alnı yarılmış və yanağına qalxanının iki halqası təhlükəli şəkildə batmışdı.

Halqaları çıxarmaq üçün Əbu Bəkr (r.a) irəliləyir, ancaq Əbu Ubeydə ondan cəld tərpənir.

Halqaları əli ilə çıxarmağa çalışsa, Rəsulullaha əziyyət verəcəyini bilirdi. Ona görə dişi ilə çəkməyə qərar verdi. Çünki bərk yapışmalı və birdəfəyə çəkməklə çıxarmalı idi. Dişləri ilə ilk halqanı tutdu və çəkdi. Halqa çıxdı, ancaq qabaq dişlərindən biri də çıxdı. Eyni şəkildə ikinci halqanı çəkdi və ikinci dişini də itirdi.

Ərəb dilində ön dişləri olmayan, bu mənada bəzi hərfləri tam şəkildə tələffüz edə bilməyənlərə "hətəm" deyilir. Əbu Bəkr (r.a), Əbu Ubeydə haqqında; "O, hətəm olanların ən gözəlidir,"-deyərdi.

❋

Əbu Ubeydə hər çətinlikdə, hər savaşda Allah Rəsulunun yanında idi. Allah Rəsulu vəfat edincə, onun acısını dərindən hiss etdi, ancaq özünü dərhal topladı. Onun təbliğ etdiyi dəvət da-

109. Dəlailu-n-Nübüvvə, Beyhəqi (4/406-409)

vam etməliydi. Hər dəfəkindən daha fədakar, daha güclü və yol göstərən savaş igidlərinə ehtiyac var idi. O, həqiqi bir fədakar idi.

"Saqifə günü" Əbu Bəkr (r.a); "Sizə iki nəfəri tövsiyə edir, onlara tam şəkildə razı olduğumu bildirirəm. Onlardan istədiyinizə beyət edin: Ömər və Əbu Ubeydə İbn Cərrah deyir və xəlifə seçilməsi üçün onlardan birini tövsiyə edir. Həzrət Ömər (r.a) Əbu Ubeydəni yaxından tanıyır, Rəsulullahın ona qarşı olan hisslərini və etibarını bilirdi. Dərhal; Əlini uzat sənə beyət edim! Mən Rəsulullahın; hər ümmətin bir əmini vardır. Bu ümmətin əmini də Əbu Ubeydədir, buyurduğunu eşitdim."-deyir.

Lakin o; "Mən Allah Rəsulunun imam təyin etdiyi və O vəfat edənə qədər bizə namaz qıldıran birisinin qarşısına keçə bilmərəm deyərək Əbu Bəkri göstərir və özü də Əbu Bəkrə beyət edir.

Əbu Bəkr (r.a) xəlifə seçildikdən sonra onun ən böyük dayaqlarından biri olur. Xeyirə irşad edən ən yaxın məşvərət məclisində iştirak edirdi. Hər yerdə və hər zaman islamın zəfər çalması üçün çalışırdı."

❋

Həzrət Ömər (r.a) xəlifə seçildikdən sonra Əbu Ubeydəni Şam bölgəsinə əmir təyin edir. Şam diyarının böyük bir hissəsi onun komandanlığında fəth edilir. Ordusunu zəfərdən zəfərə aparır, Şərqdə Fərat çayına, Şimalda Kiçik Asiyaya qədər gedib çıxır, artıq "Şam Fatehi" deyə yad edilirdi. O, fəth etdiyi yerləri yalnız cihadla fəth etmir, gözəl əxlaqı ilə oradakı insanların könüllərini də fəth edirdi.

Ömər (r.a) ona olan sevgisini gizlədə bilmirdi. "Qardaşım" -deyə xitab etdiyi Əbu Ubeydənin hər davranışı ona olan sevgisini artırırdı. O da Həzrət Ömərı (r.a) sevir, əsla itaətsizlik etmirdi.

Bu gün çox sevdiyi Xəlifə Ömərdən ona bir məktub gəlir. Ömər (r.a) bu məktubunda; **"Sənə təcili, zəruri və olduqca böyük ehtiyacım var. Əgər məktubum sənə gecə çatarsa, israr edirəm; səhəri gözləmədən, gündüz gələrsə, axşamı gözləmədən miniyinə min özünü mənə çatdır!"**

Əbu Ubeydə (r.a) Ömərin (r.a) istəyini başa düşmüşdü. İordaniyadan başlayan bir epidemiya, Şam bölgəsinə yayılmağa başlamış, insanlar kütləvi halda epidemiyanın qurbanı olurdu. Ömər (r.a) çox sevdiyi Əbu Ubeydəni itirmək istəmir, onu oradan qurtarmaq istəyirdi. Məktubu oxuyunca; "Möminlərin əmirinin mənə olan ehtiyacını bilirəm. O, qalıcı olmayanı həyatda saxlamağa çalışır"-deyir. Əbu Ubeydə (r.a) ilk dəfə sözündən ayrılmadığı Ömərə itaətsizlik edir və ona belə bir cavab yazır:

"Ey Möminlərin Əmiri! Mənə olan ehtiyacını bilirəm. Mən islam ordusunun əsgərləri arasındayam. Onların tutulacağı hər hansı bir müsibətdən yalnız özümü qurtarmaq istəmirəm. Rəbbim mənimlə onlar haqqında hökmünü verənə qədər onlardan ayrılmaq istəmirəm.

Bu məktubum sənə çatdığında haqqını halal et, vəzifədən kənarlaşdır və mənim qalmağıma icazə ver!"

Məktubu oxuyan Ömər (r.a) göz yaşlarını saxlaya bilmir. Ətrafındakılar dayana bilməyib soruşurlar: " Ey Möminlərin Əmiri! Əbu Ubeydə vəfat etdi?"

"Xeyr, ancaq ölüm ona çox yaxındır."

Ömər (r.a) yanılmamışdı. Çox keçmədən Əbu Ubeydə xəstələndi. Dünyadan ayrılıq gününün gəldiyini hiss edirdi. Ətrafındakı mücahidlərə belə vəsiyyət etdi:

"Sizə bir vəsiyyət edəcəm. Qəbul edib əməl etsəniz xeyir içində yaşayarsınız:

Namazınızı haqqı ilə qılın, orucunuzu tutun, zəkatınızı verin, həccə gedin, ümrə edin, bir-birinizə haqqı tövsiyə edin. Rəhbərlərinizə xeyirli nəsihət edənlərdən olun. Onları aldadanlardan olmayın.

Dünya həyatı sizi aldatmasın; onun eyş-işrətinə aldanmayın. Bir adama min il ömür verilsə belə, sonunda mütləq mənim bu gördüyünüz halıma düşəcəkdir. Bunu qəti şəkildə unutmayın!.."

Sonra üzünü Muaz İbn Cəbələ tutaraq; "Ya Muaz! İnsanlara namazı sən qıldır!"-dedi.

Bu, "komandan sən ol!"-demək idi.

Çox keçmədən ruhunu təslim etdi. O gözəl insan dünya həyatına vida etdi.

❋

Onun vəfatından sonra söz alan Muaz (r.a) bunları deyir:

"Ey insanlar! Ani bir ölümlə üz-üzə gəldiniz. Allaha and olsun ki, bu gün elə bir adamı itirdiniz ki; ondan daha çox könlü yaxşılıqla dolu olan, kin və qəzəbdən uzaq olan, axirəti sevən, insanlara xeyirli nəsihətlər edən birisini tanımıram.

❋

Ona rəhmət diləyirik, Allah sizə də rəhm etsin! "Bu əziz səhabəyə minlərcə dəfə rəhmət diləyirik. Onu və onun getdiyi yolda gedənləri həsrətlə gözləyirik.[110]

❋❋❋

110. Əbu Ubeydə (r.a.) haqqında məlumat üçün bax: Səhih əl-Buxari, Fəzail (4/1881-1882), Sirətu İbn Hişam (2/80), əl-İstiab (3/2-4), Usdul-Ğabə (3/128-130), Dəlailu-n-Nübüvvə, Beyhəqi (3/263, 4/83, 406-409), əl-İsabə (2/252-254), əl-Bidayə və-n-Nihayə (7/96, 80), Siyəru Əlamin-Nübəla (1/5-23), Həyatu-s-Səhabə (2/79-80, 109, 110, 122, 216, 254, 290) Suvərun min həyati-s-Səhabə (2/7-20)

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Cismani gözəlliklə yanaşı daxildəki hisslərin də simaya əks etməsi və eyni gözəlliyi verməsi.
- Təvazökarlığın, zəriflik və cəsarətin bir yerdə cəmləşmiş gözəlliyi.
- Etibarlı bir insan olmağın əhəmiyyəti.
- Səhabələrin bir-birlərini təqdir etməsi, gözəl xislətlərə qibtə edib həsəd etmək kimi çirkin hisslərdən uzaq olması.
- İslam, iman əlaqəsinin digər bütün əlaqələrdən daha güclü olması. Əbu Ubeydənin Bədr savaşındakı ağır imtahanı və iman əlaqəsini üstün tutması.
- Səhabələrin Allah Rəsuluna bağlılıqları və ona qarşı göstərdikləri ehtiram.
- Əmrə itaət, haqqa təslimiyyət və qənaətkarlığın insanı ucaltması.
- Təhlükəyə baxmayaraq Əbu Ubeydənin (r.a) əsgərlərindən ayrılmaması və öz canını başqalarından üstün tutmaması. Öz canının dərdinə qalmaması.
- Dünya həyatının müvəqqəti təmtərağına aldanmamaq və ona həddindən çox dəyər verməmək.
- Son nəfəsdə belə irşada dəvət etmək cəhdi.

Bir Neçə Söz

Hislərin Simaya Əks Etməsi

İnsanın yaradılış gözəlliyi öz əlində deyildir. Lakin üzünə əks edən hissləri qazanmaq, daxili gözəlliyi zahirə vurmaq və könüllərdə taxt qurmaq öz əlindədir.

İnsanın üzü, siması başqa bir dünyadır. Gəlin bir qədər daha yaxından bu dünyanı tanımağa çalışaq:

İbrət gözü ilə baxan üçün, milyonlarla gözəlliyi kainatda bir yerdə görməyin mümkün olduğu inkaredilməz bir həqiqətdir. Göy üzünün saatlarla baxmağa dəyər gözəlliyi, bir gülün qat-baqat yarpaqları, görünüşü, canlılığı, ətiri və hər hüceyrəsinin xəyal edilməz quruluşu... insanı valehedici hisslərə qərq edən bir dünya...

Ancaq insanın yaradılışı, hamısından fərqli. Yaradanımız buyurur:

لَقَدْ خَلَقْنَا الْإِنْسَانَ فِي أَحْسَنِ تَقْوِيمٍ

"Biz insanı ən gözəl şəkildə yaratdıq." (ət-Tin, 95/4)

Yaradanın insan üzündəki qüdrət təcəllisi hamısından başqa... Yaradılış incəliyi, duyu orqanlarının yer alması, danışarkən, gülərkən, ağlayarkən, sevincli, kədərli anlardakı davranışı, gözlərin görməkdən o yana ifadə etdiyi mənaların hamısı ibrət gözü ilə baxanı ifadə etməkdə aciz qoyacaq bir dərəcədə.

Lakin bizim əsl üzərində durmaq istədiyimiz məna, bu hədisi-şərifdəki mənadır:

مَاأَسَرَّ أَحَدٌ سَرِيرَةً أَلْبَسَهُ اللَّه تَعَالَى رِدَاءَهَا؛ إِنْ خَيْرًا فَخَيْرٌ وَ إِنْ شَرًّا فَشَرٌّ.

"Allah bir adamın daxilində gizli saxladığı hisslərin örtüyünü üzünə geyindirər. Bu hisslər xeyirlidirsə, üzünə geyindirilən örtük də xeyirli, şər olarsa o da şər olar."[111]

Osman (r.a) Rəsulullahdan (s.ə.s) aldığı tərbiyə ilə enyi nəzakəti bir qədər dəyişik formada ifadə edir:

111. Müxtəsər İbn Kəsir Təfsiri, (3/355, Təbəranidən)

ماأسر أحدٌ سريرةً إلاّ أبداها اللّه تعلى على صفحات وجهه و فلتاتِ لسانه.

“Allah bir adamın daxilində gizlədiyi hissləri, mütləq sifət cizgilərinə, üz ifadələrinə, danışarkən istifadə etdiyi kəlmələrə və kəlmələrin tələffüz ediliş şəklinə əks etdirər.”

Ömərin (r.a) eyni nəzakəti ifadə edən başqa bir gözəl sözü:

من أصلح سرِيرَته أصلح اللّه تعالى علانيتَهِ.

“Kim öz daxili aləmini, könlündəki hissləri gözəlləşdirərsə, Allah da onun zahiri dünyasını gözəlləşdirər.”[112]

Daxili aləmin simaya əks etməsini ifadə etmək bəlkə də çətindir. Lakin hamımız bunun dəyişik nümunələrinə şahid oluruq. Bir adamın əzabını, kədərini, sevincini və qəzəbini üzündən anlamaq mümkündür.

Bunların bir çoxu gəlib keçən hisslərdir; bu mənada üzdəki ifadələr də gəlib keçən ifadələrdir. Qalıcı olanlar isə daha dərindir. Həmişə qəzəbli və sərt insanların alın qırışları, qaşları və gözləri, sifət cizgiləri nə qədər aşkar sezilir. Davamlı və dərin kədər bir üzə necə də çökər? Bədbinlik necə də özünü büruzə verər? Ürəyi qan ağlayan bir adamın zahiri dünyasının şən görünməsi, üzünün gülməsi necə də çətindir? Gülsə belə, dərdi gülüşündə bəlli olar. Biz; “acı-acı gülmə” ifadəsini kimlər üçün və necə istifadə edirik?

Hiyləgər gülüş, ürəkdən gülmədən; istehza, təbəssümdən nə qədər fərqlidir?

Bir çox insanın daxili aləmini üzündən oxuyuruq. Hələ bir də zaman keçmiş, keçən illər üzdə iz buraxmağa başlamışsa. Keçən illər içində kök salan hisslər, daha rahat oxuna bilən izlər buraxır.

Gözəl xislətlər də üzdə izlər buraxır. Üzdəki nur çox şeyi ifadə edir.

Daha dərininə varınca görünüşü o qədər də gözəl olmayan insanlar görərsiniz. Lakin sifət bütünlüyü, mimika, təbəssüm,

112. Müxtəsər İbn Kəsir Təfsiri (3/355)

danışıq və davranışlar, bədən hərəkətləri ilə bütünləşincə könlünüzü fəth edə bilir. İlk baxışda daha gözəl görünən birisindən daha sevimili və isti gələ bilər. Bütün bunların ayrı bir dili vardır və çox şeylər öyrədir.

Tibb sahəsində Nobel mükafatı alan, bir çox dillərə tərcümə edilən və oxunmasında fayda gördüyümüz "İnsan bu məchul" adlı əsərdə yer alan bu cümlələrə diqqət edin:

"Üzün, gözün, yanaqların, göz qapaqlarının və digər bütün cizgilərin şəklini, dəri altında və piy içində hərəkət edən düş əzələlər müəyyən edir. Və əzələlərin vəziyyəti də düşüncəmizə görədir. Şübhəsiz hər kəs üzünə arzu etdiyi ifadəni verə bilir. Lakin bu masqanı davamlı olaraq mühafizə edə bilməz. Üzümüz, bizim xəbərimiz olmadan, yavaş-yavaş şüur hallarımızın modeli olur. Və yaşın irəliləməsi ilə də hisslərin, iştahaların, insanın bütün xarakterlərinin ən doğru siması halına gəlir. Bir gəncin gözəlliyi, sifət cizgilərindəki təbii bir ahəngin nəticəsidir. Bir qocanın cox nadir hallarda görünən gözəlliyi isə, onun ruh halının təzahürüdür. "

Üz şüur fəaliyyətindən daha çox dərin şeyləri də ifadə edir. İnsanın üzündən yalnız nöqsanlarını, məziyyətlərini, zəkasını, gicbəsərliyini, hisslərini, ən gizli alışqanlıqlarını deyil, cismani quruluşunu, sağlam və ya ruhi xəstə olduğunu da oxumaq mümkündür."

Bu sözlərin ardınca tibbi məlumatlar verdikdən sonra bu hissəni aşağıdakı cümlələrlə bitirir:

"Keçmiş həkimlər çox haqlı olaraq, müayinə və müalicələrdə xarakterə, dözümlülüyə çox böyük əhəmiyyət verirdilər. Müşahidə etməsini və görməsini bilən üçün, hər insanın üzündən onun bədən və ruh tərifini oxumaq mümkündür."

❋

İndi İlahi kitaba nəzər salaq: əz-Zariyat surəsinin 20 və 21-ci ayəsində belə buyurulur:

وَفِي الْأَرْضِ آيَاتٌ لِلْمُوقِنِينَ وَفِي أَنْفُسِكُمْ ۚ أَفَلَا تُبْصِرُونَ

"**Yerdə** (Allaha) **tam yəqinliklə inananlar üçün** (Onun əzəmət və qüdrətinə, vəhdaniyyətinə dəlalət edən) **əlamətlər vardır. Sizin özünüzdə** (sizi yaradanın birliyini sübut edən) **əlamətlər vardır. Məgər görmürsünüz?** "

Fəth surəsində Rəsulullaha (s.ə.s) yoldaş olan, Onun yolu ilə gedənlərin vəsfləri zikr edilərkən baxın gör bu nəzakətə necə diqqə çəkilir:

سِيمَاهُمْ فِي وُجُوهِهِمْ مِنْ أَثَرِ السُّجُودِ

"**Sən onları** (namaz vaxtı) **rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir.**" (əl-Fəth, 48/29)

Bu ayəni təfsir edərkən alimlərin dediyi cümlələrdən biri bu şəkildədir:

إنَّ للحسنة نورًا في القلب وضياءً في الوجه وسعة في الرزق ومحبةً في قلوب الناس

"Edilən bir yaxşılıq, gözəl bir davranış, edilən xeyirxah əməl qəlbə nur, üzə aydınlıq, ruziyə bolluq verər. İnsanların könlündə ona qarşı sevgi cücərdər."

✺

Utanmazların, hiyləgərlərin, yalançıların, əxlaqsızların etdiyi zülmlərin, yediyi haramların, xəyanətin, zəlalətin, Allaha üsyan və günahların... çökdüyü üzlərdən söz açaraq qəlbinizi qaraltmaq istəmirəm.

Mərhum Məhməd Akifin:

"Qızımın iffəti batır rəzilin gözünə
Acıyıram tüpürcəyə billahi tüpürsəm üzünə"

Misrası ilə dilə gətirdiyi tüpürcəyə dəyməyəcək üzləri də nə anlatmaq, nə də görmək istəyirik. Nə yazıq ki, istəməsək də görmək məcburiyyətində qalırıq.

Əgər belə bir üz görmüsünüzsə, onu unutmaq, mənəvi rahatlıq tapmaq və gözlərinizi dincəltmək istəyirsinizsə, nurani,

saf və təvazökar bir simaya baxın və yaxud yumulmuş əllərini sizə uzadan bir uşağın o təmiz, günahsız və pak üzünə, parıldayan gözlərinə baxıb sevgi ilə bağrınıza basın. Rəbbinizə yönəlib hidayət yolunda Haqqa doğru addımlamağın nə qədər böyük nemət olduğunu düşünərək şükr edin.

Bəzi üzlərin aydınlığa qərq olub parıldadığı, bəzi üzlərin də qaraldığı hesab günündə üzü ağ olanlardan, Allah rizası üçün edilən səcdələrin izlərini daşıyanlardan olmaq üçün dua edin.

Əbu Ubeydənin (r.a), o gözəl insanın zahiri gözəlliyini, ruh gözəlliyini, arxada qoyduğu şirin xatirələri yad edin və unutmayın.

Həyatı boyunca xeyirxah düşünən, könlünü gözəl xislət hissləri ilə dolduran, davranışlarından alicənablıq, səmimiyyət yağan və bir yerə toplaşan mömin qardaşlarına daim haqqa gedən yolu göstərənlərdən olun.

Bu həyata vida edərkən arxanızca göz yaşları axıdılan, xeyirli bir ömürlə Rəbbinə qovuşmaq sevinci içində üzü gülənlərdən olun.

Bu gözəllikləri söndürmək istəyənlərin isə pərişan olacaqlarını unutmayın.

Sıxıldığımız bu günlərdə əvvəlcədən çəkilən əzab-əziyyətləri xatırlayır; gözəl simaları yox etməyə çalışanların peşmanlıq çəkdiyi günləri görməyi arzu edirik.

وَلَا تَهِنُوا وَلَا تَحْزَنُوا وَأَنْتُمُ الْأَعْلَوْنَ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ

"(Uhud müharibəsində baş vermiş bəzi hadisələrə görə) **ruhdan düşməyin və qəmgin olmayın. Halbuki, əgər möminsinizsə, siz** (Allah yanında inanmayanlardan) **çox yüksəkdə dursunuz!**" (Ali-İmran, 3/139)

❋

Unudulmayacaq Xatirələr...

Bədr savaşını unutmaq mümkün olmadığı kimi, Əbu Ubeydənin bu savaşdakı cəngavərliyinin də unudulması mümkün deyildir. Unudulsa belə, tarix unutmayacaq və bunu xatırlamağa davam edəcəkdir. Ayeyi-kərimə onsuz da bunu yaddaşlara həkk edəcəkdir.

Çünki bu əziz səhabənin atasına qarşı mövqeyi və qarşısındakı yollar bağlanınca tərəddüd etmədən hücuma keçməsi, islam nurunu söndürmək, onu durdurmaq, yeri gəldiyində öldürmək istəyən doğma atasını yerə sərməsi və qarşısındakı maneəni keçərək cihada davam etməsi, əlbəttə ki, adi bir hadisə deyildir. Baş verən bu hadisə eyni zamanda irqçi düşüncəyə çox aşkar və konkret bir cavabdır.

Bəlkə də irqçilik burada araşdırılmalı, bu mənfi düşüncəyə qarşı deyiləcək sözlər burada deyilməli idi.[113] Lakin belə olmasında, bu vəsilə ilə yenidən vurğulanmasında Əbu Ubeydənin (r.a) davranışının da bu məsələdə canlı bir misal olaraq qalmasında başqa bir gözəllik vardır.

Əlbəttə ki, bu misalların başqa nümunələri də vardır;

❋

Həzrət Ömərin, Əbu Ubeydəni çox sevdiyi; "Həyatda olsaydı, tərəddüd etmədən xəlifəlik üçün onu seçərdim"-dediyi, ona olan sevgisini hər fürsətdə büruzə verdiyi, onu yad edərkən; "qardaşım," -deyə xatırladığı, Xumusda Bizans ordusu tərəfindən mühasirəyə alınınca, dayana bilməyərək ona kömək etmək üçün cihad məkanına olduqca uzaq olan Mədineyi-Münəvvərədən ordu ilə birlikdə şəxsən özünün yola çıxdığı... bir həqiqətdir. Əbu Ubeydə o hələ yolda ikən mühasirəni yarıb çıxmış, islam dövlətinin gücü və adil xəlifəsinin ordu ilə üzərlərinə gəldiyini eşidərək təşvişə düşən Bizans ordusunu darmadağın etmiş, zəfərlərinə yeni bir zəfər əlavə etmişdir. Onun mühasirəni yararaq çıxması və zəfər xəbəri Möminlərin Əmiri Ömərə xəbər verilincə, Ömərin həmd edib çox sevindiyi məlumdur.

---

113. İrqçilik, milliyətçilik haqqında məlumat üçün Zeydu-l-Xeyr xatırlanarkən verilmişdir.

Bu sevgiyə də təəccüblənməmək lazımdır. Əbu Ubeydə bütünlükdə sevilməyə dəyər bir insandır və Ömər (r.a), sevəcəyi insanları yaxşı tanıyır.

❋

300 nəfərlik bir ordunun bir torba xurmaya razı olaraq uzun vaxt aparacaq bir hərəkata çıxması, xurma bitdikdən sonra ağac yarpaqlarını və köklərini yeyərək vəzifəsini yerinə yetirməyə çalışması, bu məqamda ən xırda bir şikayət etməməsi, əlbəttə üzərində durulması zəruri olan bir təvəkkül, təslimiyyət və kamillikdir.

Onların bu fədakarlıqlarını görüncə islam nurunun nə qədər qısa bir zamanda yeni üfüqlərə doğru irəlilədiyi, qitələrə yayılmağa başladığı daha yaxşı başa düşülür.

❋

Onun həyatını araşdıran, həyatının hər mərhələsində, hər sözündə yeni bir gözəlliklə qarşılaşacaqdır. O, Allah Rəsulu onu necə qoyub getmişdirsə, həmin saflıqda və dünyaya qarşı o günkü xarakterdə bu dünyanı tərk etmək istəyir. Dünyaya, ağzını yemək üçün fasilə vermiş, ağzı dincəlincə yoluna davam edəcək bir yolçunun yoldakı fasiləsindən başqa bir dəyər vermirdi.

O, axirəti sevirdi. Kainatın Fəxrinin yanına getmək istəyirdi. Ətrafını əhatələyən sevgi yumağı içində Ona qovuşmağa getdi...

❋❋❋

Elm və Ədəb

Zeyd İbn Sabit

-radiyallahu anh-

زيد بن الثابت

Mədineyi münəvvərədə Bədr savaşı üçün hazırlıqlar görülürdü. Sayı az, dəyəri böyük Bədr ordusunda son hazırlıqlar görülür və son dəfə gözdən keçirilirdi.

Səflər arasında balaca bir uşaq gözə dəyir. Hələ 13 yaşında idi. Əlindəki qılınc boyundan uzun idi. Gəlib səflərin arasında dayanmış və gözlərindən çox ağıllı, cəsur olduğu sezilirdi.

Peyğəmbərimiz (s.ə.s) ona yaxınlaşınca, sıradan çıxarılacağını başa düşür və:

جُعِلْتُ فداكَ يا رسولَ اللَّه. ائذن لي أكون معك و أجا هد أعداء اللَّه تحت رايتك.

"Canım yolunda fəda olsun ya Rəsulallah! Mənə icazə ver cihadda yanında olum. Allahın düşmənləri ilə bayrağın altında savaşım."-deyərək qalmaq üçün yalvarır.

Həzrət Peyğəmbərimiz onu cihada qəbul etmir. Lakin bu cəsur uşağın hərəkəti, davranışı, əzmkarlığı və sözləri Onun xoşuna gedir, könlünə sevinc bəxş edir. Kürəyinə şəfqət və sevgi ilə toxunmuş, könlünü alaraq səflərdən ayırır.

Uşaq çox peşman olur və qılıncını sürüyərək geri qayıdır.

❋

Bu uşaq Sabitin oğlu Zeyd idi. Anası, Malik İbn Müaviyənin qızı Nəvvadır. Zeyd yetim idi. Atası o hələ 6 yaşında ikən "Buas günü"[114] deyə yad edilən gündə öldürülmüşdü.

✺

Allah Rəsulunun yanında cihadda iştirak edə bilməməsi, bu yetimə baxan və böyüdən anasını da üzür. Ərinin bu günləri görməsini və Rəsulullahın yanında olmasını çox istəyirdi. İndi isə oğlunun inandığı yolda bir igid olmasını, haqq mübarizəni çiyinlərində daşımaqda payının olmasını istəyirdi.

Zeyd, Rəsulullahın (s.ə.s) yanında, yaxınlığında olmaqda israrlı idi. Yaşı az olduğuna görə onunla birlikdə cihada gedə bilməmişdi. Lakin iti zəkası ilə qısa bir zamanda əməlinə çatacaq başqa bir yol tapır. Düşüncələrini anasına danışır. Tapdığı yolun yaşla da heç bir əlaqəsi yox idi.

Anası Nəvvar öz sülaləsinin tanınmışlarından olan bir nəfərə bu düşüncəni söyləyir. O da Zeydi götürərək Rəsulullahın (s.ə.s) hüzuruna aparır.

"Ey Allahın Rəsulu! Oğlumuz Zeyd İbn Sabit, Qurani-Kərimdən 17 surə bilən və qəlbinizə necə endirildisə, o şəkildə tilavət edən bilən bir uşaqdır.

Həmçinin o çox ağıllıdır. Həm yazısı, həm də oxuyuşu gözəldir. Sizin yanınızda dayanmaq, yaxınınızda olmaq istəyir. Onu eşitmək istəyərsinizmi?"

Rəsulullah (s.ə.s) onu dinləyir. Təsəvvür ediləndən daha üstün bir oxuyuş tərzi. Hər hərf, hər kəlmə yerli yerində ifadə edilir. Oxuyarkən oxuduğunu hiss etməsi və vurğuları yerində söyləməsi... hamısı başqa bir gözəllikdə idi.

Oxumağı bitirir və Zeyd, Rəsulullahın (s.ə.s) yanında qalır.

✺

Allah Rəsulu (s.ə.s) bir gün ona:

يا زيد تعلم لي كتابة اليهود فإني لا آمنهم على ما أقول.

114. Buas: Mədinə yaxınlığında bir yerin adıdır. Buas günü hicrətdən beş ilə əvvəl Evs və Həzrəc qəbilələri arasında baş verən savaşın adıdır.

"Zeyd mənim üçün yəhudi dilini öyrən. Dediyim sözlərin tam şəkildə çatdırılması məsələsində onlara etibar etmirəm."

Zeydin cavabı qəti və əminlik verici idi. "Dərhal öyrənərəm ya Rəsulallah!"

On beş gün ərzində təsəvvür edilməz bir müddətdə bu dildə oxuyub yazmağı öyrənir. Onu bu müdhiş zəkasını görən Peyğəmbərimiz, ibranicəni öyrəndiyi kimi, ondan süryanicəni də öyrənməsini istəyir; Zeyd 17 gün ərzində süryanicəni də öyrənir.

Beləliklə Rəsulullaha (s.ə.s) həm tərcüməçi olur, həm də qazandığı böyük etimadla vəhy katibi olmaq şərəfinə nail olur. Nazil olan ayələrlə boy atıb böyümək və yazmaq imkanı əldə edir.

Boy atıb böyüdükcə elm ilə cihadı birləşdirən, çətinliklərə sinə gərən, daim xeyirxah bir mücahid oldu. Onu, nazil olan vəhyi qələmə alarkən gördüyümüz kimi, Xəndəkdə torpaq daşıyarkən, cihad meydanlarında at çapıb qılınc oynadarkən, mömin qardaşının köməyinə qaçarkən və başqalarına elm öyrədərkən görürük.

Rəsulullah (s.ə.s) onun haqqında; أما أنه نعم الغلام *"Ona gəlincə; o nə gözəl bir gəncgdir."*-buyururdu.

Başqa bir hədisi-şərifində də; أفرض أمتي زيد بن ثابت. *"Ümmətimin ən yaxşı fəraiz biləni Zeyd İbn Sabitdir"* buyuraraq miras hüququndakı dərin elminə və hesab qabiliyyətinə işarə edir.

❋

Allah Rəsulunun vəfatından sonra xəlifənin kim olacağı, Ənsardan yoxsa hicrət edənlərdən seçilməsi məsələsində ixtilaf olmuş, Zeyd (r.a) Səqif günü bu sözlərlə ortalığı sakitləşdirmişdir:

يا معشر الأنصار! إن رسول اللّٰه كان من المهاجرين فيكون
خليفته مهاجرًا مثله. وإنّا كنّا أنصار رسول اللّٰه فنكون أنصارًا
لخليفته من بعده وأعوانًا له على الحق. هذا خليفتكم فبايعوه

"Ey Ənsar camaatı! Allah Rəsulu hicrət edənlərdən idi. Yenə həqqi xəlifə də onun kimi hicrət edənlərdən olmalıdır. Biz

Rəsulullahın (s.ə.s) kömək və arxa dururduq. Ondan sonrakı xəlifəsinin də haqq yolda köməkçisi və arxası olmalıyıq."

Bu sözlərdən sonra əllərini uzadaraq Əbu Bəkrə beyət etmiş və; "bax bu sizin xəlifəniz!"-deyərək sözlərini bitirir.

✺

Hər keçən gün elmi və kəskin zəkası ilə bütün möminlər tərəfindən tanınmağa, bir çox elmi məsələdə əsas mənbə olmağa başladı. Xüsusilə miras elmində və Qurani-Kərimin öyrənilməsində əvəzedilməz şəxsiyyətlərdən idi.

Qurani-Kərimin yığılıb tək kitab halına gətirilməsi qərara alınınca bunu edəcək heyətin başına o qoyuldu.

Zeyd (r.a) çox ciddi və həssas bir araşdırma ilə bu şərəfli xidməti ən gözəl şəkildə bitirdi.

Bu tarixi xidməti Osmanın (r.a) dövründə bir qədər dəyişik formada bir daha təkrarladı.

Həzrət Ömər həccə getdikcə Mədinədə rəhbərliyi ona təslim edərdi. İki həcc, bir dəfə də Şam səfəri olmaqla üç dəfə Mədinə əmiri olur.

✺

Ailədə şən və səmimi olduğu, uşaqları ilə oynayıb zarafat etdiyi, elm məclisində iştirak edərkən çox vüqarla davrandığı, evindən gələn xəbərlər arasındadır.

Onun qədrini ən yaxşı bilənlər, şübhəsiz elmin qədrini ən yaxşı bilənlər idi. Elm dənizi Abdullah İbn Abbas (r.a) onu ata minməyə hazırlaşarkən görür; atılaraq atının cilovunu tutur. Allah Rəsulunun əmisi oğlunun bu davranışından utanan Zeyd (r.a); "Ey Rəsulullahın əmisi oğlu, bunu etmə nə olar burax!"-desə də, İbn Abbas (r.a): هكذا أمرنا أن نفعل بعلمائنا "Alimlərimizə belə davranmaqla əmr olunduq,"-deyir. Ağıllı insan, dərhal bunun cavabını verməyin, bu gözəl davranışa gözəl qarşılıq verməyin yolunu tapır; "Əlinə baxa bilərəmmi?"-deyə soruşur, İbn Abbas göstərmək üçün əlini uzadınca da yaxınlaşıb öpür və: هكذا أمرنا أن نفعل بآل بيت نبينا. "Biz də Peyğəmbərimizin əhli-beytinə belə davranmaqla əmr olunduq"-deyir.

❋

Bu əziz səhabə 56 yaşında hələ gənc sayılacaq çağlarda həyata gözlərini yumunca arxasında dərin bir kədər qoyub gedir; Əbu Hüreyrə (r.a) bu kədəri aşağıdakı cümlələrlə dilə gətirir:

اليوم مات حِبْرُ هذه الأمةِ, فَعَسَى يجعل اللّه في ابن عباس خلفًا منه.

"Bu gün bu ümmətin elm dənizi həyata gözlərini yummuşdur. Ümid edirik ki, Rəbbimiz İbn Abbasla onun yerini doldurar."

Allah Rəsulunun şairi Həsən İbn Sabit, onun ölümü səbəbi ilə kədərini dilə gətirərkən mərsiyəsində onu özü ilə birlikdə belə zikr edir:

فمن للقوافي بعد حسّان وابنه ومن للمعاني بعد زيد بن ثابت

"Nəyi qaldı; Həsən və oğlundan sonra qafiyənin, misraların
Nəyi qaldı; Zeyd İbn Sabitdən sonra elmin və dərin mənaların?"[115]

❋

Onu daim Bədrdə iştirak etmək istədiyi günkü boynundan asılan uzun qılıncı, qılıncdan kəskin zəkası və Qurana olan xidməti ilə xatırlayacağıq.

Salam olsun möhtəşəm məna dənizinə...

115. Zeyd İbn Sabit (r.a.) haqqında məlumat üçün bax: əl-İstiab (1/551), əl-İsabə (1/561), əl-Burhan fi Ulumi-l-Quran, Zərkeşi (1/233, 236), Həyatu-s-Səhabə (2/195, 440, 4441, 3/525), Suvarun min Həyati-s-Səhabə (5/92-104)

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Uşaq yaşda sayılacaq yaşdakı səhabələrin cəsarətləri və cihada olan həvəsləri.
- Daha öncə də bənzərini zikr etdiyimiz bu cəsarət və həvəslə əlaqədar yeni bir örnəklə üz-üzəyik.
- Xarici dil öyrənməyin əhəmiyyəti. Başqa millətlərə qarşı daim gözüaçıq olunması, onlara istismar edə biləcəkləri hər hansı bir açıq qapı buraxılmaması.
- Əzmkarlıq, zəka və itaət birləşincə əldə edilən uğurun təsəvvür edilməz səviyyəyə çatması.
- Tərəddüd və gərginlik anlarında bəsirətli xarakterə sahib olunması, fədakar davranışlar göstərməsi, düşüncələrin başqa bir məqsəd güdülmədən dilə gətirilməsi.
- Uzlaşma üçün çevik və sağlam ağıllara xitab edən həll yollarının tapılması. Beləliklə keçmişinə baxmağa meyilli bir mühitin yaradılması.
- Qurani-Kərimin bir kitab halında toplanmasına göstərilən həssaslıq. Rəbbimizin Quranı qorumaq vədinin başqa bir təcəllisi.
- Fəraiz elmini (miras hüququnu) qorumağın əhəmiyyəti və bu elmin iti və kəskin zəka tələb etdiyi.
- Elm və elm əhlinə verilən dəyər, gösərilən ehtiram.
- Əhli-Beytə göstərilən ehtiram və sevgi.
- Xeyirdə, ədəbdə, yaxşılıq və gözəllikdə yarış.

Bir Neçə Söz

Bir çox səhabədə olduğu kimi, Zeyd İbn Sabitin (r.a) həyatından götürülərək həyata tətbiq ediləcək, haqq yolda düşüncələri və davranışları irşad edəcək bir çox gözəllik vardır.

Biz daha çox səhabənin tanınması, ibrət səhnələrinin yenilənərək bizi də yeni hisslərə sürükləməsi, əsri-səadətdə yaşananların könüllərə əks etməsi arzu və ümidi ilə daha çox nəzərə çarpan bir neçə məqama, daha çox bu günkü həyatda ehtiyac duyduğumuz mövzulara toxunmağa çalışdıq. İmkan daxilində də təkrardan uzaq durmağa səy göstəririk.

Əlbəttə ki, qardaşlarımızın səhabələrlə bağlı məlumat əldə etdikdən sonra, könüllərində doğanları, hisslərini, bu məsələ ilə əlaqədar məlumatlarını, baxış tərzlərini dilə gətirib digər qardaşları ilə bunları paylaşmasında fayda vardır.

Zeyd İbn Sabiti (r.a) bir qədər tanıdıqdan sonra da eyni hisslərlə bu məqamlara toxunmaq istəyirik:

Elm və Ədəb

Bu iki kəlmə yan-yana gəlincə həmişə başqa bir gözəllik qazanır.

Elmin dəyəri və fəzilətləri ilə bağlı çox şeylər yazılır və deyilir. Hələ nə qədər deyilsə də yenə azdır.

Rəbbimiz buyurur:

يَرْفَعِ اللَّهُ الَّذِينَ آمَنُوا مِنْكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ دَرَجَاتٍ ۚ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ.

"**Allah da sizdən iman gətirənlərin və** (xüsusilə) **elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır!**" (əl-Mücadilə, 58/11)

هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ ۗ إِنَّمَا يَتَذَكَّرُ أُولُو الْأَلْبَابِ.

"**Heç bilənlərlə bilməyənlər** (alimlə cahil) **eyni ola bilərmi?!** (Allahın ayələrindən, dəlillərindən) **yalnız ağıl sahibləri ibrət alar!**" (əz-Zümər, 39/9)

❋

Allah Rəsulu (s.ə.s) xəbər verir:

مَنْ سَلَكَ طَرِيقًا يَلْتَمِسُ فِيهِ عِلْمًا سَهَّلَ اللَّهُ لَهُ طَرِيقًا إِلَى الْجَنَّةِ.

"Elm öyrənmək yoluna girən bir insanın, Allah cənnətə gedən yolunu asanlaşdırar."[116]

❋

Lakin, Allah Rəsulunun diqqətimizi çəkdiyi, dinləməyimiz və ibrət almağımız zəruri olan bir daha bir məqam vardır. Elmin yox olması, necə yox olacağı və nəticəsi... haqqında belə buyurur:

إِنَّ اللَّهَ لاَ يَقْبِضُ الْعِلْمَ انْتِزَاعًا يَنْتَزِعُهُ مِنَ الْعِبَادِ وَلَكِنْ يَقْبِضُ الْعِلْمَ بِقَبْضِ الْعُلَمَاءِ حَتَّى إِذَا لَمْ يُبْقِ عَالِمًا اتَّخَذَ النَّاسُ رُءُوسًا جُهَّالاً فَسُئِلُوا فَأَفْتَوْا بِغَيْرِ عِلْمٍ فَضَلُّوا وَأَضَلُّوا

"Allah elmi insanların beynindən, qəlbindən çıxarıb atmaz. Elm əhli insanları alaraq bitirər. Alimlər bir-bir həyata göz yumunca, insanlar başlarına cahilləri keçirər, elmdən nəsibi olmayanların dalınca gedərlər. Onlar da, elmdən nəsibsiz olduqları, elmi əsasları olmadığı halda fitva verirlər; həm özləri azar, həm də arxasınca gedənləri azdırarlar." [117]

Təəssüf ki, o günlərin izlərini, işarələrini görürmüş kimiyik. Yaşadığımız hadisələr, ibrətlə seyr etdiyimiz mənzərələr, heç də könül fərəhliyi gətirmir.

Müasir texnikanın, hər cür imkanların, xəbər alma və çatdırma vasitələrinin, kitabların, jurnalların, yazı və çap vasitələrinin, radio və televiziyaların, kompüterlərin və s.... təsəvvür edil-

116. Sünəni Tirmizi, Elm (5/28)

117. Hədis muttəfəqun əleyhdir. Bax: Səhih əl-Buxari, Elm (2/88), Səhih əl-Müslim, Zəkat (1/718-7189), İmarə (3/1524)

məyəcək dərəcədə inkişaf etdiyi bir dünyada yaşayırıq. Lakin həyat şəraitini asanlaşdıran, həyatın axışını sürətləndirən cihazların çoxluğu, maddi imkanların bir çox insanlar üçün əlverişli olduğu bu bolluq zamanında Allaha sığınan səmimi insanların; elm-irfanla dolu, incə bir ruh və anlayış, zövq və ədəblə yoğrulmuş, danışdıqca hər kəlməsindən istifadə ediləcək, zəriflik və ixlasla könüllərə etimad və mənəvi rahatlıq təlqin edəcək böyüklərin qıtlığını yaşayırıq, həsrətini çəkirik.

İstəyirsinizsə bir qədər daha irəli gedək; Həzrət Peyğəmbərimiz (s.ə.s):

مَنْ يُرِدِ اللَّهُ بِهِ خَيرًا يُفَقِّهْهُ فِي الدِّينِ.

"Allah kim üçün xeyir istəyərsə, onu dində incə, dərin anlayışlı elm və əməl sahibi edər"[118]-buyurur.

Fiqh (فقه) kəlməsi, bir məsələni bütün dəlilləri ilə, haradan gəlib haraya getdiyi ilə, nəzakət və dərinlikləri ilə anlamağın, bu düşüncəni elm dağarcığına yerləşdirməyin, alışqanlıq halına gətirməyin və onunla əməl etməyin ifadə edildiyi bir kəlmədir.

Bu dərin düşüncə, elm, irfan, ehsan, dirayət, səmimiyyət və əməl sahibi olan insanlara, xüsusilə islam hüququnda ciddi bir elmi səviyyəyə çatmış olanlara "Fəqih" deyilir.

❋

Bu ümmətin 1400 ili keçən tarixi, bu nəzakətə, təfəkkürə, ədəbə, elm və ixlasa, səbir və dirayətə çatmış, bu gün həsrətini çəkdiyimiz, mənəvi xəzinə yüklü minlərlə insanla doludur.

Allaha gedən yolda, Rəsuluna ümmət olmaq arzusunda, haqq dini dərk etmək, anlamaq və yaşamaqda bizə nümunə olacaq bir elm-irfan əhlini birlikdə xatırlayaraq yaşadığımız vəziyyəti düşünüb dəyərləndirməkdə fayda vardır.

---

118. Hədis muttəfəqun əleyhdir. Bax: Səhih əl-Buxari, Elm (1/429), Səhih əl-Müslim, Zəkat (1/718-719), İmarə (3/1524)

İmamlar Günəşi

Dövründəki və özündən sonra gələn alimlərin "Şəmsu-l-Əimmə" (İmamlar günəşi) deyə təxəllüs verdiyi alim, zahid, fəqih, müfəssir "Muhəmməd İbn Əhməd əs-Səraxsi" hicri beşinci əsrdə yaşamış, miladi 5-ci əsrin əvvəllərində vəfat etmiş elm, irfan və irşad əhlidir.

Bu əziz insan, elm və ixlasla dolu həyatının ən məhsuldar çağında ikən, yaşadığı bölgəyə hökmranlıq edən xaqana, bəzi davranışlarının islama uyğun olmadığını dediyi, şəriətə zidd olan bu davranışlarından uzaq durmasını, Allahın əmrinə və Rəsulullahın sünnəsinə tabe olmasının zəruri olduğunu xatırladır. Elminin tələbi olaraq etdiyi nəsihətə görə həbsə məhkum edilir.

Bu irfan sahibi insanın dediklərini həzm edə bilməyən xaqan, bu həbsin quyu həbsi ilə əvəz edilərək orada qalmasını əmr edir. Bu hadisədən alimi sevənlərin başına sanki qaynar su tökülür, lakin bütün xahişlər fayda vermir.

Özkənd şəhərində onun üçün hazırlanan quyuya endirilən "Şəmsu-l-Əimmə İmam Səraxsi"nin bütün ehtiyaclarını belə bu quyuda qarşıladığı, yeməklərinin quyuya səbətlə endirildiyi mənbələrdə keçir.

İmam Səraxsi, bundan sonrakı ömrünün bu quyuda zay olacağından qorxunca, həsrət və kədərlə onu gözləyən tələbələrinə, quyunun başına gəlmələri üçün xəbər göndərir.

Xəbəri eşidən tələbələr dərhal gəlir. Qısa bir müddətdən tarix yeni bir ibrət səhnəsinə şahid olur. İmamlar günəşi quyudan qışqıraraq deyir, tələbələr quyunun ağzında halqa quraraq onun dediklərini yazırdı.

Ayeyi-kərimələr, hədisi-şəriflər, səhabələrdən gələn rəvayətlər, elm əhlinin fikirləri, alimlərin bir-birinə cavablarını söyləyir, deyilənlər qələmə alınır və yığılaraq kitab halına gətirilirdi.

Bu gün 30 cild halında yazılmış, hər iki cild bir kitabda yığılaraq 15 cild halında çap edilmiş və qaynaq əsərlər arasındakı

yerini tutmuş "Məbsut" adlı 15 cildlik bu əsər bu şəkildə tamamlanmışdır.

Həyatından bəhs edilən bütün mənbələrin zikr etdiyi bu quyu həbsi, öz tərəfindənmi yazdırıldığını, yoxsa onun hisslərini, yaşadığını dilə gətirmək üçün tələbələri tərəfindənmi bilə bilmədiyim bir şəkildə, mütəmadi olaraq kitabın əlyazmalarında bir daha silinməmək üzrə qələmə alınmış və tarixə keçmişdir.

Məsələn; Cihadla əlaqədar hissənin sonunda;

انتهى شرح السير الصغير المشتمل على معني لأثير بإملاء المتكلم
بالحق المنير, المحصور لأ جله شبه الأسير المنتظر للفرج من العالم
القدير السميع البصير, المصلى على البشير الشفيع لأمته النذير وعلى كل
صاحب له و وزير

"Seçilmiş və gözəl mənalar daşıyan *"Əs-Siyəru-s-Sağir"*in şərhi burada bitmişdir.

Aydınlıq və nur saçan həqiqətləri dilə gətirib danışan insan tərəfindən qələmə alınmışdır.

Bu sətirləri layiqincə dilə gətirmək uğrunda əsirlər kimi həbs edilən, hər şeyi bilən, hər şeyə gücü çatan, sonsuz qüdrət sahibi, hər şeyi ən incə məqamlarına qədər görən və eşidən Rəbbindən qurtuluş qapısını açmasını gözləyən; insanlara müjdəçi, şəfaətçi, ümmətinə həqiqəti çatdırmaq üçün göndərilənə və onun yaxın dostlarına, səhabələrinə salat və salam edən şəxs qələmə aldırmışdır."

❋

*"Kitabu-l-İqrar"*da günahların etirafı və ya haqların iqrarı ilə əlaqədar hökmləri ifadə edən hissənin sonunda yer alan cümlələrdə də belə deyir:

انتهى شرح الإقرار المشتمل من المعاني على ما هومن الأسرار إملاء
المحبوس في مجس الأشرار

"İqrarlarla bağlı hissənin şərhi sona çatmış, içərisinə bir çox sirlərin qoyulduğu mənalar, şərlilərin qoyulduğu yerə qoyulan məhbus tərəfindən yazdırılmışdır."

Bu sitəm, daha bir neçə yerdə dilə gətirilmiş, beləliklə tarixdə qalmışdır.

✺

"Məbsut"un hamısı quyudan qışqıraraq yazıldıqdan sonra, "Üsulu-s-Səraxsi" deyə yad edilən iki cildlik əsər də bu quyudan yazdırılmış, onun arxasınca İmam Muhəmmədin "Siyəru-l-Kəbir"inin şərhi yazdırılarkən şərtlərlə əlaqədar hissəyə gəldiklərində başqa bir elm əhlinin xəbərdarlıq və nəsihəti ilə İmam Səraxsi quyudan çıxarılmışdır.

Həbsdən çıxdığını eşidən Fərqanə əmiri Həsən tərəfindən Fərqanəyə dəvət edilmiş, İmam Səraxsi bu dəvəti qəbul edərək Fərqanəyə getmişdir.

Əmir Həsən öz evini ona vermiş, tələbələri də ətrafına yığışaraq bu evi bir elm yuvası halına gətirmişlər.

Yazılmağa başlanan kitab da burada bitirildi.

Lakin bu əziz insan, çox keçmədən fani dünyanı tərk edib əbədi həyata köç edir; tələbələrinə və bizlərə də elm, irfan yüklü kitablarını və acılı-şirinli xatirələrini buraxıb gedir.

✺

Dəhşət bir hafizə, qeyri-adi bir bilik, müdhiş bir əzmkarlıq... Bütün bu mənzərələr gözümüzün önündən keçərkən əlbəttəki xəyallarımız durur.

Minlərlə incəlik istəyən məsələlərdəki məlumatları, ayeyi-kərimələri, hədisi-şərifləri, səhabələrdən və təbiinlərdən gələn rəvayətləri, elm əhlinin fikirlərini, fərqli baxış və dəyərləndirmələrini, bir-birlərinə verdikləri cavablarını və bir çox təfərrüatlı məlumatları yaddaşında saxlayan, heç bir mənbəyə müraciət etmədən bizə çatdıran, insanın təsəvvür edə bilmədiyi, insanı dəhşət və heyranlıq içərisində buraxan bu əziz elm əhlini yad etməyə vəsilə olan əsl qayə, bu müdhiş hafizə gücü ilə yanaşı,

onun səmimiyyəti, təvazökarlığı, keçmiş elm və irfan əhlinə qarşı ədəb və ehtiramı, onların dəyərlərini təqdir etməsidir.

Elm xadimləri onun elmi səviyyəsini tərif edərkən; dövrünün əvəzsiz şəxsiyyəti idi/ rəqibsiz lideri idi أوحد زمانه , ifadəsini işlədirdi. Lakin o heç vaxt; "Mən bu qədər məlumata sahibəm, əsrimin lideriyəm, digər alimlər kimdir ki? Ayələri başa düşə bilməmişlər, mənim müdhiş bir yaddaşım var..."-kimi ədəbə yaraşmayan söz söyləməmişdir.

O, müctəhid olduğunu iddia etmir. Əbu Hənifəni imam kimi qəbul edir, ədəbsizlik etmir, digər müctəhidlərin qədrini bilir, onlara qarşı ehtiramını dualarla dilə gətirirdi.

Əzbərində 1200 qalın forma[119] dolusu şeir olduğu bilinir; bununla təvazökarlığını itirmirdi.

İnsan bu əziz elm və irfan əhli insanları yad edincə, istər-istəməz qəlbinə bir ağırlıq çökür. Bu günkü qıtlığımızı daha dərindən hiss edirik. Ətrafımızın insafsız hücumlarına bu yoxluq da əlavə edilincə nə qədər çox çalışmaq məcburiyyətində qaldığımız özünü daha aydın büruzə verir.

Bu gün bu səviyyədə insanlar yoxdur, ancaq iddialar böyük, ancaq ifadə edilən kəlmələr, üslublar səviyyəsiz. İstifadə edilən vasitələr dəhşətli, lakin ortaya çıxan mənzərələr çirkin, arada-bir diksindirici.

Təəssüf ki, bu cür çıxışlar, ümidlə bizdən gələcək xəbərləri gözləyən, ümidli baxışlarını bizdən ayırmayan islam aləminin şüurlu insanlarında xəyal qırıqlığına səbəb olur. Bunun könüllərdə nə qədər əzab və kədər buraxdığını ifadə etmək olduqca çətindir...

❋

Bəli! İslam dinində rahiblik yoxdur. İslami elmləri öyrətmək, mənbələrə müraciət etmək, dini bir məsələ haqqında danışmaq nə müəyyən bir zümrəyə, nə də müəyyən bir təbəqəyə aiddir.

119. Burada forma deyə dilimizə keçən kəlmələrin ərəbcəsi, "kurras"dır. Günümüzdə "kurrasə" ifadəsi dəftər üçün işlədilir. Lakin qədim mənbələrin tərifərindən, onun bu günkü mətbəəçilikdə istifadə edilən formalardan daha qalın bir forma növü üçün istifadə edildiyi başa düşülür.

Lakin bu bir reallıqdır ki; bu iş ixtisas, səmimiyyət, səbir və göz nuru istəyən bir işdir.

Danışılan məsələlər dərinləşdikcə, fitvaya ehtiyac olduqca, ictihad və veriləcək qərarlar zəruri olduqca bu ixtisasın, zəkanın və ixlasla çalışmağın hüdudları daha da dərinləşir.

Belə ki, tibb, mühəndislik, elektronika və s. bir çox sahələr də müəyyən bir zümrəyə aid deyildir. Lakin hamısı öz daxilində bir ixtisas sahəsidir.

Bir mühəndisin və ya bir kompüter mütəxəssisinin dərin ixtisas tələb edən, məsələn tibbi bir hadisədə son qərar verib icra etməsi, nə qədər böyük bir xəta olar.

Təəssüf ki, insanlarımız həm dünyanı, həm də əbədi həyatı ehtiva edən ciddi bir elmi araşdırmanı, ixtisas, qabiliyyət və ixlas tələb edən dini elmlər sahəsində bu xətanı, bu vahiməni bütün canlılığı ilə qoruyur.

Baytarın həndəsə ilə məşğul olduğu, vəkillərin həkimlik etdiyi, dərzilərin memarlıq, rəssamların hakimlik etdiyi, fəlsəfəçilərin fitva verdiyi, özünü idarə edə bilməyənlərin böyük vəzifələrdə oturduğu, saysız-hesabsız insanın filisofluq iddiası, bir çox işin əhli olmayanların əlinə keçdiyi bir cəmiyyətin bu çılğınlığı əlbəttə xeyirli bitə bilməz.

Elm əhlinin necə olmasının zəruriliyini lətif və incə bir üslubda öyrənmək istəyirsinizsə, İmam Şafinin bu ibrətli misralarına nəzər yetirək:

شكوت إلى وكيعٍ سمءِ حفظي فأرشدني إلى ترك المعاصي

أخبرني بأن العلم نور ونور الله لا يهدى لعاصي

"Vəki[120]yə hafizəmin zəifliyini şikayət eylədim

120. Vəki İbn Cərrah: (h. 129-197/ m. 746-812) İmam Şafinin müəllimi, İmam Əbu Hənifənin tələbəsidir. Alim və zahid bir insan idi. Ondan elm öyrənənlər arasında İmam Sevri, Abdullah İbn Mübarək, tarix kitabı ilə məşhurlaşan Yəhya İbn Main, Müssənnifin sahibi Əli əl-Mədəni də vardır. Əsərləri arasında "Müsənnəf", "Kitabu-z-Zöhd" adlı hədis kitabları , həmçinin Təfsir və Fiqh sahələrində əsərləri vardır. "Kitabu-z-Zöhd" təhqiq edilərək çap edilmişdir.

O da məni günahları tərkə irşad eylədi,
Elmin bir nur olduğunu xəbər verərək,
Allah, nurunu günahkara bağışlamaz deyə söylədi."

Bu kəlmələrə aşağıdakı ilahi buyruq və xəbərdarlıqla son verək:

وَلَا تَقُولُوا لِمَا تَصِفُ أَلْسِنَتُكُمُ الْكَذِبَ هَٰذَا حَلَالٌ وَهَٰذَا حَرَامٌ لِتَفْتَرُوا عَلَى اللَّهِ الْكَذِبَ ۚ إِنَّ الَّذِينَ يَفْتَرُونَ عَلَى اللَّهِ الْكَذِبَ لَا يُفْلِحُونَ. مَتَاعٌ قَلِيلٌ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

"**Diliniz** (bizə belə əmr edildiyi deyə) **yalana vərdiş etdiyi üçün** (dəlilsiz-sübutsuz)**: "Bu halaldır, o haramdır!" – deməyin, çünki** (bununla) **Allaha iftira yaxmış olursunuz. Allaha iftira yaxanlar** (axirət əzabından) **nicat tapmazlar!**" (ən-Nəhl, 16/116)

❋❋❋



Arıların Qoruduğu Səhabə



Asim İbn Sabit

-radiyallahu anh-

عاصم بن ثابت

Ənsardan Evs qəbiləsinə mənsubdur və ləqəbi Əbu Süleyman olan Asim İbn Sabit (r.a) ilk müsəlman olan mədinəlilərdəndir. Hələ hicrət baş vermədən islama könül vermişdir.

Hicrət baş verdikdən sonra Rəsulullah (s.ə.s), onunla Abdullah İbn Cahş (r.a) arasında qardaşlıq əlaqəsi qurmuş; o mühacir qardaşını sevib bağrına basmışdır.

Ox atmaqda məharətli olduğuna görə "Rəsulullahın oxçusu" deyə yad edilirdi.

Bədr savaşından öncə Rəsulullah (s.ə.s) əshabı ilə savaş barəsində danışırdı. Asim (r.a) dərhal oxunu və yayını götürərək "Ya Rəsulallah! Düşmən 200 zira[121] məsafədədirsə üzərinə ox yağdırarıq. Daha çox yaxınlaşmışlarsa, nizələrimizlə vuruşarıq. Nizələrimiz qırılsa, qılınca üzbəüz vuruşarıq"-deyərək savaşa hazır olduğunu dilə gətirdi.

Onun əzmindən və sözlərindən razı qalan Rəsulullah (s.ə.s) "Bax savaş belə olur. Kim düşmənlə qarşılaşarsa Asim kimi savaşsın. Savaş bunu tələb edir. Döyüşən və igidlik göstərən Asim kimi olsun"-buyurur.

Bədr savaşında müşriklərin cəngavərlərindən olan Ukbə İbn Muaytı o yerə sərmişdir. Ukbə ilə Nadr İbn Haris, Qüreyş müşriklərinin ən zalımlarından, dilləri və əlləri ən uzunlarından

121. 200 zira- təxminən 100 m-dir.

idi. Kin və nifrətlə yoğrulmuş bir insan idi. Nadr İbn Harisi Əli (r.a), Ukbəni də Asim (r.a) öldürmüşdür.

Ukbə, bir dəfə Allah Rəsulu (s.ə.s) Məqami-İbrahimin arxasında namaz qılarkən gəlib, o səcdədə ikən boynundan basaraq səcdədən qalxmasına mane olur və bunu ətrafındakılara göstərərək lovğalanır. Bu cür iyrənc hərəkətləri mütəmadi edən bir insan idi. Nəsibini Asimin qılıncından alır, zülmü və dil uzatması bu şəkildə sona çatır.

Asim Uhud müharibəsində "Allah Rəsulunun oxçusu" olmaq şərəfini axıra qədər qoruyur və atdığı oxların hamısı dəqiq hədəfə çatır.

Oxçuların savaş həyəcanı içində Rəsulullahın tənbehlərini unudaraq qəti şəkildə zəfər qazanıldı düşüncəsi ilə "Ayneyn" təpəsini tərk edərək meydana enməsi ilə arxadan zərbə alan islam mücahidləri vahid komandanlığı itirmiş, meydan savaşı fərdi mübarizəyə çevrilmişdi. Bu dağınıqlıqdan müşriklər çox məharətlə istifadə etdilər və neçə-neçə fədakar igid şəhid oldular. Kişiləri savaşa təhrik etmək üçün gələn müşrik qadınlar, savaşın ilk anlarlnda mücahidlərin hücumu və müşrik ordusunun təşvişə düşərək geriyə çəkilmələri və çığır-bağır salıb yamaclara qaçarkən, indi zəfər nidaları qışqırmağa başladılar.

Bu qadınların başında Əbu Süfyanın xanımı Hind, Amr İbn Asın xanımı Rayta, Talha İbn Əbi Talhanın xanımı Sülafə Binti Səd var idi.

Sülafə, Uhuda əri Talha və oğulları Müsafi, Gülas və Kilab ilə gəlmişdi.[122] Gələrkən çox əzmli idi. Lakin savaşdan sonra müşriklərin hamısı zəfər sevinci yaşayarkən o sevinə bilmir, gözünə dəyməyən ərini və oğullarını axtarırdı. Əvvəlcə ərinin, sonra da oğullarından Musafın və Kilabın meyidini tapdı. Üçüncü oğlu Gülas isə ağır yaralı olaraq yanına gəlmiş və başını qucağına qoyaraq son nəfəsini onun qucağında verir. Oğlunu yaralı halda qucağına alan Sülafənin içi qan ağlayırdı. Nə edəcəyini bil-

122. Həmçinin Uhuda Sülafənin ərinin qardaşı, uşaqlarının əmisi olan Osman İbn Talha da müşriklərin bayraqdarı olaraq qoşulmuş, Şəhidlər Sultanı Həmzə tərəfindən qətl edilmişdir. Uhud onlar üçün tam bir fəlakət olmuş, qüreyş gülərkən onlar ağlamışdı. (Sirətu İbn Hişam 2/74, əl-Bidayə və-n-Nihayə 4/18)

mirdi. Güclü və iradəli bir qadın idi. Heç vaxt bu qədər çarəsiz qalmamışdı. Çarəsizlik içində son dəqiqələrini yaşayan oğlundan soruşur; "Kim etdi?" Gülas; "Asim, Əbu-l-Əflah oğlu!"-dedi. Çox keçmədən can verdi.

Sülafə dəliyə dönmüş, lat və uzzaya and içir, içində şərab içmək üçün Asimin başını istəyir. Onu gətirənə nə istəyərsə verəcəyini vəd edir.

Asimi tutmaq, artıq müşrik gənclərin xəyalından çıxmırdı. Çox keçmədən Asimin əmirliyində altı nəfərlik bir dəstə, xidmət üçün Mədinədən ayrıldı. Məkkə yaxınlığında Usfan deyilən yerdən irəliləməyə başladılar. Huzeyl qəbiləsinə bağlı Bəni Lihyan qolu onların səhrada irəlilədiyini eşidincə yüz nəfər oxçu ilə dallarına düşdülər. Onları izləyərək Rəci deyilən səmtdəki bir su kənarında onlara çatdılar. Müşriklərin gəldiyini görən asim və sialhdaşları dərhal yüksək bir qumluq təpəyə çıxaraq özlərini müdafiə etmək hazırlığı gördülər. Kürək-kürəyə verərək qılınclarını çəkdilər.

Müşriklər mühasirəni daraldınca, ümidsiz bir döyüşə hazırlaşan səhabələrə, əgər savaşmadan təslim olarlarsa, heç birini öldürməyəcəklərinə dair söz verirlər. İsrarla əhdlərinə sadiq qalacaqlarını deyirlər.

Bir-birinə arxalanan bu altı igid, tərəddüd içində qalmışdı. Zeyd İbni Dəsinə, Hübeyb İbn Adiy və Abdullah İbn Tariq belə çarəsiz vəziyyətdə verilən sözə və əhdə inanır. Asim (r.a) isə qəti şəkildə qərarlı idi. أما أنا فلا أنزل في ذمة مشرك *"Mən müşriklərin əhdinə inanmıram və təslim olmuram"*-deyir. Silahdaşlarından Mərsəd İbn Əbi Mərsəd və Xalid İbn Bukeyr də onun kimi düşünürlər.

Asim qarşısındakı müşriklərə doğurdan da etibar etmir, yoldaşlarını da sağ buraxmayacaqlarını bilirdi. Şəhidlik günü gəlmişdi. اللهم أخبر عنّا نبيّك **"Allahım vəziyyətimizi Rəsuluna xəbər ver!"**-dedi və sonra da belə dua etdi:

اَللَّهُمَّ إِنِّي أَحْمِى لِدِينِكَ وَأُدَافِعُ عَنْهُ...فَاحْمِ لَحْمِى وَعَظَمِى وَلاَ تُظْفِرْ أَحَدًا مِنْ أَعْدَاءِ اللَّهِ.

"Allahım! Mən sənin dinini qoruyur, onun üçün mübarizə aparıram. Sən də mənim ətimi, sümüyümü (bədənimi) qoru! Allahın düşmənlərindən heç birisinin bizi ələ keçirməsinə fürsət vermə, onlara belə bir zəfəri yaşatma!"

Bu duadan sonra onunla həmfikir olan iki səhabə ilə irəli atıldı.

Yanına yaxınlaşmağa imkan verməyən bu igid, uzaqdan atılan oxlarla vurularaq şəhid edildi. Digər iki silahdaşı da bir-bir şəhid oldular.

Təslim olanlar isə xəyanətə düçar oldular. Sonradan işgəncə ilə öldürüldülər. Onların qissəsi daha fərqli oldu.

Huzeylilər, başlanğıcda şəhid etdikləri insanlardan birinin Asim olduğunu bilmirdilər. Təslim olanları götürüb Məkkəyə aparmağa hazırlaşırdılar.

Çox keçmədən qüreyş Asimin ölüm xəbərini alır. Bir elçi ilə hədiyyələr göndərərək Asimi öldürənlərdən onun başını istəyirlər və hədiyyələrin davamını vəd edirlər.

Öldürdükləri adamın Asim İbn Sabit olduğunu öyrənən huzeylilər, həyəcanlandılar; vəd edilən mükafatı əldə etmək üçün hərəkətə keçdilər.

Lakin Asimin yanına gəldiklərində heç ummadıqları bir mənzərə ilə qarşılaşdılar. Cəsədin hər tərəfi arılara bürünmüşdü. Arıları dağıdaraq Asimi götürməyə çalışdılar. Arılar isə sanki təşkilatlanmış bir birlik kimi idi. Bulud kimi hücuma keçir, sonra təkrar Asimin yanına qayıdırdılar. Keçilməz bir qalxan yaratmışdılar. Dəfələrlə irəliləmək istəyən müşrikləri arılar hər dəfə geri çəkilməyə məcbur edirdi. Çarəsiz qalıb gecəni gözləməyə başladılar. Hər necə də olsa qaranlıq düşdükdən sonra arılar çəkiləcək, onlar da asanlıqla istədiklərini əldə edəcəkdilər. Bir qədər kənarda dayanıb söhbət etməyə və gecəni gözləməyə başladılar.

Gün batıb hava qaralınca göy üzünə başqa bir qaranlıq da çökməyə başladı. Buludlar axın-axın gəlib göy üzünü tuturdu. Çox keçmədən görünən üfüqlər buludla doldu. Yığılan bulud-

lar getdikcə daha da qatılaşırdı. Onsuz da azalan işıqlar, onların qatılığı ilə yox olurdu. Çox keçmədən qatı buludların arasından şimşəklər çaxmağa başladı. Ard-arda çaxan şimşəklərdən sonra leysan yağmağa başladı. Yağış getdikcə artırdı. Sanki göy yarılmış, içində nə varsa boşaldırdı.

Bu torpaqlarda yaşayanların ömrü boyu görmədiyi bir yağış yağdı. Vadilər, dağların araları sel olmuş, çeşmə olub axır.

Bütün gecə yağışın ardı-arası kəsilmədi. Səhərə doğru yağış kəsildi. Müşriklər Asimin cəsədini götürmək üçün onun yatdığı yerə gəldilər. Lakin Asim qoyduqları yerdə yox idi. Sular onu öz ağuşuna alıb götürmüşdü. Cəsədi axtarmağa başladılar. Saatlarla onu axtardılar, ancaq tapa bilmədilər. Ümidləri kəsilənə qədər axtardılar... Sonra əliboş geri qayıtdılar.

Yaşanan bu hadisə dildən-dilə dolaşmağa başladı. Artıq Asim İbn Sabit (r.a) "Hamiyyu-d-Dəbr" (Arıların qoruduğu insan) kimi yad edilməyə başladı.

Arıların Asimi qoruduğu xəbərini alan Ömər (r.a); "Allah mömin bəndəsini qoruyar. Asim yaşadığı müddət ərzində heç bir müşrikə əl toxundurmayacağına, heç bir müşrikin də ona toxunmasına imkan verməyəcəyinə söz verərək Rəbbinə belə dua edir. Həyatda bu əhdi yerinə yetirdiyi kimi, öldükdən sonra da Rəbbi onu qorumuşdur."-deyir.

Rəbbi həqiqətən dinini qoruyan Asimi qoruyur, mübarək bədənini müşriklərin əlinə vermir. O, "Arıların qoruduğu insan" olaraq xatirələrdə qalır.

❋❋❋

İrşad və İbrət Almaq Üçün Bəzi Diqqət Çəkən Məqamlar

- Asimin (r.a) bir islam mücahidi olaraq uğurları və Allah Rəsulunun bunu təqdiri.
- İslamın mötədil və bağışlayıcı xarakterinə qarşı müşriklərin kin və nifrətdə israrı; intiqam almaq hərisliklərı.
- Allah yoluna qarşı çıxanların, kin və nifrətlərini yatırmaq üçün şəri olmayan metodlara baş vurması.
- Allah qorxusu, axirət inancı olmayanların əhdlərinə və verdiyi sözlərə qarşı diqqətli olması.
- Dinini qoruyanı, Allahın da qoruyacağı.
- Könüldən edilən dualaların qəbul oluna biləcəyi.

❋

Bir Neçə Kəlmə

Asimi Yad Edərkən...

Asimin (r.a) başına gələnləri öyrəndikdən sonra əlavə söz deməyə ehtiyac görmürük. Deyilməsi mühüm olanları, onun başına gələnləri başqa bir dildən eşitmək daha təsirlidir.

Biz sadəcə olaraq onun yaşadıqlarını, Allaha olan təslimiyyətini, Allah yoluna baş qoymasını və bu yolda heç bir fədakarlıqdan çəkinməyən bir ruha sahib olmasını, axirətini sevən bir mömin olaraq Allah yolunda can verməkdən çəkinməməsini yada salmaq, könüllərimizi onun və onun kimilərin sevgisi ilə doldurmaq istədik. İslam tarixində kimlərin və nəyin olduğunu blinməsini istədik.

Bu yolda xidmət edəcək bir nəslin, xidmət eşqi ilə yanması üçün kimləri nümunə götürmələrinin zəruriliyinə, necə hiss və düşüncələrlə yoğrulmasının zəruriliyinə diqqət çəkməyə çalışdıq. Bu şanlı tarixin səhifələrini vərəqləyənlər, mənbələrə baxaraq bu çeşmədən su içənlər və daha neçə-neçələri ilə qarşılaşacaqlar.

❋

Asim, izzət və şərəflə yaşadı, Rəbbinə sığındı, dünyadan izzət və şərəflə köç etdi və Rəbbi onu qorudu. İndi isə heç kimsənin bilmədiyi bir yerdə, etdiklərinin qarşılığını alaraq əbədi səadətə qovuşacağı günü gözləyir.

Ona zülm edənlər, kəlləsində şərab içməyə and içənlər, onun bədəni qarşılığında dünya malı xəyal edənlər də torpaq oldu. Əcəba onlar nəyi gözləyir, arxada qoyduqları xatirələri kim və necə yad edir deyə sual edə bilərsiniz.

Biz yenidən Asimə, Asimin ölümünə vuruşarkən dediyi misraların bir neçəsinə diqqət yetirək. Bu misralar bizə çox şeylər xatırladır:

”..... اَلْمَوْتُ حَقٌّ وَالْحَيَاةُ بَاطِل

وِكُلُّ مَا حَمَّ الْإِلَهُ نَازِلُ بِالْمَرْءِ وَالْمَرْءُ إِلَيْهِ اَئِل

إِنْ لَمْ أُقَاتِلْكُم فَأُمِّى هَابِل“

“Ölüm haqdır, həyat isə fani
Əlbət gələcəkdir, Rəbbin təqdiri
Gələr yaxalayar insanı əlbət bir gün qədəri
Vuruşmazsam sizinlə itirsin anam məni”

❋

Əlbəttə ölüm haqdır, həyat fanidir. Əksini iddia edənlər və ya heç ölməyəcəkmiş kimi davrananlardan heç kimin həyatda qaldığını görə bilmirik. Gedən dəqiqələrin bir daha geri qayıtmayacağına şahidik. Bu həyat yolunun qayıdışı olmayacağını bilirik.

Qayıdışı olmayan, heç bir dəqiqəsi geri qayıtmayan bu həyat yolunda addımlayarkən, irəlilədiyimiz yollarda buraxdığımız xatirələr, etdiklərimizi, edəcəklərimizi çox yaxşı düşünmək, dəyərləndirmək və həyat tərzimizə görə istiqamət vermək məcburiyyətindəyik.

Son sözü Qurani-Kərimdən dinləyək:

وَمِنَ النَّاسِ مَنْ يَشْرِي نَفْسَهُ ابْتِغَاءَ مَرْضَاتِ اللَّهِ ۗ وَاللَّهُ رَءُوفٌ بِالْعِبَادِ

"İnsanların elə‌si də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) **öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır! "** (əl-Bəqərə, 2/207)

❋❋❋

Allah Yolunda Olunca...

Hübeyb İbn Adiyy

-radiyallahu anh-

خُبَيْب بن عدىّ

və

Zeyd İbn Dəsinə

-radiyallahu anh-

زيد بن الدثنة

İkisi də ənsardandır. Bədr igidlərindən, Asim İbn Sabit ilə birlikdə səfərə çıxan dəstənin arasında olanlardandır. Hüzeylin qolu Bəni Lihyanın yüz oxçusunun mühasirəyə aldığı və öldürməyəcəklərinə dair söz verdiyi insanlardandır.

Qeyd edildiyi kimi Asim bu vədə etibar etməmiş, təslim olmağı qəbul etməyərək şəhid olur.

Hübeyb İbn Adiyy, Zeyd İbn Dəsinə və Abdullah İbn Tariq verilən sözə etibar edərək təslim olurlar. Lakin Asim və silahdaşlarının şəhadətindən sonra müşriklərin onlara qarşı davranışları dəyişməyə başlamış, yaylarının ipini açaraq iplərlə onları bağlayırlar.

Abdullah xəyanət qoxusunu hiss etmiş və qolları bağlanınca; "-Bu ilk xəyanət"-demiş və qutulmaq üçün planlar cızmağa başlamışdır.

Müşriklər əsirləri götürərək Məkkəyə üz tuturlar. Onları, Bədrin intiqamı ilə yanan qüreyşlilərə satmaq istəyirdilər.

"Zahran" adlanan bölgəyə gəldiklərində Abdullah əllərini açmağı bacarır və əlinə bir qılıncı keçirir. Lakin müşriklər ona yaxınlaşmadan kənardan vururlar.

Bu əziz səhabənin dünya həyatındakı son dayanacağı Zahran oldu. Qəbiri də oradadır.

✺

Hübeyb və Zeyd isə Məkkəyə gətirildi. Məkkəlilərin əlində əsir olan iki hüzeylli qarşılığında onları qüreyşlilərə verirlər.

Hübeybi Bəni Nofhəl satın alır. Çünki onların soyundan olan Haris İbn Əmri Bədrdə öldürən Hübeyb idi. Əllərinə intiqam almaq fürsəti düşür.

Zeydi isə Safvan İbn Ümeyyə satın aldı. O da atasının intiqamını almaq istəyirdi. Atası Ümeyyəni Zeyd öldürmüşdü.

Safvan köləsi Nistasa Zeydi götürərək Məkkə hərəmi xaricində yerləşən "Tənim"ə çıxarmasını və orada öldürməsini əmr edir.

Bu əmrdən sonra Zeyd Tənimə gətirildi və bir dirəyə bağlanıldı. Kin və nifrət hisslərini yatırmaq istəyən müşriklər də gələrək ətrafına yığışırlar.

Əvvəlcə bədəninin müxtəlif yerlərinə uzaqdan ox ataraq ona işgəncə verməyə başladılar. Zeyd, əzab çəkərkən camaatın arasında olan Əbu Süfyan qələbəliyin arasından çıxaraq onun yanına gəldi.

"Zeyd! Allah rizası üçün söylə! Hal-hazırda Muhəmmədin burada olmasını, sənin yerinə onun boynunu vurmağımızı, sənin də öz evində ailənlə birlikdə olmağını istərdinmi?"

Ağır və çətin bir an idi. Lakin Zeyd bütün səmimiyyəti ilə bu unudulmaz cümlələri söyləyir:

واللَّهِ ما أحبّ أن محمدًا الآن في مكانه الذى هوفيه تُصِيبُهُ شوكةٌ
تؤذيه وأنى جالس فى بيتي

"Allaha and olsun ki, evimdə rahat otura bilmək üçün Muhəmmədin hal-hazırda olduğu yerdə ayağına bir tikan batmasını, batan tikanın ona əziyyət verməsini belə istəmərəm."

Bu sözləri eşidən Əbu Süfyan geri çəkilir, heyranlığını gizlədə bilməyərək; "Səhabələrin Muhəmmədi sevdiyi qədər, heç bir insanın başqa birisini sevdiyini görmədim,"-deyir.

❋

İşgəncə verildikdən sonra bu əziz səhabə, seyr edənlərin gözü qarşısında "Nistas" tərəfindən öldürüldü.

Allah və Rəsulullah (s.ə.s.) sevgisi və dolu-dolu imanı ilə zalımların əlində bu dünyanı tərk edərək mütləq ədalətin təcəlli edəcəyi o biri dünyaya köçdü.

❋

Hübeyb isə Bədrdə öldürdüyü Harisin oğlu Uqbəyə təslim edildi. Uqbə Hübeybi apardı və öldürəcəyi günə qədər onu evinə həbs etdi. Hübeyb (r.a) artıq Uqbənin evinin bir otağında zəncirlə bağlanaraq gözləyirdi.

Həbsdə ikən onunla Uqbənin bacısı, öldürülən Harisin qızı Zeynəb məşğul olur, qapını o açır, yeməklərini də o verirdi.

Müşriklərdən Hüceyrin kənizi "Maviyyə" isə bu fərqli insanın davranışlarını heyrət və təəccüb içində izləyirdi.

"Bir gün içəri baxdım. Əlində çox iri gilələri olan bir üzüm salxımı var idi. Heç vaxt belə üzüm görməmişdim. Mövsüm də üzüm mövsümü deyildi. Həmin vaxt belə bir üzümün ola biləcəyini də təsəvvür etmirəm. Bundan başqa Hübeyb zəncirli idi və yanına heç kim girə bilmirdi"

Üzüm salxımı ilə əlaqədar məsələni Zeynəbdən də eşidirik.

❋

Zeynəbin Hübeyblə əlaqədar danışdığı başqa bir hadisə bütünlükdə əlicənab bir davranış nümunəsi idi:

Öldürüləcəyi gün yaxınlaşınca təmizlənmək üçün ondan bir ülgüc istəyir. Zeynəb fikirli halda ülgücü uşağa verir və

ona bu ülgücü Hübeybə aparıb verməsini istəyir. Uşaq ülgücü götürüb Hübeybin yanına aparır. Balaca uşaq onun yanına gedib onunla söhbət etməyə alışmışdı. Hübeybdən çəkinmirdi. Həmişə olduğu kimi yenə onun yanına getdi və ülgücü ona uzatdı.

Zeynəb birdən qorxu içində yerindən atıldı. Nə etmişdi, necə etmişdi? Ülgücü necə uşağa verib onun yanına göndərmişdi? "Allaha and olsun ki, intiqamını alacaq!"-deyərək onların yanına qaçır.

Hübeyb gülümsəyərək uşağın uzatdığı ülgücü alarkən; "Anan bunu sənə verərkən özünə xətər yetirəcəyindən qorxmadımı?"-deyir.

İmam Buxari və İbn Əbdilbər bu hadisəni bir qədər fərqli şəkildə Zeynəbin dilindən anladır:

"Uşaq ülgücü gətirib Hübeybin dizinin üstünə qoydu. Onun görüncə ürəyim ağzıma gəldi. Ülgücü əlinə alan Hübeyb, qorxduğumu hiss etmişdi:

Onu öldürəcəyimi zənn edirsən? İnşallah belə bir şeyi əsla etmərəm"-deyir .

Bunları yaşayan Zeynəb; Hübeybdən daha xeyirli bir əsir görmədiyini deyir və üzüm salxımı ilə əlaqədar bildiklərini danışır.

Zeyd kimi Hübeybi də götürüb Tənimə gətirdilər. Dar ağacı hazır idi. Hübeyb onlardan iki rükət namaz qılmaq üçün icazə istədi; icazə verdilər.

Hamının gözü qarşısında bütün dünyanı və yaşadıqlarını unudaraq, tamaşa edənləri heyran edəcək iki rükət namaz qılır. Hüzuruna çıxacağı Rəbbinə dünya həyatındakı son ibadətini edirdi. Namazını bitirdikdən sonra üzünü camaata tutaraq:

أما واللّٰه لولا أن تظنّو أنّى إنما طوّلت جزعًا من القتل لا ستكثرت من الصلاة

"Allaha and olsun ki, ölüm qorxusu ilə namazı uzatdığımı zənn etməsəydiniz, daha uzun qılardım"-dedi.

İlk dəfə öldürülmədən namaz qılmaq adəti onunla başladı.

Sonra onu qaldırıb dar ağacına bağladılar. Hübeyb yuxarı qaldırılınca qarşısında ona baxan müşrik simaları görür. Həmin andakı hiss və düşüncələrini bu cümlələrlə dilə gətirdi:

اللهم إنّى لا أنظر إلاّ فى وجه عدوٍّ. اللهم لا أجد رسولاً إلى رسولك فبلّغه عنّى السلام

"Allahım! Düşmən üzündən başqa bir üz görə bilmirəm. Rəbbim! Rəsuluna salam göndərəcək bir adam tapa bilmirəm. Salamımı sən çatdır."-deyir və sonra belə dua edir:

اَللَّهُمَّ أحْصِهِمْ عَدَدًا وَاقْتُلْهُمْ بَدَدًا وَلاتُغَادِرْ مِنْهُمْ أَحَدًا

"Allahım! Bunları bir-bir həlak et. Hər birini digərindən uzaq olaraq öldür. Heç birini sağ buraxma!"

Duanı eşidənlərdən özünü bu duanın təsirindən qurtarmaq üçün yerə atanlar var idi. Belə etməklə bədduanın təsirindən qurtulacağına inanırdılar.

Qüreyşlilər onu öldürmək üçün hərəkət etməyə başladılar. Zərbələr gəlməyə başladı. Son saniyələrini yaşayan Hübeybdən bu misralar eşidilirdi:

.....

فَلَسْتُ أُبَالِي حِينَ أُقْتَلُ مُسْلِمًا عَلَىَ أَيِّ شِقٍّ كَانَ فِى اللَّهِ مَصْرَعِي

.....

Müsəlman olaraq öldükdən sonra,
Baş qoyunca bütünlükdə Allah yoluna;
Əhəmiyyət vermirəm hansı gündə, hansı məkanda
Necə düşərsə düşsün bədən torpağa.

Deyir və şəhid olur.

Həmin gün Allah Rəsulu səhabələr arasında oturmuşdu. Birdən "Allahın salamı sənin də üzərinə olsun" deyərək salam

aldı. Səbəbini soruşdular. Kədərli halda; "Hübeyb! Qüreyşlilər onu öldürdülər,"-buyurdu.

O, ölümü ilə tarix yazdı. Həmin gün meydanda olan və gözünə görünən bir çox insan edilən bədduadan nəsibini alır və yarpaq kimi bir-bir o ildə tökülürlər.

Daha sonrakı illərdə həmin günü yaşayanlardan, yaşananları xatırladıqca bayılanlar olurdu.

✵

Hübeybin cəsədi dar ağacından asılı qalmışdı. Bir yandan onun təsirindən qurtula bilmir, bir yandan da kinlərini soyutmaq üçün onu ağacdan asılı saxlamışdılar. Muhəmmədin arxasınca gedənlərə, bir qüreyşlini öldürənlərə ibrət olmalı idi.

Bu səbəbdən onun yanında davamlı olaraq növbə tuturdular.

Rəsulullah (s.ə.s.), Amr İbn Ümeyyəni, Hübeybi dar ağacından endirməsi və dəfn etməsi üçün düşmənlərin arasına göndərir.

Amr (r.a) daha sonra yaşadıqlarını danışır: "Gecənin qaranlığında gözətçilərdən gizlincə onun cəsədinə yaxınlaşdım. Ağaca dırmaşıb Hübeybin asıldığı ipləri kəsdim. Yerə yıxıldı və həmin anda arxamda bir səs eşitdim. Həmin istiqamətə baxdım, lakin bir şey görə bilmədim. Bir müddət səssizcə gözlədim. Yenidən Hübeybə tərəf qayatdığımda onu da görə bilmədim. Sanki yer ayrılmış içinə girmişdi."

Bu əziz səhabənin cəsədi də bundan sonra tapılmadı. Artıq o, "Bəliu-l-Arz" (بليع الأرض = Torpağın Udduğu İnsan) deyə yad edilməyə başladı.

Yer onu udmuş, bir daha tapılmamış, ancaq yaşadıqlarının acı xatirələri qalmış və ibrət üçün daha çox qalacaqdır.

✵✵✵

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Zeydin (r.a) Rəsulullaha olan sonsuz sevgisi və bunu ən çətin anında belə ən gözəl şəkildə ifadə etməsi.
- Hübeybin (r.a) həbsdə ikən belə, sahib olduğu yüksək əxlaq və sağlam şəxsiyyəti ilə qəlblərə təsiri.
- Uşağa qarşı davranışı.
- Həyatının son anlarında Rəbbinə üz tutması və düşdüyü çətin vəziyyətə baxmayaraq hiss etdiyi xüşu, aram və sükunət.
- İslam nuru ilə həyata göz yummaq şərəfini idrak.
- Ölüm anında belə vüqarlı bir müsəlmanı layiqincə təmsili və bir çox qəlbin dirilməsinə vəsilə olması.
- Cərəyan edən möcüzələr.

Bir Neçə Kəlmə

Əbədi Həyata Köç Edərkən Fani Həyata Göndərilən İsmarıclar

Zeyd ilə Hübeybin (r.a) yaşadıqlarını, dönə-dönə düşünməyə ehtiyacımız vardır. Səbir, səbat, iman gücü, bağlılıq, vüqar, gözəl əxlaq.... və bu gözəllikləri daşıyaraq əbədi həyata keçid.

Bu əziz səhabələrin, həyatlarının son anlarındakı davranışları, malik olduqları yüksək şəxsiyyət, gələcək nəsillərə təsir etdiyi kimi, əsir alındıqları andan etibarən onları yaxından tanıyanlara da təsir etmiş və dillərdə əzbər olmuşdur. Əbu Süfyan Zeyddən eşitdiyi cümlələri ömrü boyunca unuda bilmirdi. Allah Rəsulunun ayağına tikan belə batmamalı idi. Bir yanda işgəncə

və ölüm, digər yanda tikan ağrısı... Lakin Əbu Süfyanın gördükləri və eşitdikləri xəyal deyildi. Bu cümlələri ölümün astanasında yalvarması, özünə acındırması, qorxu ilə fəryad etməsi, canı qarşılığında hər şeyi fəda etməsi, mərhəmət dilənməsi gərəkli olan bir insan deyirdi. Baş verənlər alışqanlıq halına gələn hadisələr deyildi. Görünür ki, bu insanlar bambaşqa idi... Onlar bu yolda çox şey qazanmışdılar, çox mərhələ qət etmişdilər.

Onlara qəddar hisslərlə baxanların könlündə belə həmin gündən etibarən xüsusi yerləri var idi. Sonrakı illərdə; "Həmin gün, niyə onlara kömək etmədim?"-deyə heyifslənənlər, peşmanlıq hissləri ilə özlərini qınayanlar var idi.

Bu əziz insanlar yaradana vüqarla qayıtdılar. Torpaq onları bağrına basdı.

يُثَبِّتُ اللَّهُ الَّذِينَ آمَنُوا بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الْآخِرَةِ ۖ وَيُضِلُّ اللَّهُ الظَّالِمِينَ ۚ وَيَفْعَلُ اللَّهُ مَا يَشَاءُ

"Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə (kəlmeyi-şəhadətlə) **sabitqədəm edər. Allah zalımları** (haqq yoldan) **sapdırar. Allah istədiyini edər!"** (İbrahim, 14/27)

❋

Bu gün qəribəliklər görür, imtahanlar veririk. Maddi-mənəvi sıxıntılar çəkirik. İblisin xidmətkarlığını Rəhmanın qulluğundan üstün tutanlardan ağıl-məntiq, haqq-hüquq prinsiplərinə sığmayan davranışlar, iftiralar, azdırmalar, əngəllər görürük.

Bütün bunların qarşısında əzmimizi itirməmək, haqdan ayrılmamaq, şəxsiyyətimizi, vüqarımızı zədələməmək, islamın bizdən istədiyi uca əxlaq dəyərlərini itirməmək, bütünlüyü zədələməmək, çətin günlərin imtahanlarını uğurla vermək məcburiyyətindəyik. Yaşadığımız imtahan nə qədər böyük olursa-olsun hər halda Zeyd və Hübeybin imtahanı qədər böyük ola bilməz. Onların şəhadətindən günümüzə qədər 1400 illik bir zaman keçdi. Bu keçən zamanın hər dəqiqəsi onların zəfəri, onları qətl edənlərin peşmanlıqları ilə doludur. Bu hesabının çox dəqiq aparılması zəruri olan bir həqiqətdir.

Hamımız bir yerdə Qurani-Kərimin irşadına diqqət yetirək:

إِنْ تَمْسَسْكُمْ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِنْ تُصِبْكُمْ سَيِّئَةٌ يَفْرَحُوا بِهَا ۖ وَإِنْ تَصْبِرُوا وَتَتَّقُوا لَا يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْئًا ۗ إِنَّ اللَّهَ بِمَا يَعْمَلُونَ مُحِيطٌ

"Sizə bir mənfəət yetişəndə onlar qəmgin olur, sizə bir zərər toxunanda isə ona sevinirlər. Əgər səbr edib özünüzü qorusanız (Allahdan qorxsanız), onların hiyləsi sizə heç bir zərər yetirməz. Şübhəsiz ki, Allah onların nə etdiklərini biləndir." (Ali-İmran, 3/120)

Başqa bir ayeyi-kərimədə də Allahın bəxş etdiyi nemətlərə nankorluq edənlərin, hər an, hər saniyə Onun neməti ilə faydalandığı halda ona üsyan edərək yoluna sədd çəkənlərin aqibəti haqqında belə xəbər verilir:

أَلَمْ تَرَ إِلَى الَّذِينَ بَدَّلُوا نِعْمَتَ اللَّهِ كُفْرًا وَأَحَلُّوا قَوْمَهُمْ دَارَ الْبَوَارِ (٢٨) جَهَنَّمَ يَصْلَوْنَهَا ۖ وَبِئْسَ الْقَرَارُ (٢٩)

"(Ya Rəsulum!) **Məgər Allahın nemətini küfrə dəyişənləri** (Allaha nankor olan Qüreyş kafirlərini) **və ümmətini ölüm yurduna sövq edənləri görmürsənmi? Onlar Cəhənnəmə daxil olacaqlar. Ora necə də pis sığınacaqdır!"** (İbrahim, 14/28-29)

Salam səbr edənlərə

Salam könül ərlərinə, təqva dolu qəlblərə.

Salam hiylə və tələləri boşa çıxaranlara, haqq yolda səy göstərənlərə.

Salam bir yerdə vuran qəlblərə...

Yazıqlar olsun cəhənnəm kötüklərinə və nankorlara...

❋❋❋

Ümmətin Hakimi
Qərbdə Keçən Dəqiqələrin Kədəri

Əbu-d-Dərda

radiyallahu anh

أبو الدرداء؛ عويمر بن مالك

İslamdan əvvəl nizamlı, ancaq bizim unudacağımız bir həyat tərzi vardır. İslam ilə şərəflənməsi də çox fərqlidir. Bir qədər qeyri-adi, bir qədər də təbəssüm ediləcək bir hekayəsi vardır.

İslam nuru ilə nurlandıqdan, islam əxlaqı ilə əxlaqlandıqdan sonra bambaşqa bir insan, örnək bir şəxsiyyət olmuşdur. Rəsulullah (s.ə.s.) onun haqqında:

حكيم أمتي أبو الدرداء عويمر

"Ümmətimin hikmət sahibi, mütəfəkkiri Əbu-d-Dərda Üveymirdir"[123]

İslam tarixində elmi, hikməti, cəsarəti və fəziləti ilə məşhurdur.

❋

Bu əziz səhabə islamdan öncə necə bir insan idi? İslamla necə tanış oldu? İslam nuruna necə qovuşdu? Bütün bunlar maraqlanmağa və öyrənməyə dəyər şeylərdir.

İstəyirsinizsə onu bir qədər yaxından tanıyaq:

❋

Adı Uveymir İbn Malik (عويمربن مالك) ləqəbi Əbu-d-Dərda (أبو الدرداء) . Dərda qızının adı, mədinəli, həzrəcli.

123. əl-İstiab, 3/17. əl-İsabə, 3/45.

Yaxşı bir tacir idi. Böyük və zəngin bir ətir mağazası var idi. İmkanlı bir adam idi. Günləri həmişə bir-birinə bənzəyir, nizamlı olaraq işinə gedib gəlirdi.

Onda qəribsəyəcəyimiz, nizamlı həyatı və ya nizamlı işinə gedib-gəlişi deyil, bu gediş-gəlişin formasıdır.

Hər səhər erkəndən qalxır, səhər yeməyini yeyir, hazırlaşır, bütü üçün hazırladığı xüsusi yerə gedir; ona olan gündəlik xidmət, ehtiram və vəzifələrini yerinə yetirir; hüzurundan ehtiramla ayrılaraq mağazaya yola düşürdü.

Onun bütü məşhur idi. Ağacdan düzəldilmiş bir heykəl idi. Lakin düzəldildiyi ağac, elə-belə bir ağac deyildi. Hind diyarından gətirilərək ən gözəl şəkildə yonulmuşdu.

Evinin ən gözəl yerində onun üçün bəzədilmiş, xüsusi diqqətlə hazırlanmış bir yer var idi. Bütünü ipəklərlə bəzəyər, ona ən gözəl ətirlər sürtərdi.

✺

Mədinədə yayılan islam nurunun gətirdiyi yeni həyəcanı kənardan seyr edir, ətrafında müdhiş bir sürətlə dəyişən dünya onu heç maraqlandırmırdı. Batilə axan zəlalət selinə qarşı, haqqa yönələn islam çeşməsi, hər keçən gün daha gur axmağa başlamışdı. Artıq səsi uzaqlardan eşidilirdi.

✺

Parlaq bir səhər günəşi, Mədinəni hər keçən dəqiqə bir qədər də isidərkən o, hər zaman olduğu kimi yenə evindən ayrıldı və dükanına tərəf addımlamağa başladı. Lakin bu gün çox dəyişik bir gün idi. Çox keçmədən Mədinə küçələrini sevinc dalğaları bürüdü. İslamın ilk böyük ordusu Bədr savaşından qayıdırdı. Sevinc və zəfər həyəcanı dalğa-dalğa Mədinəyə yayıldı.

Mücahidlər, onları sevinclə qarşılayaraq yanlarında addımlayanlar, qruplar halında əsirlər, əsirləri görmək istəyənlər... Yollar sanki dar gəlirdi.

Əbu-d-Dərda axan çoşqun selə bir qədər baxdıqdan sonra, bir gəncə yaxınlaşdı və Abdullah İbn Rəvahanı soruşdu.

Əbu-d-Dərda kimi həzrəcli olan gənc, ona Abdullah İbn Rəvahanı cihad meydanındakı halı ilə izah edirdi. İzah edərkən cihadı yenidən yaşayırmış kimi həyəcanlanır, Abdullahın meydanda aslanlar kimi döyüşdüyü gözündə yenidən canlanır, hadisələri canlı şəkildə izah edirdi.

Gənc həyəcanını saxlaya bilmirdi. Lakin Əbu-d-Dərdaya, Abdullahın həyatda olması, yaralanmaması, sağlamlığının yerində olması kifayət edirdi.

Bütün Bədr qaziləri arasında vəziyyətini soruşmaq üçün Abdullahı seçməsinin əlbəttə bir səbəbi var idi. Çünki Abdullah İbn Rəvaha ilə Əbu-d-Dərda cahiliyyə dövründə bir-birlərini qardaş elan etmiş insanlar idi. Bu sevgi əlaqəsi, din fərqliliyinə baxmayaraq davam edirdi. Abdullah onunla olan əlaqələrini kəsməmiş, o da Məkkəli müşriklər kimi Abdullah ata dinindən döndü deyə onu özündən uzaqlaşdırmamışdı.

Hər ikisi də bir-birlərinin sağlam xarakterini, vəfalı günlərini, illərlə paylaşdıqları acılı şirinli xatirələri yaxından bilirdilər.

❋

Abdullah, qardaşı Əbu-d-Dərdanı şirk bataqlığından qurtarmq üçün bezmədən, usanmadan mübarizə aparır, onun islam nurundan uzaqda zəlalət bataqlığında keçirdiyi hər dəqiqəyə doğurdan da üzülürdü. Əbu-d-Dərda isə onun xətrinə dəymədən hər dəfə yayınaraq Abdullahın israrlı təzyiqlərindən qurtulur, bütünə olan sitayişini və ehtiramını nizamlı şəkildə davam etdirirdi.

❋

Yenə bir gün mağazasındakı yüksək yerdə bardaş qurub ticarətlə məşğul olur, işçilərinə göstərişlər verir və gündəlik işinə davam edirdi. Bir azdan axşam düşəcək, günün yorğunluğu ilə o da evə qayıdacaq, xanımı Ümmü-d-Dərda nın hazırladığı yeməyi yeyib istirahət edəcəkdi. Demək olar ki, bu hadisə hər gün təkrarlanırdı.

Əbu-d-Dərdanın evə qayıtmağına az qalmış Abdullah İbn Rəvaha (r.a) onun evinə gedir. Gəldiyində həyətin qapısı açıq idi.

Ümmü-d-Dərda həyətdə idi. Həyət-bacanın təmizliyi ilə məşğul idi. Ona salam verdi, Ümmü-d-Dərda salamını aldı və ərinin qardaşını görməyinə şad oldu. Əbu-d-Dərdanın ona olan yaxınlığını bilirdi. Abdullah doğrurdan da yaxınlıq göstərməyə dəyər bir insan idi. O, gözəl əxlaqlı, doğru sözlü, sağlam xarakterli və cəsur bir insan idi. Çox gözəl bir şair idi. Əsla yalan danışmazdı.

Abdullah, Əbu-d-Dərdanın harada olduğunu soruşur. Ümmü-d-Dərda: "Dükanına getdi, birazdan gələr,"-deyir. Əbu-d-Dərda:

"İçəri girməyimə icazə verərsənmi?"
"Əlbəttə! Buyur ev, öz evindir"

Abdullahı içəri dəvət edir. Abdullahı Əbu-d-Dərdanın otağına keçirir. Özü isə uşaqların olduğu otağa keçərək ev işləri ilə məşğul olmağa davam edir. Abdullahın istədiyi də bu idi. Birbaşa Əbu-d-Dərdanın bütünün olduğu yerə yaxınlaşdı. Yanında gətirdiyi mişarı çıxararaq bütü doğramağa başladı. Bütü elə bir hala saldı ki, hər parçası otağın bir küncünə dağıldı.

Abdullah bir yandan doğramağa davam edir, bir yandan da;

ألا كُلُّ ما يدعى مع اللَّه باطل...

"Bilinməlidir ki, Allaha şirk qoşulan hər şey batildir,"-deyə dodağının altında deyinirdi.

Qısa bir zamanda işini bitirdi və dərhal evdən uzaqlaşdı.

Biraz sonra Ümmü-d-Dərda bütün olduğu otağa girdi. Girər-girməz beyninə sanki qan sızdı. Otağın hər tərəfi Əbu-d-Dərdanın gözü kimi, bəlkə gözündən də çox həssaslıqla baxdığı büt parça-parça edilmişdi.

"Məni məhv etdin Rəvaha oğlu! Məni məhv etdin!"-deyərək üz-gözünə döyməyə başladı.

❋

Çox keçmədən Əbu-d-Dərda evə qayıtdı. Xanımı bütün olduğu otağın qapısının ağzında oturub ağlayırdı. Qorxudan əlayağı əsdiyi üzündən sezilirdi.

"Nə oldu? Nəyin var?"-dedi. Ağlayaraq danışmağa başladı: Qardaşın Abdullah İbn Rəvaha, sən evdə olmayanda gəldi və bütünü sındırıb məhv etdi..."

Əbu-d-Dərda cəld otağa girdi. Gördüyü mənzərə qarşısında şok olur. Sanki damarlarında qan yerinə intiqam hissləri gəzməyə başlayır. Sakit təbiətli bu insanın qəzəbdən gözünə heç nə görünmürdü. Özündən çıxdı, qəzəbləndi, qışqırıb bağırdı, hədələdi. Biraz sonra sakitləşdi. Sakitləşdikdən sonra daha məntiqli düşünməyə başladı. Baş verənləri beynində ölçüb-biçdi və çox keçmədən dodaqlarından bu sözlər süzüldü:

لو كان هذا الصنم خيرٌ لدفع الآذى عن نفسه

"Əgər bu bütdə xeyir olsaydı, özü özünü xətərdən qoruyardı."

❋

Vaxt itirmədən Abdullahın yanına getdi. "Məni Rəsulullahın yanına apar"-dedi. Birlikdə Allah Rəsulunun yanına getdilər. Əbu-d-Dərda onun hüzurunda haqq dini qəbul etdiyini elan etdi və kəlimeyi-şəhadət gətirdi.

Artıq bütdən və bütpərəstlik düşüncəsindən qurtulur, sonsuz qüdrət və nemət sahibi Allaha yönəlir.

O, yaşadığı məhəllənin ən son islamı qəbul edəni idi.

İslamla şərəfləndiyi andan etibarən Əbu-d-Dərdanın bədəninin hər zərrəsi, sanki islam nuru ilə yenidən həyata qayıtmışdı. Keçən günlərə çox peşman idi. Mömin qardaşlarına islami həyat çox şey öyrətmişdi. Allah kəlamını onların dilindən eşitdikcə, eşitdikləri üzərində təfəkkür etdikcə nə qədər çox şey itirdiyini yaxşı başa düşür. Onlar bu mübarizə uğrunda necə əzablara qatlanmışlar, həyatlarını ona xidmət və Yaradana ibadətlə doldurmuşdular.

Susamış bir insan kimi elmə və ibadətə sarıldı. Tərif edilməyəcək dərəcədə həvəslə, gecəsini gündüzünə qataraq itirdiklərini qazanmağa çalışdı. O, özündən əvvəl yola çıxan və mərhələlər qət edən karvana çatmaq istəyirdi.

Ticarətinin bu arzusuna mane olduğunu görüncə, dükanından imtina edir. O, ticarət planlarının, qazanc əldə etmək hərisliyinin və hesablarının onu Allahın zikrindən uzaq etdiyi insanlardan olmaq istəmirdi.

❋

Əbu-d-Dərda, yalnız ticarətini deyil, dünyalığa aid bütün planları arxa plana atmış, bütün hesablarını əbədi qalacağı yurda görə etməyə başlamışdı.

Əvvəlki var-dövlətini soruşanlara verdiyi cavablar arasında bu cümlə də var idi:

لنا دارٌ هناك, نرسل إليها تِباعًا كلَّ ما نَحْصُلُ عليه من متاع

"Bizim orada sonsuz həyatın olduğu yerdə də bir yurdumuz var. Əldə etdiyimiz hər malı, hər əşyanı artıq oraya göndəririk."-deyir və sözünə davam edir: "Sonra getdiyimiz yol dolanbac və sərt bir yoxuşdur. Yükü yüngül olan bu yolda daha yaxşı addımlayar. Ona görə yükümüzü yüngülləşdirmək istədik."

Müdhiş bir əzmkarlıq və səylə özündən əvvəl yola çıxan elm və əməl karvanına çatmış, ən öndəki səflərdə yerini tutmuşdur. Allah Rəsulu onun üçün; *"Ümmətimin hikmət sahibi, mütəfəkkiri Əbu-d-Dərda Üveymirdir."*-buyururdu. Artıq ondan elm və hikmət alınacaq barmaqla göstərilən səhabələrdən sayılırdı.

Sonrakı illərdə Əbu Zərr (r.a) ona; "Ey Əbu Dərda! Nə yer üzü səndən daha alimini daşıyır, nə də göy üzü belə birisini kölgələndirir."-deyərdi.

Əbu Zərr haqqında biraz məlumatı olanlar, onun heç kimə yarınmaq üçün belə cümlələr deməyəcəyini əlbəttə ki, bilirlər.

"Mühəddislərin başlıca dirəklərindən, başlıca mənbələrindən biri olan Abdullah İbn Amr İbn As, zaman-zaman elm əhlinə;

حدِّثُونا عن العالِمِين العامِلين: معاذ وأبي الدرداء

"Mənə, həm alim olan, həm də elmi ilə əməl edən iki nəfərdən, Muaz ilə Əbu Dərdadan hədis rəvayət edin"-deyərdi.

Ömər (r.a) xəlifə olunca onu Şam bölgəsinə vali təyin etmək istəyir; ancaq Əbu-d-Dərda valiliyi qəbul etməyərək eyni yerə elm öyrədən bir insan kimi getməyi üstün tutur. O, Allahın kitabını, Allah Rəsulunun sünnəsini öyrədəcək, onu yaşatmaq üçün mübarizə aparacaqdı. O, bu məsələdə həqiqi bir örnək idi. Ömər (r.a) bunu sevinərək qəbul edir və Əbu Dərdanı Şama göndərir.

O, artıq Şam diyarının ustadı idi. Elm onun könlündən başqa bir gözəllikdə gəlirdi.

❋

İlk savaş ərlərinin əzabları ilə yoğrulduqları həmin keçmiş yoxluq günləri geridə qalmışdı. İndi var-dövlətin imtahanı başlamışdı. Dünya zövqlərinə hər keçən gün yeniləri əlavə edilirdi. Əbu Zərr (r.a) kimi o da insanların dünya malına aldanaraq axirətdən uzaqlaşmasına, dünya malı yığmaq, rifah içində yaşamaq həvəsi ilə qəlblərin qafilliyə meyil etməsinə könlü razı olmayanlardan idi. İnsanlar dünya malı yarışları ilə özlərini oyalamamalıydı.

Bir gün bütün Şam xalqını məscidə topladı və aralarında dayanaraq danışmağa başlayır. Dediyi sözlərdən bu gün də ibrət alınması zəruri olan bəzi hissələri birlikdə dinləyək:

"Ey Dəməşq əhalisi! Siz dində qardaşımız, yaşadığımız yurdda qonşumuz, düşmənə qarşı arxa duranımızsınız ."

Nitqinə belə başlayır və belə davam edir:

"Alimləriniz bir-bir gedir, cahillər isə öyrənmək istəmir.

Allahın sizə əminlik verdiyi şeylərə yönəlir, edilməsini əmr etdiklərini isə tərk edirsinz.

Təəccüblüdür deyilmi? Yeyə bilməyəcəyiniz qədər yığır, içində yaşaya bilməyəcəyiniz binalar inşa edir, çata bilməyəcəyimiz xəyallar qurur, əlçatmaz ümidlər bəsləyirik.

Sizdən əvvəlki millətlər də yığdı; onlar da xəyallar qurdu, ümidlər etdi. Çox keçmədən yığdıqları yerlə bir oldu, ümidləri puç, evləri xarabaya, evləri qəbiristanlığa döndü."

يا أهل دمشق! أَنْتُمْ إِخْوَانٌ فِي الدِّينِ, الْجِيرَانُ فِي الدَّارِ, وَالْأَنْصَارِ عَلَى الْأَعْدَاءِ؟..

Ey Dəməşq əhalisi! Ad qövmünü bilirsiniz. Yer üzünü vardövlət və övlad ilə doldurmuşdular. Bu gün onların qoyub getdiklərini iki dirhəmə satmaq istəsəm, onu məndən kim iki dirhəmə satın alar?"

Gözlərdən yaşlar axmağa başlayır. Çox keçmədən hıçqırıqlar məscidin bayırından eşidiləcək hala gəlir.

✺

Onun dedikləri insanları yenidən canlandırdı. Elm məclisləri qurur, bazarlarda gəzir, suallara cavab verir, yaddaşlardakı problemləri həll edir, qəlblərə su səpir, bilinməyəni öyrədir, nəsihət edir, unudulanı xatırladır, qarşısına çıxan hər fürsəti dəyərləndirirdi.

Məhz qarşımızda bunlardan bir örnək: İnsanlar günah edərkən ələ keçirdikləri bir adamı şillə-təpiklə döyür, mənasız sözlər söyləyirdilər. Soruşdu: "Nə etdi?"

"Böyük bir günah."

"Günahsız bir adam quyuya düşsəydi, onu quyudan çıxarardınızmı?"

"Çıxarardıq."

"Elə isə düşdüyü vəbaldan da çıxardın. Söyməyin, döyməyin... Nəsihət edin, xətasını göstərin, etdiyinin nə demək olduğunu başa salın. Onun düşdüyü günaha sizi düşürməyən Allaha həmd edin."

"Yəni, sən indi bu adama əsəbləşmirsənmi?"

"Etdiyinizə əsəbləşirəm. Əgər tərk edərsə, qardaşımdır."

Əvvəlcədən heç eşitmədiyi cümlələri eşidən adam əllərinə sarılaraq tövbə edir.

✺

Bir gənc yanına gəlir və; "Ey Allah Rəsulunun dostu! Mənə yol göstər"-deyir.

"Əzizim! Xoş günlərində, rahat zamanlarında Allahı xatırla və Onu yad et ki, dar günündə də O səni xatırlasın.

"Əzizim! Ya öyrədən, ya öyrənən, ya da dinləyən ol! Nə badə dördüncüsü olma, həlak olarsan.

❋

Şamda vali olan Müaviyə, ondan qızı Dərdanı, oğlu Yezidə istəyir, o da vermir. Nə qədər israr etsə də fayda vermir. Daha sonra dini yaşayışından, əxlaqından razı olduğu bir gəncə verir.

Dərdanın nəsibinə mane oldu, deyə dəyərləndirənlər və tənqid edənlər oldu. Birisi səbəbini soruşdu, Əbu-d-Dərda övladının keçmiş dünya həyatından çox əbədi həyatını düşünən bir atanın hisslərini verdi:

Dərda saraylara girdiyində, qarşısında xidmətçilər qolu bağlı dayandığında, sarayın bər-bəzəkləri, ləl-cəvahiratı gözünüzü qaraltdığında onun dini harada olacaq deyirsiniz?!"

❋

Xəstələndiyində dostları ziyarətə gəlirlər. Aralarından bir nəfər soruşur: "Şikayətin nədir?"

"Günahlarım"

"Ürəyin bir şey istəyirmi? "

"Bəli. Rəbbimin əfvini."

Sonra da belə deyir: "Mənə, Lə iləhə illəllah; Muhəmmədun Rəsulullah təlqin edin."

Dostları ilə birlikdə uğrunda hər şeyə qatlandığı tövhid inancının toxumu olan bu kəlmələri deyərkən bu dünyadan ayrılır.

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Əbu-d-Dərdanın bütünə həddindən çox bağlılığı.
- İnsan əl ilə düzəldilmiş, daşdan və ya hər hansı bir maddədən hazırlanmış, nəticədə lal, kar, aciz bir maddəyə, cismə göstərdiyi ibadət, ehtiram hissinin ağıl və iradə verilmiş bir insana məntiqli olması.
- Təbliğin hədəfi olan fərdlərə qarşı mümkün olduğu qədər yaxın davranılması, aradakı əlaqələrin kəsilməməsi. Mübarizəyə qələbə çalmasa belə bir adamın insafla düşündüyündə möminləri əxlaq, xarakter və davranışları baxımından təqdir edə bilməsi.
- Könül fəthinin müxtəlif üslublarla ola biləcəyi. Bir üslub fayda verməyincə, başqa bir üslubdan istifadə edilməsi.
- Küfr və zəlalətdə keçən hər dəqiqənin bir ziyan, ciddi bir itki olduğu.
- Haqq yolda verilən zəhmətlərin, çəkilən əzab-əziyyətlərin, edilən fədakarlıqların belə başqa bir həzzinin olduğu.
- Elm və irfanın, elmlə əməlin lüzum və dəyəri.
- Dünyada yükü yüngül olanın əbədi səadətə doğru daha sürətlə gedə biləcəyi.
- Qənaətkar olmağın və dünya həvəslərinə qapılmamağın lüzumu.
- Elmi fəaliyyəti, rəhbər olmaqdan üstün tutmaq.
- Allaha qovuşmaq istək və arzusu ilə həyata göz yuma bilmək neməti.
- İrşad etməkdəki səyi.

Bir Neçə Kəlmə

Pis Əməllərin Edənlərə Xoş Görünməsi

Qurani-Kərimdə tez-tez keçən bir ifadə vardır. "Şeytanın əməlləri bəzəyərək edənə gözəl göstərməsi."

Misal olaraq Ənam surəsinin 43-cü ayəsində;

وَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ مَا كَانُوا يَعْمَلُونَ

"Şeytan onlara etdikləri şeyləri bəzəyərək gözəl və məntiqli göstərdi"

Başqa bir ayədə də;

زُيِّنَ لِلَّذِينَ كَفَرُوا مَكْرُهُمْ وَصُدُّوا عَنِ السَّبِيلِ

"Kafirlərə öz hiylələri (iftiraları, Allaha qarşı uydurub düzəltdikləri yalanlar) **gözəl göstərildi və onlar** (haqq) **yoldan döndərildilər."** (ər-Rəd, 13/33) buyurulur.

Fatir surəsinin 8-ci ayəsində; pis əməlləri bəzədilərək özünə pis göstərilən bir adamın, əsla həqiqətləri görüb Haqqa bağlanan birisi ilə tuta bilməyəcəyi vurğulanır.

❋

Bu əməllər, həqiqətdə çılğın, gülünc, çirkin və axmaq bir hərəkət olsa belə, ağıl-məntiq ölçülərinə uyğun gəlməsə də, Şeytanın onu bər-bəzəkli göstərdiyi və edənə xoş göstərməyi bacardığı bir həqiqətdir.

Əgə belə olmasaydı, bir insanın körpəsini diri-diri torpağa basdırması necə izah edilə bilərdi? Əgər belə olmasaydı, ağıl, iradə və mükəmməl bir bədən verilən, hər orqanı minlərcə nemətlə təchiz edilən bir insan əli ilə ağacdan, daşdan yonduğu, palçıqdan hazırladığı və ya qəlibləşdirdiyi heykəlləri ilah qəbul etməsi, özü ilə müqayisə edilməyəcək qədər aşağı təbəqədə olan heyvanlara sitayiş edəcək hala gəlməsi, öz soylarının ondan gəldiyini iddia etməsi mümkün ola bilərdimi?

Bir insan öz səltənətini başqalarının alın təri, əzab-əziyyəti, iztirabı, yoxluğu, çarəsizliyi, hətta canı üzərində qura bilərdimi?

Ətrafındakı insanlar əzab-əziyyət içində yaşayır, yoxluqla mübarizə aparır, borc içində üzür, aclıqdan ölərkən; mədəsini durmadan doldurar, üstündən də Allahın haram buyurduğu içkiləri içərdimi?

İmansızlığı özünə inanc edib, yaradana gedən yolları kəsmək üçün hər cür təzyiqdən istifadə edər, əlinə keçirdiyi bütün imkanları səfərbər edərdimi?

Ağlını və məntiqini doğru şəkildə istifadə edən bir insan, milyonlarla insanın bədduasını alar, nifrətini qazanardımı?

Axirətə inanmayanların, dünya həyatında başqasının haqqına, hüququna riayət edəcəyinə; hesab gününü qəbul etməyənlərin, dünya həyatında ömür boyu dürüst və ədalətli olacağına inanardımı?

Ülvi qayələri, müqəddəs hissləri olmayan, hədəfsiz, qayəsiz, ruhsuz və şüursuz bir nəsil yetişdirərək onu, arzu edilən ideal bir nəsil kimi göstərə bilərdimi?

Təəssüf ki, bu sualların minlərcəsini soruşmaq mümkündür. Çünki bunlar yaşadığımız, iç-içə olduğumuz həqiqətlərdir.

Gün gəlib tarix bu yazdıqlarımızı gələcək nəsillərə çatdıracaq olsa, görəsən nəyi çatdırardılar? Onu oxuyanlar nə deyər, bu günün insanlarına hansı gözlə baxardılar? Biz, dünən halvadan büt düzəldib acıyanda yeyənlərə gülürük. Əcəba bizim halımız daha gülünc, yaşadığımız cəmiyyət daha çürük deyildirmi?

Unutmamaq lazımdır ki, daha əvvəl xatırlatdığımız bir həqiqət vardır: "Haqq nəzilər, əsla üzülməz." Məzlumun ahı, gün gələr zalımı yandırar. Haqq və ədalət əlbət bir gün yerini tutar. Allah möhlət verər, ancaq əsla ehmal etməz.

Bu ilahi xəbərdarlığa diqqət edək:

يَا أَيُّهَا النَّاسُ إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ ۖ فَلَا تَغُرَّنَّكُمُ الْحَيَاةُ الدُّنْيَا ۖ وَلَا يَغُرَّنَّكُمْ
بِاللَّهِ الْغَرُورُ (٥) إِنَّ الشَّيْطَانَ لَكُمْ عَدُوٌّ فَاتَّخِذُوهُ عَدُوًّا ۚ إِنَّمَا يَدْعُو حِزْبَهُ
لِيَكُونُوا مِنْ أَصْحَابِ السَّعِيرِ (٦) الَّذِينَ كَفَرُوا لَهُمْ عَذَابٌ شَدِيدٌ ۖ

وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَهُمْ مَغْفِرَةٌ وَأَجْرٌ كَبِيرٌ (٧)

"Ey insanlar! Şübhəsiz ki, Allahın (qiyamət barəsindəki) **vədi haqdır. Dünya həyatı sizi aldatmasın. O tovlayan** (Şeytan) **da sizi tovlayıb yoldan çıxartmasın! Həqiqətən, Şeytan sizin düşməninizdir, onu** (özünüzə) **düşmən tutun. O özünə uyanları cəhənnəm əhli olmağa çağırır. Kafir olanları şiddətli əzab, iman gətirib yaxşı işlər görənləri isə bağışlanma və böyük bir mükafat** (Cənnət) **gözləyir!"** (Fatir 35/5-7)

Elm və Əməl

Öyrənmək və əməl etmək Allah Rəsulunun əshabının həqiqətən qibtə edilməsi zəruri olan ən böyük xislətlərindən biri idi.

Abdullah İbn Məsud (r.a) rəvayət edir: "Rəsulullahdan on ayə öyrənər, onu tam şəkildə mənimsəyib həyatımıza tətbiq etmədən digər on ayəyə keçməzdik."

Səhabələrdən dərs alan Əbu Əbdürrəhman, onlara dərs verən səhabələrin də eyni şeyi dediyini rəvayət etdikdən sonra; "Bizlər, elmlə əməli birlikdə öyrəndik"-deyir.

Həzrət Əli (r.a) belə rəvayət edir: "Rəsulullah həyatda ikən bir surə, ya da ayə, yaxud da ayələr endirildiyində möminlərin imanı və xüşusu artardı. Nazil olan ayeyi-kərimələrdə bir şey qadağan edilirdisə, dərhal ondan uzaq dururdular."

Belə ki, Qurani-Kərimdə:

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللَّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا وَعَلَىٰ رَبِّهِمْ يَتَوَكَّلُونَ

"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) **ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər."** (əl-Ənfal, 8/2)

Elm və irfanın itirilməsi qədər, elm ilə əməlin itirilməsi də acı və kədər vericidir. Onun itirilməsi demək, ixlasın, səmimi

hisslərin itirilməsi deməkdir. Əməllərə əks etməyən, həyata keçirilməyən bir elm, faydasız elmdir. Elm əhlində belə bir itkinin olmasının ətrafa təsiri əlbəttə ki, çox böyük, verdiyi mənəvi əzab isə dərindir.

Əbu Hüreyrə və Ənəs (r.a) Allah Rəsulunun belə dua etdiyini rəvayət edir:

اَللَّهُمَّ إِنِّي أَعُوذُبِكَ مِنَ الْأَرْبَعِ: مِنْ عِلْمٍ لاَ يَنْفَعُ وَقَلْبٍ لاَ يَخْشَعُ وَنَفْسٍ لاَ تَشْبَعُ وَدُعَاءٍ لاَ يُسْمَعُ

"Allahım! Dörd şeydən sənə sığınıram: Faydasız elm, xüşu hissi olmayan qəlb, arzuları bitməyən doymaz nəfs, qəbul edilməyən dua."

İçərisinə daldıqca daha dərinliyə varan bu məsələni burada bitirməyə çalışarkən, son sözün yenə Əbu-d-Dərdanın rəvayət etdiyi bu hədis olmasını arzu etdim. O belə rəvayət edir:

"Bir gün Allah Rəsulu ilə birlikdə idik. Gözlərini səmaya qaldırdı. "Elmin, insanların qəlbindən çəkilib alınacağı, yenidən əldə etmək imkanı da olmayacağı günlər yaxınlaşdı"-buyurdu.

Ənsardan Ziyad İbn Ləbid; "Ey Allahın Rəsulu! Elm necə çəkilib alınaraq yox olar? Biz Quran oxuyuruq. Allaha and olsun ki, oxumağa da davam edəcəyik. Xanımlarımıza və uşaqlarımıza da oxudacağıq"-dedi.

Bunu eşidən Rəsulullah (s.ə.s) ona; "Anasının yaddaşı itincə, Ziyad! Mən səni Mədinənin fəqihlərindən sayardım"-deyə zarafat etdikdən sonra belə buyurdu: "Bax bu Tövrat və İncil! Yəhudilərin və xristianların əlində durur. Onlara nə faydası vardır."

Bu hədisi Əbu-d-Dərdadan eşidən Cübeyr rəvayət edir: Hədisi eşitdikdən sonra Ubadə İbn Samit (r.a) ilə qarşılaşdım. "Qardaşın Əbu-d-Dərdanın dediklərini eşitdinmi?-deyərək eşitdiklərimi ona çatdırdım. Dediklərimi eşitdikdən sonra belə dedi: "Əbu-d-Dərda doğru deyir. İstəyirsənsə, insanlardan ilk alınacaq (qaldırılacaq) olanı sənə deyimmi?: Xüşu (qəlbin sevgi, ehtiram, səmimiyyət və təslimiyyətlə ürpəşməsi). Bir camaatın olduğu məclisdə iştirak etsən, camaatın içində tək bir xüşusu olan insan tapa bilməzsən. O günlər yaxınlaşır."

Səhabə, elmin aradan qaldırılacağını qəbul edə bilmir; itirilməməsi üçün çalışacağını, səy göstərəcəyini, elmin əsl mənbəyi olan Allah kəlamını xanımlarına, uşaqlarına öyrədəcəklərini, əsla biganə qalmayacaqlarını Rəsulullaha çatdırmaq istəyirdi.

Bu gün nə qədər təəccüblüdür, qıtlıq və yoxluq dünyasında yaşayırıq!? Nə özümüz öyrənir, nə də xanımlarımıza və uşaqlarımıza öyrədirik. Daha dəhşətlisi isə öyrətməyə də yaxın buraxılmırıq. Sağlam ağıl və məntiqin əsla qəbul edə bilməyəcəyi dirənişlər, tələlər və tərtiblərlə qarşılaşırıq. Unutmamaq lazımdır ki; "Allah tərtibləri, hiylələri ən yaxşı şəkildə bilən və onlara qarşılıq verəndir."

Möminlər də bu məsələdə şüurlu, bəsirəti açıq, cəfakeş və birlik içində olmalıdır.

Elmlə bütünləşən əməl insana nə böyük bir kamillik, simasına nə şirin bir gözəllik, davranışlarına nə xoş bir bir sevimlilik, sözlərinə nə dərin bir təsir gücü verir. Ətrafına hikmət bəxş edər.

❋

Dünya Yükünün Yüngül Olması

Əbu-d-Dərdanın (r.a); "Getdiyimiz yol çox dolanbac, sərt bir yoxuşdur. Yükü yüngül olan bu yolda daha yaxşı addımlayar"- sözü unudulacaq bir söz deyildir. Lakin sabahından ümidini kəsən insanlara bunu izah etmək də o qədər asan deyildir. Bunlar iradə, sağlam xarakter, güclü iman və sarsılmaz təvəkkül hissi istəyir. Çətin günlərdə onlarla əlbir olacaq qardaşlar, mömin könüllər istəyər.

Hər şeyə baxmayaraq bilinməsi zəruri olan həqiqət, dünyada yaşadığımız müddətin, bir yolçunun səfərdə ikən bir ağac altında dayanıb fasilə verdiyi kimi müvəqqətiliyi, qayıdışın Allaha olmasıdır. Bunun şüurunda olaraq dünya həyatının yaşanmasıdır.

Olması mühüm olan, maddəyə məhkum olmaq deyil, ona hakim olmaq, cilovlarını daim əldə tutmaqdır.

Əbu-d-Dərdaya diqqət yetirək:

...وَاعْلَمُوا أَنَّ قَلِيلاً يُغْنِيكُمْ خَيْرٌ مِنْ كَثِيرٍ يُلْهِيكُمْ

"Bilin ki, sizi başqasına möhtac olmaqdan qurtaran az dünya malı, sizi mənasız arzular arxasınca sürükləyəcək çoxdan daha xeyirlidir."

Və bilməyimiz zəruri olan əsl həqiqət, bu ayeyi-kərimələrin xəbər verdiyi həqiqətdir:

فَأَمَّا مَنْ طَغَىٰ (٣٧) وَآثَرَ الْحَيَاةَ الدُّنْيَا (٣٨) فَإِنَّ الْجَحِيمَ هِيَ الْمَأْوَىٰ (٣٩)
وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَىٰ (٤٠) فَإِنَّ الْجَنَّةَ هِيَ
الْمَأْوَىٰ (٤١)

"Kim (dünyada) **azğınlıq etmişsə, Dünyanı** (axirətdən) **üstün tutmuşsa, Şübhəsiz ki, onun məskəni Cəhənnəmdir!**

Amma kim (qiyamət günü) **Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini** (şəhvəti) **qadağan etmişsə, Həqiqətən, onun yurdu Cənnətdir"** (ən-Naziat, 79/37-41)

Məhz yol budur. İstəyən istədiyi istiqamətə getsin...



Gözəl Bağça

Gözəl İnsan

Gözəl Ailə



Əbu Talha

-radiyallahu anh-

أبو طلحة, زيد بن سهل

Bu gün qiblənin tam əksi istiqamətində yerləşən əsas qapıdan, başqa bir ifadə ilə Uhud dağına baxan şimal mərkəz qapıdan Məscidi-Nəbiyə daxil olub bir qədər sol sütunlara tərəf dönüldükdə, ilk qarşımıza çıxan iki sütun arasında qara xətli üç dairə görünür.

Böyük bir ehtimalla bu dairələrin ortası "Biri-Ha" deyə yad edilən quyunun olduğu yerdir. Çünki mənbələrdəki yerə nəzər yetirildikdə , deyilənlər bizi bu nöqtəyə gətirir.

Əsri-Səadətdə gözəl bir bağ içində yerləşən bu quyu, Allah Rəsulunun su içdiyi, başında əyləşdiyi ağacların kölgəsində istirahət etdiyi bir quyudur. Məscidi-Nəbiyə yaxınlığı ilə yanaşı, ətrafında yerləşən və suları ilə sulanan gözəl ağaclar, çiçəklər və suyunun dadı ilə könülləri özünə çəkən bir quyudur.

İmam Buxarinin Ənəsdən (r.a) rəvayət etdiklərini eşidək:

"Əbu Talha, Mədinədə Ənsarın ən çox xurmalıqları olanı idi. Sahibi olduğu mallar arasında ən çox "Biri-Ha"-nı sevərdi. Bu quyu Məscidi-Nəbi yaxınlığında yerləşən bir quyu idi. Tez-tez Rəsulullah (s.ə.s) bu quyunun olduğu bağa girər, suyu şəffaf və şirin olan bu quyudan su içərdi."

لَنْ تَنَالُوا الْبِرَّ حَتَّىٰ تُنْفِقُوا مِمَّا تُحِبُّونَ

“Sevdiyiniz mallardan infaq etmədikcə, həqiqi təqvaya çata bilməzsiniz.” (Ali-İmran, 3/92) ayeyi-kəriməsi nazil olunca; Əbu Talha ayağa qalxaraq; “Ey Allahın Rəsulu! Ən sevdiyim malım Biri-Hadır. Onu Allah rizası üçün sədəqə edirəm. Allah dərgahında xeyirə və axirətdə xoş əməl olaraq qarşıma çıxacağına ümid edirəm. Necə münasib bilirsinizsə, elə edin”-deyərək quyunu vəqf etdi.

Onun bu sözlərini eşidən Allah Rəsulu (s.ə.s):

(بخٍّ ذلك مال رابح, ذلك مال رابح) *“Hər işdə qazanclı mal budur, qazanclı mal budur!”*-buyurur; onun davranışından xoşnud olduğunu dilə gətirir və bağın da Əbu Talhanın qohum və yaxınlarına vəqf edilməsini münasib görür.

Bu, Allah rizasına yönəlməyin, birr və təqvaya çatmaq arzusunun bar verən gözəl misallarından biridir.

✺

Bu bağı və quyunu vəqf edən Əbu Talha, daha çox ləqəbi ilə tanınan səhabələrdəndir. Əsl adı **Zeyd İbn Səhldir**. Peyğəmbərimizin ana tərəfi olan Nəccar qəbiləsindəndir.

“**Ha quyusu**”nu vəqf etməklə yanaşı başına gələn və yad edilməsi zəruri olan başqa bir hadisə də vardır:

Ögey oğlu olan və onu çox yaxından tanıyan Ənəsin rəvayət etdiyi kimi o, Mədinənin ən gözəl bağlarına sahib idi.

Xurma bağlarının gözəlliyi ilə yanaşı üzüm bağlarının gözəlliyi də dillərə dastan idi. Əbu Talha həqiqətən bağlarına baxır, onları becərir, yeyir və yedirirdi. O, comərd könüllü və zövq sahibi bir insan idi.

Yenə bir gün bağında işləyirdi. Namaz vaxtı gəlincə dəstəmazını aldı. Bir ağacın kölgəsində dəstəmaz və kölgə sərinliyini hiss edərək namaza durdu. Xüşu içində namaz qılırdı.

Yaşıl rənglərin daha çox olduğu, qırmızı dimdikli, xınalı bir quş budaqdan budağa tullanaraq gözəl səsi ilə nəğmə oxumağa başladı.

Budaqlar arasında gəzişməsi, yarpaqlara qonması, gözdən itib yenidən ortaya çıxması, nəğmələr oxuması Əbu Talhanın ağlını başından almışdı.

Özünə gəldiyində neçə rükət namaz qıldığını, neçənci rükətdə olduğunu unudur; ikinci rükətdə, yoxsa üçüncü rükətdə olduğunu xatırlaya bilmir.

Quşu xəyalından çıxarıb unutmağa çalışaraq namazını yenidən qıldı. Namazı bitirincə Allah Rəsulunun yanına getdi. Bağını, bağda başına gələnləri, oxuyan quşu və unudulan rükətləri danışdıqdan sonra:

اشهَدْ يارسول الله أنى جعلت هذا البستان صدقة لِلَّهِ تعالى, فضعه حيث يحبّ الله ورسوله

"Ey Allahın Rəsulu! Şahid ol ki, mən bu bağı hüzurunda Allah rizası üçün verirəm. Allah Rəsulunun xoşuna necə gedirsə, elə et!"

Şirin xatirə şirin sonluqla bitir...

Bu gözəl insanın xatirələrinə dalıb diqqət etsəniz, sizi özünə tərəf çəkdiyini görərsiniz.

Biz də daldıq...

❋

Onu tanımağa əsl adı **Rumeysa** olan **Ümmü Süleym**ə etdiyi evlilik təklifi ilə başlayırıq.

Ümmü Süleym, əri Malik Şamda olduğu bir vaxtda vəfat etmiş və o dul qalmışdı. O, həqiqətən gözəl, gözəlliyi qədər də ağıllı, kamillik və əxlaq gözəlliyinə sahib bir qadın idi. Əbu Talha kimi Nəccar qəbiləsindən idi.

Əbu Talha onu əlindən qaçırmaq istəmirdi. Başqasından təklif gəlmədən, başqa birinə bağlanmadan təklifini etmək istəyirdi. Başqasına söz vermədən o təklif edərsə, təklifinin rədd edilməyəcəyini düşünürdü. O, güclü bir kişi idi. Hər kəsin ehtiram göstərdiyi bir insan idi. Olduqca imkanlı idi... Nəccar oğullarının ən igidlərindən, Yəsribin barmaqla göstərilən oxçularından idi.

Əbu Talha, Ümmü Süleymə gəlişinin məqsədini açıqladı və ona evlənməyi təklif etdi.

Lakin eşitdiyi cümlələr, gözləmədiyi cümlələr idi. Kamil, ağıllı və müsəlman bir qadının ağzından çıxırdı.

"Ey Talha! Sənin kimi bir insanın təklifi rədd edilməz. Lakin Allahın dininə inanmış bir qadın olaraq, şirk və zəlalət içində olduğun müddətdə sənlə əsla evlənə bilmərəm."

Əbu Talha bu sözlərin evlənməyi rədd etmək üçün deyilən bəhanə olduğunu zənn edir. Ümmü Süleymin ondan daha imkanlı, daha yaxşı mövqedə olan başqa birisini tapdığı, onu üstün tutduğu qənaətində idi.

"Təklifini rədd etmək üçün həqiqi bir irad deyil bu!"-dedi.

"Bəs onda nə idi?"

"Sarı və ağ. Yəni qızıl və gümüş?!"

"Qızıl və gümüşmü?"

"Bəli"

"Yaxşı eşit Əbu Talha! Həm səni, həm də Allah və Rəsulunu şahid gətirərək deyirəm. Əgər müsəlman olsan, səndən heç bir qızıl, heç bir gümüş almadan sənlə evlənməyə razı olacağam. İslamı qəbul etməyini mehr sayacağam."

Əbu Talha eşitdiklərindən sarsılmışdı. İndi qarşısındakı yol, aşkar və konkret idi. Nə deyəcəyini bilmədən susub qalmışdı. Bir anda yadına evdə olan keyfiyyətli bir ağacdan hazırlanmış bütü düşdü. Mədinədə zəngin insanların xüsusi bütlər düzəldirməsi adət halına gəlmişdi. Onun da evində ən keyfiyyətli ağacdan hazırlanmış bir büt var idi. Bütü nə edəcəkdi? Atalarından gələn inancı bir anda necə tərk edəcəkdi?

Rümeysa iti zəkalı bir qadın idi. Onun fikirə getdiyini sezmiş, dəmiri isti-isti döyməyi üstün tutmuşdu. Sözlərinə belə davam etdi:

"Əbu Talha! Heç düşündünmü? Allahı qoyub sitayiş etdiyin bu büt, torpaqda böyüyən bir ağacdan düzəldilməmişdirmi?"

"Əlbəttə."

Təsəvvür edirsənmi? Sən bu ağac kötüyünün bir hissəsinə sitayiş etdiyin halda, başqaları digər hissəsini odun kimi istifadə edir. Onun alovuna isinir və ya üzərində yemək bişirir. Bunu eşidib, düşdüyün vəziyyətdən heç utanırsanmı?

Əbu Talha çox pis zərbələr alır. Ciddi şəkildə sarsılır. Rumeysa (Ümmü Süleym) isə danışarkən son nöqtəni qoyur.

"Əbu Talha! Əgər islam dinini qəbul etsən, səni ər, islamı qəbul etməyini də mehr qəbul edərəm. Səndən islamdan başqa mehr istəmirəm."

Əbu Talha qərarını verir:

"Müsəlman olmaq üçün kim mənə yol göstərəcək?"

"Mən göstərəcəyəm!"

"Necə?"

"Əvvəlcə kəlimeyi-şəhadət gətirəcək; Allahdan başqa heç bir ilah olmadığını, Muhəmmədin Allahın Rəsulu olduğunu deyəcəksən. Sonra evinə gedib bütünü sındıracaq və götürüb atacaqsan."

❋

Əbu Talhanın könlü fərəhləmişdi. Qəlbinə yeni bir günəş doğurdu. Yüngülləşmiş, daxilində sevinc dalğaları coşurdu. Dodaqlarından kəlimeyi-şəhadət kəlmələri süzüldü. Büt sındırıldı, ona aid otaq dağıdıldı və Əbu Talha Ümmü Süleymlə evləndi.

Möminlərin dilində zərbi-məsəl olmuşdu. Belə deyirdilər: "Ümmü Süleymin mehrindən daha qiymətli bir mehr eşitmədik."

❋

Əbu Talha həmin gündən etibarən möminlərin səflərinə qoşulmuş, bütün gücünü islama xidmət üçün ortaya qoymağa başlayır. Bitib-tükənməyən bir enerjisi, müdhiş bir həvəsi var idi. O, comərd olduğu qədər fədakar və cəsur bir insan idi.

O, hələ Allah Rəsulu Mədinəyə gəlmədən müsəlman olmuşdu. İkinci Aqabə beyətində xanımı Ümmü Süleym ilə birlikdə iş-

tirak etmiş, islamla şərəflənməsinə vəsilə olan xanımı ilə birlikdə Rəsulullaha beyət etmiş və seçilən on iki naqibdən biri olmuşdu.

Allah Rəsulu hicrət etdikdən sonra yanından ayrılmamış, bütün savaşlarda yanında olmuşdur. Ona baxmaqdan doymaz, ağzından çıxan sözləri bir çeşmənin şırıltılı suları kimi eşidər və ondan doymazdı.

✺

Allah Rəsulu, onunla Əbu Ubeydə İbn Cərrahı qardaş elan etmiş, Əbu Talha qardaşlığın ən gözəl nümunələrini, fəzilətlərlə dolu bu qardaşına vermişdi.

Uhud savaşında o böyük imtahan günündə qardaşı ilə birlikdə imtahanı ən gözəl şəkildə verənlərdən biri idi. Allah Rəsulunun yanından ayrılmamış, özünü ona sipər etmiş, havada süzən oxları ilə heç kimə yaxınlaşmağa imkan vermirdi.

Yorulmaq, bezmək bilmir, mübarizədən əl çəkmirdi. Rəsulullah (s.ə.s) doğrulur, yayı gərərkən onun hədəfinə, ox yaydan çıxınca da kimə tuş gələcəyinə baxırdı.

Əbu Talha onun özünü hədəf göstərəcək bir şəkildə durmasına razı olmur; "Anam-atam sənə fəda olsun! Dönüb onlara hədəf olma, səni vura bilərlər. Sinəm sənə sipərdir. Canım sənə fəda olsun..."-deyir.

Rəsulullah (s.ə.s) qarşılarına keçənlərə; "Oxlarını, Əbu Talhanın qarşısına düz, atmağa hazır hala gətir!"-buyurur; oxları onun atmasını istəyirdi.

✺

Savaş bitmiş, Allah, Rəsulunu və haqq mübarizəni qorumuş, möminlər ciddi bir imtahandan keçir. Həmin gün yaşananlar heç vaxt unudulmadı. Əbu Talha da xatirələrdən silinmədi.

O, sonrakı müharibələrin də cəngavəri idi. Allah Rəsulu onun haqqında:

لَصَوْتُ أَبِي طَلْحَة فِى الْجَيْشِ خَيْرٌ مِنْ فِئَةٍ

"Ordunun içində Əbu Talhanın səsinin gəlməsi, bir bölüyün olmasından daha xeyirlidir." Başqa bir rəvayətdə də *"Min adamın olmasından daha xeyirlidir"*-buyurur.

İtəyirsinizsə bu gözəl ailəni, başlarına gələn ailəvi bir hadisə ilə də yad edək:

Əbu Talha ilə Ümmü Süleymin sevimli bir uşağı dünyaya gəlir. İkisi də bu körpəni çox sevir, ona olan sevgilərini gizləmirdilər. Hər keçən gün bu balaca uşağın sevimliliyi və şirinliyi daha da artırdı. Onu Rəsulullah (s.ə.s) də çox sevirdi. Onun; Peyğəmbərimizin başını oxşayıb; "Ey Umeyr, nə edir Nuğayr?"-deyərək zarafat etdiyi uşaq olduğu rəvayət edilir. Allah Rəsulu, bu şəkildə ona, qəfəsdə saxladığı və dost olduğu quşunun xatirini soruşur və bələliklə könlünü alır.

Bir gün bu sevimli uşaq xəstələnib yatağa düşür. Günlərlə qızdırma içində yanır. Bütün ailə kədər içində idi. Həmin günlərdə bağların baxıma ehtiyac olduğu vaxtlar idi.

Çarəsizlik içində xəstə yatan körpəsinə müalicə yolları axtaran Əbu Talha, tez-tez bağlarına gedib bir yandan da ağacları ilə məşğul olurdu.

Bağdan yorğun-arğın qayıtdığı bir günün axşamı, xanımı Ümmü Süleym onu qarşılayır və qarşısına yeməyini qoyur. Yemək yeyərkən uşağın necə olduğunu soruşur.

Ümmü Süleym (r.a) " هو أسكن ما كان " "Əvvəlki halına görə daha rahatdır. Artıq sakitləşib"-deyir.

Əbu Talha bu xəbərə çox sevinir və rahatlaşır. Yatağında uzanan körpəni narahat etmədi. Yorğun olduğuna görə yerinə uzanır.

Günlərdir davam edən kədər və sıxıntıdan xanımı ilə birlikdə ola bilmirdi. Həmin gecə birlikdə olmaq istəyir. Ümmü Süleym ərinə etiraz edə bilmir və üstəlik gözəl ətirlər vuraraq yatağına girir.

Əbu Talha həmin gecə rahat şəkildə yatır və sıxıntısı yüngülləşir. Laki ertəsi səhər acı həqiqəti öyrənir. Uşaq vəfat edib. Ümmü Süleym həmin gecə yorğun və yuxusuz bir halda ikən

onu üzmək istəməmişdi. Əzabını içində çəkərək ərinə bildirmir. Səhər olunca; "Allah nəzdində savab olacağını ümid edirəm"-deyərək xəbər verir.

Əbu Talha hadisəni eşidincə nə edəcəyini, nə deyəcəyini bilmir. Heç bir söz demədən Rəsulullahın yanına gedir;

Allah Rəsulu; (بَارَكَ اللَّهُ لَكُمَا فِي لَيْلَتِكُمَا) "Allah bu gecənizi mübarək etsin"-buyuraraq hər ikisinə də dua edir.

Həmin gecənin meyvəsi olaraq Abdullah dünyaya gəlir. Çox xeyirxah bir övlad olur. Əbu Talha və Ümmü Süleymin Abdullahdan 10 nəvəsi dünyaya gəlir. On nəvənin hər biri eyni gözəllikdə elm əhli, qurra və haqq yolun səmimi yolçuları olurlar. Təbiinin ən məşhur alimlərindən İshaq (r. əleyh), bu on oğuldan biri idi. O, İshaq İbn Abdullah İbn Əbi Talha şəklində babası ilə birlikdə yad edilirdi.

❋

Əbu Talha (r.a) Allah Rəsulunun vəfatından sonra bir elm, ibadət əhli, bir mücahid olaraq uzun illər yaşadı.

Bayramlar xaric demək olar ki, hər gün oruc tutardı.

Həzrət Osman dövründə donanma hazırlanmış, mücahidlər artıq nəhəng dənizlərdə görünməyə başlayır.

Yeni bir dəniz səfəri üçün donanma hazırlanırdı. Hamı bir canlılıq halında idilər. Özünü səfərə hazırlayan mücahidlər arasında Əbu Talha da var idi. Olduqca yaşlı olmasına əhəmiyyət vermirdi və Allah yolunda səfər hazırlığının həyəcanı içində idi.

Uşaqları yığışaraq onun getməsinə mane olmağa çalışırlar; "Ata! Allah sənə şəfqət və mərhəmətlə davransın! Artıq qocalmısan. Sən Allah Rəsulu ilə birlikdə savaşdın. Əbu Bəkrlə, Ömərlə birlikdə savaşdın. Artıq istirahət elə və cihad meydanlarını bizə burax! İcazə ver sənin yerinə biz savaşaq!"

Əbu Talha belə cavab verir:

"Rəbbimiz; (انْفِرُوا خِفَافًا وَثِقَالًا) Yüngül, ağır necə olursunuzsa olun Allah yolunda cihada çıxın!-buyurur. O, yaşlı-gənc hamımız bir

yerdə cihada çıxmağımızı əmr edir. Müəyyən bir yaş məhdudiyyəti qoymur."

Heç kim ona mane ola bilmir və səfərdə iştirak edir.

❋

Bu əziz səhabə; bu yaşlı insan bu orduda səsinin eşidilməsi, bir bölüyə bədəl olan igid, dənizin ortasında gənc mücahidlər arasında ikən xəstələnir. Yaşlı bədən bu şiddətli xəstəliyə tab gətirə bilmir və dənizdə üzərkən həyata gözlərini yumur.

Cihad yoldaşları onu dənizə atmağa qıymırlar. Torpağa dəfn edə bilmək üçün münasib bir ada axtarırlar. Bu axtarış 7 gün davam edir. Həmin yeddi gün ərzində bu əziz səhabədə heç bir dəyişiklik olmur. Sanki uzanıb yatırdı...

Yeddinci gün kiçik adsız və ya adını bilmədikləri bir ada tapırlar. Hazırlıqlarını görüb namazını qılaraq bu adaya dəfn edirlər.

❋

Mədinənin ən gözəl bağlarının sahibi olan bu əziz səhabə, indi vətəndən, qohum və dostlardan, həyatının böyük bir hissəsini paylaşdığı Rumeysadan uzaqda, məchul bir adada dəfn edilir. Həm ona, həm mömin könüllərə, həm də Allahın rizasına yaxın həşr gününü gözləyir...

❋❋❋

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar

- Gələn həyatın dərhal həyata əks edilməsi. Birr və təqvaya çatmaq, Mövlanın rizasını qazanmaq arzusu.
- Mədinənin demək olar ki, mərkəzində ərəbistan kimi qızmar və suyun son dərəcə qiymətli olduğu bir ərazidə, içində su quyusu olan və gözəlliklərlə dolu bir bağdan Allah rizası üçün bir anda imtina edə bilmək cəsarəti.
- Allah Rəsulunun bunu əsl qazanc olaraq dəyərləndirməsi.
- Qılınan namazı xüşu və şüurla yerinə yetirmək arzusu, kamil şəkildə yerinə yetirilmədiyi təqdirdə duyulan üzüntü və kədərin dərəcəsi.
- Möminə xanım Ümmü Süleymin dünya malına dəyər verməməsi, imanı hər cür dünya nemətindən üstün tutması. Sevdiyi və təqdir etdiyi insanın hidayətinə vəsilə olaraq həm onu əldə etməsi, həm də islamı qəbul etməsinə vəsilə olması.
- Bunu edərkən kamil, dürüst, həqiqətən ağıllı və şüurlu şəkildə etməsi. Onu inadkarlığa sövq etmədən, hissləri ilə oynayaraq onu pisliyə təhrik etmədən, inancını bağladığı taxtadan hazırlanmış heykəlin mənasızlığını ona başa salması və onu inandırması.
- Əbu Talhanın Allah yolunda malından imtina etməsini bilən bir insan olduğu kimi, canından belə keçməyi bilən bir insan olması.

- O, Uhud günü imtahanı ən gözəl şəkildə verənlərdən idi. Allah Rəsulunun həyatını öz həyatından üstün tutaraq vuruşanlardan idi.
- Ümmü Süleymin bir ana kimi uşağına və bir xanım kimi ərinə qarşı davranışı.
- Bu hadisənin həqiqi bir nümunə, həqiqi bir ibrət səhnəsi olması.
- Səbrin fəryaddan, şüurun hisslərə qapılmaqdan daha xeyirli olduğu.
- Səhabələrin qocalmalarına baxmayaraq əzmkarlıqlarını, cihad ruhunu və xidmət eşqini itirməməsi.
- Allaha yaxın olmağın, hər cür yaxınlıqdan üstün olması.

Bir Neçə Kəlmə

Birrə Çatmaq

"**Birr**" gözəl xislətlərin cəminə deyilir. Başqa bir ifadə ilə birr; edilən xeyirli və saleh əməllərdir.

Birr, Lisanu-l-arabda; "Hansı cinsdən olursa-olsun gözəl əməllər", "Allaha yaxınlaşdıran saleh və gözəl əməllər" kimi tərif edilir.

Əbussuud (r.əleyh) təfsirində birr sayılan şeyləri bir qədər də ad verərək; (لَنْ تَنَالُوا الْبِرَّ حَتَّى تُنْفِقُوا مِمَّاتُحِبُّونَ) **"Sevdiyiniz mallardan infaq etmədikcə, həqiqi birr və təqvaya çata bilməzsiniz"** ayəsini; "Allahın savabına, rəthmətinə, rizasına və Cənnətinə çata bilməzsiniz"-deyə təfsir etmişdir.

Məna genişliyinə görə valideynlərə gözəl davranış, onların hüququnu yerinə yetirməkdə "birr" deyə adlandırılmış, əksinə "üquq" deyilmişdir.

"Birr"in cəmi "əbrar" kəlməsidir. Qurani-Kərimdə;

(إِنَّ الأَبْرَارَ لَفِي نَعِيم) **"Birr sahibləri əlbəttə ki, Cənnətdədir"** -buyurulur və birr sahiblərinin əbədi dünyada gözəl əməllərin qarşılığını ən gözəl şəkildə alacaqları xəbər verilir.

Bu mənada "birr" bütün gözəlliklərə sahib olma, təqva və itaət halında olmağın müxtəsiridir və əbədi səadətə nail olmaq vəsiləsidir.

Əldə edilməsi üçün yarışmağın zəruri olduğu xislətlərdəndir. İnsanın dünya həyatında ikən qazana biləcəyi ən gözəl rütbələrdən biri, "birr sahibi" olması, "əbrar" içində yer almasıdır.

Bu yarışı ən gözəl şəkildə və daxildən gələn hisslərlə edən, Allah Rəsulunun ətrafına yığışan səhabələrdir. Onlar və onların getdiyi yolla gedənlər, bu məsələdə bizə minlərlə gözəl misal qoyub getmişdir.

❋

Bu şirin yarışın davam etməsi, birr sahibi insanların çoxalması, könüllərin kir və pasdan təmizlənərək gözəl xislətlərlə doldurulması zəruridir. Gözəlliklərin, xeyirxah hisslərin ön plana çıxarılması üçün planlı, proqramlı çox ciddi bir çalışmaya ehtiyac vardır. Gözəl hisslər tamamilə silinmədən, qayıdışı mümkün olmayan yollara girilmədən möminlərin ciddi şəkildə irəliləməsi lazımdır. Xeyirə və şərə gedilən yollarda mütləq xeyirxah yolu seçməli və bu yolda gedənlərin sayının çoxaldılması üçün mübarizə aparılmalı, buna görə bir araya gəlinməlidir.

Unutmamaq lazımdır ki;

(إِنَّ الأَبْرَارَ لَفِي نَعِيمٍ) "Birr sahibləri əlbəttə ki, Cənnətdədir."

(وَإِنَّ الْفُجَّارَ لَفِي جَحِيمٍ) "Günahkarlar, pislər də şübhəsiz Cəhənnəmdədir." (əl-İnfitar, 82/14)

Əbu Talha Birrə çatmaq üçün çırpınan, bu uğurda nələr ediləcəyini heyran qalacaq gözəlliklərlə büruzə verən və inanırıq ki, çox şeylər qazanan bir insandır. Və inanırıq ki;

وَمَا عِنْدَ اللَّهِ خَيْرٌ لِلْأَبْرَارِ...

"Birr sahibi insanların Allah nəzdində əldə edəcəkləri mükafat daha çoxdur, daha xeyirlidir." (Ali-İmran, 3/198)

❋

Gözəl və Dəyərli Mehr

Mehr, islam hüququnda bir xanımın məqbul və şəri bir nikah qarşılığında əldə etdiyi maldır. Bu nikahın şərtidir və ər tərəfindən xanıma verilmək məcburiyyəti vardır. Verilən mehr xanımın özünə aiddir və şəxsi mülküdür.

Mehr, xanıma dəyər verildiyinin göstəricisidir. Həmçinin onun gündəlik dolanışıq xaricində şəxsi ehtiyaclarını təmin etməyə kömək edir, gələcəyi üçün sərmayə saxlamaq imkanı yaradır və nikahın əhəmiyyətini elan etmək mənasına gəlir.

Hər şeydə olduğu kimi mehrdə də ifrat və təfritə (nə azlıqda, nə də çoxluqda ifrata varmaq) gedilməməlidir. Əsla adi bir şey kimi də baxılmamalıdır. Evlilik həyatı, qeyri-ciddilikdən uzaq bir həyatdır. Cəmiyyətin başlıca prinsipini təşkil edir və sağlam özülü olmayan binalar daim yıxılmağa mhkumdur.

İslamın ilk dövrlərində Ümmü Süleymin etdiyi kimi bir sıra mənəvi mehrlər təyin edilmişdir. Lakin bu gün bizim mehr olaraq təyin etdiyimiz şeylərin mahiyyətinin bəlli olması və maddi dəyərinin olması lazımdır.

Lakin Ümmü Süleymin etdiyi də unudulmamalıdır. Məqsədinin dünya malı olmadığını, bir çox insanın mal-mülk əldə etmək hərisliyinə əhəmiyyət vermədiyini ifadə etməsi, həyat yoldaşı seçəcəyi insanı inkar bataqlığından çəkib çıxarması və Allah yolunda onunla birlikdə hər gün yeni bir gözəllik yaşayaraq addımlaması, əlbəttə unudula bilməz.

Buna görə Ümmü Süleymin mehri, ən dəyərli mehrlərdən sayılmışdır. Əbu Talhanın islam nuruna qovuşmasının savabını almaqla yanaşı, həyatı boyunca islama etdiyi xidmət və fədakarlıqlarda da şübhəsiz payı olmuşdur.

Çünki Allah Rəsulu;

مَنْ دَلَّ عَلَى خَيْرٍ فَلَهُ مِثْلُ أَجْرِ فَاعِلِهِ

"Xeyirə vəsilə olan bir adam, onu edən insanın aldığı savab kimi savab alar."

Mənbələrdə bu məsələ ilə əlaqədar bir çox hədisi-şərif keçir. Məhz bunlardan birini oxuyaq və düşünək:

مَنْ دَعَا إِلَىٰ هُدًىٰ كَانَ لَهُ مِنَ ٱلْأَجْرِ مِثْلُ أُجُورِ مَنْ تَبِعَهُ، لاَ يَنْقُصُ ذَٰلِكَ مِنْ أُجُورِهِمْ شَيْئًا

وَمَنْ دَعَا إِلَىٰ ضَلاَلَةٍ كَانَ عَلَيْهِ مِنَ ٱلْإِثْمِ مِثْلُ آثَامِ مَنْ تَبِعَهُ، لاَ يَنقُصُ ذَٰلِكَ مِنْ آثَامِهِمْ شَيْئًا

"Kim isanları, haqqa, hidayətə dəvət edərsə, dəvətini qəbul edən, hidayətinə vəsilə olduğu insanların aldığı savab qədər o da savab alar. Aldığı bu savab, hidayətə çatan, haqq yolda addımlayan insanların savabından heç bir şey əksiltməz.

Kim də insanları zəlalətə, azğınlığa dəvət edərsə; dəvətini qəbul edən, azğınlığına səbəb olduğu insanların aldığı vəbal, günah qədər o da vəbal və günah qazanar. Onun vəbal və günahı, zəlalətə, azğınlığa səbəb olduğu insanların vəbal və günahlarından hər hansı bir şey əksiltməz."

❋

Ümmü Süleym bir çox fəziləti özündə birləşdirən bir qadındır. Allah Rəsulu Mədinəyə hicrət etdikdən sonra hələ on yaşında olan ciyərparası Ənəsi onun yanına gətirir və; "Bunun adı Ənəsdir, sənə xidmət etsin"-deyərək Allah Rəsuluna təqdim edir. Rəsulullah da səmimi qəlbdən edilən bu hədiyyəni qəbul edir, beləliklə ciyərparası Ənəs, Allah Rəsulunun tərbiyəsi və şəfqəti ilə böyüyür. Kiçik yaşlarında Bədr savaşında belə iştirak edir və orada da Allah Rəsulunun xidmətində durur.

Yüz yaşdan çox yaşayan bu əziz səhabə, həmişə Allah Rəsulu ilə birlikdə yaşadığı gözəl xatirələri yad edərək yaşamış və bunları gələcək nəsillərə çatdırmışdır.

Ümmü Süleym hicrətdən öncə əri ilə birlikdə Aqabə beyətində iştirak edərək Allah Rəsuluna beyət etmiş, Uhudda su daşımış, yaraları bağlamış, Huneyn savaşında xidmət etmiş, əzmkarlığı ilə unudulmayacaq xatirələr qoyub getmişdir.

Müslim belə rəvayət edir:

Əbu Talha Huneyn savaşında Ümmü Süleymin əlindəki xəncəri görürür. "Ey Allahın Rəsulu! Bu Ümmü Süleymdir, əlində də xəncəri var"-deyir. Rəsulullah (s.ə.s) Ümmü Süleymə dönərək; "O xəncəri nə edəcəksən?"-deyə soruşur.Ümmü Sülüeym belə cavab verir: "Onun özümlə götürdüm, çünki bir müşrik mənə yaxınlaşarsa onunla qarnını deşəcəyəm!"

Onun bu sözləri, əzmkarlığı və qərarlılığı qarşısında Allah Rəsulu gülümsəyir.

Ənəs (r.a) anası Ümmü Süleymin Ənsar xanımları ilə savaşlarda iştirak etdiyini, su daşıdığını və yaralıları müalicə etdiyini rəvayət edir.

Başqa bir hədisdə də Uhudda Aişə anamızla birlikdə necə səhənglərlə bellərində su daşıdıqlarını rəvayət edir.

❋

Ümmü Süleymin cəsarəti, xidməti və fədakarlığı tərifə sığmayacaq qədər böyük, sayılmayacaq qədər çoxdur. Usdu-l-Ğabədə keçən bir rəvayətə görə; Allah Rəsulu belə buyurur: *"Yuxuda Cənnətə girdiyimi və orada gəzdiyimi gördüm. Birdən kimi gördüm deyə bilərsinizmi? Əbu Talhanın xanımı Rumeysanı."*

Lakin onun övladının vəfat etdiyi günün gecəsi ərinə qarşı davranışı başqa bir gözəllikdədir. Hər qadının, hər ananın edə biləcəyi bir fədakarlıq deyildir.

Bir ananın öz acısını qəlbinə həbs etməsi, evinin kişisinin yorğunluğunu, sıxıntısını düşünməsi, itirdiyi övladının acısını yaşayarkən bir xanım kimi üzərinə düşən vəzifələri yerinə yetirməsi əsla adi bir davranış, elə-belə bir hiss deyildir. Bu, həqiqətən bir ibrət nümunəsidir.

Belə ki, onun ərinə qarşı davranışı, Rəsulullah (s.ə.s) tərəfindən bəyənilmiş, duasına nail olmuşdur. Allah-Təala da verdiyi xeyirxah oğul və nəvələrlə bu duanı qəbul etmiş, belə bir davranışın Allahın rizasına vəsilə olduğu qəti şəkildə bilinmişdir.

Bu hadisə əlbəttə ki, bizə çox şey xatırlatmalıdır.

Son Nəfəsə Qədər İtməyən Xidmət Eşqi və Hissi

Əbu Talhada (r.a) olduğu kimi daha bir çox səhabədə gördüyümüz bir xislət vardır. Rəbbimizin verdiyi ömrün son anına qədər xidmət eşqini, cihad ruhunu, mübarizə və təbliğ əzmini itirməməsi, öz canlılığını qorumasıdır.

Onun qocalmasına baxmayaraq çıxdığı dəniz səfəri, cihaddan cihada atılan Xalid İbn Vəlidin yatağında vəfat etməsinə heyfslənməsi , Əbu Əyyub (Xalid İbn Zeyd) Əl-Ənsarinin Kipr səfərində iştirak etməsi, daha sonra İstanbula edilən səfərdə iştirak etməsi və mühasirə davam edərkən xəstəliyi ağırlaşıb öləcəyini dərk edincə;

إذا متّ فقدّموني فى بلاد العدوّما استطعتم ثم ادفنوني

"Əgər ölərəmsə, məni düşmən torpaqlarında apara biləcəyiniz ən son nöqtəyə qədər aparın və orada dəfn edin"-deməsi , qəbrinin belə möminlərə mənəvi dəstək olmasını istəməsi, bunun ən gözəl nümunələrindəndir.

Belə ki, bu əziz səhabə çox keçmədən bu Bizans diyarında əzan səslərini eşidərək yatmağın həzzini dadır. Gözəl İstanbulun fəthində onun bu əzmkarlığının payı olduğu bir həqiqətdir.

Abdullah İbn Məsud, Abdullah İbn Ömər, Abdullah İbn Abbas, Bilal, Ənəs İbn Malik, Salman və daha neçə-neçələrinin həyatına dair məlumatlara baxdığımızda həqiqətən heyranlığı cəlb edəcək ibrət səhnələri ilə qarşılaşırıq.

Əlbəttə bu insanların demək olar ki, hamısı onları görmək şərəfinə nail olan sonrakı nəsillərin böyük rəğbətini qazanmış, Allah Rəsulunun yanında olmağın, onunla eyni havanı tənəffüs etməyin, onun dodaqlarından süzülən cümlələri eşitməyin, onun bayrağı altında cihad etməyin, onun arxasında namaz qılmağın fərqliliyini yaşamışdırlar. Bu hal onları arxayınlaşdırmamış, özlərini başqalarından üstün tutmamışdırlar. Həmişə olması zəruri olanı ən gözəl şəkildə etməyin əzmi və şüuru içində olmuşdurlar. Özlərini başqalarından üstün tutmaq yerinə, tərbiyəsini Allah Rəsulundan almış insanlar olaraq gözəl örnək olmağı, onları tərbiyə etməyi və islamın gözəl əxlaqı ilə yetişdirərək Allah

Rəsulunun əxlaq və həyatını onlara da çatdırmağı üstün tutmuş sonrakı nəsillərdə dərin izlər qoyub getmişlər.

Onlarla yaşayan və onları özlərinə rəhbər edən nəsillər də bu əziz insanların qədrini bilmiş, onlara qarşı ehtiram göstərmiş, onlardan eşitdiklərini və gördüklərini həm öz həyatlarına əks etdirmiş, həm də sözlə və yazı ilə gələcək nəsillərə ötürmüşlər.

Onların həssaslığı və səyi nəticəsində bu gün yaxın tariximizdə belə görmədiyimiz bir zənginlikdə onların xatirələri ilə qəlbimizi doldurmaq imkanı var.

Hər nə qədər mənbələr bu qədər zəngin tarixə malik olsa da, günümüzdəki insanların bəlkə də mənbələrdən uzaqlaşması, oxumaq zövqünü və alışqanlığını itirdiyinə görə hardasa unudulmuşdur. Yaşanan bu gözəlliklərin sağlam mənbələrdən götürülməsi yerinə, qulaqdan eşidilən məlumatları və qissələri çatdırmaq daha geniş hala gəlmişdir.

Əslinə qayıtmaq, yaşanan həyatı çatdırmaq əlbəttə daha gözəl və daha təsirlidir. Eyni zamanda bizə bu qədər gözəl xatirələr qoyub gedən bu əziz insanları yad etməkdir. Onların sönməyən əzmkarlıqlarının müəyyən ölçüdə haqqını verməkdir. Onlar bizə çox şeylər qoyub getdilər.

Biz gələcək nəsillərə nə qoyub gedəcəyik?

❋

Əbu Talhanı, Ümmü Süleym Rumeysanı və onların gözəl ailə ocaqlarını əlbəttə ki, unutmayacağıq...

❋❋❋

Uhud Böyük İmtahan və İmtahan Ərənləri

Uhud Müharibəsi

Bədr savaşı hicrətin ikinci ilində, Ramazan ayında baş vermişdir. Bədrdə heç gözləmədikləri bir məğlubiyyətə düçar olan Qüreyş, məğlubiyyətin və itkilərin acısını çəkirdi.

Tanınmış liderlərini itirməklə yanaşı, bir çox insanını da, müsəlmanlara fidyə ödəyərək qurtarmaq məcburiyyətində qalmışdılar. Əzab üzərinə əzab, məğlubiyyət üzərinə məğlubiyyət dadmaq məcburiyyətində qalmışdılar.

Evlərdən ağılar yüksəlir, hər toplantıda intiqam almaq üçün and içirdilər.

Məkkədə belə çaxnaşmanın olduğu bir vaxtda, hadisəni daha da qızışdıranlar var idi. Düşünürəm ki, Kəb İbn Əşrəf bunların başında gəlirdi.

Kəb, Qubanın şimalında, üç tərəfi bağlarla əhatələnmiş özünə məxsus bir qalada yaşayırdı. Böyük olmayan bu qala, bir ailə və xidmətçiləri üçün yenə də olduqca böyük sayılırdı. Həmçinin divarları qalın idi və sağlam daşlarla hörülmüşdü. Bir tərəfində qayalıqlar, digər tərəfində uzanıb gedən xurma bağları və üzüm bağları var idi.

Kəb özünə aid bu qaladan kənara dil uzatmağı çox rahat idi.

Ətrafında olduqca sözü qəbul edilən bir insan idi. Yəhudilərin tanınmışlarından idi. Ərəblərlə də qohumluq münasibətləri qurmuşdu. Ədib və şair idi. Bu özəlliklər, həmin günlərdə ən çox rəğbət bəslənən xüsusiyyətlər idi.

Kəb Bədr savaşında müşriklərin məğlub olmasına çox üzülmüş, ilk fürsətdə Məkkəyə gedərək yanan atəşi daha da qığılcımlandırmaq üçün əlindən gələni edirdi.

Şairlərin baş verən acı xatirələri və insanın damarlarında axan qanı cuşa gətirən şeirləri hər tərəfdə oxunurdu.

Əbu Süfyanın Şamdan gətirdiyi və Bədr müharibəsinin başlamasına səbəb olan ticarət karvanındakı bütün mallar, müsəlmanlara qarşı müharibə hazırlıqları üçün ayrılmışdı.

✺

Hazırlıqlarını bitirən qüreyş, hicrətin üçüncü ili Şəvval ayında Məkkədən yola çıxdı.

İtilənmiş qılınclar, xüsusi hazırlanmış zirehlər, qalxanlar, oxlar, nizələr, xüsusi təlim keçən atlarla kənardan baxıldıqda hər şeyi ilə tam təchiz olunmuş bir ordu.

Sağ qanad süvarilərinin başında Xalid İbn Vəlid, sol qanadında Əbu Cəhlin oğlu İkrimə, ordunun başında və mərkəzdə Əbu Süfyan, kəcavələrdə xanımlar və yanlarında dəflər...

Xanımlar iki məqsədlə gəlirdilər. Birincisi ərlərinin onları qoyub qaçmayacaqlarını hamıya elan etmək mənası daşıması, geriyə çəkiləməmək əzmini göstərməsi və beləliklə əmin olmaq üçün.

İkincisi: Savaşda kişiləri təhrik etmək üçün. Dəflər də buna görə götürülmüşdü.

Qadınların başında Əbu Süfyanın xanımı **Hind** var idi. Çox ağıllı, göstərişli və cəsarətli qadın idi. İntiqam almaq hərisliyi ilə yanırdı. Bədrdə atasını, əmisini və qardaşını itirmişdi.

Əri, qaynı və üç oğlu ilə gələn **Sülafə**, Amr İbn Asın xaımı **Rayta**. Əbu Cəhlin oğlu İkrimənin xanımı **Ümmü Hakim** Hində ən çox dəstək olaraq orduda öz yerlərini almışdılar.

Onların arasında əsas hədəfi savaş etmək olmayan bir nəfər də var idi. Cübeyr İbn Mutimin köləsi **Vəhşi**.

✺

Vəhşi Həbəşistan əsilli idi. Həbəşlilərin çox bacarıqlı bir nizə atmaq taktikaları var idi. bunu ən yaxşı bacaran və hədəfini çox asanlıqla vuranlardan idi.

Məkkədən ayrılmadan öncə ağası Cübeyr onu yanına çağıraraq; "Sən də ordu ilə birlikdə yola çıx. Əgər əmimin qisası olaraq Həmzəni öldürsən, səni köləlikdən azad edəcəyəm"-deyir.

Cübeyrin əmisi Tuaymə İbn Adiyy, Bədrdə qətl edilmişdi. Bu səbəbdən o da Peyğəmbərimizin əmisini öldürərək intiqamını almaq istəyirdi.

Vəhşi qərarını vermişdi. O, azadlığına qovuşmaq istəyirdi. Məşhur nizəsini götürmüş və ordu ilə birlikdə Mədinəyə tərəf irəliləyirdi.

Hind bu məsələdən xəbərdar idi. Ona görə də yol boyunca Vəhşiyə hər rast gəldiyində, "İçimdəki intiqam hissini söndür, susuzluğumu yatır, mən də səni dünya malına qərq edim"-deyərək onu Həmzəni (r.a) öldümək hiddətini artırmağa çalışırdı.

❋

Qüreyşin məşhurlarının qaça bilməyəcəklərini isbat etmək üçün yanlarında gətirdikləri yalnız qadınlar deyildi. Ən dəyərli mallarını gətirənlər də var idi.

Müşriklər, müsəlmanların çıxara biləcəyi ordunun gücünü təxmini olaraq bilirdilər. Bu dəfə onların sayının üç qatı qədər bir ordu ilə gəlirdilər. Silah baxımından da üstünlük onlarda idi. Minikləri isə müqayisə edilməyəcək dərəcədə çox idi. İslam ordudusunda demək olar ki, heç süvari yox idi.

Müşriklərin süvari ordularının olması, onlara sürət və gözlənilməyən nöqtələrə cəld hücum etmək imkanı verirdi.

❋

Həmin vaxt Rəsulullah (s.ə.s) səhabələri toplamış, onlarla gələn düşmənə qarşı ediləcək savaşla əlaqədar məşvərət edirdi.

Öz təklifini irəli sürdü. O, müdafiə savaşı etmək istəyirdi. Mədinənin girişlərinə barrikadalar qurulsun, düşmən bu barrikadaları keçib Mədinəyə daxil olarsa; küçə-küçə, ev-ev savaşmaq

imkanının olmasını istəyirdi. Beləliklə düşmən Mədinəyə daxil olacaq, bölüklərə ayrılacaq və yeri gəldiyində evlərdən, evlərin damlarından ox, nizə, hətta daş ataraq, yeri gəldiyində üzbəüz qılıncla savaşmaq imkanları olacaqdı. Beləlikə şəhər onlara aid olduğuna görə savaşdakı üstünlükləri hər hansı bir meydan savaşından daha yaxşı olacaqdı.

Münafiqlərin başçısı Abdullah İbn Səlul da eyni fikirdə idi. Mədinədən kənara çıxmamağı, müdafiə savaşı etməyi istəyirdi. Yeri gələrsə qadınların və uşaqların belə damların üstündən daş yağdıraraq kömək edəcəyini düşünürdü.

Lakin düşmən nə qədər çox olursa-olsun, çəkinməməyin zəruri olduğunu müdafiə edən və meydan savaşı itəyənlər də var idi. Xüsusilə gənclər və Bədr savaşında iştirak edə bilməyənlər, israrla bu təklifi irəli sürürdü. "Ey Allahın Rəsulu! Bizi düşmənin qarşısına çıxar! Qorxduğumuzu və ya zəif olduğumuzu zənn etməsinlər!"-deyirdilər.

Bundan daha betərini deyənlər də var idi: "Biz bu günü gözləyirdik. Bu arzu ilə Rəbbimizə dua edirdik. Allah ayağımıza gətirdi."

Həmzə (r.a); "Sənə Quran enridənin haqqı üçün onlarla savaşaq."-deyərək meydan savaşını üstün tutduğunu deyirdi.

Nuaym İbn Malikin sözləri isə heç unudulmayacaq qədər təsirli idi:

"Ey Allahın Rəsulu! Bizi Cənnətdən məhrum etmə! Nəfsim əlində olan Allaha and içirəm ki, oraya girəcəyəm."

Rəsulullah (s.ə.s) soruşur: "Nə ilə?"

"Allaha və Rəsuluna olan sevgimlə. Mən savaş meydanından əsla qaçmayacağam."

Allah Rəsulu (s.ə.s): "Bu sözlər doğru sözlərdir"-buyurur.

Bu fikri müdafiə edənlər, Bədrdə də az olan mücahidlərin düşməni darmadağın etdiyini, eyni şeyin yenə təkrarlanacağını, orada ən qiymətli insanlarını itirən qüreyşin bu savaşda yeni bir acını dadacağına əmin idilər.

Həmçinin Bədrdə iştirak edən mücahidlərin fəzilətlərini bilir və həmin fəzilətə çatmağı arzu edirdilər.

Bütün bu hisslərlə meydan savaşını israrla istəyir, müdafiə savaşı etmək təklifi onları inadlarından döndürə bilmirdi.

❋

Nəticədə, Allah Rəsulu (s.ə.s) onların təklifini qəbul edir və meydan müharibəsi üçün hazırlıqlar başlayır.

Hamı meydana çıxmaq üçün durmadan hazırlaşırdı. Hazırlıqlarını bitirənlər, Məscidi-Nəbinin yanına toplaşmağa başlamışdılar.

Aralarından bir nəfər; Rəsulullah (s.ə.s) bizə Mədinədə qalmağı əmr etdi. O, Rəbbini və Onun nə istədiyini bizdən yaxşı bilir. Yeddi qat səmadan vəhy alır"-dedi.

Bu sözlər doğru idi. Rəsulullahın (s.ə.s) yanına gələrək; "Ey Allahın Rəsulu! Bizə əmr etdiyin kimi Mədinədə qalaq. Biz, səni sanki razı olmadığın bir şeyə məcbur etdik. Siz necə əmr edirsinizsə elə edək"-dedilər.

Rəsulullahın buna cavabı qəti idi; *"Savaş üçün zirehini geyinib, insanları düşmənə qarşı meydana çıxmağa çağırdıqdan sonra bir peyğəmbərə geri addım atmaq yaraşmaz. Meydandan geri qayıtmaz.*

Sizi qalmağa çağırdım, çıxmağa israr etdiniz. İndi Allah üçün təqvalı olun. Çətin anlarda dözümlü olun, səbat edin, çətinliklərə sinə gərin. Allah sizə düşmən qarşısında nə etməyinizi əmr edirsə, onu edin!"

❋

Rəsulullah (s.ə.s) minə qədər səhabə ilə birlikdə Mədinədən ayrılaraq Uhuda tərəf yola çıxdı.

Mədinədən ayrıldıqdan sonra Mədinə ilə Uhud arasında yerləşən və "Şeyxeyn" deyə yad edilən təpəciklərin yanında gecələdi. Rəsulullah (s.ə.s) burada ordunu yenidən gözdən keçirdi.

Müsəlmanların sayı düşmənlə müqayisədə çox az idi. Bütün igidlər cihada çağırılmış, Allah Rəsulunun yanında cihad səfin-

də dayanmaq istəyən hər mücahid, yarışırmış kimi səflərdə durmağa başladılar.

"Şeyxeyn" də görülən bu ordu təftişi, gözləri yaşardacaq bir həqiqəti gözlər önünə qoyur. Səflər arasında 13-15 yaşları arasında uşaqlar da var idi. Kimisi gözə dəyər qorxusu ilə səflər arasında özünü gizləməyə çalışır, kimisi də barmaqlarının ucuna qalxaraq özünü göstərməyə çalışırdı.

Onların bu halı, igidliklə duruşları, cəsarətləri və döyüş əzmkarlıqları Rəsulullahı (s.ə.s) son dərəcə kövrəldir, lakin yenə də onları səflərdən ayır.

Həmin gün savaşa getməyə razı olmayan səhabələr arasında;

Həzrət Ömərin oğlu Abdullah, Zeydin oğlu Üsamə ilə Zeyd İbn Sabit, Bəra İbn Azib, Əbu Səid əl-Xudri, Useyd İbn Zahir, Urabə İbn Evs, Rəfi İbn Hadic, Səmurə ibn Cündub da var idi.

Bu igidlərin çoxu hələ 14 yaşında idi. Aralarında 13 yaşda olanı da var idi. Rəfi (r.a) isə 15 yaşına girmişdi. Atası oğlunun cihad səflərindən ayrılmasını istəmirdi. Rəsulullahın (s.ə.s) yanına gələrək; "Ya Rəsulallah! O, çox gözəl ox atmağı bacarır."-deyir və oğlunun cihadda iştirak etməsini istəyir. Bunu gözdən qaçırmayan və yerində dəyərləndirən daha bir nəfər var idi. Səmurə İbn Cündüb (r.a). O da Allah Rəsulunun yanına gələrək: "Ya Rəsulallah! Rəfiyə icazə verdiniz, məni savaşa qəbul etmədiniz. Mən onu güləşdə yıxıram!"-deyir; Rəsulullah onları güləşdirir və həqiqətən də onu yıxaraq cihadda iştirak etməyi bacarır.

❋

Rəsulullah (s.ə.s) səhabələrlə birlikdə həmin günün əsr namazını, sonra axşam və işa namazlarını burada qıldı. Burada gecələdi və sübh namazını qıldıqdan sonra Uhuda hərəkət etdi.

Müsəlmanların min nəfərlik ordusuna qarşı, müşriklər üç min nəfərlik ordu ilə gəlmişdi.

İslam ordusu Uhuda gedərkən başqa bir hadisə də baş verdi. Abdullah İbn Səlul da Mədinədən çıxmamağı, müdafiə savaşı tərəfdarı idi. Rəsulullahı (s.ə.s) nəzərdə tutaraq ətrafındakılara; "Onların sözünə baxdı, mənim təklifimi qəbul etmədi. Mənim

düşüncələrimi heçə saydı. Başa düşmürəm nəyin uğrunda gedib özümüzü həlak edəcəyik?"-deyir. Daha sonra ona tabe olan, qəlbindən şübhələri ata bilməyən 300 nəfərlə birlikdə ordudan ayrılaraq Mədinəyə geri qayıtdı.

Səhabələrdən Abdullah İbn Amr İbn Haram arxalarınca gedərək; "Allah rizası üçün sizi xəbərdar edirəm. Düşmənin gəldiyi bir məqamda öz qövmünüzü və Peyğəmbərinizi tərk etməyin"-desə də, bu sözlər onları geri qaytarmağa kifayət etmədi.

Gedən dəstənin arxasınca baxarkən dediyi son kəlmələr çox ibrətli idi: "Allah, Peyğəmbərini sizə möhtac etməsin!"-deyir.

Abdullah İbn Ubeyin adamları ilə birlikdə ayrılmasından sonra İslam mücahidləri 700 nəfər qalır. Beləliklə düşmənin üstünlüyü daha da artır. Artıq müsəlmanların dörd qatından da çox döyüşçüləri var idi.

❋

Uhud dağının ətəyinə çatdıqlarında Peyğəmbərimiz ordunu Uhud dağını arxasına alacaq şəkildə yerləşdirdi. Başqa bir ifadə ilə islam ordusu kürəyini Uhud dağına söykəyir.

Bu, sayca daha çox olan müşrik ordusundan bir bölüyün ayrılaraq arxadan hücum etmək imkanını məhdudlaşdırmaqla yanaşı, müdafiə olunduğu təqdirdə müdafiə rahatlığını da təmin edəcəkdi. Çünki dağa tərəf çəkilmək onlara üstünlük fürsəti verəcəkdi. Bu isə həmin dövrün şərtlərində ox, nizə hücumlarına qarşı onlara qorunmaq imkanı verəcək, öz ox və nizələrini aşağıya doğru hədəfə dəqiq ata biləcəkdilər.

Yalnız bir təhlükə qalırdı:

Müşriklər, Əqiq vadisi ilə birləşən "Saza vadisi" istiqamətindən gəlirdilər. Mədinə tərəfindən baxıldığında Uhud sıra dağlarının qarşısında özlərinə mövqe seçmişdilər.

Sağ və sol qanadlarında atlı süvari birlikləri var idi. İkrimənin başında olduğu sol qanadın islam ordusunun arxasına sızması çətin idi. Tutduğu mövqe dağa tərəf gəldiyinə görə yeri buna əlverişli deyildi. Sağ tərəfdə mövqe tutan Xalid İbn

Vəlidin sağdan qarşı tərəfi açıq idi. Vadi ilə irəliləyib "Ayneyn" təpəsindən qayıdaraq ordunun arxasına keçə bilirdi. İslam ordusu axrasını Uhud dağına söykədikcə bu mümkün deyildi. Lakin düşmən geri çəkildiyi halda, onun arxasınca irəliləyən islam ordusunun arxası boşalar, Uhud ilə arasında hücum imkanı verən bir boşluq meydana gələ bilərdi. Fürsət güdən bir bölük belə halda müsəlmanları arxadan vura bilərdi.

Rəsulullah (s.ə.s) belə bir hücumun qarşısını almaq üçün "Ayneyn" təpəsinə 50 oxçu yerləşdirdi və başlarına Abdullah İbn Cübeyri əmir təyin etdi. Onlara ordunun arxasını süvarilərdən qorumalarını əmr etdi və onlara belə buyurdu: "Savaş istər lehimizə, istərsə əlyehimizə cərəyan etsin, buradan ayrılmayın. Sizin tərəfdən hücum olmasın!"

Tapşırığı qəti və israrlı idi. Belə ki; bir rəvayətdə Rəsulullahın bu oxçulara; "Quşların yerdən toxum dənləyir kimi əsgərləri dənlədiyini görsələr yerlərindən ayrılmamalarını" əmr etdiyi rəvayət edilir.

Bəyaz libasa bürünmüş halda cihad meydanına gələn Abdullah İbn Cübeyr, bunu dərk edəcək və nə olursa olsun itaət edəcək şüurda idi.

Rəsulullah (s.ə.s) islam bayrağını Musab İbn Umeyrə verdi. O, bu etimada layiq bir insan idi.

Müşriklərin bayrağı isə Abdu-d-Dar oğullarında idi. Əbu Süfyan onların yanına gələrək Bədrdə qaçdıqlarını, ilk məğlubiyyətin onlarla başladığını və nəticənin nə dərəcədə pis olduğunu xatırladır; haqqını verəcəklərsə, bayrağı daşımalarını, haqqı ilə qoruya bilməyəcəklərsə, buraxmalarını istəyir. Bu sözlər, uzun müddətdən bəri bayrağı daşıyan bu sülalənin qanını coşdurur; "Görəcəksən bayrağı sizə sağlam şəkildə təslim edəcəyik"-deyir və bu sözləri əlavə edirlər; "Savaşda bizi seyr edəcəksiniz."

Əbu Süfyanın da istədiyi bu idi.

❋

Ordular mövqeyini tutmağa, gərginlik artmağa başlamışdı. Başlarında Hindin olduğu qadınlar dəf çalıb şeirlər söyləyərək kişiləri döyüşə təhrik edirdilər.

وَيْهَا بنَي عَبْدِ الدّار وَيْهَا حُمَاةَ ٱلأَدْبَارْ!
ضَرْبًا بِكُلِّ بَتَّار.

Hind nə deyəcəyini yaxşı bilən bir qadın idi və üzərinə düşən vəzifəni tam şəkildə yerinə yetirirdi.

إِنْ تُقْبِلُوا نُعَانِقْ وَنَفْرُشُ النَّمَارِقِ
أَوْتُدْبِرُوا نُفَارِقْ فِرَاقَ غَيْرَ وَامِقْ.

Müşriklərin ordusunda savaşa təhrik edəcək mahnılar oxunarkən; Rəsulullah (s.ə.s) əlindəki qılıncı götürərək; "Bu qılıncın haqqını kim verəcək?"-deyə soruşur.

Uzanan əllər və "Mən ya Rəsulallah!" deyənlərin sayı heç də az deyildi.

Lakin sualı bir neçə dəfə təkrarlayır və axırda Əbu Dücanənin əlinə təslim edilir.

Ləqəbi Əbu Dücanə olan Simak (r.a); "Haqqın qarşılığında mən götürürəm ya Rəsulallah!"-deyir və arxasınca da "Haqqı nədir?"-deyə soruşur.

Rəsulullah belə buyurur: "Onu əsla müsəlmanlara qarşı istifadə etməməyin, o əlində ikən düşmən qarşısından qaçmamağın, qırılana və ya əyilənə qədər cihada davam etməyin."

Allah Rəsulu (s.ə.s) qılıncı ona verir və qılıncı təslim alan Əbu Dücanə qırmızı rəngli enli çalmasını çıxarıb alnına gələcək şəkildə başına bağlayır və Rəsulullahın (s.ə.s) qılıncı əlində çox ədalı bir şəkildə addımlamağa başlayır.

Onun bu yerişini görən Rəsulullah (s.ə.s); ""Bu yeriş Allahın qəzəbinə səbəb olacaq bir yerişdir. Lakin belə bir yerdə deyil"-buyurur və onun bu yerişinin cihad meydanına xas olduğunu bildirir.

Vəziyyət gərginləşmiş, qəlblər sürətlə vurmağa başlamışdı. Ordular üz-üzə gəldilər. Təkbir səsləri ucaldı və "Əmit, əmit" (ölümünə vur) hayqırışları ilə yerlərindən sıçrayan mücahidlər düşmən səflərinə girdilər. Həmzə, Ömər, Əbu Dücanə, Əli, Əbu Ubeydə, Talha, Zübeyr, Asim, Əbu Talha, Musab (r. anhum) və daha neçə-neçə igidlər düşmən səflərini elə ilk anda dağıtmış, düşmən nə edəcəyini bilməz hala gəlir.

Əbu Dücanə şeir söyləyirdi:

أَنَاالَّذِي عَاهَدَنِي جَلِيلِي وَنَحْنُ بِالسَّفْحِ لَدَى النَّخِيلِ

أَلاَّ أَقُومَ الدَّهْرِ فِى الكَيُّولِ أَضْرِبُ بِسَيْفِ اللَّهِ وَالرَّسُولِ

"Bil ki, mən sevgili dostumun əhd bağladığı insanam,
Dağ ətəyində yerləşdik, dayandıq xurmalıqlar yanında
Heç vaxt olmaram arxa səflərdə, gözdən uzaqda
Durmaram, vuraram düşmənə Allah qılıncı ilə, Rəsul qılıncı ilə."

Həqiqətən də döyüşürdü. Qılıncın haqqını verərək döyüşürdü.

Zübeyr İbn Avvam (r.a) Peyğəmbərimizin (s.ə.s) bibisi Səfiyənin oğlu idi. Çox cəsur və yaxşı bir döyüşçü idi. O belə rəvayət edir:

"Həmin gün Rəsulullahın (s.ə.s) qılıncını mənə verəcəyinə ümid edirdim. Almaq üçün də çox istəkli idim. Qılıncı mənə verməyib Əbu Dücanəyə verincə qəlbimdə küskünlük yarandı. Qüreyşliyəm, Əbu Dücanədən öncə mən ayağa qalxaraq qılıncı birinci istədim. Lakin Rəsulullah (s.ə.s) qılıncı ona verdi. Allaha and olsun ki, onun nə edəcəyinə baxacağam!"-dedim və onu izləməyə başladım."

Zübeyr (r.a) daha sonra onun başına necə qırmızı çalma bağladığını, bunun "ölümünə" mənasına gəldiyini, şeirlərini, qarşısına kim çıxarsa, onu necə yerə sərdiyini rəvayət edir və belə davam edir:

"Müşriklərdən bir nəfər var idi. Yaxşı döyüşür, xüsusilə yaralı gördüyündə hücum edib öldürürdü...

Bir-birlərinə yaxınlaşdılar. İkisini üzbə-üz gətirməsi üçün Allaha dua etdim. Çox keçmədən də rastlaşdılar.

Müşrik olan bir nəfər hücum edərək qılıncını yellədi. Əbu Dücanə bu hücumu qalxanı ilə qarşıladı və yayınaraq düşmənin qılıncını boşa çıxardı. Sonra da müdhiş bir zərbə ilə onu yerə sərdi.

Savaş vaxtı səflərin arxasına qədər irəliləyərək qılıncını Hindin boğazına dirədi. Sonra; "Allah Rəsulunun qılıncını savaşmayan bir qadının qanına bulaşdıra bilmərəm."-deyərək istiqamətini dəyişdirdi və hücuma hazırlaşan başqa bir müşriki öldürdü."

Bütün bunları görüncə öz-özümə ; "Allah Rəsulu daha yaxşı bilir" -dedim.

Həmzə (r.a) qüreyşin bayraqdarlarından Ərtab İbn Sürahbin yanına qədər irəliləyərək onu qətl edir. Daha sonra başqa bir bayraqdar olan Osman İbn Əbi Talhanı da yerə sərir.

Savaş şiddətli şəkildə davam edir. Əlli nəfəri də Ayneyn təpəsində qoyaraq 650 nəfər qalan mücahidlər, çox keçmədən özlərində dörd qat çox olan düşmən ordusunu darmadağın edir.

Edilən hücumlarla düşmən səfləri dağılır və sonra panikaya düşürlər. Artıq hamı qaçmağa başlayır. Əvvəlcədən dəf çalıb kişiləri qızışdıran qadınlar, ətəklərini çırmayıb yamaclara tərəf qaçmağa başlayırlar.

Bəra İbn Azibin Səhih əl-Buxaridə keçən rəvayətində qaçanların "qənimət, qənimət" -deyə qışqırdıqları keçir. Bununla diqqəti geridə qalan mallarına çəkmək istədikləri aşkardır. Daha aydın bir ifadə ilə bu; "Siz qalib gəldiniz, bizi buraxın qənimət toplamağa baxın!"-demək idi.

Təəssüf ki, belə də oldu. Savaşı buraxıb qənimət toplamağa başlayanlar oldu.

Bu, bir qədər də qəti şəkildə zəfər qazanmaq əzmi ilə qiymətli mallarını yanında gətirənlərə qarşı bir davranış idi. Lakin səbəbi nə olursa olsun, ciddi bir xəta idi.

Və təəssüf ki, xətanın daha böyüyü baş verdi. Rəsulullahın təpəyə yerləşdirdiyi oxçular, bütün xəbrdarlıqlara baxmayaraq Ayneyn təpəsini tərk edərək aşağıya, qənimət toplamağa enirlər. Əmirləri olan Abdullah İbn Cübeyr; "Rəsulullah bizə nə əmr etdi! Bizdən necə bir vəd aldı, nə tapşırdı?"-deyərək oxçuları dayandırmağa çalışsa da, bu sözlər onları durdurmağa kifayət etmədi. Artıq hamı həyəcanla qənimət toplamağa qaçır, bəlkə də heç onun dediklərini qənimət dalınca qaçanların çoxu eşitmirdi. Təpədə onunla birlikdə yalnız bir neçə silahdaşı qalır.

Çox ağıllı və qabiliyyətli bir komandan olan Xalid İbn Vəlid, edilən xətanı görür və dərhal tabeliyindəki süvari bölüyü ilə hücuma keçir. Qarşılarını kəsməyə çalışan Abdullah və silahdaşları şəhid olurlar. Həmin tarixdən etibarən "Oxçular təpəsi" deyə yad edilən Ayneyn təpəsini arxadan keçib müşrikləri qovalayaraq irəliləyən müsəlmanların arxasına keçir və islam ordusuna arxadan hücuma başlayır.

Müsəlmanlar isə tam əmin idilər ki, artıq qələbə çalacaqlar. Bir qismi savaşı buraxıb qənimət toplayırdı. Mərkəzdən komandanlığı tamamilə itirmişdilər. Arxadan hücuma məruz qalınca edilən xəta başa düşüldü. Dərhal özlərinə gəlməyə çalışdılar. Ancaq Xalidin hücum etdiyini qaçan müşriklər də görüb geri qayıtdılar.

Müsəlmanlar artıq ikitərəfli hücuma məruz qalırlar. Ordunun dağılması və komandandan ayrı düşmək təhlükəni daha da böyüdür.

Çox keçmədən savaş, müsəlmanların əleyhinə döndü. Artıq meydan ciddi bir qarışıqlıq yaranır.

Rəsulullahın (s.ə.s) ətrafı seyrəlmiş, az sayda müsəlman onu qorumaq üçün əsla unudulmayacaq fədakarlıqlar edirdilər.

Həmin anda islamın qürbətdəki ilk dəvətçisi, hicrət yurdunu hicrətə hazırlayan gözəl insan, igid bayraqdar Musab İbn Umeyr şəhid edilir. O Allah Rəsuluna (s.ə.s) bənzəyirdi. "Muhəmməd öldü!"-deyə bir səs eşidildi və qulaqdan qulağa yayıldı. Bu xəbər, müşrikləri daha da qızışdır, möminlərin isə həvəsini öldürür.

Savaş meydanının digər hissəsində isə başqa bir fəlakət yaşanır. Cübeyr İbn Mutimin köləsi Vəhşi, addım-addım Həmzəni (r.a) izləyir. Özünün də dediyi kimi onun edilən müharibə ilə heç bir əlaqəsi yox idi. Savaşa qarışmır, hürriyətini qazanmaq və vəd edilən mükafatı əldə etmək istəyirdi. Bunun yolu isə Həmzəni öldürməkdən keçirdi.

Qayaların arasında gizlənərək Həmzəni izləyir və nizəsini atmaq üçün münasib fürsət axtarır.

Savaş meydanında Həmzəni tapmaq bir o qədər də çətin deyildi. O bəzən başına, bəzən də sinəsinə uzaqdan görülüb tanınması üçün dəvəquşu tükü taxardı. Bu, "Mən burdayam, özünə arxayın olan mənə tərəf gəlsin, qarşıma çıxsın"-demək idi.

Düşmənlərdən daha bir nəfər yerə sərmiş və Siba İbn Abdul-Uzza adlı müşrikə tərəf irəliləyirdi. Həmin an, Vəhşi üçün çox əlverişli bir an idi. Həmzənin (r.a) arxası ona tərəf idi. Həzrət Həmzə düşməninə qılıncını endirərkən, o da arxadan nizəsini ona tulladı. Həmzə (r.a) düşmənini yerə sərərkən nizə də arxadan kürəyinə saplandı və arxadan girib ön tərəfdən çıxdı.

O böyük, igid insan heç bir şey olmamış kimi geri qayıtdı və hiyləgərcəsinə arxadan nizə ilə vuran Vəhşiyə tərəf addımladı. Vəhşi çox qorxmuşdu. Ancaq Şəhidlər Sultanı ona tərəf iki addım ata bildi. Sonra yerə yıxıldı.

O ruhunu təslim edənə qədər Vəhşi uzaqda gözlədi. Sonra gələrək nizəsini götürdü və məqsədinə çatmış bir insan olaraq geri çəkildi. Onun üçün savaş bitmişdi. Münasib bir zamanda gedib müjdəsini verəcəkdi.

Artıq Uhud meydanında çox fərqli mənzərələr yaşanırdı. Çətin anlar başlamışdı. Çətin anlar daim fədakar igidlərin, səmimi könüllərin özünü göstərdiyi anlardır.

Səhabələrin bir qismi savaşda əl-ayağı yanına düşüb nə edəcəyini bilmir, bir qismi dünyadan və dünyadakı hər şeydən əl çəkib döyüşür, bir qismi də Rəsulullahın (s.ə.s) ətrafında halqalanıb bütün varlığı ilə onu qorumağa çalışırdı. Böyük bir imtahan başlamışdı.

Allah Rəsulu, ordunu yenidən toplamağa, yamaclara tərəf çəkərək müdafiə olunmağa, itkiləri azaltmağa çalışırdı. Həmin anda atılan iri bir daşla yaralanmış, zirehinin halqaları yanağına batmış, yaralanan yerdən axan qan mübarək yanağı ilə aşağı süzülür. Sağ alt azı dişindən öncəki dişi qırılmış və dodağı yarılmışdı.

Yorğunluq, qan itkisi Allah Rəsulunu taqətdən salmışdı. Belə bir vəziyyətdə ikən düşmənin müsəlmanların irəliləməsinə mane olmaq üçün qazdığı çüxurlardan birinə yıxılır . Əli (r.a) qaçaraq Rəsulullahın əlindən tutur. Talha (r.a) çüxura atılıb onun kürəyində yuxarı qaldırır və Əli (r.a) Allah Rəsulunu kənara çıxarır.

Düşmən tez-tez Rəsulullahın yaxınlığına qədər gəlir, ətrafında halqa olan mücahidlər təsəvvür edilməyəcək bir fədakarlıq və cəsarətlə onlara imkan vermirdilər.

Talhanın bu savaşdakı fədakarlıqlar əsla unudulmayacaq. O da yorulmuşdu, ancaq bezmir və hər təhlükəyə sinə gərirdi. Bitməyən bir enerji ilə hər yerə özünü çatdırırdı. Allah Rəsulunu yamaca dırmaşarkən də eyni şəkildə qoruyur, qayaların üzərinə alaraq təhlükəsizliyini təmin etmək üçün çırpınır; qayıdıb təkrar düşmənlə vuruşur və sonra yenə qayıdıb Rəsulullahın köməyinə özünü çatdırır.

Yeri gələndə bədənini qalxan edir, bir ovuc möminlə onu qoruyurdu. Hər tərəfi qan içində idi. Birdə qarşısındakı ilə vuruşarkən Rəsulullaha hücum edildiyini görür və tərəddüd etmədən əli ilə bu qılınc zərbəsinin qarşısını alarkən barmaqlarını itirir və şikəst qalır.

Onun bu davranışı, təsəvvür edilməyəcək dərəcədə böyük bir fədakarlıq idi.

Əbu Bəkr (r.a) onun Uhudda etdiklərini yaxından görən bir insan idi. Uhud yad edildikcə; "O günün bütünü Talhanındır"- deyərdi.

Meydanda da yorulmadan vuruşan igidlər var idi. Onlar axirətini dünyadan daha çox sevən və bu şüuru tam şəkildə or-

taya qoyan insanlar idi. Çətin günlərin yorulmaz igidləri, tarix səhifələrində silinməz xatirələr qoyub getmişdirlər.

Onların fədakarlıqları, müşriklərə zəfər sevincini yaşamaq imkanı vermir.

Allah Rəsulu (s.ə.s) yamaclardakı mövqeyini tutur və artıq möminləri müdafiə üçün daha yaxşı mövqe tutmağa çalışırdı.

Allah Rəsulunun (s.ə.s) yanağındakı zireh qırıqlarını Əbu Ubeydə dişləri ilə çıxarır və halqaları çıxararkən iki qabaq dişini itirir.

Əli (r.a) qalxanın içində su gətirir və Fatimə (r.a) bu su ilə Peyğəmbərimizin yanağındakı qanları yuyur; axan qan durmayınca bir həsir parçasını yandıraraq külünü yaraya basdı və qanı bu şəkildə durdurdu.

Rəsulullahın (s.ə.s) həyatda olduğu, Uhudun yamacında dayandığını görən möminlər ona tərəf yaxınlaşmağa başladılar.

Rəsulullah (s.ə.s) da; "Mənə tərəf gəlin, mənə tərəf!"-buyuraraq səhabələri yamaca çağırır, onun səsini eşidənlər, onu görənlər gələrək ətrafına yığışırlar.

Yenidən müsəlman ordusu özünə gəlir. Orduda yenidən canlanma başladı. Bir dəstə müşrik, yan tərəfdən yamaca dırmaşaraq yeni bir hücum təşkil etmək istəsə də, Ömər (r.a) onları gördü və silahdaşları ilə birlikdə onları geri oturtdu.

Yüksək mövqelərdən düşməni ox yağmuruna tutdular. Əbu Talha qolu çox güclü bir insan idi. Yayı əlində son nöqtəyə qədər gərir, yaydan çıxan oxlar fit çalaraq uzaq məsafələrə qədər uçurdu. Bəzən yay bu güclü gərməyə dayana bilməyib sınır. Həmin gün əlində üç yayın qırıldığı rəvayət edilir.

Hər iki tərəfin də yorulduğu aşkar şəkildə hiss edilirdi. Çox keçmədən savaşın tempi aşağı düşdü.

Həmin anda müşrik qadınlar savaş meydanında qalan şəhidlərin burnunu, qulağını kəsir; beləliklə kin və nifrətlərini yatırtmağa çalışırdılar. Bu şəkildə insanın orqanlarını kəsməyə "müslə" deyilirdi. Hind də Həmzənin (r.a) yanına gəlir və o da müslə edir. Həzrət Həmzənin sinəsini yararaq ciyərini çıxarıb

çeynəyir. Kinlə dolu olan qəlbi bu davranışa dözdüyü halda, mədəsi dözmür və qusur.

Əbu Süfyan atı ilə yamaca doğru yaxınlaşdı və savaşın son dəqiqələrinin yaşandığını göstərən bu cümlələri söylədi:

"Savaş, tərəflər arasında davam edib gedər! Bu gün Bədrin qarşılığı olan gündür! Ölülərdən müslə edilənlər var. Mən əmr etmədim. Bu barədə məni pisləməyin." Sonra şüar olaraq "Yaşasın hübel!"-deyə bağırdı.

Rəsulullah (s.ə.s), Ömərə (r.a) qalxıb cavab verməsini əmr edir. Ömər (r.a) gur səsi ilə onun şüarına qarşı:

"Allah, daha uca, daha əzizdir! Təkdir; başqa ilah yoxdur!

Bizim ölülərimiz Cənnətdə, sizinkilər Cəhənnəmdədir." -dedi.

Bu, həmin anda Uhud meydanında yatan ölülərin aqibəti haqqında qısa bir məlumat idi. "Bir qrup Cənnətdə, bir qrup cəhənnəm atəşində."

Əbu Süfyan bu sözlərə necə cavab verəcəyini bilmirdi. Sözü dəyişdirdi: "Ömər, mənə tərəf yaxınlaşarsanmı?"-dedi. Görünürdü ki, qəti və konkret öyrənmək istədiyi bir şey var idi.

Peyğəmbərimiz Ömərə; "Yaxınlaş bax gör nə istəyir?"-buyurunca Ömər yaxınlaşdı. Doğurdan da Əbu Süfyan nəyisə soruşmaq istəyirdi:

"Allah rizası üçün doğru söylə Ömər! Muhəmmədi öldürdükmü? "

Ömər cavab verdi: "Allah haqqına xeyr! Hal-hazırda səni eşidir."

Həzrət Ömərdən bunu eşidən Əbu Süfyanın sözləri də çox ibrətli idi: "Sənin İbn Kamiədən daha doğru sözlü, daha dürüst olduğuna inanıram."

İbn Kamiə Peyğəmbərimizi öldürdüyünü deyən və bunu hər kəsə yayan insan idi. Müşriklərin başında dayanan insan öz dostlarından daha çox bir müsəlmana inandığını deyir.

Əbu Süfyan yanındakılarla birlikdə meydandan ayrıldı və ayrılarkən də belə səsləndi:

"Gələn il Bədrdə görüşərik!"

Bu yenidən haqq-hesabı çürütmək üçün yerin və zamanın təyini idi. Peyğəmbərimiz səhabələrə cavab vermələrini əmr etdi: "Bəli! Həmin gün orada görüşərik!"

Müşriklər savaş meydanından ayrıldıqdan sonra yaralılar və şəhidlərlə maraqlanmağa başladılar.

Hamı bu hadisəyə çox kədərlənmişdi. Hər kəs şəhidlərini axtarır və yaxınları tapdıqları şəhidləri dəfn etmək üçün hazırlayırdı.

Şəhidlərin bir çoxuna müslə edilmişdi. Bu mənzərələr hələhələ unudulacaq mənzərələr deyildi. Əbu Süfyanın da ifadə etdiyi kimi onların arasında da bu vəhşiliyi doğru qəbul etməyənlər var idi.

Həmin vaxt Peyğəmbərimizin bibisi, Həzrət Həmzənin ataana bir bacısı olan Səfiyə (r.anhə) də, qardaşı Həmzəni axtarırdı. Peyğəmbərimiz onu uzaqdan gördü. Yanında dayanan oğlu Zübeyrə gedib anasını geri qaytarmasını istədi. Səfiyənin Həzrət Həmzəni belə bir vəziyyətdə görməsini istəmirdi. Zübeyr anasının yanına gələrək, Rəsulullahın (s.ə.s) geri qayıtmasını əmr etdiyini deyir.

Lakin Səfiyə nəyə görə geri qaytarılmasını bilirdi. "Nəyə görə?"-dedi. "Mən qardaşımın şəhid olduğunu, ona müslə edildiyini bilirəm. Bu, Allah yolundadır. Allah nəzdində savabını umuram və inşallah səbr edənlərdən olacağam!"

Sonra Həmzənin yanına gəldi. Ona baxdı. Ürəyi dolu idi, lakin özünə hakim idi. Dua etdi. ﴿إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُون﴾ "Allaha aidik və yenə ona qayıdacağıq"-dedi. Ömrü boyunca islama böyük xidmətlər göstərdi.

Müşriklər Uhudu tərk edərkən Rəsulullah (s.ə.s) Həzrət Əlini arxalarınca göndərdi və belə buyurdu:

"Onları izlə. Nə etdiklərinə və nə etmək istədiklərinə diqqət et. Əgər atları yedəyinə alıb dəvələrə minərlərsə, Məkkəyə get-

mək istəyirlər deməkdir. Yox əgər dəvələri yedəyə alıb atlarına minərlərsə Mədinəyə hücumu təzələyəcəklər deməkdir.

Nəfsim (canım) əlində olan Allaha and içirəm ki, Mədinəyə qayıdarlarsa, qarşılarına çıxıb yenidən vuruşaram."

Həzrət Əli (r.a) belə rəvayət edir:

"Müşriklərin arxasınca getdim. Nə etdiklərinə baxırdım. Atları yedəyə aldılar və dəvələrə minib Məkkəyə üz tutdular.

Şəhidləri topladılar. Cənazə namazları qılındı. Qanlı paltarları ilə Uhudda dəfn etdilər."

✺

Uşaqlığının və gəncliyinin böyük bir hissəsini ipək paltarlar içində keçirən Musab şəhid olarkən əynindəki yamaqlı paltarının bədənini tam örtməyə kifayət etməməsi, paltarının baş tərəfinə çəkilərək ayağını izhir otları ilə örtülməsi hamını kövrəldir.

Şəhidlər Sultanı Həzrət Həmzə ilə Uhudun cəsur və səmimiyyət nümunəsi Abdullah İbn Cahş və islamın bayraqdarı, qürbət dəvətçisi Musab İbn Umeyr yan-yana dəfn edilir.

Hal-hazırda Uhud şəhilliyinin ortasında olan qara daşlarla əhatələnmiş yerdə onların məzarları durur.

Digər şəhidlər də iki-iki, üç-üç, daha çox Quran biləni, elm cəhətdən daha üstün olanı üst tərəfdə qoyularaq dəfn edildilər.

Allah Rəsulu (s.ə.s) şəhidləri dəfn etdikdən sonra:

أَنَا شَهِيدٌ عَلَىٰ هَؤُلاَءِ يَوْمَ الْقِيَامَةِ.

"Qiyamət günü onların şahidi mənəm"-buyurdu.

Onlar şəhid, Allah Rəsulu da şahid idi. Bundan daha üstünü təsəvvür edilə bilərmi?

Şəhidlər dəfn edildikdən sonra Mədinəyə qayıtdılar.

Müşriklər Məkkəyə doğru yola çıxdıqdan bir müddət sonra "Ravha" deyilən yerdə gecələdilər. Qonaqlama yerində aralarından bir nəfər; "Biz nə etdik? Biz onları məğlub etdik, ancaq nəticədə onları buraxdıq. Hələ də ətrafında toplaşacaqları, bir

araya gələ biləcəkləri baş durur. Əsas özülünü sökə bilmədik, kökündən təmizlik edə bilmədik. Geri qayıdaq və qalanlarına hücum edək. Tamamilə onlardan qurtulaq."

Bu sözlər onlar baxımından doğru idi. Müriklər, Mədinəyə islamı tamamilə söndürmək və bütünlükdə yox etmək niyyəti ilə gəlmişdilər. Əvvəlcədən də bu hissləri var idi, ancaq Bədr savaşından sonra hər gün bu hisslərlə oturub-dururdular. Bir il idi ki, buna hazırlaşırdılar.

Müsəlmanların Allah Rəsuluna necə bağlı olduqlarını, iman nurunun onları necə bir hala gətirdiyini, axirətə olan imanla, şəhidlik zirvəsinə duyulan sevgi ilə nələr edə bildiklərini Bədrdə görmüşdülər. Uhudda gördükləri isə bambaşqa bir mənzərə idi. Aldıqları yaraya, uğradıqları dağınıqlığa baxmayaraq necə igidlər çıxadıqlarını, Rəsulullahın ətrafında necə bir halqa meydana gətirdiklərini, fədakarlıqlarının hansı səviyyədə olduğunu görüb şahid olmuşdular.

Muhəmməd (s.ə.s) yenə də həyatda idi. Əbu Bəkr, Ömər, Əli və daha neçə-neçə igidlər islamın xidmətində idi.

Unudulmaması mühüm olan başqa bir məqam da var idi: Müsəlmanlar elə-belə sayılmayacaq daha bir savaş təcrübəsi keçdilər. 700 nəfərlik bir ordu ilə 3000 min nəfərlik bir ordunu geri oturdaraq onu məğlub edəcək həddə gətirmişdilər. Özlərindən razı olmağa başlamışdılar.

Bir daha bu fürsət ələ düşməzdi. Müsəlmanların səfində, bir daha qoruduqları təpəni tərk edərək ordunun arxasını hücuma açıq buraxanları tapa bilməzdilər.

Nəticədə müsəlmanların hələ-hələ bu qədər zəif damarını tuta bilməzdilər.

Geri qayıtdılar.

Lakin Rəsulullaha (s.ə.s) onların qayıtmaq xəbəri çatır. Möminləri yenidən düşmənə qarşı savaşmağa çağırdı. Bu çağırış, çox özəl bir çağırış idi: "Mənimlə yalnız dünənki savaşda iştirak edənlər gələcək"-buyurdu.

Səhabələr bunun nə demək olduğunu çox yaxşı başa düşmüşdülər.

İslam ordusu Uhud müharibəsi üçün Mədinədən Cümə günü ayrılmış, həmin gecə Şeyxeyn deyilən yerdə gecələmiş və savaş Şənbə günü baş vermişdi.

Şənbə günü savaşda iştirak edən mücahidlər, bazar günü yenidən düşmən üzərinə hücuma çağırılır. Uhud qaziləri dərhal toplaşaraq meydana çıxdı və ordu düşmənlə vuruşmaq üçün Mədinədən ayrıldı.

Edilən çağırış, unudulmayacaq bir çağırış olmaqla yanaşı, ortaya çıxan mənzərə də unudulmayacaq bir mənzərə idi. Çünki Uhudda yaralanmayacaq səhabə yox deyiləcək qədər az idi. Həmçinin hamısı savaşın yorğunluğunu hələ üzərindən atmamışdı. Hamı yorğunluğu unutmuş, yaralarını bağlamış, düşmənlə vuruşmaq üçün yeni bir canlılıq və həvəslə yola çıxır.

Əbdül-Əşhəl oğullarından bir səhabə belə rəvayət edir: Qardaşımla birlikdə Uhudda Allah Rəsulunun yanında yer almış və hər ikimiz də yaralanmışdıq. Rəsulullahın (s.ə.s) düşməni üzərinə hücum etmək üçün çağırış etdiyini eşidincə qardaşımla birlikdə; "Minməyə heyvanımız yox, yaralıyıq. Yaralarımız da dərin idi, ancaq Allah Rəsulunun yanında savaşmaq fürsətini əldən verəkmi?"-dedik.

Sonra Rəsulullah ilə birlikdə yola çıxdıq. Mənim yaram qardaşımın yarasından daha yüngül idi. Birlikdə gedirdik. Qardaşım taqətdən düşüncə və ya bayılınca onu belimdə daşıyır və ordudan geri qalmamağa çalışırdım. Yola bu şəkildə davam etdik. Orudan da geri qalmadıq. Gedilən son nöqtəyə qədər möminlərlə birlikdə idik.

✺

Bu şanlı ordu müşriklərin qonaqladığı deyilən Hamrau-l-Əsədə qədər gedib çıxdı. Müşriklər meydanda yox idi. Rəsulullahın (s.ə.s) güclü bir şəkildə üzərlərinə gəldiyini eşidincə yeni bir savaşa girmədən geri qayıtmaq məcburiyyətində qalırlar.

Bu hadisə möminlərdə yeni bir canlılıq meydana gətirdi və müşriklərin zəifliyini üzə çıxardı. Özlərinə görə savaşda qələbə çalmışdılar, lakin bunu bayram edə bilmədilər.

Rəsulullah (s.ə.s) da bunu istəyirdi. Beləliklə Uhudun güclərini qıra bilmədiyini, islam ordusunun hər an bir yerə toplaşıb savaşa hazır hala gələcəyini, cihad ruhundan qopmadıqlarını isbat edirdi.

Yaralılarla dolu bir ordu, düşmən qovalayan şanlı bir ordu idi.

❋

Hamraul-Əsəddə düşərgə quruldu, yaralılar müalicə edildi. Üç günlük qonaqlamadan sonra Mədinəyə geri qayıdıldı.

Uhud günü həqiqətən unudulmayacaq bir gün idi. Uhud meydanı, ciddi bir imtahan meydanı idi. İmtahanı qazanan, Rəbbin rizasını, əbədi səadəti qazanırdı.

❋❋❋

Uhuddan Xatirələr

Fədakarlıq Nümunələri və Döyüşdən Tablolar

Uhud qəzvəsinin imtahanlarla dolu qəzvə olduğunu, döyüş meydanında çox fərqli mənzərələrin baş verdiyini, çətin vəziyyətə düşəndə fədakar qəhrəmanların, səmimi ürəklərin özlərini büruzə verdiyini və yolunda canından keçdikləri davanı bütünü ilə müdafiə etməyə çalışdıqlarını vurğulamışdıq. Uhudda unudulmaz xatirələr yaşandığını bildirmişdik. Bu fədakar insanlardan Musab, Əbu Übeydə, Asim, İbn Təlhə və s. kimi bəzi qəhrəmanlardan əvvəlcədən bəhs etmişdik. Burada da digər ibrət lövhələrini yada salmaq istəyirik. Onları yada salıb, üzərlərində düşünmək istəyirik. Bunlar bizim yolumuza işıq tutmağa, yada salınmağa və ibrət alınmağa layiq tablolardır. Bu hadisələri yaşayan insanlar nümunəvi insanlardır.

Ənəs ibn Nadr

Ənəs ibn Malikin əmisi Ənəs ibn Nadr döyüşdə əsla sarsılmayan igidlərdən biriydi. Döyüşdə geriyə qaçmalar, dağınıqlıqlar başlamışdı. O isə hələ də irəliləməyə davam edirdi. Səd ibn Muaz onun irəlilədiyini gördü və onu ləqəbi ilə çağıraraq belə dedi:

"Ey Əbu Amr! Hara gedirsən?"

"Ey Səd! Cənnət qoxusunun həsrətini duymağa başladım. Uhudda onu hiss edirəm!".

❋

O, döyüşməyə davam edirdi. Döyüş əsnasında həvəsdən düşmüş, ümidsizliyə qapılmış yerdə oturan səhabələrə gözü sataşdı. Onlardan "niyə oturmusunuz?"-deyə soruşdu. Çarəsizlik

və ümidsizlik duyğuları içərisində "Allah Rəsulu öldürüldü!"- dedilər. Onlara İslamın ruhunu həqiqətən qavramış, əzmkarlığını və qayəsini itirməmiş bir mömin idrakıyla belə dedi:

"Ondan sonrakı həyatı neynirsiniz?! Durun ayağa, Allah Rəsulunun uğrunda öldüyü əqidə uğrunda siz də can verin!"

Sonra yenidən düşmənə yönəldi, şəhidlik zirvəsinə ucalana qədər döyüşə davam etdi. O, Cənnət qoxusunu dünyadaykən duyanlardan idi.

Qardaşının oğlu olan və adını da onun adından alan Ənəs ibn Malik belə rəvayət etmişdir:

❋

"Həmən gün Ənəs ibn Nadrı tapanda onun bədənində yetmişdən çox yara var idi. Tanınmayacaq vəziyyətdə idi. Onu ancaq bacısı Rəbi tanıya bildi. O da öz qardaşını əl barmaqlarından tanımışdı".[124]

Ənəs Əhzab surəsinin 23 və 24-cü ayələrinin nüzul səbəbinin əmisi Ənəs və onun yoldaşları olduğunu nəql etmişdir. Bu ayələrdə belə buyurulur:

مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ ۖ فَمِنْهُمْ مَنْ قَضَىٰ
نَحْبَهُ وَمِنْهُمْ مَنْ يَنْتَظِرُ ۖ وَمَا بَدَّلُوا تَبْدِيلًا (٢٣) لِيَجْزِيَ اللَّهُ الصَّادِقِينَ
بِصِدْقِهِمْ وَيُعَذِّبَ الْمُنَافِقِينَ إِنْ شَاءَ أَوْ يَتُوبَ عَلَيْهِمْ ۚ إِنَّ اللَّهَ كَانَ غَفُورًا
رَحِيمًا (٢٤)

"Möminlər içərilərində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) **şəhid olmuş, kimisi də** (şəhid olmasını) **gözləyir. Onlar** (verdikləri sözü) **əsla dəyişməzlər ki,**

Allah (bununla) **doğruları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də istəsə əzab versin, yaxud onların**

124. Ənəs ibn Nadr haqqında geniş bilgi üçün bax. Sirətu İbn Hişam (2/83); Dəlailun-Nübüvvə (3/244-245); Xilyətul-Evliya (1/121); Usdul-Qabə (1/155-156), əl-Bidayə vən-Nihayə (4/24, 32, 33, 36), əs-Sirətun-Nəbəviyyə (s. 195).

tövbələrini qəbul buyursun. Həqiqətən, Allah (bəndələrini) **bağışlayandır, rəhm edəndir!"** (Əhzab 33/23-24).

❋

Ziyad İbn Səkən

Ziyad ibn Səkən[125] ənsardan beş dostu ilə birlikdə ən çətin anlarda Allah Rəsulunu qorumaq üçün döyüşürdü. Yoldaşları bir-bir şəhid düşmüşdü. Ziyad dayanmır, çəkinmirdi. Aldığı yaralar daha da çoxalmışdı. Qan itirmişdi və yerə yıxılmışdı. Bu əsnada bir qrup mücahid dadına çatdı və ətrafındakı müşrikləri darmadağın etdi.

Allah Rəsulu onun fədakarlığını, əzmkarlığını və son halını görmüşdü. Özü də yorğun və yaralı idi. Səhabələrə dedi: "Onu mənim yanıma gətirin!". Onu yaxına gətirdilər. Ayağını bu əziz səhabə üçün yastıq kimi qoydu. Ziyad yanağını Allah Rəsulunun ayağına qoymuş vəziyyətdə dünyadan köçdü.[126]

❋

Hüseyl (Yəman) və Sabit

Hüzeyfənin atası Yəman[127] çox qoca bir adam idi. Onun kimi, qocalmış bir şəxs olan Sabit ibn Vakş ilə birlikdə Mədinədə bir yerə toplanmış qadın və uşaqların başında durmuşdu.

İki yaşlı öz aralarında belə danışırdılar:

"Yetim, sən nəyi gözləyirsən ki?! Nə qədər ömrümüz qalıb ki?! Bir eşşəyin iki dəfə su içməsi arasındakı zaman qədər vaxtımız qalıb.[128] Bu gün, sabah dünyadan köçəcəyik. Gəl qılıncları-

125. Bəzi rəvayətlərdə bu şəxsin Ziyadın oğlu Ammara olduğu nəql edilmişdir. Bax. (Sirətu İbn Hişam, 2/81).

126. Sirətu İbn Hişam (2/81), Dəlailun-Nübüvvə (3/234), əs-Sirətun-Nəbəviyyə (s. 196).

127. Əsl adı Hüseyl ibn Cabirdir. "Yəman" adı ilə tanınmışdır. Buna görə də onun oğlu Hüzeyfə ibn Yəman kimi məşhur idi.

128. "Eşşəyin iki dəfə su içməsi arasındakı zaman" vaxtın nə qədər az olduğunu göstərmək üçün işlədilmişdir. Eşşəklər, dəvələrə nisbətən suya qarşı hövsələsizdir və tez-tez su içərlər.

mızı götürüb Rəsulullahın yanına gedək. Ola bilsin ki, Rəbbimiz bizə onun yanında şəhid düşməyi nəsib edər."

Bu söhbətdən sonra hər ikisi qılınclarını götürüb Uhuda tərəf yola düşdülər. Döyüşün şiddətli olan vaxtı onlar da döyüşə qatılmışdılar.

Müsəlmanlar bu iki qoca adamın gəldiyini bilmirdilər. Çox keçmədən Sabit müşriklər tərəfindən şəhid edildi. Yəman isə müsəlman qılıncı ilə dünyadan köçmüşdü. Hüzeyfə uzaqdan öz atasını gördü, ancaq ona çata bilmədi. Yanına gəlib-çatanda artıq atası vəfat etmişdi.

O əziz insan hüznlü şəkildə atasını öldürən möminlərə tərəf döndü və dedi: "Allah sizi əvf etsin! O, mərhəmətlilərin ən mərhəmətlisidir. Sonsuz şəfqət sahibidir.". Son dərəcədə kədərlənmiş bir vəziyyətdə belə öz idrakını itirməmiş, sağlam düşüncədən uzaq düşməmişdi.

Sonra isə Allah Rəsulu Hüzeyfənin atasının diyəsini vermək istəmişdi. Hüzeyfə isə onu almamış və müsəlman qardaşlarına bağışlamışdı. Bu hadisədən sonra onun dəyəri Allah Rəsulunun yanında daha da artmışdı.

Bu iki yaşlı səhabəni xeyirlə yada salırıq.[129]

❋

Səd İbn Əbi Vaqqas

Səd ibn Əbi Vaqqas Uhud gününün qəhrəmanlarından biridir. Yayından çıxan oxlar düşmənin üstünə şığıyır, hədəflərdən uzağa düşmürdü. Oxları azaldıqca, oxları yığıb ona verən Allah Rəsulu "Anam-atam sənə fəda olsun, at!"-deyirdi.

Səd həyatında heç vaxt Rəsulullahın bu nəzakətini və rəftarını yaddan çıxarmamışdı və bunu şirin bir xatirə kimi zehnində yaşadırdı.[130]

---

129. Sirətu İbn Hişam (2/82), Səhihi-Buxari, Eyman (Ümdə 19/161).

130. Sirətu İbn Hişam (2/82), Dəlailun-Nübüvvə (3/239), Əs-Sirətun-Nəbəviyyə (s. 195).

Qatadə ibn Numan

Döyüşdə Qatadənin gözünün biri yerindən çıxmışdı. Rəsulullah onun çıxmış gözünü yenidən öz yerinə yerləşdirdi. Sonrakı illərdə Qatadə bu gözünün digərindən daha dəqiq və yaxşı gördüyünü söyləmişdi.[131]

❋

Əbu Dücanə

Əbu Dücanənin Uhud döyüşündəki qəhrəmanlıqlarını və fədakarlıqlarını döyüşdən bəhs edərkən qeyd etmişdik. Ancaq onun etdikləri sadəcə Allah Rəsulundan aldığı qılıncın haqqını verməklə kifayətlənmir. Allah Rəsulu ox yağmuruna tutulanda öz bədənini Rəsulullahın üstünə sipər etmiş, kürəyi uzaqdan atılan oxlarla yaralanmışdı.[132] Onun başqa bir çox qəhrəmanlıqları olmuşdu...

❋

Ümmü Ammara (Nəsibə)

Ləqəbi Ümmü Ammara olan Nəsibə Uhud qəzvəsinin unudulmaz qəhrəmanlarından biridir. Sübhün ilk saatlarında qabına su tökərək Uhuda tərəf yola düşmüşdü. Nə olduğunu bilmək istəyirdi. Mücahidlərə su vermək fikrində idi. Allah Rəsulunun yanına qədər gəldi. Döyüş möminlərin lehinə çevrilmişdi. Zəfər rüzgarları mücahidlər üçün əsirdi.

Bir az sonra isə rüzgarlar tərs istiqamətdə əsməyə başlamış, müsəlmanlar dağılmağa başlamışdılar. Əlindəki su qabını yerə qoyub, qılıncını qurşandı. Artıq o, su paylayan bir qadın yox, qılıncı ilə, oxu və yayı ilə döyüşən bir mücahidə idi. Döyüş qurtarana qədər o belə idi.

---

131. Sirətu İbn Hişam (2/82), Dəlailun-Nübüvvə (3/251), əs-Siratun-Nəbəviyyə (s. 195).

132. Sirətu İbn Hişam (2/82), Dəlailun-Nübüvvə (3/334), əl-Bidayə vən-Nihayə (4/35-40).

Bu döyüşdən onun çiynində çox dərin bir yara izi qalmışdı. Sonrakı illərd Səd ibn Rəbinin qızı Ümmü Səd bu yaranın nə olduğunu soruşmuş, Nəsibə də Uhudda İbn Kamiə tərəfindən yaralandığını söyləmiş və bu hadisəni belə rəvayət etmişdi:

"Rəsulullahın ətrafı bir ara boş qalmışdı. Allah düşməni İbn Kamiə ona tərəf yaxınlaşırdı. "Mənə Məhəmmədi göstərin! Əgər o, sağ qalıbsa mən özümü xilas olmuş hesab etmirəm!"-deyirdi. Rəsulullaha tərəf irəliləyirdi. Musab ibn Ümeyr ilə onun qabağını kəsdik. Yanımızdakı digər səhabələr də bizə tərəf gəldilər. Çiynimdəki bu yaranı da o vaxt aldım. Acizlik etmədim, mən də ona arxa-arxaya bir neçə zərbə vurdum. Təəssüf ki, Allahın düşməni üst-üstə iki zireh geyinmişdi.[133]

❋

Abdullah İbn Cahş

Abdullah ibn Cahş Peyğəmbərimizin bibisi Ümeymənin oğludur. Zeynəb binti Cahş anamızın qardaşıdır.

Uhud qəzvəsindən əvvəl Səd ibn Əbi Vaqqasla rastlaşdı. Onlar çox yaxın dost idilər. Abdullah ona "Allaha dua etməyəcəksən?!"-dedi. Səd də "əlbətdə, edəcəm!"-dedi.

Sonra ikisi də kənar bir yerə çəkilib dua etməyə başladılar. Əvvəlcə Səd dua etdi: "Ya Rəbbi! Düşmənlə üz-üzə gələndə qarşıma onlardan güclü və qəddar biri çıxsın. Qarşı-qarşıya döyüşək. Zəfəri mənə nəsib et! Mən onu yerə sərim və qəniməti də mən alım!"

Abdullah da onun duasına "amin"-dedi. Sonra isə o özü dua etməyə başladı. Onun duası beləydi:

"Ya Rəbbi! Düşmənlə sənin uğrunda savaşım və sonra şəhid olum. Sinəm parçalansın, burnum, qulağım qoparılsın və mən sənin hüzuruna belə gəlim!. Sən də məndən soruş:

"Ey Abdullah, bunlar niyə oldu?"

133. Sirətu İbn Hişam (2/81-82), əl-Bidayə vən-Nihayə (4/35).

Mən də "Ya Rəbbi! Sənin uğrunda, Rəsulullahın yolunda oldu!"-deyim.[134]

Savaşdan sonra Abdullah bu şəkildə şəhid düşmüş halda tapılmışdı.

❋

Amr İbn Camuh

Amr ibn Camuh yaşlı adam idi. Üstəlik də, bir ayağını işlədə bilməyəcək dərəcədə əlil idi. Onun dörd oğlu Allah Rəsulu ilə birlikdə döyüşə hazırlaşırdı. Aslan kimi cəsurdular. Bir müddət onları uzaqdan seyr etdi. Onların hiss etdikləri həyəcan, içlərindəki həvəsi çox təsir etmişdi. O özü də hazırlanmağa başladı. Oğulları ilə birlikdə Allah Rəsulunun bayrağı altında döyüşmək istəyirdi. Bu gözəl fürsəti qaçırmaq olmazdı.

Atalarının da döyüşə getmək istədiyini görən oğullar təəccüblə onun yanına gəldilər və dedilər: "Ata, sən Allahın döyüş üçün məsul tutmadığı adamlardan birisən. Allahın məcburiyyət yükləmədiyi və cavabdeh olmadığın bir məsələdə özünə əziyyət vermə!"

Amr onlara çox əsəbləşdi. Rəsulullahın hüzuruna gəldi və oğullarından ona şikayət etdi. "Oğullarım mənim cihada getməyimə razı deyillər. Onlar mənə mane olmağa çalışırlar. Əlil olduğuma görə mənim üzrlü sayıldığımı söyləyirlər. Vallah, bu topal ayağımı cənnət bağçasına basacağıma ümidvaram!".

Onun bu əzmkarlığını, şövq və səmimiyyətini görən Allah Rəsulu dedi: "Bəli, sən Allahın üzrlü gördüyü və cihaddan məsul tutmadığı bir adamsan". Sonra da onun oğullarına çevrilib dedi: "Ona mane olmayın! Ümid edirik ki, Allah ona şəhadət nəsib edər!".

---

134. Abdullah ibn Cahş haqqında geniş məlumat üçün bax. Sirətu ibn Hişam (2/97), Dəlailun-Nübüvvə (3/250), Xilyətul-Evliya (1/108-109), Üsdül-Qabə (3/194-196), Siyəru Ala-n Nübəla (1/112), Əs-Sirətun-Nəbəviyyə (s. 197), Suvərun min həyatis-səhabə (1/158-159).

Amr artıq cihad meydanlarında idi. Müsəlmanların səflərində dağınıqlıqlar başlayanda Amrı görənlər belə nəql edir:

"Tək ayağının üstündə durub, ağlasığmaz bir həvəslə, istəklə döyüşürdü. Cənnət əzmi ilə doluyam. Cənnət həsrəti ilə yanıram"-deyirdi".

Oğlu Xalid onun arxasınca gəzir, eyni əzmkarlıqla döyüşməyə davam edirdi. Atasını qorumağa çalışırdı.

Bu əziz insan və oğlu Xalid Uhud şəhidləri arasında idi. Yan-yana şəhid düşmüşdülər.

Basdırılanda onun yanına başqa bir şəhid Abdullah ibn Amr gətirildi. Onu çox sevirdi. Yaxından dost idilər.

Həşr gününü birlikdə, yan-yana gözləməli oldular[135]

❋

Usayrim (Amr ibn Sabit)

Bəni Abdi Əsəd oğullarından Usayrim kimi tanınan Amr ibn Sabit yaxınlarının müsəlman olmasına baxmayaraq hələ də müsəlman olmamaqda israr edirdi. Möminlər Uhuddaykən qəlbinə İslam nuru düşmüşdü. Birdən elə bil ki, könül pəncərəsi açılmış və içi hüzurla dolmuşdu. Dodaqlarında kəlmeyi-şəhadət, əlində qılınc vardı. Qılıncını qurşanaraq Uhuda tərəf yola düşdü. Gedib mömin qardaşlarının yanında olmaq istəyirdi.

Elə də etdi. Aldığı yaralarla gücdən düşənə qədər Uhudda döyüşdü.

Döyüşdən sonra yaxınları onu yaralı vəziyyətdə tapmışdılar. Görəndə də təəccüblənmişdilər. Onlardan biri "Vallah bu Usayrimdir! Buraya niyə gəlib görəsən?"-deyərək öz təəccübünü gizlətməmişdi. Çünki onu qoyub gələndə Usayrim İslam dinini inkar etməyə davam edirdi. Müşriklərə qarşı döyüşdüyü və aldığı yaralardan fədakarca döyüşdüyü bəlli olurdu.

Təəccüblə soruşdular:

135. Sirətu İbn Hişam (2/90-91), Siyəru Alami-Nübəla (1/252-255).

"Ey Amr! Buraya niyə gəldin? Sənin buraya gəlməyinin səbəbi öz əşirətinə (qəbilənə) bağlı olmağınmı, yoxsa İslam dininə qarşı sevgindirmi? Sənə nə oldu?"

"İslam dininə qarşı arzum və istəyimdir Allaha və Rəsuluna iman gətirdim. Müsəlman oldum. Sonra qılıncımı aldım, Allah Rəsulunun yanında olmaq istədim. Buraya gəldim və döyüşdüm. Bu vəziyyətə düşənə qədər savaşdım".

Bu sözləri dedikdən sonra çox yaşamamışdı. Yaxınlarının qucağınında can vermişdi.

O, İslam dini ilə şərəflənmiş, bilinən günahlardan heç birini işləməmiş, hələlik namaz da qılmamışdı. Onun haqqında Allah Rəsuluna danışdılar. Allah Rəsulu belə buyurdu: "O, cənnət əhlindəndir".[136]

❋

Cabir İbn Abdullah

Cabir ibn Abdullah Uhudda Rəsulullaha belə demişdi: "Əgər döyüşdə öldürülsəm harada olacam?". Rəsulullah da ona "cənnətdə olacaqsan!"-cavabını vermişdi. Bunu eşitdikdən sonra yediyi xurmalardan əlində qalan bir neçə dənəsini yerə ataraq qılıncına sarıldı və şəhid düşənə qədər döyüşdü. Bu rəvayətdə xurmaları yerə atarkən belə dediyi nəql olunur: "Dünyadan mənə bu qədər ləzzət yetər".[137]

❋

Müşriklərin bayraqdarlarından biri olan Təlhə ibn Əbi Təlhə əl-Əbdəri özünə çox güvənən adam idi. Müsəlmanları onunla təkbətək döyüşəcək bir əsgər çıxarmağa çağırırdı. Bu vəziyyət onu daha da kibrləndirmişdi. Döyüşdəki müvəqqəti durğunluğa baxmayaraq tezliklə qarşısında Zübeyri gördü. O özü dəvənin üstündə idi. Zübeyr anidən sıçrayaraq dəvənin üstünə çıxmış, onu qucaqlayıb yerə düşürmüşdü. Yerdəki dö-

136. Sirətu İbn Hişam (2/90), əl-Bidayə vən-Nihayə (4/38).

137. Dəlailun-Nübüvvə (3/243-244), Səhihi-Buxari, Cihad (Umdə 11/413), Səhihi-Müslim, İmarə (1509).

yüş isə uzun çəkmədi. Zübeyrin şimşək kimi çaxan qılıncı onu yerə sərmişdi.

✺

Abdurrahman ibn Əvf bu döyüşdə iyirmidən çox yara almışdı. Bəzisinə əl girəcək qədər dərin idi.[138]

Əbu Təlhənin xanımı Ümmü Süleym, Aişə anamız döyüş müddətində mücahidlərə su çatdırmağa çalışırdı.[139] Fatimə ilə birlikdə yaralıların müalicəsi ilə məşğul olurdular.

Hz. Əlinin qalxanında gətirdiyi su ilə Allah Rəsulunun qanlarını Fatimə təmizləmişdi. Qanın dayanmadığını görəndə həsir parçasını yandıraraq külünü yaranın üstünə basmış, axan qanı bu şəkildə dayandırmışdı.[140] Hz. Ömər ənsardan Ümmü Səlitin də Uhudda iştirak edib su payladığını rəvayət etmişdi. Yaşadığı müddətcə ona himayədarlıq etmişdi.[141] Bu xanım səhabənin Xeybər və Hüneyn qəzvələrində iştirak etdiyi də rəvayət olunmuşdur.[142]

✺

Allah Rəsuluna Hücum və Übeyy İbn Xələfin Aqibəti

Rəsulullahın yaşadığı xəbəri gəlmişdi. Dırmanaraq Uhud yamacında məskən salmış və möminləri yamacda bir yerə toplamaq qərarına gəlmişdi. Mücahidlər Allah Rəsulunun sağ olduğunu görüb ona yaxınlaşmağa çalışarkən, başqa bir nəfər də onu görmüşdü: Übeyy ibn Xələf.

Übeyy, Üməyyə ibn Xələfin qardaşıdır. Üməyyə qatı İslam düşmənlərindən biriydi. Bilalın ağası olmuşdu. İslam dinindən nifrət etdiyi fürsət düşən kimi bəyan edirdi. Onun kölə olan Bilala verdiyi işgəncələr hamıya məlumdur.

---

138. Sirətu İbn Hişam (2/83). Abdurrahman haqqında əlavə məlumat veriləcəkdir.

139. Dəlailun-Nübüvvə (3/240), əl-Bidayə vən-Nihayə (4/28-29).

140. Səhihi-Buxari, Cihad (Ümdə 11/415-416).

141. Səhihi-Buxari, Cihad (Ümdə 11/415-416), Məğazi (Ümdə 14/155).

142. Ümdətul-Qari (11/416).

Bu qəddar müşrik Bədrdə öldürülmüşdü. Übeyy də İslama və müsəlmanlara qarşı hiss etdiyi kin və nifrət baxımından qardaşından geri qalmırdı.

Rəsulullah Məkkədə olarkən yaxın dostu Ukbənin Rəsulullahın yanına gələrək söhbətinə qulaq asdığını eşitmiş və buna qəzəblənmişdi. "Bir də onun yanına gedib söylədiklərinə qulaq asdığını eşitsəm, ondan sonra üzümü görə bilməzsən!"-deyərək, bunu edəcəyini and içmişdi. Onu məcbur edirdi ki, Rəsulullaha tüpürsün. O alçaq adam də Rəsulullahın sözlərindəki hikmət və dərin mənanı dərk edə-edə bununla razılaşırdı.

Aşağıdakı ayeyi-kərimənin də bu səbəblə nazil olduğu bildirilir:

الْمُلْكُ يَوْمَئِذٍ الْحَقُّ لِلرَّحْمَٰنِ ۚ وَكَانَ يَوْمًا عَلَى الْكَافِرِينَ عَسِيرًا (٢٦)

وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَىٰ يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ

سَبِيلًا (٢٧) يَا وَيْلَتَىٰ لَيْتَنِي لَمْ أَتَّخِذْ فُلَانًا خَلِيلًا (٢٨) لَقَدْ أَضَلَّنِي

عَنِ الذِّكْرِ بَعْدَ إِذْ جَاءَنِي ۗ وَكَانَ الشَّيْطَانُ لِلْإِنْسَانِ خَذُولًا (٢٩)

"O gün həqiqi hökmranlıq (mülk) **ancaq Rəhmana məxsusdur; o, kafirlər üçün isə çətin bir gün olacaqdır.**

O gün zalım (küfrə düşməklə özünə zülm edən peşmançılıqdan) **əllərini çeynəyib deyəcəkdir: "Kaş ki, mən Peyğəmbər vasitəsilə** (özümə) **doğru bir yol tutardım;**

Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim;

And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan (Qurana iman gətirməkdən) **o sapdırdı. Şeytan insanı** (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) **yalqız buraxar** (zəlil, rüsvay edər)**."** (Furqan 25/26-29)

❋

Peyğəmbərimizə çürümüş bir sümük göstərərək ələ salan ifadələrlə belə demişdi: "Ey Məhəmməd, bu çürümüş sümüyün

dirildələcəyinimi düşünürsən?!". Sonra da sümüyü əlində ovuşduraraq külünü Rəsulullahın üzünə üfürmüşdü.

Rəsulullah onun bu sözünə belə cavab verdi: "Bəli, elə deyirəm. Allah çürüyüb bu vəziyyətə düşəndən sonra da səni dirildəcək və cəhənnəmə salacaq!"

Yasin surəsinin 77 və 78-ci ayələrinin nüzul səbəbinin də bu hadisə olduğu bildirilmişdir.[143]

أَوَلَمْ يَرَ الْإِنْسَانُ أَنَّا خَلَقْنَاهُ مِنْ نُطْفَةٍ فَإِذَا هُوَ خَصِيمٌ مُبِينٌ (٧٧)

وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ ۖ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ (٧٨)

قُلْ يُحْيِيهَا الَّذِي أَنْشَأَهَا أَوَّلَ مَرَّةٍ ۖ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ (٧٩)

"Məgər insan (As ibn Vail, yaxud Übeyy ibn Xələf) **onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə** (Rəbbinə) **açıq bir düşmən kəsilərək,**

Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi.

(Ya Peyğəmbər!) **De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu** (yaradılışından əvvəl də, sonra da) **çox gözəl tanıyandır!"** (Yasin 36/77-79)

Bədr döyüşündə başına gələn müsibətlər bu rəzil adamın ağlını başına gətirmək əvəzinə, onu daha da özündən çıxarmışdı.

"Avd" adını verdiyi bir atı vardı. Qarğıdalı yarpaqlarından onun üçün xüsusi yemək hazırlayırdı. Ona çox diqqətlə yanaşır, qayğı göstərirdi. And içirdi ki, Allah Rəsulunu bu atın üstündə öldürəcək. Rəsulullah da onun bu andı barəsində eşitmiş və belə demişdi: "İnşallah mən səni öldürəcəm!".

Übey Uhuda həmən Avd adlı atı ilə gəlmişdi. Rəsulullahın sağ olduğunu eşitmiş, bərk qəzəblənmiş və atını dağın yamacına tərəf sürərkən bağırmağa başlamışdı: "Əgər لا نجوت إن نجامحمد! Məhəmməd yaşayarsa, mən özümü yaşamış hesab etmərəm!".

143. Sirətu İbn Hişam (1/361-362).

Bağıra-bağıra Allah Rəsulu tərəfə hücuma keçmişdi. Səhabələr onun qabağını kəsmək üçün dərhal hərəkətə keçdilər. Rəsulullah səhabələrə işarə verərək onları dayandırdı və səhabələrin birinin silahını alaraq özü onun qarşısına çıxdı.

❋

Übey başdan-ayağa zirehli idi və atının üstündə sürətlə ona yaxınlaşırdı. Rəsulullah geriyə çəkilərək əlindəki hərbəni (silahı) fırlatmağa başladı. Übeyi zirehi ilə dəbilqəsi arasındakı boyun nahiyəsindən vuraraq atından yerə saldı. Atdan düşən Übey yerdə fırlanmağa başladı. Həm yerdə fırlanır, həm də bağırırdı.

Yoldaşları tez gəlib onu götürdülər və cəbhənin arxa tərəfinə apardılar. Übeyi ölüm qorxusu bürümüşdü. Yoldaşları onu başa salmaq istəyirdilər ki, o, bu zərbədən ölməz. Ancaq o, öləcəyini düşünürdü. "O, tüpürsə belə məni öldürərdi"-deyərək bağırırdı. Bu şəkildə can verdi.[144]

Əlbətdə ki, cəhənnəm onu və onun kimilərini gözləyirdi…

Bəni Dinarlı Qadın

Şəhidlər dəfn olunduqdan sonra Mədinəyə qayıdarkən yolda Bəni Dinardan olan bir qadınla rastlaşdılar. Uhudda baş verən böyük sınaqlar barəsində eşitmişdi və dözməyib nəticəni öyrənməyə gəlmişdi.

Əri, atası və qardaşı şəhid düşmüşdü. Bu hüznlü xəbəri ona çatdırdılar. Ancaq onun bu xəbərə verdiyi reaksiyası unudulmazdı:

"Rəsulullah necədir?"

Ona Rəsulullahın sağ olduğunu söylədilər.

"Onu mənə göstərin, onu gözümlə görmək istəyirəm"-dedi.

Peyğəmbərin olduğu yeri ona göstərdilər. Onu öz gözü ilə görən və rahat olan bu vəfakar və fədakar qadın belə dedi:

كُلُّ مُصِيبَةٍ بَعدَكَ جَلَل

144. Sirətu İbn Hişam (1/361-362), Dəlailun-Nübüvvə (3/258-259), əl-Bidayə vən-Nihayə (4/33-34), əs-Sirətun-Nəbəviyyə (s. 197).

"Sənin sağ olduğunu gördükdən sonra, artıq bütün müsibətlər asan görünür!".[145]

✵

Uhud unudulmaz xatirələr qoymuşdu yaddaşlarda. O, çox mənalı şeylər daşıyırdı özündə. Bağrında o günün qəhrəmanları yatırdı.

Sonrakı günlərdə Allah Rəsulu belə demişdi: "Uhud bizi sevir, biz də Uhudu!".

Allah Rəsulu bəzi vaxtlarda Uhud dağını ziyarətə gedirdi, oradakı şəhidlərə salam verirdi, onların axirətə özündən əvvəl getdiyi və vaxtı gələndə özünün də oraya gedəcəyini bildirib, onlar üçün dua edirdi.

✵✵✵

145. Sirətu İbn Hişam (2/99), əl-Bidayə vən-Nihayə (4/48), Dəlailun-Nübüvvə (3/302), əs-Sirətun Nəbəviyyə (s. 199).

İrşad və İbrət Almaq Üçün Bəzi Diqqət Çəkən Məqamlar

- İslam düşmənlərinin möminlərdə olan xoşgörü anlayışına sahib olmadıqları, kin və nifrətlə dolu olduqları...
- Yəhudilərin, özlərini riskə atmadan başqa millətləri necə təhrik etmələri.
- Batil zehniyyətlərin İslamın inkişafına mane olmaq üçün əllərindən gələn hər şeyi etmələri, sonrakı illərdə də eyni fəaliyyətə davam etdikləri.
- Yaşları gənc, təcrübələri az olsa da, Allah Rəsulunun ətrafında olan insanların görüşlərinə əhəmiyyət verməsi.
- Allah Rəsulunun müzakirə əsnasında zidd və müxalif fikirləri diqqətə alması, yeri gəldikdə onları mənimsəyib qəbul etməsi.
- Uşaqların cəsarət və çalışqanlığı, böyüklərin də bu xüsusiyyətlərdən razı qalması.
- Haqqa xidmət və haqqı müdafiə etmə məsələsində münafiqlərin rəftarları. Nifaq içərisində olanların hər an İslama arxadan zərbə vurma ehtimalının mövcudluğu.
- Allah Rəsulunun həm mövqe seçərkən, həm də açıq ehtimalları dəyərləndirərkən son dərəcədə diqqətli davranması.
- Hər iki tərəfin ordunu döyüşə hazırlaması. İslami üslublar küfrün metodunun bu nöqtədəki ibrətamiz fərqi.
- Allah Rəsulundan qılıncı alan Əbu Dücanənin həm yaxşı bir döyüşçü, həm də əsil və fədakar duyğular daşıyan

bir olaraq qılıncın haqqını verməsi. Qılıncın haqqını verdiyinin hamı tərəfindən qəbul olunması.

- Qılıncın haqqının nə olduğunu qeyd edərkən Allah Rəsulunun "müsəlmanların əleyhinə istifadə olunmamasını" şərt qoşması.
- Möminin mömin qardaşına qarşı xoşgörülü davranması və təvazökarlıq içərisində olması. Gündəlik həyatda möminin kibirdən və lovğalıqdan uzaq durmasının zəruriliyi. Ancaq düşmənlə qarşı-qarşıya gələndə fürsətdən istifadə etməyin mümkünlüyü.
- Nizam və intizam içərisində olan mücahidlərin, onlardan dörd dəfə çox olan düşməni darmadağın etməsi. Dağınıqlığa düşənlərin haqq dava ərləri belə olsalar məğlubiyyətə məhkum olacaqları həqiqəti. Müdafiə olunan dava haqq belə olsa onu müdafiə edərkən xəta və yanlışlardan uzaq durulmasının zəruriliyi.
- Təpəni tərk edən oxçuların başçıları olan əmirə və sözlərinə diqqət etməmələri və bunun acı nəticələri.
- Hadisələrin təbii axışı içərisində həyəcana qapılaraq tənbehlərin yaddan çıxarılacağı və təlimatlandırılmış dava mücahidlərinin ayıq olmalarının gərəkliliyi.
- Təpədə qalan əmir və ondan ayrılmayan yoldaşlarının tək qalmalarına baxmayaraq, ölümü gözə alaraq Allah Rəsulunun əmrini yerinə gətirməyə çalışmaları.
- Tam qələbə qazanılmadan zəfər rahatlığına düşməyin və hər şey sona çatmış kimi hərəkət etmələrinin böyük bir xəta olması.
- Təşvişə düşməyin hər zaman zərər verəcəyi.
- İki od arasında qalınmasına və yaşanılan dağınıqlığa baxmayaraq Allah Rəsulunun və bir çox səhabənin cihaddan geri dönməməsi, ümidsiz görünsə də qarşı çıxmağa, sağ qalanları bir yerə toplamağa, yeni bir müqavimət dəstəsi yaratmağa çalışması və bu səylərin müvəffəq olması.

- Allah Rəsulunun ətrafında toplanan səhabələrin hər birinin son dərəcə vəfalı və fədakar davranışları.
- Döyüş meydanlarının müxtəlif yerlərində görülən unudulmaz fədakarlıq nümunələri və bunların illərlə könüllərdə qoyub getdiyi izlər.
- Allahın yer üzündə var olan qanunlarının daima keçərli olması. Möcüzə və kəramətlərlə bu ilahi sünnələrin, qanunlardan kənara çıxan nadir hallarda və Uca Allah dilədiyi zaman çıxıla bildiyi. Buna görə də Allah Rəsulunun döyüş hazırlıqları etdiyini, tədbirlər gördüyünü, mövqeləri müəyyənləşdirdiyini, ətrafındakı insanları cəsarətləndirdiyini, təşviq etdiyini, dua etdiyini, qarşılıqlı döyüşdə şəxsən iştirak etdiyini, yaralandığını, yorulduğunu, ordunu bir yerə toplamaq üçün səy göstərdiyi görürük. Beləliklə də möcüzələr və ya kəramətlər gözləmək əvəzinə bu ilahi qanun və nizam çərçivəsində hərəkət etməyin, səy göstərməyin, dua ilə kifayətlənməməyin, Allaha niyaz etməkdən də əl çəkməməyin zəruriliyi.
- Allaha və axirət gününə iman gətirməyin qəlbə güvən verdiyi və hərəkətə keçirici bir rol oynadığı. Möminlərdəki şəhadət arzusu. Şəhid olaraq ölməyin necə ülvi bir mərtəbə olduğunu dərk etmək.
- Əbu Sufyanın, müşriklərinin başçısı olmasına rəğmən öz adamlarından çox Hz. Ömərə inanması.
- Müşriklərin şəhidlərə qarşı rəftarları. Hindin davranışı.
- Müşriklərin kin dolu, nifrət dolu və vəhşi rəftarlarına qarşı müsəlmanların sərgilədikləri davranışlar. Peyğəmbərimizin bibisi Safiyyənin mövqeyi. Bəni Dinardan olan qadının duyğu və düşüncələri.
- Allah Rəsulunun, müşriklərin döyüş yeri olaraq seçdikləri Bədrə razı olması. Müəyyənləşdirilən tarixdə istənilən yerdə ordusu ilə birlikdə hazır olması və bunun həm müşriklər, həm də möminlər üzərindəki təsiri.

- Şəhidlərə qarşı göstərilən sevgi və ehtiram.
- Hz. Peyğəmbərin meydandan çəkilən müşrikləri izləməsi və son ana qədər tədbiri əldən buraxmaması və döyüş əzmkarlığını canlı tutması.
- Müşriklərin geriyə dönmək istəmələri və bütün yorğunluqlara və yaralara rəğmən yenidən onlara qarşı döyüş meydanına çıxışı.
- Bu çıxış üçün çağırılan dəvətin daşıdığı dərin məna. Lazım gələndə inandığı və ya inandığını söylədiyi dava uğrunda üzərinə düşən vəzifəni yerinə yetirməyən, səhlənkarlıq edən və ya fikrindən dönənlərin mənəvi baxımdan cəzalandırıla biləcəyi. Vəfalı və fədakar insanların fərqinin və üstünlüyünün incə bir metodlar ortaya çıxarıla biləcəyi.
- Mömin könüllər bir nizam və intizam içərisində bir yerdə toplaşdıqda Uca Rəbbin İslama qarşı çıxanların ürəyinə necə qorxu saldığı.
- Düşmənə qarşı gücünü göstərmə və onları çəkindirici tədbirlərin alınmasının yaxşı bir davranış olduğu.
- Ənəsin əmisi olan Ənəsin dava yolunda baş qoyma haqqında söylədikləri sözlərin dərin mənası və bunu əməlləri ilə təsdiq etməsi.
- Qadınların səmimi zəhmətləri və döyüşə faydaları.
- Çətin günlərin və imtahanların səmimi ürəkləri və fədakar iman igidlərini ortaya çıxarması.
- Fədakar insanların nələr edə biləcəkləri.
- Bunun kimi başqa bir çox şey...[146]

146. Uhud müharibəsi əsnasında baş verən hadisələrdən yüzlərlə ibrətamiz nümunələr çıxarmaq, baş verən hadisələrə müxtəlif prizmalardan yanaşmaq mümkündür və bunun edilməsi də zəruridir. Bizim ortaya çıxardıqlarımız və göstərməyə çalışdıqlarımız ilk baxışda göz önünə gələnlərdir və nümunə mahiyyətindədir. Onlar barəsində düşündükcə daha neçə-neçə ibrət və irşad nümunələri ortaya çıxar kim bilir!?. Bunların oxucuların təfəkkür gücünə və ibrət gözünə əmanət edirik. Bu məsələyə kitabın əvvəlki fəsillərində də toxunulmuşdu. Ancaq çox əhəmiyyətli mövzu olduğuna

Bir Neçə Kəlmə

İslamı yox etmə hazırlıqları və İslama qarşı təhriklər

Uhud döyüşü müşriklərin hazırlanmasından tutmuş, yəhudilərin onların təhrik etməsindən son nöqtəsinə qədər dərindən təhqiq olunmalı və dəyərləndirilməlidir.

Ənfal surəsində keçən aşağıdakı ayeyi-kərimələrin nüzul olma səbəbinin Uhud döyüşü hazırlıqları olduğu bildirilmişdir.[147]

إِنَّ الَّذِينَ كَفَرُوا يُنْفِقُونَ أَمْوَالَهُمْ لِيَصُدُّوا عَنْ سَبِيلِ اللَّهِ ۚ فَسَيُنْفِقُونَهَا ثُمَّ تَكُونُ عَلَيْهِمْ حَسْرَةً ثُمَّ يُغْلَبُونَ ۗ وَالَّذِينَ كَفَرُوا إِلَىٰ جَهَنَّمَ يُحْشَرُونَ (٣٦) لِيَمِيزَ اللَّهُ الْخَبِيثَ مِنَ الطَّيِّبِ وَيَجْعَلَ الْخَبِيثَ بَعْضَهُ عَلَىٰ بَعْضٍ فَيَرْكُمَهُ جَمِيعًا فَيَجْعَلَهُ فِي جَهَنَّمَ ۚ أُولَٰئِكَ هُمُ الْخَاسِرُونَ (٣٧)

"Küfr edənlər öz mallarını (insanları) **Allah yolundan döndərmək** (islamı qəbul etməyə mane olmaq) **üçün sərf edərlər. Onlar mallarını sərf edəcək, lakin sonra** (məqsədlərinə çata bilmədiklərinə görə) **peşman olacaq, axırda da məğlub ediləcəklər. Kafirlər Cəhənnəm tərəfə sürüklənəcəklər ki,**

Allah (orada) **murdarı** (kafiri) **pakdan** (mömindən) **ayırd etsin, sonra murdarları bir-birinin üstünə yığıb hamısını bir yerə toplasın və Cəhənnəmə atsın. Bunlar özlərinə zərər eləyənlərdir!"** (Ənfal 8/36-37).

Nüzul səbəbi nə olursa-olsun, əlbətdə ki mənası, xəbərdarlığı və irşad etməsi ümumidir. Ayeyi-kərimələrdə verilən xəbərə görə batil zehniyyət sahibi olan kimsələrin haqq yolunda sədd çəkmək, bu yolda mallarını, güclərini səfərbər etmək səyləri yenə davam edəcəkdir.

Bu həqiqət dünən olduğu kimi, bu gün də davam etməkdədir. Tarix boyu bunun nümunələri yaşanmışdır, bu gün də yeni nümunələrinə şahid olmaqdayıq. Nazil olma səbəbləri

görə burada yenidən toxunmaq ehtiyacı hiss etdik. İbrət və irşad alınacaq nöqtələrin bizim söylədiklərimizlə məhdudlaşmadığını bilməyinizi istəyirik.

147. Bax. Muxtasari Təfsir, İbn Kəsir (1/103-104).

ayeyi-kərimələrin başa düşülməsinə, həqiqi məqsədin nə olduğunun anlaşılmasına kömək edir. Beləliklə də Uhuddan başlayaraq bu günə qədər ayənin irşadı və ətrafımızda baş verən hadisələr yenidən gözdən keçirilməli, fəaliyyətlər də ona görə müəyyənləşdirilməlidir.

Yəhudilər tarix boyu çox vaxt haqqın qarşısında maneə yaradıblar və bu səylərin təhrikçisi olmuşlar.

Musa əleyhissəlamın rəhbərliyi altında Fələstin torpaqlarına gəldikdə burada yaşayan batil zehniyyətli, zalım, güclü-qüvvətli insanları gördükdə onlara qarşı döyüşməyi gözə ala bilməyən, Musa əleyhissəlamın özünə isə çoxlu işgəncələr yaşadan qövmü ona belə demişdi: *"Onlar bu bölgədən çıxmadan biz heç vaxt ora girə bilmərik. Sən get, Rəbbinlə birlikdə onlara qarşı savaş, biz burda oturub səni gözləyərik!"*.[148]

Belə fikirdə olan və zəfər vəd etməsinə rəğmən bir peyğəmbərin səflərində döyüşmək istəməyən, başqa bir sözlə desək, öz canlarını şirin tutanlar başqalarını təhrik etmək mövzusunda isə əsrlər boyu güclü olmuşlar.

Mədinədə illərlə Əvs və Xəzrəc qəbilələrini bir-birinə qırdıraraq orada hakimiyyət quran və Mədinənin ən gözəl yerlərini ələ keçirənlərin, onların bu səltənətini yıxan və möminləri qardaşlıq duyğuları ilə bir-birinə bağlayan, beləliklə də möminləri üstün mövqeyə çatdıran Allah Rəsuluna xoş baxmaları mümkün deyildi.

Xəndək qəzvəsində olduğu kimi əllərinə fürsət düşən kimi bunu yenidən həyata keçirməyə çalışmışlar.

Təhrif olunmuş Tövratın "indi get və onların hər şeyini yox et. Onlara mərhəmət göstərmə, kişidən arvada, uşaqdan beşikdə olana qədər hamısını öldür!" (Tövrat, I Samuel bölümü, 15/3) əmri ilə hərəkət edən bir zehniyyətin edəcəyi də elə budur.[149]

148. Bu bölgənin İliya və ya Əriha bölgəsi olduğu rəvayət olunur. Bəni İsrailin o günkü vəziyyəti ilə bağlı məlumat üçün Maidə surəsinin 20-26-cı ayələrinin təfsirinə baxın.

149. Mənbəyi aləmlərin yaradıcısı, mərhəmətlilərin ən mərhəmətlisi olan bir kitabda bu kimi əmrlərin olması mümkündürmü!? Təəssüf ki, bu gün mövcud olan Tövratda buna bənzər başqa bir çox ayələr var.

Hələ də bu cür davranmağa davam edirlər. Dünyanın bir çox ölkəsinin dəstəyini də alaraq daha da qızışan bu kimi hərəkətlər ağlasığmaz səviyyəyə çatmışdır və bəşəriyyətə qan qusdurmaqdadır.

Bu gün dünyada meydana gələn döyüşlərin, acı hadisələrin əsil səbəbi və təhrikçiləri, hazırlayıcıları kimlərdir deyə ciddi və obyektiv bir tədqiqat aparılsa nələr ortaya çıxar, bu daşların altından kimlərin barmağı çıxar görəsən?!

Zəli qan damarlarını soran kimi, bəşəriyyətin mal "damarları" kimlər tərəfindən sömürülür görəsən?! Bir neçə gün içərisində dövlətlər necə olur ki, bir anda döyüşməyə başlayırlar?! Minlərlə müsəlmanın ölməsinə baxmayaraq heç kimin səsi çıxmır. Halbuki, yeri gələndə özləri üçün aləmi ayağa qaldırırlar. Bütün bu sui-qəsdlər, iflaslar və dağınıqlıqlar bir-birinin arxasınca necə yaranır?!

Ancaq İslam dünyasının gözəlliklərini ört-basdır edən, onu çirkin göstərməyə çalışanlar, diqqətləri başqa yerə çəkmək istəyənlərin öz vəhşiliklərini gizlətməkdə mahir olmadıqları da məlumdur. Bizlər bu gün daha bəsirətli, təhsilli, daha şüurlu olmalı, birlik və bərabərliyi daha möhkəm qorumalıyıq. Təşkilatlı güclərə qarşı möminlər daha çox təşkilatlanmış bir güclə cavab verməyi bacarmalıdır. Allaha təvəkkül edən və üstünə düşən vəzifəni yerinə yetirən insanlar olmaq məcburiyyətindəyik.

Onların bəşəriyyətə bu qədər düşmən olmaları, zülm və qəddarlıqları bizi məsuliyyətdən azad etməz. Əksinə, daşıdığımız məsuliyyətin sərhədlərini daha da genişlədəcək, nə qədər tez tədbirlərin alınmasını vurğulayacaqdır. Unudulmamalıdır ki, hər keçən gün bizim əleyhimizə işləyir.

❋

Başqasına yalvarmaq, başqalarından mədət ummaq acizliyin və ya qorxaqlığın əlamətidir. İman yüklü könüllər nə aciz, nə də qorxaq ola bilər...

Birlik və Nizam İçərisində Olmaq

İnanan ürəklərin bir nizam-intizam içərisində bir yerə yığışmaları, Allah Rəsulunun buyurduğu kimi bir-birinə möhkəm bağlanmaları və sarsılmaz bina kimi olmaları əlbətdə ki, zəruridir. İslamı sarsıtmaq, yox etmək, ən azından zəiflətmək istəyənlərin təşkilatlı və hazırlıqlı olduğu, bütün imkanlarından istifadə edərək İslamın əsas prinsiplərinə, mənsublarına hücumlar etdiyi bir dövrdə, qayəsi Allah rizası olan insanların dağınıqlığı, bəsirətsizliyi, səhlənkarlığı, fərdiyyətçiliyi, axınlara qapılıb sürünməsi bağışlanmaz bir xətadır.

Allah Rəsulu dualarında mömin könüllərin bir-birinə yaxınlaşmasını, ülfət qurmasını niyaz etmişdir.

Rəbbimiz möminlərin ürəkdən birləşməsini bir nemət kimi zikr etmişdir və tərifləmişdir. Bu ağrılı-acılı günlərimizdə buna çox böyük ehtiyacımız var.

Möminlər birləşib birlikdə səy göstərdikcə, inandıqları haqq davasına kömək etdikcə bu dava da yüksələcək, ona xidmət edənlər də əlbətdə onunla yüksələcək və əvəzini həm bu dünyada, həm də axirət dünyasında görəcəklər. Bu millət həqiqətən də hüzur və səadət dolu illər görmüşdür. Hər kəsin həsəd apardığı gözəl duyğulara sahib olmuşdur.

Doğruluğa, xeyrə, haqqa, gözəl əxlaqa, birlik və bərabərliyə, nizam-intizama qovuşmaq üçün səy göstərərsə yenə də onu yaşamağa başlayacaqdır. Üfüqdəki rənglər yenidən öz canlılığını əldə edəcək, yenidən bülbüllər cəh-cəh vuracaq, çiçəklər gözəl qoxularını ətrafa yayacaqdır.

Bədr qəzvəsində və Uhudun ilk dönəmlərində birlik bərabərlik içərisində olan möminlər necə ki, qələbəyə nail ola bildilər, dağınıqlıq, səhlənkarlıq və sözə qulaq asmamaq böyük sıxıntı yaratdısa, bu hər zaman belə olmağa davam edəcəkdir. Çünki ilahi nizam belə qurulmuşdur. Necə ki, riyaziyyatda, fizikada, kimyada, yer üzündə və kosmosda müəyyən qanunlar, nizamlar var, sosial-ictimai həyatda da qanunlar və nizamlar mövcuddur və ən az onlar qədər təsirlidir. Bunu yaddan çıxarmaq olmaz.

Allah Rəsulu döyüş hazırlıqları görmüş, hər kəsin fikrini soruşmuş, zirehini geyinmiş, qılıncını qurşanmış, ordusunun başına keçmiş, onları yoxlamış, döyüş əzmini gözdən keçirmiş, ən güvənli nöqtəni mərkəz qəbul etmiş, mücahidləri ruhən də cihada hazırlamış və möcüzələrin arxasına sığınmamışdır. Feli şəkildə döyüşmüş, mücadilə etmiş, yaralanmış, qələbə üçün lazım gələn bütün tələb olunanları yerinə gətirməyə çalışmışdır.

O, bizim yeganə liderimizdir. Onun irşadı qiyamətə qədər davam edəcək, Haqqa könül bağlayanlara işıq tutmağa davam edəcəkdir. O, mürşidlər mürşididir.

Onun yolunda yeriyənlər nizam-intizam içərisində olmalı, çox çalışmalı səy göstərməli, hər cür fədakarlığa hazır olmalı, qurulan nizam-intizam heç vaxt pozulmamalı, hadisələr qarşısında kədərlənib ümidsizliyə düşülməməli, əzmkarlığı itirməməli, səhlənkarlıq göstərilməməlidir. Uca Rəbbimiz Qurani-kərimdə belə buyurur:

وَلَا تَهِنُوا وَلَا تَحْزَنُوا وَأَنْتُمُ الْأَعْلَوْنَ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ

(Uhud müharibəsində baş vermiş bəzi hadisələrə görə) **ruhdan düşməyin və qəmgin olmayın. Halbuki, əgər möminsinizsə, siz** (Allah yanında inanmayanlardan) **çox yüksəkdə dayanırsınız!** (Ali-İmran 3/139)

Könüldən iman gətirmək, mömin könüllərlə birlikdə olmağı zəruriləşdirir. Nizam və intizamı labüd qılır. Allah yolundan, Rəsulun izindən uzaq düşməməyi vacib edir.

Uhud Hadisəsinə Bir Neçə Fərqli Baxış

Allah Rəsulunun fikrinə uyğun olmamaqla yanaşı səhabələrdən bir neçəsinin müzakirə əsnasında meydan döyüşünə üstünlük vermələrinə və bunda israrçı davranmalarına səbəb olan döyüş cəsarəti və cihad əzmkarlığı təqdirə şayan dərəcədə idi. Allah Rəsulu da onların bu əzmkarlığını və səmimiyyətini nəzərə alaraq meydan müharibəsinə razı olmuşdu. Bu insanlar meydana çıxanda üzərlərinə düşən vəzifəni yerinə yetirməyə çalışmış, bir addım geri atmamışdılar.

Onların heç biri bu israrlarına görə Rəsulullah tərəfindən danlanmamış, meydana çıxma istəkləri qüsurlu görülməmişdir. Başqa bir ifadə ilə desək, onlara "siz meydan müharibəsi istədiyinizə görə belə oldu"-deyilməmişdi.

Son illərdə Uhudda baş verən məğlubiyyətin səbəblərindən birinin bu olduğunu israrla vurğulayanların olduğunu görürük. Belə bir nəticəyə gəlməyin yanlış olduğunu düşünürük. Çünki bu bir istişarə nəticəsində ortaya çıxmış qərar idi. İstişarədə əlbətdə ki, fərqli görüşlər irəli sürülməli, hər kəs ağlına gələn fikri ortaya qoymalı idi. Bir insan doğru olduğuna inandığı fikri başqalarının haqqına riayət edərək və lüzumsuz inadlaşma səviyyəsinə çatdırmadan, "sadəcə mənim dediyim doğrudur"-eqoizminə düşmədən müdafiə haqqına və qarşısındakını qane etmə haqqında sahibdir. Bu səhabələr də eyni şeyi etmişdilər. Allah Rəsulu da onların lehinə qərar qəbul etmişdi. Rəsulullah fərqli fikirlərin irəli sürülməsinin səhv olduğunu düşünsəydi bu mövzunu müzakirəyə açmazdı və səhabələrdən heç bir şey soruşmazdı. Müxtəlif fikirlərə qapı açmadıqca istişarə və müzakirənin heç bir mənası yoxdur.

Dağınıqlığın və məğlubiyyətin səbəbi heç də bu istişarə nəticəsində alınan qərar deyildi. Bunun ən böyük dəlili isə Abdullah ibn Übeyyin 300 nəfərlik qoşunu ilə ayrılmasından sonra bir ovuc insandan ibarət olan ordunun düşməni darmadağın etməsi və müşrikləri məğlubiyyətin astanasına gətirməsidir.

Birlik, bərabərlik, əmrlərə itaət və bağlılıq mühafizə olunarkən qələbəyə son dərəcə yaxınlaşılmış, hətta qəti qələbə qazandıqlarını düşünmüşdülər.

Dağınıqlığın əsil səbəbi bu andan sonra ortaya çıxmışdır. O da Allah Rəsulunun bütün tənbeh və tapşırıqlarına baxmayaraq oxçuların öz mövqelərini tərk etməsi, düşməni qovmağa və qənimət toplamağa başlamalarıdır. Bu vəziyyət yuxarıda qeyd etməyə çalışdığımız həqiqətin canlı bir nümunəsidir.

Bu əsnada yaddan çıxarılmaması zəruri olan bir reallıq da var. O da həm Allah Rəsulunun həm də digər səhabələrin sonrakı illərdə bu xətaya düşənlərin səhvlərini üzlərinə vurmaması, "başımıza gələnlər sizin ucbatınızdan oldu"-kimi günahlandırma və aşağılamadan uzaq durmasıdır. Bu, ciddi bir ibrət nümunəsidir.

Üstəlik oxçuların vəziyyəti istişarə əsnasında görüş bildirənlərdən çox fərqlənirdi. Onların səhvləri açıq aydın görünürdü. Son dərəcə dəqiq, qəti və israrlı əmri həyəcana qapılaraq görməzdən gəlmişdilər. Məğlubiyyət də bu görməzlikdən irəli gəlmişdi. Bütün bunlara baxmayaraq baş verənlərin səhv olduğu qeyd olunmuş, ancaq bu səhvə düşənlər mənəvi təzyiq altında buraxılmamış, cəzalandırılmamışdır. Bu yükün altından birlikdə qalxmağa çalışaraq çox gözəl birlik nümayiş etdirmişlər. Xətalar örtülmüş, acılı və şirinli günlər birlikdə yaşanmışdır. Sonrakı illərdə də bu hadisə heç vaxt fərdiləşdirilməmiş, məğlubiyyətin bütün günahı bəzi insanların üstünə yüklənərək, tənqid olunmamışdır.

Əksinə şahid olduğumuz bu günlərdə bu həqiqəti daha yaxşı dəyərləndirməyin zəruriliyinə inanıram:

Uca Rəbbimiz Rəsuluna xitab edərək belə buyurmuşdur:

فَبِمَا رَحْمَةٍ مِنَ اللَّهِ لِنْتَ لَهُمْ ۖ وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ ۖ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الْأَمْرِ ۖ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ ۚ إِنَّ اللَّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

"(Ya Rəsulum!) **Allahın mərhəməti səbəbinə sən onlarla** (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) **yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün** (Allahdan) **bağışlanmaq dilə, işdə onlarla məsləhətləş,**

qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah (Ona) **təvəkkül edənləri sevər!"** (Ali-İmran 3/159).

Möminlərin bir-birinə qarşı rəhmət, şəfqət və ülfət içərisində olması, bir-birləri ilə istişarə etməsi, kobud və qatı qəlbli olmamaları ilahi əmrin zəruri qıldığı məsələlərdir. Allah Rəsulunun ətrafında olanların, onun ümmətindən olmaq istəyənlərin, onun yolunda yeriyənlərin xüsusiyyəti budur. Belə də olmalıdır.

✵

Tez-tez bəhs etdiyimiz kimi, həqiqi dava adamları özlərini çətin vəziyyətlərdən bəlli edərlər. Əldə olunan imkanların, qənimətlərin müştərisi çox olur. Dava uğrunda çəkilən əzabların, fədakarlıqların "müştərisi" isə həqiqi dava ərləridir.

Uhudda baş verən çətin imtahanlar bu fikri ifadə edən çoxlu nümunələrlə doludur. Musab, Ənəs, Təlhə, Əbu Übeydə, Əbu Təlhə, Amr ibn Camuh, Nəsibə, Ümmü Süleym və başqalarının yaşadığı anlar və etdikləri fədakarlıqlar unudulmaz xatirələrdir.

Yoldan geri qayıdan mürtədlər də yaddan çıxarılmamalı, əlbətdə ibrət nəzərindən uzaq tutulmamalıdır.

Düşməni qovmağa başlayan yaralılar ordusu isə qəlblərindəki duyğularla birlikdə xüsusi bir tablo yaratmaqdadır.

Bu çıxış yaralılara məlhəm, qəlblərə şəfa olmuşdur.

✵

Uhud hadisəsi danışmaqla bitməyən məsələdir. Uhud şəhidləri də yatdıqları yerlərdən bizə çox şeyi izah edirlər. Qardaşlarımızın Uhudda baş verənləri təkrar edəcək oxumaları və yaşanan hadisələri gözlərinin qabağına gətirmələri, üzərində ciddi düşünmələri lazımdır.

✵✵✵

Bərəkət və Dünya Malına Hakim Olmaq

Abdurrahman İbn Avf

-radiyallahu anhu-

عبد الرحمن بن عوف

Səd ibn Rəbi mədinəli, ənsardan və xəzrəcli. Hicrətdən sonra Abdurrahmanla qardaş elan olunan əziz səhabə. İki hicrət insanı Abdurrahman ibn Avfı bağrına basmış, dünya malından nəyi varsa ortaya qoymuş və ürək rahatlığı ilə qardaşına "bunların yarısı sənindir. Ürəyindən nə keçirsə ala bilərsən"-demişdi.

Abdurrahman onun bu fədakarlığına və səmimiyyətinə baxaraq çox duyğulanmış, eyni səmimiyyətlə qardaşına cavab vermişdi:

بارك اللّٰه لك فى أهلك و مالك. ولكن دلّني على السوق.

"Allah əhlini və malını sənə mübarək etsin! Sən mənə bazarın yolunu göstər!"

Abdurrahman bu din qardaşına, bu qonaqpərvər dostuna dualar edir, bərəkət diləyir, qardaşlığının ona kifayət edəcəyini bildirir, çox keçmədən bazarın yerini öyrənir, alverlə məşğul olur, qazanaraq sərmayə yığıb qazanırdı. Hətta toy edib evlənirdi.

✺

Bəs sonra nə oldu?! Tarix səhifələrinə nəzər salaq:

Allah Rəsulunun dünyadan köçməsindən sonra, günlərin bir günü Mədinə küçələri izdihamlaşmışdı. Hər tərəfdə insanlar hərəkət edirdilər, qaçışırdılar. Qaçışan uşaqlar, küçələrə tökülən insanlar və bunların səslərindən daha gur səs çıxardan dəvələr..

Qələbəlik və gurultu getdikcə daha da çoxalırdı. Mədinə bu gün nədənsə çox hərəkətli gün keçirirdi.

Aişə anamız maraq içərisində evinin qabağından keçən bir nəfərdən soruşdu: "Bu nə gurultudur?"

"Abdurrahman ibn Avfın 700 dəvəlik bir karvanı buğda, un və digər qida maddələri ilə dolu olaraq Mədinəyə girdi".

Belə isti, quraq və əkinin az olduğu ölkədə ən qiymətli ticarət malları idi bunlar..

Bu rəqəm Abdurrahmanın ticarətdə hansı səviyyəyə çatdığını göstərir. Ancaq sadəcə bunlardan da ibarət deyildi onun ticarət karvanı.

Rəqəmləri indilik bir kənara qoyub, onu bir az yaxından tanımaq üçün Aişə anamızın nə dediyinə və sonrasında baş verənlərə nəzər salaq.

Aişə anamız gələn karvanın Abdurrahmana aid olduğunu biləndə bunları dedi:

بارك اللّه له فيما أعطاه فى الدنيا ولثواب الآخرة أعظم. فلقد سمعت رسول الله يقول (يَدْخُلُ عَبْدُ الرَّحْمَنُ بْنُ عَوْفٍ الجَنَّةَ حَبْواً.)

"Allah bu dünyada ona verdiklərinni mübarək etsin! Axirət həyatında bəxş edəcəyi savabı isə daha bol olsun!

Mən Allah Rəsulunun "Abdurrahman ibn Avf cənnətə sevincindən iməkləyərək girəcək"-dediyini eşitdim.

Aişə anamızdan bu sözləri eşidən adam dərhal Abdurrahmanın yanına getdi və bu xəbəri ona çatdırdı.

Belindəki yüklərlə səhralardan keçərək "bəldeyi-tayyibə"-yə gələn və bu şəhərin küçələrini sevincə qərq edən dəvələr hələ yerə yatırdılmamışdılar. Abdurrahman Aişə anamızın bu sözlərini eşidən kimi "xaneyi-səadətə" (xoşbəxtlik yuvası) tərəf yola düşdü. Bu müjdəli xəbər onu uçururdu.

Xaneyi-səadətə çatan kimi Aişə anamızdan soruşdu: "Ana, bu deyilənləri Allah Rəsulundan sən özün eşitdinmi?".

"Bəli"-cavabı aldı.

Sevincinin həddi hesabı yox idi. O, sevinc içərisində dedi: "İmkanım olsa, gücüm çatsa qaçaraq ayaq üstə də girəcəyəm!". Sonra sözlərini yüksək səslə bunları söyləyərək tamamladı:

أُشْهِدُكَ يَا أُمَّه أنّ هذه العيرَ جميعَها بأَحْمَالِها و أَقْتَابَ بِها وأَحْلاَسِها فى سبيل اللَّه.

"Şahid ol Ana! Bu karvan bütün dəvələri ilə, dəvələrin bellərindəki yüklərilə, yəhərləri, çuvallarıyla, hər şeyi ilə Allah yolunda fədadır".

Xəyalları belə gözəl olan 700 dəvəlik karvanı bir anda Allah rizası üçün bağışlamışdı.

Bu qədər zəngin, bu qədər comərd, bu qədər səmimi və fədakar insan...

❋

O, İslamla şərəflənən ilk səkkiz nəfərdən, cənnətlə müjdələnən on əziz səhabədən biriydi. O, elm və irfanla dolu, Allah Rəsulu sağ ikən Mədineyi-münəvvərədə fitva verən bir neçə nəfərdən biriydi. O, Uca Allahın ona bəxş etdiyi zənginliyə baxmayaraq dünya malı ilə imtahanlardan ən uğurla çıxanlardan idi. İslamdan əvvəlki adı Abdu Amr (Amrın qulu) idi. İslam dini ilə şərəfləndikdən sonra Rəsulullah onu Abdurrahman (Allahın qulu) olaraq çağırmağa başlamışdı. Artıq onun adı Abdurrahman olmuşdu.

Abdurrahman ibn Avf uzun boylu, böyük bədən quruluşuna sahib, ağbənizli, gözəl simalı, ovucları geniş, barmaqları qalın, yumşaq tənli biriydi. Qocalıq dövründə də çox dəyişməmişdi.

O, Allah Rəsulu Darul-Ərkamı dəvət mərkəzi halına gətirməmişdən əvvəl İslam dininə girmişdi. İslama girməsi Əbu Bəkr əs-Siddiqdən iki gün sonra olmuşdu. İlk möminlərdən, ilk cihad qəhrəmanlarından, fədakarlardan və çiləkeşlərdən biri idi.

Allah yolunda ilk qəhrəmanların çəkdikləri əzabları o da görmüşdü. Səbrlə, mətanətlə Allah yolunda olmağın ən gözəl nümunələrini sərgiləmişdi.

İşgəncələr və təzyiqlər altında Allah Rəsulunun icazəsi ilə Həbəşistana hicrət etmişdi. Oradan qayıtdıqdan sonra Mədinəyə ilk hicrət edən möminlərdən olmuş, beləliklə də "iki hicrətli" adlanan insanlardan biri olmuşdu.

Bəli o iki dəfə hicrət edənlərdən idi. Bədr döyüşünün qəhrəmanlarındandı. Cihadın haqqını verənlərdən idi. Bədr qəzvəsində Allah düşmənlərindən sayılan Teymoğulları qəbiləsindən olan Ümeyr ibn Osmanı onun qətl etdiyi rəvayət olunur.

Bir çox insanın yoldan çıxdığı Uhud günündə o, mətanətli davranıb dəyişməz mövqe sərgiləyənlərdən biriydi. Yolundan dönməmiş, sarsılmamış, geriyə addım atmamış, düşmənə icazə verməmişdi. Döyüş bitdikdə bədənində iyirmidən çox yara vardı. Bu yaraların bəziləri o qədər böyük idi ki, içinə əl soxmaq belə olardı.

Uğrunda cihada çıxdığı Rəbbi onun yaşamasını istəmiş, ancaq yaraları dərin izlər buraxmış, bir ayağı da axsamağa başlamışdı.

O, yaşadığı müddətcə hər zaman döyüş meydanlarında olmuşdu. Cihadın haqqını verənlərdən biriydi. Bəni Müstəliq qəzvəsində, Müstəliqoğulları qəbiləsinin çox güvən duyduğu məhşur döyüşçü Əhməri də o, yerə sərmişdi.

Allah Rəsulu onu Bəni Kəlb üzərinə göndərmək üçün hazırladığı səriyyənin başında cihada göndərmişdi. Onun sarığını başına Rəsulullah öz əlləri ilə bağlamış, sarığın arxasını dörd barmaq qədər kürəkləri arasına atmış, "Avf oğlu, sarığı belə bağlayarlar"-demişdi. Sonra da Bilala tapşırmışdı ki, bayrağı ona versin. Bayraq təhvil verilib yola salınarkən həmdü-səna və səlatu-səlam etdikdən sonra cihadın əsas prinsiplərini ona belə deyərək yada salmışdı:

"Ey İbn Avf! Bayrağı ondan al! Allah yolunda birlikdə cihad edin. Allahı inkar edənlərə qarşı çiyin-çiyinə döyüşün. Əldə olunan qənimətlərdə hər kəsin haqqını nəzərə alın. Heç kimə

xəyanət etməyin və qəsbkar olmayın. Döyüş prinsiplərindən kənara çıxmayın, mərd olun. İnsanlara işgəncə verməyin, ağız, burun, qulaq kəsənlərdən olmayın. Uşaq öldürməyin. Bu, sizin-çün Allahın əhdi, Rəsulullahın sirətidir".

Abdurrahman bayrağı götürmüş, birliyin başçısı kimi yola çıxmış və Mədineyi-münəvvərəni tərk etmək üzrəydi. Səhralarda uzun yolları qət edərək Bizansın cənub sərhədlərində yerləşən Dumətul-Cəndələ gəlmişdi.

Abdurrahman Bəni Kəlb qəbiləsini İslama çağırmış, qəbul olunduğunu gördükdə onlarla müqavilə bağlamış və bir müddət onlarla birlikdə qalmışdı.

Rəsulullah "Allah sənə qələbə nəsib edərsə onların başçılarından birinin və ya krallarının qızlarından biriylə evlən!" deyərək məsləhət vermişdi. O da Asbağ ibn Sələbənin qızı Tumadır ilə evlənmişdi. Bizans sərhədlərində yer alan insanlarla yaxın əlaqə qurmuşdu. Fiqh elmində dərin elm sahibi olan Əbu Sələmə bu evlilikdən dünyaya gəlmişdi.[150]

❋

Ancaq Abdurrahmanın bütün bu fədakarlıqları, qəhrəmanlıqları, əzm və səyləri ilə yanaşı əsil diqqəti çəkən məsələ onu malı ilə etdiyi cihadıdır. Canı ilə etdiyi cihadla malı ilə etdiyi cihad müqayisə olunduqda, malı ilə etdiyi cihad daha güclüdür. Onun bu yönü ağlasığmaz dərəcədə heyrətamizdir. Dünya var olduqca unudulmaz fədakarlıq nümunələridir.

Sizə bir neçə nümunə göstərək:

Allah Rəsulu hərbi birləşmə hazırlamış və möminlərə demişdi: "Allah yolunda infaq edin. Birləşməni yola çıxarıram!"- buyurmuşdu.

Onun bu sözünü duyan Abdurrahman evinə qayıdır. Bütün pulu dörd min dinardı. Dərhal onun iki minini alaraq qayıdır və Allah Rəsuluna təqdim edir. Bu rəqəm o gün üçün çox böyük bir məbləğ idi. Allah Rəsulu sevinmiş və təəccüblənmişdi. Abdurrahman "ya Rəsulullah, dörd min dinarım var idi, iki minini

150. Sirətu İbn Hişam (2/632), əl-İstiab (2/393), əl-İsabə (2/416).

Rəbbimə borc verdim, iki minini də öz ailəm üçün nəfəqə qoydum" dedi. Rəsulullah ona belə dua etdi:

بَارَكَ اللّٰهُ لَكَ فِيمَا أَعْطَيْتَ وَبَارَكَ اللّٰهُ لَكَ فِيمَا أَمْسَكْتَ.

"Allah verdiyini də mübarək etsin!
Ailən üçün evdə saxladığını da!".

Bu hərbi birləşmə Abdurrahmanın infaqı hesabına yola çıxmışdı...

❋

Rəsulullah Təbuk qəzvəsinə hazırlanırdı. Qızmar günəş şüalarının hər tərəfi yandırdığı və meyvələrin az olduğu günlər yaşanırdı. Yol uzun, düşmən çox idi. Artıq İslam torpaqları Bizansın cənubuna qədər gələn torpaqlarla həmsərhəd idi. Bu iki dünya imperiyasının bir-birlərinə qarşı böyük hərəkatı idi. Bizans ordular təlim görmüşdü. Silahları geniş bir ordunun bütün silah ehtiyaclarını ortadan qaldıracaq qədər çoxdu.

Döyüşə çıxacaq əsgərlər qədər, döyüş hazırlıqları üçün maddiyyata da ehtiyac vardı. Çətin şərtlər altında hazırlanan bu orduya "ceyşul-usra" (çətinlik ordusu) adı verilmişdi. Bir tərəfdən qəlbinə islam dini tam yerləşməmiş insanlar istiliyi və qıtlığı bəhanə gətirərək meyvələrini gizlədib, ağlasığmaz bəhanələr irəli sürərkən, bəzi səhabələr də döyüşdə iştirak etmək üçün minik vasitələri olmadığına görə kədərlənmişdi. Gözləri yaşlı, boyunları bükük şəkildə geri qayıdanlar vardı.

Rəsulullah imkanı çatan bütün müsəlmanları Allah yolunda infaq etməyə dəvət etmişdi.

Fədakarlıqlar bir-birini izləyirdi. Gətirilən qızıllar, gümüşlər, silahlar, atlar və dəvələr bu fədakarlıq nümunələrindən bir neçəsi idi. Allah yolunda nifaq etməyin ən gözəl nümunələri sərgilənirdi. Bu isə qəlblərə rahatlıq və sevinc bəxş edirdi.

Hz. Osman min dinar bağışlamışdı. Abdurrahman ibn Avf malı ilə cihadda iştirak edənlərin ən öndə gələnlərindən biriydi. İki yüz ukiyyəlik (ölçü vahidi) qızıl gətirmiş və Allah Rəsuluna vermişdi.

Hz. Ömər, öz ailəsinə heç bir şey saxlamadığı üçün onun səhv etdiyini düşünürdü. Hz. Peyğəmbər soruşdu: "Abdurrahman, ailən üçün evdə bir şey saxladınmı?"

Abdurrahmanın cavabı belə oldu:

"Bəli, ey Allahın Rəsulu! Verdiyimdən daha çoxunu və daha yaxşısını saxladım!"

"Nə qədər saxladın?"-deyə soruşdu.

"Allahın Rəsulunun vəd etdiyi ruzini, xeyri və əcri"-cavabını verdi Abdurrahman.

"Çətinlik ordusunda" onu iki yüz ukiyyə qızılı vardı. Ancaq onun özünün cihad ordusunda iştirak etməsi daha əhəmiyyətli bir hadisə idi. O, cihad meydanlarından kənarda qala bilməzdi. Can və mal cihadının ən gözəl nümunələrini sərgiləyənlərdən biriydi.

Təbukda qərargahda olduğu günlərdən biri idi. Allah Rəsulu bir birləşmə ilə qərargahdan uzaqlaşmışdı. Ətrafı öyrənməyə çalışırdılar. Namaz vaxtı gecikmiş, Rəsulullahın vaxt çıxmadan qayıtmayacağı dəqiqləşmişdi. Namaz üçün imamlığa Abdurrahmanı keçirdilər və namaza durdular. Birinci rükət qurtarmışdı ki, Allah Rəsulu gəldi və Abdurrahmanın imamlığına tabe oldu, arxasında namazını əda etdi.

Bu hadisə Abdurrahman üçün çox böyük bir nemət idi. Kainatın əfəndisi, nəbilərin imamı, iki dünya sərvəri ona tabe olaraq namazını qılmışdı. Rəbbi onu mükafatlandırmışdı.

Bu nemət sonradan Hz. Peyğəmbərin xəstəlik günlərində Hz. Əbu Bəkrə də nəsib olmuşdu. O, bu şirin xatirəni heç vaxt unutmadı.

❋

Uğrunda heç bir fədakarlıqdan çəkinmədiyi Rəbbi dünyada ona bundan əlavə də çoxlu nemətlər bəxş etmişdi. O, ömrünün sonuna qədər hər zaman zənginlik içərisində yaşadı. Allah Rəsulu onun üçün bərəkət niyaz etmişdi. Dünya malı elə bil ki, onun üçün qaynayan bir bulaq kimiydi. Ancaq o, heç vaxt öz saflığını, paklığını və təvazökarlığını itirməmişdi.

Tez-tez oruc tutardı. Yenə oruc tutduğu günlərdən biri idi. İftar saatı yaxınlaşmışdı. Onun qabağına iftar üçün yeməklər qoyulmuşdu. Qabağındakı yeməkləri görəndə möminlərin yoxluq və cəfa içərisində olduqları günləri xatırladı. İftar vaxtının duyğuları içərisində danışmağa başladı:

"Musab ibn Ümeyr şəhid düşdü. Öz bürdəsi (üst geyim) ilə kəfənləndi. Onun bürdəsi ilə başını örtəndə ayaq tərəfi açıqda qalırdı. Ayaqlarını örtəndə baş tərəfi açıqda qalırdı.[151]

Sonra dünya nemətləri önümüzə sərildi. Qorxuram, görəsən bizim savabımız dünyada ikənmi verilir?"

Sonra isə göz yaşlarını saxlaya bilmədiyi və yeməyini yeyə bilmədiyi rəvayət olunur.

✺

Bu əziz səhabənin bilinən, mənbələrdə xəbər verilən xeyir-xahlıqların və bağışladığı malların siyahısı çıxardılsa, insanı heyrətə salacaq qədər çox məbləğin ortaya çıxacağı şübhəsizdir. Buna görə də mənim mənbələrdə rastlaşdığım bu malların bəzilərini qeyd etməyim yerinə düşər:

Yuxarıda qeyd olunan 700 dəvə və yükləri, iki min dinar, iki yüz ukiyyə qızıl.

Bir dəfə bağışladığı qırx min dirhəm gümüş,

Başqa bir səfər bağışladığı qırx min dinar qızıl,

Cihad üçün beş yüz at,

Yenə cihadda istifadə olunmaq üçün bağışladığı min beş yüz dəvə.

Çox gözəl bir ərazisini qırx min dinara satıb bunu Peyğəmbərin anası Əminənin qohumlarından olan Zührəoğullarına, kasıblara və Peyğəmbərin xanımlarına paylamışdı.

---

151. Buxarinin rəvayətində qeyd olunur ki, Abdurrahman orada Hz. Həmzənin də adını çəkir və "o da məndən daha xeyirliydi" deyərək bu iki əziz səhabənin dünyadan çox az nəsiblə köçdüyünə diqqət çəkir. (Bax. Səhihi Buxari, Məğazi, Ümdətul Qari 14/140-141).

Otuz min köləni azad etdiyi rəvayətlərdə nəql olunur. Bununla yanaşı başqa xeyriyyəçilik fəaliyyətləri də olmuşdur.

❋

Bütün bunlara baxmayaraq onun ticarət karvanları hər gün böyüyürdü, karvanının biri gedib, o birisi gəlirdi. Qidaları, paltarları, mətbəx (məişət) qabları, gözəl ətirlər və s. ehtiyaclar gətirilir və istehsal olunan mallar da uzaq bölgələrə satılmaq üçün aparılırdı.

Mənbələrimiz Abdurrahmanın sahib olduğu malların çoxunun ticarət hesabına qazanıldığını xəbər vermişdir.[152]

Allah Rəsulu dünyadan köçdükdən sonra onun xanımlarının bütün ehtiyaclarını o qarşılamışdı. Onları heç kimə möhtac qoymamış, istəyəndə həccə aparmış, bütün minik və yol məsrəflərini o təmin etmiş və onlara sədaqətlə xidmət etməyə davam etmişdir.

Bütün bu comərdlikləri öyrəndikdən sonra, indi isə İbn Abdulbərin Əs-Səvri kanalı ilə Əbu-Hiyacdan nəql etdiyi sözlərə diqqət yetirək:

Əbul-Hiyac rəvayət edir ki, "Beytullahı təvaf edən uzun boylu bir adam gördüm. Təvaf edərkən اللهمَّ قِنِي شُحَّ نَفْسِي "Allahım, nəfsimin xəsisliyindən məni qoru!"-deyə dua edirdi.

Bu adamın kim olduğunu soruşdum. "Bu, Abdurrahman ibn Avfdır"-dedilər.[153]

Etdiyi xeyirxahlıqlara və ibrətamiz duasına diqqət yetirin.

❋

Həyatının son günlərində ətrafında olan bir çox köləni azad etmişdi. Bədr qəzvələrindən sonra sağ qalan yüzə yaxın adamın hər birinə dörd yüz dinar qızıl və hər bir Peyğəmbər xanımına yetərli qədər mal vəsiyyət etmişdi.

Onun bu davranışına, geniş comərdliyinə, fədakarlıqlarına, təvazökarlığına şahid olan və comərdliyi sevən, tarixin nadir

152. əl-İstiab, (2/396), Həyatus-Səhabə (2/154).

153. əl-İstiab (2/396).

rast gəldiyi comərdlərdən birinin qızı olan Aişə anamız onun haqqında belə demişdi:

سَقَاهُ اللّه مِنْ ماءِ السَّلْسبِيلِ

"Allah ona cənnətdəki səlsəbil suyundan içməyi nəsib etsin!"

Bütün bu xeyriyyəçiliklərinə, vəsiyyətlərinə baxmayaraq öz varislərinə heyrətamiz dərəcədə çox mal-mülk qoyub getmişdi. Onun varisçilərinə qalan mallara nəzər salmaq belə, mallarının nə qədər bərəkətli olduğunu görmək üçün kifayətdir.

Özündən sonra aşağıdakıları miras qoymuşdu:

Minə yaxın dəvə, yüz at, üç min qoyun, Curuf deyilən yerdə iyirmi dəvənin su çəkərək sulaya biləcəyi tarla və bağ, minlərlə dinar və dirhəm, külçə şəklində qızıl və gümüşlər...

Külçə şəklindəki qızıl və gümüşlərin balta ilə kəsilib paylandığı, balta vuran adamların əllərinin qabar bağladığı rəvayət olunmuşdur.

✺

Hicrətin 32-ci ilində 75 yaşı olarkən dünyadan köçən və Cənnətul-Baqi deyilən əraziyə dəfn olunan bu əziz səhabə özündən sonra çox gözəl, şirin xatirələr və bərəkətlə dolu bir həyatın dərin izlərini qoyub getmişdi.

Hakimin "Müstədrək" adlı əsərində nəql etdiyi bir hədisi-şərifdə Ümmü Sələmə anamızın belə söylədiyi rəvayət olunur:

سمعت رسول اللّه يقول لأزواجه: (إِنَّ الَّذِي يَحْنُو عَلَيكُمْ بَعْدِى هُوَ الصَّادِقُ الْبَارُّ.)

Allah Rəsulunun xanımlarına *"Məndən sonra sizlərə özü və sözü bir, xeyir və təqva sahibi bir insan şəfqət göstərəcək, ehtiyaclarınızla o maraqlanacaq" dediyini eşitdim.*

اللهمّ اسق عبد الرحمن بن عوف من سلسبيل الجنَّة.

"Rəbbim, Abdurrahman ibn Avfa cənnət bulağı olan səlsəbil suyundan içməyi nəsib eylə"-deyərək dua edərdi.[154]

O, həqiqətən də öz mülkiyyətindəki malların hakimi, sahibi və idarəçisi olmuşdu. Heç vaxt öz həddini aşmamış, dünya malının köləsi olmamışdı.

Zənginlik heç vaxt onu dəyişdirməmişdi. O, elm əhli idi. Malıyla və canıyla cihad edən mücahiddi. Həmişə təvazökar idi. Onu öz işçilərinin arasında görən kimsə, onu işçilərindən ayırd edə bilməzdi. Rəbbimizin buyurduğu kimi, ticarət həyatının zikrdən uzaqlaşdırmadığı, savab bölməsinə yeni gözəlliklərin əlavə olunmasına vəsilə olduğu insanlardan olmuşdu:

رِجَالٌ لَا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاءِ الزَّكَاةِ
ۙ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ (٣٧) لِيَجْزِيَهُمُ اللَّهُ أَحْسَنَ
مَا عَمِلُوا وَيَزِيدَهُمْ مِنْ فَضْلِهِ ۗ وَاللَّهُ يَرْزُقُ مَنْ يَشَاءُ بِغَيْرِ حِسَابٍ (٣٨)

"O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) **bir gündən** (qiyamət günüdən) **qorxarlar.**

(Onların vaxtlı-vaxtında, lazımınca ibadət etmələri, Allahdan qorxub pislikdən çəkinmələri ona görədir ki) **Allah onlara etdikləri əməllərin ən gözəl mükafatını** (yaxud gördükləri ən yaxşı işlərin əvəzini) **versin, onlara olan lütfünü artırsın. Allah dilədiyinə saysız-hesabsız ruzi verər."** (Nur 24/37038)

O, cənnətlə müjdələnənlərdən biri idi.[155]

---

154. əl-Müstədrək, Mərifətus-Səhabə (2/351). Hakim, "bu hədisin həm Aişədən, həm də Ümmü Sələmədən gələn versiyası səhihdir"-demişdir. Həmən ifadə "Təlbis"-də də keçir.

155. Abdurrahman ibn Avfla əlaqəli geniş məlumat üçün bax.
Buxari, Məğazi (Umdə 14/140-141)
İbn Hişam (2/83)
Xilyətul-Evliya (1/98-100)
əl-Müstədrək, Mərifətus-Səhabə (3/306)
əl-İstiab (2/393-398)
əl-Bidayə vən-Nihayə (7/170-171)

İrşad və İbrət Almaq Üçün Bəzi Diqqət Çəkən Məqamlar

- Rəbbimizin öz bəndələrini müxtəlif yollarla və imkanlarla imtahan etməsi.
- Yoxluqla imtahan kimi varlıqla da imtahanın çox çətin olduğu. Bəlkə də zənginliklə imtahanda müvəffəq olanların sayının daha az olduğu.
- Rəbimizin bizi əlimizdəki imkana, bədənlərimizdəki taqətə görə məsul tutacağı və qiyamət günündə hesabın buna əsasən aparılacağı həqiqəti.
- Abdurrahman ilə mədinəli qardaşı Səd arasında keçən iman qardaşlığının həqiqi duyğularla büruzə verməsi.
- Ticarətlə məşğul olmağın Allah tərəfindən verilən ayrı və xüsusi bir qabiliyyət, Allah vergisi olması.
- İnsanların ehtiyaclarını təmin etmək, onların imdadına çatmağın ciddi bir xidmət sayılması həqiqəti.
- Uca Allahın dürüst ticarətə bərəkət verməsi.
- Ticarət həyatının və məşğuliyyətin mömini digər xidmətlərindən, ibadətdən və cihaddan uzaqlaşdırmamasının zəruriliyi. Onlarla eyni anda olduqda isə üstün bir dəyər qazanması.
- Uca Allahın bəxş etdiyi imkanları onun yolunda sərf etmək fəziləti.
- Canla cihad etməklə yanaşı, malla olunan cihadın əhəmiyyəti.

Suvərun min həyatis-Səhabə (4/40-56).

- Comərdliyin Allahın sevdiyi xüsusiyyətlərdən biri olması.
- Abdurrahmanın çəkinmədən, ən kiçik minnət belə qoymadan Peyğəmbərin xanımlarına yardım etməsi, onların ehtiyacları ilə maraqlanması, bunu özünə vəzifə borcu bilməsi, beləliklə də Hz. Peyğəmbərin və onun xanımlarının duasını alması.
- Bu məsələdə Abdurrahmanın digər möminlər tərəfindən həsəd aparılan bir şəxs olması.
- Əlindəki imkanı İslam yolunda sərf etməyə hazır olması.
- Axirət sevgisi, Allah rizasına, əbədi səadətə, əbədi yurd olan cənnətə qarşı həsrət hissi.
- Günlərlə yolu gözlənilən, Mədinəni həyəcana boğan yeddi yüz dəvəlik karvandan bu duyğular içərisində bir anda əl çəkmək, onları Allah yolunda bağışlamaq ancaq bu duyğularla izah oluna bilər.
- Belə bir hadisəni danışmaq asan, reallaşdırmaq isə nə qədər çətindir?!
- Abdurrahmanın Bədr qazilərinin fəzilətini unutmaması. Ömrünü haqq yolunda xidmətə həsr edənləri, sağ qalanların çoxunun artıq qocalıq dövrünü yaşadığı bu fədakar qəhrəmanları heç kimə möhtac etməmək arzusu və həvəsi.
- Zəngin insanların yanında müdhiş təvazökarlıq.
- Maddi vəziyyəti yaxşı olan insanlarda təəssüf ki, çox az rast gəldiyimiz təvazökarlığın və səmimi davranışların elm əhli olan insanlar üçün xüsusi bir məna kəsb etdiyi, bu kimi davranışların başqalarının üstündə daha güclü təsir göstərməsi.
- İslama xidmət etməklə ömrünü keçirmiş insanları xeyirlə yada salması, onların özündən üstün görməsi. Onların fədakarlıqlarının əvəzində dünyadan maddi nəsib almamalarına və özünün dünya mallarına sahib olmasına kədərlənməsi və göz yaşı axıtması.

- Ticarət həyatının onu Allahı zikr etməkdən, ibadətlərdən heç vaxt uzaqlaşdırmaması, nafilə ibadətlərə belə həvəsli olması.
- Ağlasığımaz dərəcədə comərdliyinə baxmayaraq öz nəfsinin xəsisliyindən Allaha sığınması.

❋❋❋

Bir Neçə Kəlmə...

Zənginliklə imtahan

Zənginliklə imtahan yoxluq imtahanından daha çətindir. Görülən budur ki, zənginliklə imtahan olunanlardan müvəffəq olanların yoxluqla imtahanda müvəffəq olanlardan daha azdır.

Əbu Səid əl-Xudri belə rəvayət edir:

"Hz. Peyğəmbər minbərdə oturmuşdu. Biz də onun ətrafında oturmuşduq. O, belə dedi:

إِنَّ مِمَّا أَخَافُ عَلَيْكُمْ مِنْ بَعْدِى مَا يُفْتَحُ عَلَيكُمْ مِنْ زَهْرَةِ الدُّنيَا وَزِينَتَها.

Məndən sonra qarşınızda dünya çiçəklərinin açmasından, dünya zinətlərinin qarşınıza sərilməsindən qorxuram". [156]

Ənsardan biri olan Amr ibn Avf bizə dünya malının cazibəsini və Allah Rəsulunun bu məsələdəki irşad və xəbərdarlıqlarını ibrətamiz şəkildə nəql etmişdir:

"Allah Rəsulu Əbu Übeydə ibn Cərrahı cizyələri gətirmək üçün Bəhreynə göndərdi. Əbu Übeydə Bəhreyndən bol miqdarda malla qayıtdı. Mədinəlilər Əbu Übeydənin gəldiyini eşitmişdilər. Bir çoxu gəlib sübh namazını Rəsulullahla birlikdə qıldılar. Rəsulullah namazı qıldırdıqdan sonra getmək istədi. Gələnlər həm özlərini Rəsulullaha göstərirdilər, həm də nəsə

156. Hədis "müttəfəqun əleyh" olan bir hədisdir. Bax. Səhihi Buxari, Zəkat, (Ümdə 7/292), Səhihi Müslim, Zəkat, (2/729).

gözlədiklərini ona hiss etdirməyə çalışırdılar. Hz. Peyğəmbər onları bu vəziyyətdə gördü və gülümsəyərək dedi:

"Təxmin edirəm ki, siz Əbu Übeydənin Bəhreyndən bəzi şeylər gətirdiyini eşitmisiniz!".

Onlar da "bəli, ya Rəsulullah" –dedilər. Rəsulullah belə buyurdu:

وَلَكِنْ أَخْشَى عَلَيكُمْ أَنْ تُبْسَطَ عَلَيْكُمُ الدُّنيَا كَمَا بُسِطَتْ عَلَى مَنْ قَبْلَكُمْ فَتَنَافَسُوهَا كَمَا تَنَافَسُوهَا وَ تُهْلَكَكُمْ كَمَا أَهْلَكَتْهُمْ.

"Gözünüz aydın olsun! Xoşunuza gələcək bir ümid içərisində olun! Mən sonrakı illərdə kasıblığa düçar olmağınızdan qorxmuram. Mənim qorxum sizdən əvvəlkilərdə olduğu kimi, sizə də dünya mallarının çox verilməsi, sizin qarşınızda sərgilənməsi və dünya malının çoxalmasıdır. Onların dünya malların üçün yarışdığı kimi siz də yarışmayın. Onların həlak olmasına səbəb olduğu kimi, sizin də həlak olmağınıza səbəb olmasın!".[157]

Allah Rəsulunun bu irşadı əsla nəzərdən qaçırılmamalı və unudulmamalıdır.

❋

Dünya və onun nemətləri bəşər oğlunun xidmətinə verilmişdir. İnsan öz zəka və qabiliyyətləri ilə ona hakim olacaq, ondan istifadə edəcək və özü üçün faydalı hala gətirəcək gücdədir. Ancaq dünya həyatı cazibələrlə doludur. İradəsini itirən insanı özünə tərəf çəkib alacaq, öz arxasınca sürükləyəcək, ləzzətlərilə aldadacaq, nağılları ilə yuxuya verəcək, verdikləri ilə uyudacaq, müvəqqəti zövqləri ilə səadəti yaddan çıxaracaq xüsusiyyətdədir.

Bu barədə Allah Rəsulu belə buyurmuşdur:

تَعِسَ عَبْدُ الدِّينَارِ والدِّرْهِمْ وَالْقَطِيفَةِ وَالْخَمِيصَةِ، إِنْ أُعطِيَ رَضِيَ وَإِنْ لَم يُعْطَ لَمْ يَرْضَ.

157. Hədis "müttəfəqun əleyh" olan bir hədisdir. Bax. Səhihi Buxari, Cizyə, (Ümdə 12/223-224), Səhihi Müslim, Zöhd (4/2274).

"Əfsuslar olsun qızıla, gümüşə, parçalara, ipəkli paltarlara əsir olan insanlara! Onları əldə etdikdə razı gəlib, əldə edə bilməyəndə narazı qalanlara!"[158]

Çox əfsuslar olsun dünya malı, məqam, vəzifəyə qul olanlara, İblisə xidmət edənlərə, hesab gününü unudanlara..

❋

Qurani-kərimdə dünya həyatı bu şəkildə xülasə olunmuşdur:

هُوَ الَّذِي جَعَلَ لَكُمُ الْأَرْضَ ذَلُولًا فَامْشُوا فِي مَنَاكِبِهَا وَكُلُوا مِنْ رِزْقِهِ ۖ وَإِلَيْهِ النُّشُورُ.

"Yeri (Yer kürəsini) **sizə ram edən Odur. Onun qoynunda gəzin,** (Allahın) **ruzisindən yeyin. Axır dönüş də Onadır!"** (Mülk 67/15).

Allah-Təala bu ayeyi-kərimədə bizə bunu bildirir: Yer üzünü bütün nemətləri ilə birlikdə sizin ixtiyarınıza verdik. Onu sizə xidmət etsin deyə hazırladıq. Dağlarda, ovalarda, bağlarda, bağçalarda, bazarlarda, kəndlərdə və şəhərlərdə gəzin. Əkin, biçin, alın, satın, çalışın, səy göstərin, qazanın, yeyin, yedizdirin, ruzilərindən istifadə edin.

Bütün bunları edərkən də dönüşün yalnız Allaha olduğunu əsla unutmayın. Dünya həyatındakı bütün əməllərin hesabının veriləcəyini ağlınızdan çıxarmayın. Dünya həyatını hesabını verə biləcəyiniz şəkildə yaşayın. Ona görə qazanın, ona görə sərf edin, bütün həyatınıza ona görə istiqamət verin. Öz çərçivənizi ona görə müəyyənləşdirin.

Abdurrahmanın həyatına, etdiklərinə baxdığımızda bunun ən gözəl nümunələrindən birinə şahid oluruq. Rəbbimizin buyruqlarına nəzər salaq:

فَأَمَّا مَنْ أَعْطَىٰ وَاتَّقَىٰ (٥) وَصَدَّقَ بِالْحُسْنَىٰ (٦) فَسَنُيَسِّرُهُ لِلْيُسْرَىٰ (٧)

"Kim (malını Allah yolunda) **versə,** (Allahdan) **qorxsa,**

158. Səhihi Buxari, Cihad (11/419-420).

Və ən gözəl sözü (lə ilahə illallah kəlməsini) **təsdiq etsə,**

Biz ona ən asan olanı (Cənnəti) **müyəssər edəcəyik!"** (Leyl 92/5-7)

❋

Allah Rəsulu isə belə buyurmuşdur:

لاحَسَدَ إلاَّ فِي اثْنَتَيْنِ: رجلٌ اَتَاهُ اللّهُ مالاً فَسَلَّطَهُ عَلَى هَلَكَتِهِ فِي الْقِّ. وَرَجُلٌ اَتَاهُ اللّه حِكْمَةً فَهُوَ يَقْضِي بِهَا وَيُعَلِّمُهَا.

"İki insan həqiqətən qibtə olunmağa layiqdir;

-Allahın dünya malı nəsib etdiyi və bu malı haqq yolunda xərcləmə idrakına və şüuruna sahib olan kimsə;

-Allahın elm və hikmət bəxş etdiyi, bu elm və hikmətlə hökm verən və onu başqasına öyrədən kimsə."[159]

Belə şüur və idraka sahib olan insanlara bu günümüzdə nə çox ehtiyacımız var?!.

❋

Hər bir sahədə qızğın mübarizələrin aparıldığı dövrdə yaşayırıq. İqtisadi sahələrdə də bütün yönləri ilə mübarizə yaşanmaqdadır. Üstəlik belə çirkin mühitdə təmiz, halal qazanc əldə etməyin nə qədər çətin olduğu məlumdur. Ancaq mücadilə və imtahan nə qədər çətin olursa onun savabı da Allahın rəhmət və bərəkətini özünə o qədər çox çəkir.

Qazanmaq üçün ətraf mühitlə mübarizə aparmaq, qazancı Allah yolunda xərcləmək üçün isə iç dünyamızla (nəfslə) mü barizə aparmaq məcburiyyətindəyik. Bu sınaqlardan uğurla keçənlər həqiqi qəhrəmanlardır. Ürəyin sevdiyi, nəfsin istədiyi bir şeydən əl çəkmək heç də asan iş deyil. Bu dildə nə qədər asan görünsə də, tətbiqatda həqiqətən çox çətindir. Bunun nümunələri çoxdur. Bu sınaqlardan uğurla çıxmış insanları əsla unutmamaq lazımdır. Uca Allah Quranda belə buyurmuşdur:

---

159. Abdullah ibn Məsuddan rəvayət olunan bu hədis "müttəfəqun əleyhi" dərəcəsindədir. Bax. Səhihi Buxari, Zəkat, (Ümdə, 7/196), Səhihi Müslim, Səlat, (1/559).

لَنْ تَنَالُوا الْبِرَّ حَتَّىٰ تُنْفِقُوا مِمَّا تُحِبُّونَ.

“Sevdiyiniz mallardan infaq etmədikcə həqiqi mənada xeyrə və təqvaya çata bilməzsiniz”. (Ali-İmran 3/92). Bu ayəni eşitdikdən sonra ən çox sevdiyi bağçanı Allah yolunda verən Əbu Təlhəni unutmaq olmaz.

Əsri-səadətdə bunun bir çox örnəyini tapmaq mümkündür. Əbu Təlhənin vəziyyətinə bənzər başqa bir gözəlliyi olan və onu həyata keçirən əziz səhabəni birlikdə yada salaq.

مَنْ ذَا الَّذِي يُقْرِضُ اللَّهَ قَرْضًا حَسَنًا فَيُضَاعِفَهُ لَهُ وَلَهُ أَجْرٌ كَرِيمٌ.

“Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin, O da onun əvəzini qat-qat (birə on, yaxud birə yeddi yüz) **artırsın?! Onu həm də çox qiymətli bir mükafat** (Cənnət) **gözləyir!”** (Hədid 57/11) ayəsi nazil olan kimi ənsardan Əbu Dəhdah gedərək “Ya Rəsulullah, Allah bizdən borc istəyir, eləmi?”-deyə soruşdu. Hz. Peyğəmbər də “bəli, ey Əbu Dəhdah” –cavab verdi. Əbu Dəhdah “Ey Allahın Rəsulu, mənə əlini ver!”-dedi. Hz. Peyğəmbərin əlindən tutdu və “Rəbbimə bağçamı borc verirəm!”-dedi.

Onun bağçasında altı yüz xurma ağacı vardı. Xanımı Ümmü Dəhdah və uşaqları bağçada ağacların altında kölgədə oturur və orada oynayırdılar. Əbu Dəhdah bağçasına gəldi və oradan öz xanımını çağırdı: “Ey Ümmü Dəhdah!”

“Buyur”-dedi xanımı.

“Bağçadan çıx! Mən onu Rəbbimə verdim!”-dedi.[160]

Digər bir rəvayətdə xanımının Əbu Dəhdaha belə dediyi rəvayət olunur:

“Ey Əbu Dəhdah, nə qazanclı iş görmüsən!”. Bunu dedikdən sonra qadın öz uşaqlarını da götürərək bağdan çıxmışdı. Allah Rəsulu da onun haqqında belə demişdi:

160. Müxtəsəri Təfsiri İbn Kəsir (1/222, 3/448), Həyatus-Səhabə (2/149-150), əl-İsabə, 4/59, əl-Cami li əhkamil-Quran, Qurtubi (3/238-239).

كَمْ مِنْ عِذْقٍ رَدَاحٍ فِي الْجَنَّةِ لأَبِي الدَّحْدَاحِ.

"Əbu Dəhdah üçün cənnətdə nə böyük salxımlar var!"[161]

Qurtubi Bəqərə surəsinin 245-ci ayəsi olan;

مَنْ ذَا الَّذِي يُقْرِضُ اللَّهَ قَرْضًا حَسَنًا فَيُضَاعِفَهُ لَهُ أَضْعَافًا كَثِيرَةً ۚ وَاللَّهُ يَقْبِضُ وَيَبْسُطُ وَإِلَيْهِ تُرْجَعُونَ.

"Allah yolunda (könül xoşluğu ilə halal maldan) **yaxşı borc verən kimdir ki,** (Allah da) **onun mükafatını** (əvəzini) **qat-qat artırsın?! Allah** (kimisini) **sıxıntıya salar** (ruzisini azaldar), (kimisinin də) **ürəyini açar** (bol ruzi verər)**. Siz** (dünyada gördüyünüz işlərin əvəzini almaq üçün) **Onun hüzuruna qaytarılacaqsınız."** (Bəqərə 2/245) ayəsinin təfsirində Əbu Dəhdahın bu hədiyyəsi ilə bağlı geniş bir rəvayət nəql etmişdir.

Bu rəvayətdə Əbu Dəhdahın bu ayəni eşidən kimi "Anam-atam sənə fəda olsun ya Rəsulullah! Rəbbimiz bizdən qərzi-həsən (gözəl borc) istəyir. Onun borca ehtiyacı yoxdur ki!"-dediyi, Hz. Peyğəmbərin də ona "Bəli, bu səbəblə o sizi cənnətə qoymaq istəyir!"-dediyi nəql olunmuşdur.

Sonradan Əbu Dəhdahın iki bağçasının ikisini də vermək istədiyi, Hz. Peyğəmbərin isə ona "birini Allah yolunda ver, o birisini ailən və uşaqların üçün saxla!"-buyurduğu rəvayət olunur. Əbu Dəhdah bağçalarından ən gözəl olan altı yüz xurmalıq bağını vermişdi. Hz. Peyğəmbər "Allah bunun əvəzini cənnətdə sənə bəxş etsin!"deyərək dua etmişdi. Əbu Dəhdahın bağçasına gələrək, ağacların altında uşaqları ilə birlikdə oturan xanımı ilə aralarında keçən söhbət də tarixi mənbələrdə öz yerini almışdır."[162]

Haqqında çox az məlumat tapa bildiyimiz bu səhabəni[163] və onun niyyətinə, xeyrinə ürəkdən şərik olan xanımını xeyirlə yad edirik. Qiyamətə qədər davam edən əcir niyaz edirik.

161. Müxtəsəri İbn Kəsir (3/448).

162. Əl-Cami li əhkamil-Quran, Qurtubi (3/238-239).

163. "Əbu Dəhdah" bu səhabənin ləqəbidir. Adı tam şəkildə bilinmir. Qurtubinin rəvayətində qızlarının adının "Dəhdahə" olduğu, özünün və xanımının da ləqəbinin buradan gəldiyi başa düşülür. Əbu Dəhdah haqqında əlavə məlumat üçün bax.

Bu mövzu ilə bağlı sətirlərimizi Allah Rəsulu, fəxri-kainat, yeganə öndərimiz Hz. Peyğəmbərimizin bu irşad və müjdələri ilə yekunlaşdırmaq yerində olar.

مَنْ نَفَّسَ عَنْ مُؤْمِنْ كُرْبَةً مِنْ كُرَبِ الدُّنْيَا نَفَّسَ اللَّهُ عَنْهُ كُرْبَةً مِنْ كُرَبِ يَوْمِ القِيَامَةِ.

وَمَنْ يَسَّرَ عَلَى مُعْسِرٍ يَسَّرَ اللَّهُ عَلَيْهِ فِي الدُّنْيَا و لآ خرة.

وَمَنْ سَتَرَ مسلمًا سترهُ اللَّهُ فِي الدُّنْيَا وَالْآخِرة.

وَ اللَّهُ فِي عَوْنِ الْعَبْدِ مَا كَانَ الْعَبْدُ فِي عَوْنِ أخِيهِ.

وَمَنْ سَلَكَ طَرِيقًا يَلْتَمِسُ فِيهِ عِلْمًا سَهَّلَ اللَّهُ لَهُ بِهِ طَرِيقًا إِلَى الْجَنَّة.

ومَا اجْتَمَعَ قَوْمٌ بَيْتٍ من بيُوتِ اللَّهِ يَتْلُونَ كِتَابَ اللَّهِ وَيَتَدَارَسُونَهُ بَيْنَهُمْ إِلاَّ نَزَلَتْ عَلَيْهِم السَّكِينَةُ وَغَشِيَتْهُمُ الرَّحْمَةُ وَ حَفَّتْهُم المَلاَئِكَةُ وَذَكَرَ هُمُ اللَّهُ فيمَنْ عِنْدَه.

وَمَنْ بَطَّأَ بِهِ عَمَلُه لَمْ يُسْرِعْ بِهِ نَسَبُه.

- Kim bir mömini dünya həyatındakı əziyyətlərinin birindən xilas edərsə Allah da onun qiyamət günündə bir sıxıntısını ortadan qaldırar.
- Kim maddi baxımdan çətinlik çəkən bir möminin əlindən tutar, maddi ehtiyacını qarşılayar və onun işini asanlaşdırarsa Allah da onun dünya həyatında və axirətdə işini asanlaşdırar.
- Kim bir müsəlmanın qüsurunu ört-basdır edərsə, onun ayıbını örtüb, sirrini saxlaya bilərsə Allah da onun dünya və axirət həyatındakı qüsurunu örtər, ayıbını gizlədər.

əl-İstiab , (4/61)
əl-İsabə (4/59)
əl-Cami li əhkamil-Quran, Qurtubi (3/238-239)
Müxtəsəri Təfsiri İbn Kəsir (1/222)
Həyatus-Səhabə (2/149-150).

- Bir mömin öz qardaşının köməyində olduğu müddətcə Allah da onun köməyində durar.
- Kim elm əldə edəcəyi bir yolda irəliləməyə çalışarsa Allah da onunçün cənnətə gedən yolu asanlaşdırar.
- Əgər bir qrup insan Allahın evlərindən birində toplaşıb Allahın kitabını oxuyarsa, onu başa düşməyə çalışarlarsa, müzakirə edib elm və irfanlarını genişləndirərlərsə onların üstünə hüzur və sakitlik çökər, onları rəhmət bürüyər, mələklər onları əhatə edər və Allah onları öz dərgahında mələklərlə birlikdə yada salar.
- Əməllərinin yavaşlatdığı bir kimsəni nəsəbi sürətləndirə bilməz. Yəni əməlləri ilə irəliləyə bilmirsə, onun nəslinin kim olduğunu heç bir faydası yoxdur."[164]

Bax, sözün qısası budur. Qayda budur.

❋

Ticari Qabiliyyət

Ticari qabiliyyət xüsusi bir qabiliyyət, tərif olunması çətin keyfiyyətdir. Ehtiyacları müəyyənləşdirmək, insanların nəyə rəğbət bəslədiyini bilmək, onların diqqətini çəkmək, malların keyfiyyətini, möhkəmliyini, ticarətin ən yaxşı zamanlarını bilmək, alarkən və satarkən diqqətli olmağı, sərmayədən yaxşı istifadə etmək, insanların etibarını qazanmaq, dürüstlük, gələcəyi uzaqdan görə bilmək və buna bənzər başqa qabiliyyətlər tələb edir.

Bundan əlavə, ticarət həyatı niyyətləri başa düşməyi, duyğuları hiss etməyi, bəsirətli olmağı tələb edir.

Ticari fəaliyyətlər çoxaldıqca bu kimi qabiliyyətlərə olan ehtiyaclar da çoxalır. Əbu Hənifənin tələbələrindən olan və Hənəfi məzhəbinin əsas kitablarının müəllifi olan İmam Məhəmməddən soruşulanda ki, "Niyə zöhdlə əlaqəli kitab yazmadınız? Kaş ki, yazsaydınız!", o, bu suala belə cavab vermişdi:

164. Səhihi-Müslim, Zikr (4/2074). Əbu Hüreyrənin rəvayət etdiyi hədis Sünəni Əbu Davud və Tirmizidə nəql olunmuşdur.

"Alış-veriş hüququ ilə əlaqəli bir kitab yazdım axı!". Bu alim, arif, müctəhid və zahid insan bu cavabı ilə belə demək istəmişdi:

"Həqiqi zahid bazarda, alverdə bəlli olur. İnsanların arasına girib onlarla alver edəndə, ticari münasibət quranda, mənfəət hissi ilə qarşı-qarşıya gələndə Allahın əmrlərinə, qadağalarına, halalına, haramına diqqət edirmi, dünya malı hərisliyindən sıyrılıb Rəbbinin rizasına görə davrana bilirmi? Bax həqiqi zahidlik uzaq yerlərdə olan deyil, həyatın içərisində bəlli olur. Həqiqi zöhd budur, zahidlik belə olur".

Allah Rəsulu belə buyurmuşdur:

التَّاجِرِ الصَّدُوقُ الأَمِينُ مَعَ النَّبِيِّينَ وَ الصِّدِيقِينَ وَ الشُّهَدَاءِ.

"Doğru sözlü və etibar olunan bir tacir nəbilər, siddiqlər və şəhidlərlə birlikdə olacaqdır."[165]

Ticari qabiliyyətlərin insanın ağlı ilə çox da əlaqəli olmadığına şahid oluruq. Əlbətdə ki, yeni şeylər kəşf edə bilən zəkaya ehtiyac var. Ancaq ən əsası odur ki, bunları təcrübədə tətbiq edə biləsən, tez və dəqiq qərarlar ala biləsən, nəticə verən işlərə nail olmaqdır.

❋

İfadə olunması çətin olan bu həqiqəti də bir səhabəni və onun əməlini yada salaraq ortaya çıxarmağa çalışaq. Bu hadisənin də bu məsələdə unudulmaz gözəllik və incəlik olduğuna inanıram.

Hz. Peyğəmbər Hakim ibn Hizama bir dinar vermiş və qurbanlıq qoç almasını tapşırmışdı. Pulu alan Hakim heyvan bazarına gəlmiş və cavan bir toğlu almışdı. Bazardan çıxmamış bu toğluya bir müştəri çıxmış və o da toğlunu iki dinara o adama satmışdı. Sonra da bir dinara yeni bir toğlu almış və Rəsulullaha gətirmiş, ona "Ya Rəsulullah, bu sizin istədiyiniz qoç, bu da bir dinarınız"-demişdi.

Bunun necə olduğunu soruşan Peyğəmbərimizə başına gələnləri danışmışdı. Peyğəmbərimiz də ticarətinin bərəkətli olma-

165. Tirmizi, Sehr, (3/515). Əbu Səid əl-Xudrinin rəvayət etdiyi bu hədis üçün Tirmizi "həsən hədisdir"-demişdir.

sı üçün ona dua etmişdi. Sonra da Rəsulullahın bu qoçu qurban kəsdiyi, qalan bir dinarı isə sədəqə kimi paylatdırdığı nəql olunmuşdur.[166]

Başqa bir rəvayətdə satın alınmış toğlunun başqa bir müştərisinə iki qoçla dəyişdirildiyi, sonra qoçlardan birinin satılıb bir dinarının, digərinin isə özünün Rəsulullaha gətirildiyi qeyd olunmuşdur.

Hər iki misal da ticarət qabiliyyətini göstərən ən gözəl nümunələrdir.

❋

Abdurrahman ibn Avf Mədinəyə gələndə dünya malı sayılan çox mal-mülkünün olmadığını, mədinəli qardaşı Səd ibn Rəbinin onu bağrına basmasını və əlindəki mallarının yarısını ona təklif etdiyini bilirik. Sonrakı vəziyyyətindən də xəbərdarıq.

Bunun bizə bir çox şeylər izah etdiyini, etməsi gərəkdiyini düşünürəm. Əlbətdə comərdliyi Allah yolunda sərf etməyi bilməsi, təvazökarlığı, zöhdü, ibadətlərinə düşgünlüyü, əvvəlki günlərini və xeyirxah insanları yaddan çıxarmaması başa düşən, düşmək istəyənlər üçün çox şey deyir.

O, çox çətin, dikbaş, nazlı, azğın bir dünya atına minmiş, ancaq onu idarə etməyi bacarmış, hakimiyyəti, idarəni itirməmiş, onu istəyinə görə yönləndirməyi bacarmışdı.

O, həm dünya həm də axirət həyatı üçün hüzurunu təşkil etmiş, qəlb rahatlığı içərisində dünyadan köçmüşdür.

O, indi "cənnətul-baqi"-də, mühacir kimi gəldiyi bu şəhərdə, Allah Rəsulunun yaxınlığında Rəbbinin hüzuruna çıxacağı günü gözləməkdədir...

❋❋❋

166. Bax. Sünəni Əbu Davud, Sehr, (3/679), Sünəni Tirmizi, Sehr (3/558), Nəsbur-Rayə (4/90).
Buna bənzər bir rəvayət də Urvə əl-Bariki haqqında da nəql olunmuşdur. Bax. Səhihi Buxari, Fəzail (Umdə 13/231-232). Bu hədisdə Urvə "Rəsulullahın duasından sonra yerdən bir ovuc torpaq belə götürüb satsam çox qazanardım"-demişdir.

Gözəl İnsan
Mələklərin Heyran Qaldığı Tilavət

Üseyd ibn Xudayr

-radiyallahu anhu-

أُسَيْد بن الخُضَيْر

Üseyd Övs qəbiləsindən idi. Həmən qəbilənin başçılarından sayılırdı. Nəsli-nəsəbi güclü olduğu kimi, ağlı və zəkası da parlaq idi. Hicaz bölgəsinin ən dərrakəli, fikir əhli, doğru qənaətlər önə sürə bilən, insanların qarşısında yeni üfüqlər açа bilən nadir insanlardan biriydi. Onun görüşlərinə dəyər verilir, diqqətə alınırdı.

Onu yaxından tanıyanlar ona olan heyranlıqlarını gizlədə bilmirdilər. Buna görə də çox vaxt o "kamil insan" ləqəbi ilə yada salınırdı. Bu ləqəbi haqlı çıxaran çox xüsusiyyətləri var idi.

Həmin dövrdə "kamil" ləqəbi oxuma-yazma bilən, elm sahibi, ədib, mahir üzgüçü, atıcılıqda məharətli olan insanlara verilirdi.

Üseyd də belələrindən idi. O, həqiqətən də mükəmməl və əsilzadə bir şəxs olmuşdur. Atası Xudayr Övs qəbiləsinin yetişdirdiyi ən yaxşı silah atıcılarından biriydi və Buas günü qəbiləsinə o başçılıq etmişdi. Məşhur şair İmrul Qeys də onun sülaləsindən idi.

Üseyd mədinəlilərin ilk müsəlmanlarından idi. İslamı qəbul etməsinə Məkkədən olan gənc və əziz dəvətçi Musab ibn Ümeyr vəsilə olmuşdur. Musabın təbliğ üslubundan dəhs edərkən Üseydin İslam dininə girməsinə də az da olsa toxunmuşduq.

İstərsəniz bu ibrətamiz hadisəni bir az daha geniş şəkildə, başqa şəxslərlə də əlaqəsi qurularaq yenidən yada salaq.

Üseyd ibn Xudayr, Səid ibn Muaz və Övs qəbiləsindən bir qrup, bu qəbilənin gündəlik söhbət etdikləri yerə yığışıb, söhbət etməyə başladılar.

Bir nəfər gəlib Əsəd ibn Zürarə ilə Musab ibn Ümeyrin Övs qəbiləsinin qollarından olan Abduləşhəloğulları və Zəfəroğulları torpaqlarına gəldiklərini, Zəfəroğullarının bağçalarından birində yığışıb, yanlarında toplaşan insanlarla söhbət etdiklərini xəbər verdi.

Həqiqətən də belə idi. Musabın evinə qonaq gətirən və ona hər cür dəstək erən Əsəd onu götürərək bu torpaqlara gətirmiş, yeni insanlarla görüşüb tanış olaraq təbliğ etmək imkanı əldə etmişdi. Bağça içərisində yer alan və "maraq quyusu" deyə tanınan quyunun başında bir yerdə oturmuşdular. Başları söhbətə qarışmışdı. Əvvəlcədən İslam dininə girən övslülər də buraya gəlmişdilər və Musaba qulaq asırdılar.

Bu xəbəri eşitdikdən sonra ilk danışan Səd ibn Muaz oldu. Yaxın yoldaşı və sadiq dostu olan Üseydə belə dedi: "Durma, torpaqlarımıza girən və iradəsi zəif olanlarımızın ağlını qarışdıran bu iki adamın yanına get və onlara həddini bildir. Bir də bizim torpaqlarımıza gəlməyə cəsarət etməsinlər.

Əgər Əsəd xalamın oğlu olmasaydı, sənin də bildiyin kimi aramızda qohumluq əlaqəsi olmasaydı, bu işi sənə qoymazdım, özüm edərdim."

Eşitdiyi xəbər və Övsün digər bir lideri olan Sədin bu sözləri Üseydin bütün əsəblərini oyatmışdı. Öz silahını götürərək bağçaya tərəf yola düşdü.

Əsad uzaqdan onun gəldiyini gördükdə "bu gələn adam öz qövmünün lideri, ən zəkalısı, ən böyük şəxsiyyəti, ən çox sözünə qulaq asılanıdır"-dedi. Musaba diqqətli olmağı tapşırdı. Allah güvənməsini və yaxşı bir imtahan verməsini, bu sınaqda uğurla çıxmasını tövsiyə edirdi.

Üseyd gəldi. Musaba tərəf döndü. Əlindəki silahına möhkəm şəkildə yapışmışdı.[167] Əsəbi şəkildə danışmağa başladı: "Səni bizim torpaqlarımıza gətirən, zəif iradəlilərimizin ağlını bulandırmağınıza səbəb olan nədir? Əgər canınızı istəyirsinizsə çıxın gedin burdan!"

Onun üslubu qəti və əmredici idi. Hər sözündən əsəbilik tökülürdü. Qəzəblənmişdilər. Musab isə çox sakit görünürdü. Gülən gözlərlə və vüqarlı bir əda ilə ona baxdı. Sonra da sakit bir səslə dedi:

"Ey qövmünün başbiləni! Bundan daha xeyirli bir şey etmək istəyirsənmi?"

Onun sözləri çox səmimi və ürəkdən idi. Üseyd onun bu davranışına baxaraq bir az da sakitləşmişdi. Ancaq onun əsəbi hələ də soyumamışdı. "O nədir?"-deyə soruşdu. Musab eyni səmimiyyətlə ona cavab verdi:

"Yanımızda otararsan. Sözlərimizə qulaq asarsan. Sözlərimiz doğrudursa və xoşuna gələrsə qəbul edərsən. Xoşuna gəlməsə bizə deyərsən. Biz də burdan çıxıb gedərik, sizi də narahat etmərik".

Musabın bu sözləri çox mülayim və sakit təbiətli Üseydi təəccübləndirmişdi. Söylədikləri doğru idi. Üseyd şəxsiyyətli bir insan idi. Doğruya doğru deməyi bacarırdı. Belə ki, orada da "bəli, siz düz deyirsiniz"-dedi. Silahını yerə ataraq oturdu.

Musab İslamdan bəhs edirdi. Danışığını ayeyi-kərimələrlə daha da gücləndirir, maraqlı hala gətirirdi. Cümlələri hikmət və gözəlliklərlə dolu idi. Danışığının ardından Qurani-Kərim oxudu. Çox gözəl oxuyurdu. Oxuduqca ayələrin gözəlliyinin məna dərinliyinə dalırdı. Elə bil ki, başqa bir aləmdə yaşayırdı. Qəlbi yumşalmışdı. Könlü hüzurla və sükunətlə dolu idi.

Əsəd ibn Musabın "O, daha danışmadan biz onun üzündəki ifadədən İslam dininə isinişdiyini, Haqqa təslim olduğunu başa

167. Dəlailun-Nübüvvədə (2/439) Üseydin əsəbi şəkildə Əsədə belə dediyi rəvayət olunur: "Bu yad adamı niyə bizə göndərirsən? Niyə bizim zəif və iradəsiz insanlarımızın ağlını bulandırırsan?".

düşmüşdük. Üz ifadələri dəyişmişdi, sifəti bərraqlaşmış və nurlanmışdı"-dediyi nəql olunur.

Üseyd həqiqətən dəyişmişdi. Qurani-Kərimin tilavəti qurtaranda onun ağzından bu sözlər eşidildi: "Nə qədər gözəl sözlərdir, bu oxuduğun nə qədər xoş şeylərdir, necə gözəldir! İslam dininə girəndə nələr etmək lazımdır?"

Ona belə cavab verdilər: "İslam dininə girərkən əvvəlcə qüsl abdəsti alıb təmizlənmək lazımdır. Paltarlarını də təmizləyərsən. Şəhadət gətirərək haqqı elan edərsən. Sonra da namaz qılarsan!".

Üseyd deyilən kimi etdi. Ürəyi dolu idi. Ona öyrədildiyi şəkildə iki rükət namaz qıldı.

Sonra da Musaba və Əsədə belə dedi: "Məndən başqa bir adam daha var. Əgər onu razı salsanız bilin ki, qəbiləsindən heç kim ona etiraz etməz və ondan ayrılmaz.

Sizə dediyim bu adam Səd ibn Muazdır. İndi onu sizə göndərəcəyəm".

Bu sözləri dedikdən sonra silahını da götürərək oradan uzaqlaşdı. Söhbət etmək üçün istifadə olunan yerə çatanda Səd onu görmüşdü. Diqqətlə ona baxırdı. Hələ yaxınlaşmadan Üseyddəki dəyişikliyi hiss etdi. Ətrafındakılara "Allaha and olsun ki, Üseyd getdiyi kimi gəlmir. Bu sima sizin yanınızdakı simadan fərqlidir artıq"-dedi.

Həqiqətən də çox dəyişmişdi. Üseyd Sədin yanına gələndə usta şəkildə onu da Musab və Əsədin yanına göndərdi. Səd də getdiyi simadan çox fərqli bir sima ilə, qəlbinə iman dolaraq, İslam səflərinə qoşularaq qayıdırdı.

Səd ibn Muaz qayıdanda oturmadan söhbətə başladı: "Ey Abduləşhəloğulları, mənim haqqımda nə fikirləşirsiniz? Mən necə bir adamam?".

"Vallah, biz səni içimizdə ən xeyirxah adam kimi tanıyırıq. Sənin tövsiyələrin bizim aramızda həmişə qəbul olunub".

"Elə isə mənə qulaq asın!. Allahın birliyinə inanmadıqca, Məhəmmədin peyğəmbərliyini təsdiq etmədikcə sizinlə danışmayacağam. İstər kişi olsun, istər qadın olsun. Allah Rəsuluna

iman gətirmədikcə sizlərdən biri ilə danışmaq mənimlə haram olsun!".

Sədin qəti qərar qəbul etdiyi və istəyi başa düşülmüşdü, sözləri öz hədəfinə çatmışdı. O gün Abduləşhəloğullarından heç kimin evində, İslam nuruna qovuşmadan heç kəsin yanında qalmadığı nəql olunur.[168]

Üseyd İslam dini ilə şərəfləndiyi ilk anlarda çox sevdiyi dostunun da İslam dininə girməsinə zəmin hazırlayır, dəqiqələr içərisində onunla din qardaşlığında birləşirdi. Abduləşhəloğullarını hamısını birdən qazanmış olurdu.

Buradan da başa düşüldüyü kimi Üseyd birinci əqəbə beyəti ilə ikincisi arasında, hələ Allah Rəsulu hicrət etmədən İslam nuruna qovuşmuşdu. Mədinədəki mömin ürəklər nadir qəhrəmanlardan birini də öz səflərinə qatmışdı.

O, qələmlə qılıncı birləşdirən, atı ilə meydanlarda dost ola bilən, atdığı oxlar yaydan çıxdıqda hədəfini vuran birisi idi. Danışarkən bəlağətli danışır, davranışlarında çox kübar davranırdı.

Mədineyi-münəvvərənin hicrətə hazır hala gəlməsində, onun və Səd ibn Muazın İslam səflərində yer almasının çox böyük payı var.

İkinci əqəbə beyətində, Hz. Peyğəmbər Məhəmməd Mustafa ilə görüşmüş, ona beyət etmiş, Mədinə üçün təyin olunan 12 təmsilçidən biri olmuşdur.

❋

Allah Rəsulu Mədinəyə hicrət etdikdən sonra onun yanında yer almış, ömür boyu haqqa xidmət etmək üçün çırpınmışdı. O, Uhudun həqiqi qəhrəmanlarından biri idi. Ölümcül sayıla biləcək dərəcədə yeddi dənə yara almışdı. Ancaq bu zərbələr onu məğlub etmək üçün yetərli deyildi. Çox keçmədən ayağa qalxdı və xidmət etməyə davam etdi.

168. Sirətu İbn Hişam (1/435-437). əl-Bidayə vən-Nihayə (3/149-151), Dəlailun-Nübüvvə (2/437-440).

Onun tez-tez getdiyi iki yer vardı. Biri Allah yolunda qılıncını qurşandığı, ox atdığı, atını çapdığı döyüş meydanları. İkincisi isə bütün səmimiyyəti ilə oxumaq üçün Allah kəlamını tilavət edə biləcəyi xəlvət yer.

Üseyd səsi çox gözəl olan bir insan idi. Məna dərinliklərini, ədəbi xırdalıqlarını çox yaxşı bilən bir insandı. Musab ilə qarşılaşdığı o ilk günü, onun Quran tilavətini heç vaxt unuda bilməmişdi. Onun gözəl səsi, ürəkdən oxuması, səmimiyyətini və duyğularını səs tellərinə, hərflərə yansıtması ona çox təsir etmişdi. Daşlaşmış ürəkləri belə yumşaldan, qurumuş göz yaşlarını hərəkətə keçirən səsə malik idi.

O, Qurani-Kərimin tilavətini, onu zikr etməyi çox sevirdi. Susuzluqdan yanan bir insanın isti yay günlərində sərin suya, bərraq və şirin bir bulağa yönəlməsindəki istəklə Qurani-Kərimə yönəlmiş, ondan ayrılmamış və ondan doymaz olmuşdu.

Səsi çox gözəl olduğu kimi kəlmələri, hərfləri tələffüzü də çox gözəl idi. Ayeyi-kərimələr onun dodaqlarında tələffüz olunub qulaqlara çatanda qəlblərə təsir etməsi də çox fərqli olurdu.

✺

Gecənin səssizliyi üfüqlərə çökərkən, gözlər yorğunluqdan yuxuya gedərkən, qəlblərə bir az da duyğu dolarkən Quran oxumaqdan daha çox zövq alırdı.

Səhabələrdən onun Quran tilavəti edəcəyi anı gözləyənlər, o, oxumağa başlayanda dünyanı unudub onun oxuyuşuna, ayələrin məna və əda gözəlliyinə qapılıb gedənlər də vardı. Gecənin səssizliyində ucalan səsi qəlblərə şəfa verirdi.

Belə səssiz gecələrdən biri idi. Üseyd evinin arxasında olan həyətdə otururdu. Gecə çökmüşdü. Səmada ulduzlar parıldayırdı. Oğlu Yəhya onun yanında uzanıb yatırdı. Yorğunluqla keçən bir gündən sonra dərin yuxu basmışdı. Yaxınlarında Allah yolunda cihad üçün hazır saxladığı atı bağlanmışdı. Gözəl və yaraşıqlı atdı.

Gecə səssiz və sakit idi. Ulduzlarla dolu bərraq səma, yer üzünü işıltılarla dolu əsrarlı bir pərdə örtmüşdü. Bu duyğularla və

gözəlliklərlə dolu olan tablonu yavaşca əsən bir küləyin sərinliyi tamamlayırdı. Bu sərinlik hesabına oğlu da rahat yatmışdı.

Gecənin səssizliyi, gözəlliyi, tənhalıq, yüksələn duyğular və Allah kəlamının tilavəti... Üseyd ürəyi dolmuş şəkildə oxumaqdaydı.

Gözəl səsi gecənin səssizliyində daha yaxşı eşidilirdi. Yavaşca əsən külək elə bil ki, onu incitmədən bir az daha irəliyə aparmağa çalışırdı. Səmimiyyətlə dolu, şəfqət və sevgi dolu bir səslə oxuyurdu:

الم (١) ذَٰلِكَ الْكِتَابُ لَا رَيْبَ ۛ فِيهِ ۛ هُدًى لِلْمُتَّقِينَ (٢) الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلَاةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ (٣) وَالَّذِينَ يُؤْمِنُونَ بِمَا أُنْزِلَ إِلَيْكَ وَمَا أُنْزِلَ مِنْ قَبْلِكَ وَبِالْآخِرَةِ هُمْ يُوقِنُونَ (٤)

"Əlif, Lam, Mim.

Bu, (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) **heç bir şəkk-şübhə olmayan, müttəqilərə** (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) **doğru yol göstərən Kitabdır.**

O kəslər ki, qeybə (Allaha, mələklərə, qiyamətə, qəza və qədərə) **inanır,** (lazımınca) **namaz qılır və onlara verdiyimiz ruzidən** (ailələrinə, qohum-qonşularına və digər haqq sahiblərinə) **sərf edirlər.**

O kəslər ki, sənə göndərilənə (Qurana) **və səndən əvvəl göndərilənlərə** (Tövrat, İncil, Zəbur və s.) **iman gətirir və axirətə də şəksiz inanırlar"** (Bəqərə 2/1-4).

Quran tilavəti bu ayələrə çatanda at birdən hürkməyə başladı. Öz ətrafında fırlanır, ipini qoparmamaq istəyir və kişnəyirdi. Onun bu halını görən Üseyd susdu. Bundan sonra at da susdu.

Heyvan tam sakitləşəndən sonra Üseyd qaldığı yerdən yenə oxumağa başladı.

أُولَٰئِكَ عَلَىٰ هُدًى مِنْ رَبِّهِمْ ۖ وَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ

"Məhz onlar öz Rəbbi tərəfindən (göstərilmiş) **doğru yoldadırlar. Nicat tapanlar** (axirət əzabından qurtarıb Cənnətə qovuşanlar) **da onlardır."** (Bəqərə 2/5)

At yenidən yerində fırlanmağa başladı. İpini dartmağa başladı. Üseyd yenə susdu, at da sakitləşdi.

Bu vəziyyət bir neçə dəfə bu şəkildə təkrarlandı. Üseyd oxuduqca heyvan da kişnəyir, yerində fırlanır, susanda da sakitləşirdi.

Üseyd ipinin uzunluğu qədər dairələr çizən atının uşağı Yəhyanı tapdalamasından qorxurdu. Uşağı oyandırmaq və bu təhlükəli yerdən uzaqlaşdırmaq istədi. Ona tərəf irəliləyərkən gözü səmaya sataşdı.

Gözlərin görmədiyi bir gözəllikdə bulud vardı səmada. Parpar parıldayardı. Üfüqləri gözəl bir şəkildə işıqlandırırdı. Sonra da o bulud yoxa çıxdı.

Səhər açılan kimi Üseyd Allah Rəsulunun yanına getdi. Gecə baş verənləri, gördüklərini ona danışdı. Rəsulullah isə ona belə dedi:

"Onlar mələklər idi ey Üseyd! Sənə qulaq asırdılar. Oxumağa davam etsəydin bəlkə də onları insanlar da görəcəkdi. Gözlərdən gizli qalmayacaqdılar".

❋

Ancaq Üseyd oxumağa davam edə bilməmişdi. Atının oğlu Yəhyanı tapdalamasından qorxmuşdu. Nə baş verdiyini o anda başa düşə bilməmişdi.

Həmən gün yaşadıqlarını, başına gələnlər ömür boyu unutmamışdı.

❋

Üseyd Allah Rəsulunu çox sevirdi. Onun yanında özünü xoşbəxt hiss edirdi. Allah Rəsulu da Üseydi çox sevirdi. Onun haqqında belə demişdi: (نِعْمَ الرَّجُلُ أَسَيْدُ بْنُ حضَيْر)

"Üseyd ibn Xudayr nə gözəl insandır!". Onun xətrinə dəymməzdi.

Üseyd özü belə rəvayət etmişdi:

"Allah Rəsulunun yanına getmişdim. Ənsardan olan bir adamın evdəki ehtiyacları barəsində danışdım. Bu evdəkilərin hamısı qadın idi və hamısı da ehtiyac sahibi idi".

Rəsulullah çox məyus olmuşdu və belə demişdi: "Ey Üseyd, əlimizdə nə vardısa hamısını payladıqdan sonra gəldin. Bizə nəsə gəldiyini eşitsən bu evdəkiləri bizim yadımıza salarsan!".

Xeybər qənimətləri gələndə qənimətlərin hamısını möminlər arasında bölüşdürdü. Ənsardan olan səhabələrə də verdi. Hamısına da bol-bol qənimət düşdü. Həmən evdə yaşayanlara da bol-bol qənimət payı düşdü. Mən də: "Ey Allahın Rəsulu! Onlara elədiyin xeyrə görə Rəbbim də Sənə xeyirli mükafat nəsib eyləsin!". Bundan sonra Rəsulullah dedi:

"Ey ənsar camaatı! Rəbbim sizə mükafatların ən gözəlini nəsib etsin. Sizləri nə qədər vaxtdır tanıyıram. Sizlər gözü tox, qənaətkar və səbrli adamlarsınız.

Məndən sonra başqalarının sizdən üstün qəbul edildiyi günlərə şahid olacaqsınız. Mənə qovuşana qədər səbrli olun. Sizinlə görüşəcəyimiz yer Kövsər ətrafı olacaq".

Üseyd yenə belə nəql etmişdir:

"İllər ötüb-keçmişdi. Xilafət məqamında Ömər ibn Xəttab vardı. Qənimətlər gəlmişdi. Bütün mallarını, əşyalarını müsəlmanlara paylamışdı. Mənə də bir paltar göndərmişdi. Düzünü desəm, mənə bir az balaca olurdu.

Məsciddə idim. Qabağımdan bir qüreyşli cavan keçdi. Onun əynində mənə göndərilən paltarların daha gözəli, genişi və uzunu vardı. Paltarının ətəyini sürüyərək və lovğalanaraq yeriyirdi. Bu mənzərə mənə çox təsir etmişdi. Yanımdakılara iki paltar arasındakı fərqi göstərdim, Rəsulullahın "məndən sonra başqalarının sizdən üstün qəbul edildiyi günlərə şahid olacaqsınız"-sözünü xatırlatdım və "Allah Rəsulu düz deyirmiş"-dedim.

Sözlərimi eşidənlərdən biri tez gedərək bunu Ömərə xəbər vermişdi. Ömər sürətlə məscidə gəldi. O, gələndə mən namaz qılırdım.

"Ey Üseyd, namazını bitir!"-dedi. Səbrsiz şəkildə namazımın qurtarmasını gözləyirdi. Namazımı qılıb qurtardıqdan sonra mənə dedi: "Sən nə demisən?". Mən də əvvəlcədən gördüklərimi və yadıma düşən o hadisəni Ömərə danışdım. "Allah səni əvf etsin!"-dedi. "Mən bu paltarı heç kimə göndərməmişəm. O, ənsardandır. Əqəbə beyətində olan bir adamdır. Bədrdə, Uhudda iştirak etmiş mücahidlərdəndir.

Sənin gördüyün bu gənc adam o paltarı öz pulu ilə alaraq geyindi. Allah Rəsulunun xəbər verdiyi o hadisənin mənim dövrümdə baş verəcəyinimi düşünürsən?!".

❋

Üseyd başa düşmüşdü. İçindəki narahatçılıq ortadan qalxmışdı. Gördüyü mənzərə ona çox dərin təsir etmiş və o anda Rəsulullahın sözləri yadına düşmüşdü. Bunun nə zaman baş verəcəyini dəqiq bilmirdi, ancaq şübhəsiz belə olacağına inanırdı. O, Ömәri sevirdi, necə adam olduğunu bilirdi. Ömər də onu çox sevirdi.

İçi rahat idi və özünə güvənən bir səs tonu ilə Ömərə dedi: "Ey möminlərin əmiri, vallah sənin dövründə belə bir şey ola biləcəyi qənaətində deyiləm".

Əbu Bəkr də onu çox sevirdi. Vaqidi rəvayət edir ki, Əbu Bəkr heç kimi onun qabağına keçirməmişdi.

Aişə anamız: "Üseyd ibn Xudayr insanların ən fəzilətlilərindən biridir!"-demişdi.

Bu əziz səhabə hicrətin iyirminci ilində şaban ayında Mədinədə həyata gözlərini yummuşdu və Hz. Ömər özü onun cənazəsini götürmüşdü. Hz. Ömər onu cənnətul-baqi qəbristanlığına gətirmiş, cənazə namazını da özü qıldırmışdı.

Vəfat edərkən onun dörd min dinar borcunun olduğu ortaya çıxmış, mirasçıları bağçalarını sataraq borcunu ödəmək istəmişdilər. Bu vəziyyətdən xəbər tutan Hz. Ömər buna razı

olmamış və "Qardaşım Üseydin uşaqlarını heç kimə möhtac etmərəm!"-deyərək, onlara himayədarlıq etmişdi. Borclu olduğu adamlarla danışaraq borcunu dörd hissəyə bölərək, meyvələrini sataraq onun borcunu ödəmişdi.[169]

Dostlar gözəl idi, dostluqlar gözəl idi. Dünyada qoyulan xatirələr də gözəl, axirətə göndərilən əməllər də gözəl idi.

Mələklərin qulaq asdığı səhabə dünyadan köçmüşdü...

❋❋❋

169. Üseyd ibn Xudayr haqqında geniş məlumat üçün bax.
Səhihi-Buxari, Mənaqib (Ümdə 13/347), Fəzlul-Quran (Ümdə 16/218-219).
Səhihi-Müslim, Səlat (1/548)
Sirətu ibn Hişam (1/435-437)
Müstədrək, Hakim (3/287-289)
Dəlailun-Nübüvvə ((2/437-440)
əl-İstiab (1/53-55)
əl-İsabə (1/49)
əl-Bidayə vən-Nihayə (3/149-151)
Suvərun min həyatis-səhabə (3/23-40).

İrşad və İbrət Almaq Üçün Bəzi Diqqət Çəkən Məqamlar

- Hər zaman, hər yerdə və hər fürsətdə davam edən təbliğ fəaliyyətləri. Bu səylər davam edərkən izlənilən yol və metodlar.
- Zəlalətdə davam etmək və haqqı rədd etmək qəlbin möhürlənməsinə səbəb olduğu kimi, könlü haqq və həqiqətə açıq olanların İslamla şərəflənməsi, onların səylərinin və həvəslərinin artmasına səbəb olması.
- Üseyd ilə Səd ibn Muazın dürüstlük, bilgi və təcrübələri, igidlik və səyləri ilə ətraflarındakı insanlar üzərində qoyduğu təsirlər. Onlar İslam nurunu seçdikdə, qəlbi onlarla bir olan insanların da İslam nuruna yönəlməsi.
- Üseyd ibn Xudayr və Səd ibn Muazın doğru sözü eşidəndə inadkarlıq etməməsi, mübahisəyə girişməməsi, haqqa təslim olmaları. Başqa bir ifadə ilə, yanlışı rədd etmə, doğrunu qəbul etmək məsələsində özlərinə olan güvənləri və bunun vacibliyinə inanmaları. Bu yolda olmağın doğru olduğunu bilmələri.
- *Həm Allah Rəsulunun həm də onun rəhləsində (məktəbində) yetişən səhabələrin təbliğə yönəlik cümlələrində Allah kəlamından nəqllərin olması, Quran tilavətinin yer alması.
- İslam nurunun üzlərdə səbəb olduğu dəyişikliklər. Üseydə və Sədə baxanların bunu uzaqdan hiss etmələri.
- Mədinə camaatının İslam dinini qəbul etmək məsələsində məkkəlilərdən daha mülayim davranış içərisində olmaları, İslamın Mədinədə daha sürətli şəkildə yayıl-

ması. İslam dinini qəbul etməyənlərin belə çox kindar olmamaları.

- İslama olan rəğbət, müsəlmanların fəzilətli davranışları, birləşdirici xüsusuyyətləri və bu xüsusiyyətlərin hamı tərəfindən qəbul edilməsinin, bu məsələdə kindar olanların kinlərini ifadə etməsini çətinləşdirməsi.
- Səhabələrin Qurani-Kərim tilavətinə düşgün olmaları. Özləri oxuduqları kimi, oxuyanlardan dinlədikləri və gözəl oxuyanları tərif etmələri, izləmələri.
- Gözəl səs, səmimi oxunuş, dərin bir anlayış və bunu oxunuşa əks etdirmək, əməl, ixlaskarlıq, duyğu bir yerdə olanda Qurani-Kərim tilavətinin qəlblərdə daha təsirli olması. Hətta mələklərə belə təsir etməsi.
- Quranı mütəmadi şəkildə oxumağın, onu zikr etməyin gözəlliyi.
- Allah Rəsulunun ənsara qarşı sevgisi və səbri tövsiyə etməsi.
- Hz. Ömərin adil davranışları. Bu məsələdə son dərəcə ehtiyatlı davranması.
- Səhv başa düşülməyə macal verməməsi, belə hallarda dərhal müdaxilə etməsi və hadisələrə açıqlıq gətirməsi. Bu günkü ifadə ilə desək, şəffaf davranması.
- Allah rizasından başqa bir qayəsinin olmaması, iki dünya səadətinə talib olması və Rəbbinin hüzurundakı mühasibədən çox qorxması. Özünü mühasibə üçün hazırladığına görə də heç bir şeyin gizli qalmasını istəməməsi.
- Hər insanın səhv edə biləcəyi, qarşılaşdığı hadisələrin təsiri altına düşə biləcəyi həqiqəti. Bu təsirin onu yanlış bir qərara yönəldəcəyi. Ancaq həqiqəti tapmağın və ona təslim olmağın, səhvdən dönməyin və tövbə etməyin daha vacib olduğu məsələsi.

- Səhabələrin bir-birlərinin qədir-qiymətini bilməsi, vəfalı insanlara vəfalı şəkildə rəftar emələri. Allah Rəsulundan feyz almağın kamilliyə səbəb olması.

Bir Neçə Kəlmə

Quran və Təbliğ

Quran Rəbbimizin bizə xitabı, Allaha könül bağlayanların mürşidi, yolundan azmaq istəməyənlərin sağlam dirəyi, əbədi səadətə çatmaq istəyənlərin qopmaz, çürüməz, zəifləməz, tükənməz ipidir. Könüllərə şəfa, kainata rəhmətdir. Uca Rəbbimiz Quranda belə buyurur:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاءٌ وَرَحْمَةٌ لِلْمُؤْمِنِينَ ۙ وَلَا يَزِيدُ الظَّالِمِينَ إِلَّا خَسَارًا.

"Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. O, zalımların (kafirlərin) **ancaq ziyanını artırır."** (İsra 17/82)

Oxunan, öyrənilən, hökmlərinə tabe olunan, tətbiq olunan hər ayə möminlər üçün feyz, bərəkət, rəhmət və şəfadır. Zalımlar isə ondan uzaqlaşdıqca, onda zikr olunan əmrlərə qarşı çıxdıqca, insanları da ondan uzaqlaşdırmağa çalışdıqca, haqqı susdurmağa, yox etməyə çalışdıqca, qısacası, İblisə xidmət etməyə davam etdikcə xüsrana uğrayacaqlar və hər keçən gün ziyanları daha da artacaq və bir gün gələcək ki, o gün onların ürəkləri dağlanacaq. Çünki Uca Rəbbimiz belə buyurmuşdur:

تِلْكَ الْجَنَّةُ الَّتِي نُورِثُ مِنْ عِبَادِنَا مَنْ كَانَ تَقِيًّا

"Bu cənnət qullarımızdan təqva sahibi kimsələrə nəsib olacaqdır" (Məryəm 19/63).

❋

Mömin könüllərin həmişə Qurana yaxın olması lazımdır. Onunla əlaqələrini qoparmamalı, Rəbbinin kəlamını açıb onu dili ilə səsləndirməli, qəlbi ilə sevməli, bədən orqanları ilə əmrlərini yerinə yetirməli, duyğularını qardaşları ilə bölüşməli,

ailəsinə, uşaqlarına ayələrin mənəvi ləzzətini hiss etdirməlidir. Özü öyrənməli sonra da onlara öyrətməlidir.

Rəsulullah belə buyurmuşdur:

إِنَّ الَّذِي لَيْسَ فِي جَوْفِهِ شَيْءٌ مِنَ الْقُرْآنِ كَالْبَيْتِ الْخَرِبِ.

"İçində Quran olmayan bir kimsə xaraba bir ev kimidir".[170]

Başqa bir hədisdə isə belə deyilmişdir:

إِقْرَؤُوا الْقُرْآنَ فَإِنَّهُ يَأْتِي يَوْمَ الْقِيَامَةِ شَفِيعًا لأَصْحَابِهِ.

"Quran oxuyun! O, qiyamət günü onu daim oxuyan insanlara şahidlik və şəfaət edəcəkdir".[171]

Digər bir hədis isə bu barədə belə bildirir:

يُؤْتى بِالْقُرْآنِ يَوْمَ الْقِيَامَةِ وَأَهْلِهِ الَّذِينَ كَانُوا يَعْمَلُونَ بِهِ فِي الدُّنْيَا تَقْدُمُهُ سُورَةُ الْبَقَرَةِ وَآلِ عِمْرَانَ تُحَاجَّانِ عَنْ صَاحِبِهِمَا.

"Qiyamət günü Quran dünya həyatında onunla əməl edənlərlə birlikdə hüzura gələcəkdir. Bəqərə və Ali-İmran surələri öndə gələcək və onları oxuyan və əməl edən kimsələri müdafiə edəcəkdir".[172]

Bir müddət insanlarımız Qurandan uzaqlaşdırılma, onu unutdurma səylərinin yaşandığı mərhələlərdən keçdilər. Bu sıxıntıların bir nəticəsi olaraq da bir çox insan Quranı oxuya bilməz vəziyyətə düşdü, onu başa düşməz oldu. Yenə də Allaha şükür ki, bu mərhələlər geridə qaldı, İslamla olan əlaqələrimizi kəsmədik. Yeni addımların atılacağına da inanırıq.

Quran oxuya bilməz vəziyyətə salınan insanlarımız yenidən Allah kəlamına yönəlmənin gözəlliklərini sərgiləyirlər. Əlbətdə ki, bəzi çətinliklərimiz də var. Bu çətinliklər səy göstərənlərin, əzmkarlıqlarını itirməyənlərin savabları çoxalacaqdır.

---

170. Sünəni Tirmizi, Fəzail (5/177), Tirmizi, Abdullah ibn Abbasdan nəql olunan bu hədis üçün "həsən hədis" demişdir.

171. Səhihi Müslim, Sələt (1/553).

172. Səhihi Müslim, Sələt (1/554).

Allah Rəsulunun əziyyət çəkərək Quran oxumağa çalışan, hərfləri bir-birinin arxasınca düzərək onu oxumağa cəhd edənlər haqqında nə dediyinə baxaq. Hədisi Aişə anamız rəvayət etmişdir:

الماَهِرُ بِالْقُرْآنِ مَعَ السَّفَرَةِ الْكِرَامِ الْبَرَرَةِ وَالَّذِي يَقْرَأُ الْقُرْآنَ وَيَتَتَعْتَعُ فِيهِ وَهُوَ عَلَيْهِ شَاقٌّ لَهُ أَجْرَانِ.

"Quran oxuyan və oxuyuşunda mahir olan bir kimsə xeyir və təqva dolu "səfəreyi-kiram" mələkləri ilə birlikdədir. Quran oxuyan, oxuyarkən onu düzgün tələffüz etməyə çalışan, beyni yorulan, çətinlik çəkən və bunlara qatlanaraq davam edən kimsə üçün iki qat savab vardır."[173]

Quranın fəziləti və onunla bağı qoruma ilə əlaqəli nə qədər danışılsa, yazılsa yenə də azdır. Ancaq biz burada onun fəzilətini yada salmaqla yanaşı başqa bir məsələyə də toxunmaq istəyirik. O da qardaşlarımızın təbliğdə, müzakirələrdə, qarşılıqlı duyğu və düşüncələri ortaya qoymada Qurandan uzaqlaşmağa, söz və danışıqlarını quru fikirlərlə, fəlsəfi cümlələrlə və gündəlik dəb halına gəlmiş və ya qəlibləşmiş kəlmələrlə ifadə etmələridir.

Bu sözləri ona görə söyləmirəm ki, onlar Uca Allahın verdiği ağıldan istifadə etməsinlər, fikirlərini, ətraf mühit haqqındakı görüşlərini inkişaf etdirməsinlər, bilik xəzinələrini zənginləşdirməsinlər, ifadə güclərini təkmilləşdirməsinlər. Əksinə, mən bunlara ehtiyac olduğunu düşünürəm. Qardaşlarımızın hər sahədə kəskin zəkaya və ifadə tərzinə, xitabətə və iddialarını müdafiə etmə bacarığına sahib olmalarını istəyirəm. Mənim demək istədiyim budur ki, bu cür danışıqlar, ifadə tərzləri bizi sürükləyib öz istədiyi istiqamətə aparmasın, onların üstündə idarəetməni itirməyək. İlahi əmr və qadağalardan heç vaxt uzaqlaşmamağımız və Allah Rəsulunun irşadından uzaq durmamağımız. Münazirə, müzakirə, ədəb və tərbiyəni daim qorumağımız və hansı hədəfə tərəf irəlilədiyimizin, haraya getmək istədiyimizin fərqində olmağımızdır..

---

173. Hədis "müttəfəqun əleyh" bir hədisdir. Bax. Səhihi Buxari, Təfsir (16/140-141). Səhihi Müslim, Səlat (1/550).

Rəbbimizə sonsuz həmd-sənalar edirik. Onun qoruyacağını vəd etdiyi Quran əvvəlki qövmlərin əksinə ən kiçik bir təhrifə məruz qalmadan əlimizdədir. Təhrif, unutdurma, oxunmasını qadağan etmə səyləri müvəffəq olmamışdır. Quranın möcüzəvi nəzm və məna dərinliyindən uzaqlaşdırma cəhdləri də nəticəsiz qalmışdır.

Hədisi-şəriflər də heç bir ümmətə nəsib olmayacaq dəqiqliklə qeydiyyata salınmış, illərlə üstündə çalışılmış, ibrət və heyranlıq doğuraq fədakarlıqlar, əzmkarlıqlar və səylər nəticəsində günümüzə qədər gəlib çatmışdır. Mütəxəssis alimlər tərəfindən diqqətlə araşdırılmış, barəsində minlərlə əsər yazılmışdır. Bu sahədə ixtisas sahibi olanlar və ixtisaslaşmaq istəyənlər üçün həqiqi bir bilik xəzinəsi qoyub getmişlər.

Bütün bu səylərə baxmayaraq bu gün belə bizim istinad etdiyimiz sağlam təməllər dağıdılmağa çalışılır. Ancaq bu təməllər sarsılmaz gücdədir. Yetər ki, bizim insanlarımız başqalarının quyusuna düşməsinlər, onların istədikləri sahələrdə onların istədikləri istiqamətlərə getməsinlər. Saxta "elmilik" dəbinin həvəsinə düşməsinlər. İllərlə davam edən tədqiqatlar nəticəsində ortaya çıxan araşdırma vasitəsilə islami elmlərdən uzaq qalan insanların beyinləri bulandırılmasın.

Biz öz dəyərlərimizi, qiymətli xəzinələrimizi, illərlə alimlərimizin yığıb zənginləşdirdiyi elm xəzinələrimizi başqalarının iştahına görə dəyərləndirə bilmərik. Ortaya çıxan problemlər üçün bizim öz çözüm yollarımız və metodlarımız olmalıdır.

Zehnimizin qarışdığı bir nöqtədə yenidən təbliğ, əmr bi məruf, nəhy anil-münkər cəhdlərində lazım olan üslubumuza dönmək məcburiyyətindəyik.

Biz dəvətə və irşada yönələn cəhdlərimizdə Allah kəlamı ilə bağımızı qoruduğumuzda, onun bizi də irdaş etdiyini, könüldən könülə duyğuların daha sürətlə axdığı müşahidə olunacaqdır. Əsil mənbə ilə bağ bizlərə, sözlərimizə güc verəcəkdir. Bu, Allah Rəsulunun metodudur, onun yolunu izləyən səhabələrin, alimlərin, ariflərin metodudur.

Diqqət yetirək, İbn Kəsir "Əl-Bidayə vən-Nihayə" adlı əsərində[174], Musab həzrətlərinin danışığından sonra Züxruf surəsinin ilk ayələrini oxuduğunu rəvayət edir. Bu ayələrdə Qurani-Kərimin ülviliyi, hikmətlərlə dolu olması, müşriklərin içində olduğu hal, keçmiş ümmətlərin etdikləri və aqibətləri ilə bağlı məlumatlar, səmalara diqqət çəkməsi, yer üzünü və yer üzündəki saysız nemətləri yada salma, səmadan düşən yağışlarla torpağın dirilməsi, əkinlərin yaradılması, suların qaldırma gücü ilə gəmilərin hərəkət etməsi, bellərindəki ağır yüklərlə uzaq məsafələr qət edən minik heyvanları və bütün bunlara baxmayaraq bir çox insanın nankorluğu məsələsi. Bunlar həqiqəti tapmağa, ibrət almağa hazır olan insanlar üçün çox şeylər ifadə edən ayeyi-kərimələrdir. Bu misalların sayını çoxaltmaq mümkündür. Bu kitabın sətrləri arasında onlara aid örnəklər görmək olar.

Öz haqq davasını yaymaq, düşüncələrini gücləndirmək, könülləri fəth etmək istəyən möminlər yer, zaman, danışığın vəziyyətinə görə ayeyi-kərimələri, hədisləri seçə bilməli, qəlblərin oyanmasına vəsilə olmalıdır.

Qurani-Kərim bütöv şəkildə vvə bir çox təfsiri ilə birlikdə əlimizdə mövcuddur. Yetər ki biz zikr etdiyimiz ayələrin məna dərinliklərinə enməyi bacaraq. Onu düzgün başa düşək və başqalarına onu düzgün izah edək. Quruluqdan, qatılıqdan və mənasız söz mübahisələrindən xilas olaq. Çox şeyin dəyişdiyinə şahid olacaqsınız.

Quran möminlər üçün həyat qanunu, könül şəfasıdır...

❋

Quranın İrşadı İlə Bağlı Bir Neçə Nümunə

İndi isə Rəbbimizin bu buyruq və irşadlarını birlikdə oxuyub başa düşməyə çalışaq:

إِنَّا نَحْنُ نَزَّلْنَا عَلَيْكَ الْقُرْآنَ تَنْزِيلًا (٢٣) فَاصْبِرْ لِحُكْمِ رَبِّكَ وَلَا تُطِعْ مِنْهُمْ آثِمًا أَوْ كَفُورًا (٢٤) وَاذْكُرِ اسْمَ رَبِّكَ بُكْرَةً وَأَصِيلًا (٢٥)

174. Bax. əl-Bidayə vən-Nihayə (3/150).

(Ya Peyğəmbər!) **Həqiqətən, Biz Quranı sənə tədriclə** (ayə-ayə, surə-surə) **nazil etdik.**

Elə isə Rəbbinin hökmünə səbr et və onlardan (Məkkə müşriklərindən) **günahkar və nankor olana boyun əymə!**

Səhər-axşam Rəbbinin adını zikr et! (Səhər, günorta və ikindi namazlarını qıl!)

وَمِنَ اللَّيْلِ فَاسْجُدْ لَهُ وَسَبِّحْهُ لَيْلًا طَوِيلًا

Gecənin bir qismində Ona səcdə et (axşam, gecə namazlarını qıl) **və gecə uzunu da Onu təqdis edib şəninə təriflər de!** (Təhəccüd namazını qılıb gecəni ibadət içində keçir!)

إِنَّ هَٰؤُلَاءِ يُحِبُّونَ الْعَاجِلَةَ وَيَذَرُونَ وَرَاءَهُمْ يَوْمًا ثَقِيلًا

Həqiqətən, bunlar (Məkkə müşrikləri) **tez keçib gedəni** (fani dünyanı) **sevər, ağır günə** (qiyamət gününə) **dal çevirərlər.**

نَحْنُ خَلَقْنَاهُمْ وَشَدَدْنَا أَسْرَهُمْ ۖ وَإِذَا شِئْنَا بَدَّلْنَا أَمْثَالَهُمْ تَبْدِيلًا

Onları yaradan da, güclü-qüvvətli edən də (oynaqlarını birbirinə bağlayan da) **Bizik. Əgər istəsək, onları özləri kimilərlə əvəz edərik.**

إِنَّ هَٰذِهِ تَذْكِرَةٌ ۖ فَمَنْ شَاءَ اتَّخَذَ إِلَىٰ رَبِّهِ سَبِيلًا (٢٩) وَمَا تَشَاءُونَ إِلَّا أَنْ يَشَاءَ اللَّهُ ۚ إِنَّ اللَّهَ كَانَ عَلِيمًا حَكِيمًا (٣٠)

Həqiqətən, bu (surə) **bir öyüd-nəsihətdir. Kim istəsə, Rəbbinə tərəf bir yol tutar** (ibadət və itaətlə Allaha yaxınlaşar)**.**

(Ey insanlar! Onu da bilin ki) **Allah istəməsə, siz** (bunu) **istəyə bilməzsiniz.** (Ancaq Allah istəsə, istəyə bilərsiniz)**. Həqiqətən, Allah** (hər şeyi) **biləndir, hikmət sahibidir!**

يُدْخِلُ مَنْ يَشَاءُ فِي رَحْمَتِهِ ۚ وَالظَّالِمِينَ أَعَدَّ لَهُمْ عَذَابًا أَلِيمًا.

(Allah) **istədiyi kimsən Öz mərhəmətinə qovuşdurar. Zalımlara gəldikdə isə,** (Allah) **onlar üçün** (axirətdə) **şiddətli bir əzab hazırlamışdır!**

Bunlar 76-cı surə olan İnsan surəsinin 23-dən 31-ə qədər olan ayələridir.

❋

Bu ayələri oxuyub, onlar haqqında dərin-dərin düşündükdən sonra aşağıdakılara da diqqət etmək yerinə düşər:

الر ۚ كِتَابٌ أَنْزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِ رَبِّهِمْ إِلَىٰ صِرَاطِ الْعَزِيزِ الْحَمِيدِ (١) اللَّهِ الَّذِي لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ ۗ وَوَيْلٌ لِلْكَافِرِينَ مِنْ عَذَابٍ شَدِيدٍ (٢) الَّذِينَ يَسْتَحِبُّونَ الْحَيَاةَ الدُّنْيَا عَلَى الْآخِرَةِ وَيَصُدُّونَ عَنْ سَبِيلِ اللَّهِ وَيَبْغُونَهَا عِوَجًا ۚ أُولَٰئِكَ فِي ضَلَالٍ بَعِيدٍ (٣)

“Əlif, Lam, Ra! (Ya Rəsulum! Bu Quran) **elə bir Kitabdır ki, onu sənə insanların öz Rəbbinin izni ilə zülmətlərdən nura** (küfrdən imana) – **yenilməz qüvvət sahibi,** (hər cür) **tərifə** (şükürə) **layiq olan Allahın yoluna** (islam dininə) **çıxartmaq üçün nazil etmişik.**

Elə bir Allah ki, göylərdə və yerdə nə varsa, hamısı Onundur. Düçar olacaqları şiddətli əzabdan ötrü vay kafirlərin halına!

O kəslər ki, dünyanı (fani dünya malını) **axirətdən** (axirət nemətlərindən) **üstün tutur,** (insanları) **Allah yolundan döndərir (islam dinini qəbul etməyə mane olur) və o yolu əyri hala salmaq istəyirlər. Onlar** (haqq yoldan) **azıb uzaq düşmüşlər.”** (İbrahim 14/1-3).

❋

Necə düşünürsünüz? Bu ayeyi-kərimələr bizi yaşadığımız həyatın içərisində oyandırmırmı, irşad etmirmi, yol göstərmirmi? Bu baş verənlərə nə qədər yaxınıq? Ətrafımızda nə baş verdiyini

bilirikmi? Rəbbimiz bizi hansı məsələlərdə ayıq olmağa çağırır, bunları bilirikmi?

O kəslər ki, dünyanı (fani dünya malını) axirətdən (axirət nemətlərindən) üstün tutur, (insanları) Allah yolundan döndərir (islam dinini qəbul etməyə mane olur) və o yolu əyri hala salmaq istəyirlər. Onlar (haqq yoldan) azıb uzaq düşmüşlər."- sözləri kimi təsvir edir görəsən? Kimlərə aiddir?

Bu gün insanlar öz ümidlərini, duyğularını, işlərini, sağlamlıqlarını, iffətlərini və hüzurlarını itirmiş vəziyyətdədir. Bəs biz nə etməliyik? Necə bilik, üslüb və şüurla hərəkət etməliyik? Bu barədə düşünmüşükmü? Biz nə vaxt mömin qardaşlar kimi bir-birimizə arxa duracağıq? Axirətə, hesab gününə inanmayanlardan, onu qəbul etməyənlərdən mərhəmətmi gözləyəcəyik?

Dağıtmadan qurmaq, sındırmadan birləşdirmək, itirilənləri geri qaytarmaq çox ciddi cəhdlərin, qızğın fəaliyyətin nəticəsi ola bilər. İman ağacımız bu kimi meyvələri verməyə hazır olmalıdır.

Könüllərə həkk olunmuş iman, saleh əməl, əzmkarlıq tələb edir. Ciddi cəhdlər tələb edir. Haqqı sevməyi tələb edir. İman nuru ilə kainatı əhatə edən Allah adının, Məhəmmədi azanın üfüqlərdən uzaqlara çatdırılması arsuzu və həvəsi tələb edir. Elə isə dayanmaq olmaz.

Quranda "haqq yoluna əngəl olanlar" kimi təsvir edilənlər əgər Haqqa gedən yolları bağlayırlarsa, onları açmaq, dini əyri, yanlış göstərməyə çalışırlarsa, doğrusunu gözlər önünə sərməyə imkan vermirlərsə bu yolu biz tapmaq məcburiyyətindəyik.

Qurani-Kərimin irşadına, könüllərə təsirinə yaşanmış bir hadisəni misal göstərmək yerində olar:

Əli əl-Əsədi

Əli əl-Əsədi yol kəsən, qan tökən, qəsbkar, yolçuların asayişi üçün təhlükə törədən, dağların, səhraların, ucsuz-bucaqsız səhraların məğlubedilməz qulduru idi.

Yaratdığı narahatçılıqların, yoldan keçənlərə qarşı törətdikləri qarətlərin həddi-hesabı yox idi. Dövlət gücləri onun arxasına düşmüşdü ancaq hər dəfə Əli əl-Əsədi onlardan xilas olmağı bacarmışdı. Dağlarda və səhralarda öz izini itirtməyə nail olmuş, işlədikləri günahlara yenilərini əlavə etməyə davam etmişdi.

Bu qədər böyük günahlar, zülm dolu bir həyat Əlinin tövbə qapısını unutmasına səbəb olmuşdu. Onun ürək yumşaqlığına, Rəbbinə yönəlik peşmançılığını dilə gətirməsinə əngəl olmuşdu. Bu qədər məzlumun ahu-naləsi, Uca Allaha qarşı üsyankarlıq necə təmizlənə bilərdi?!

❋

Qara yağış buludlarının yavaş-yavaş yox olmağa başlayan gündüz aydınlığının yoxluğundan da istifadə edərək hər keçən dəqiqədə dünyanı bir az daha qaranlığa bürüdüyü, yerə düşən yağış damcılarının bir yerdə toplanaraq, qayalardan süzülərək vadilərdə çaylar meydana gətirdiyi bir vaxtda Əli əl-Əsədi də yeni şikarını izləməyə başlamışdı. Bu kimsəsiz səhrada yük heyvanları ilə birlikdə tək başına yola düşən bir ov onun üçün çox asan bir tikə sayılırdı.

Yağış və qaranlıqda daha irəliləyə bilməyəcəyini başa düşən yolçu hava tam qaralmadan qalmağa bir mağara tapmış, öz heyvanları üçün də münasib bir yer düzəltmişdi. Tonqal qalayaraq əynini qurudurdu və artıq isinməyə başlamışdı.

Çöldə yağan yağışın, çartıldayaraq yanan tonqalın səsinə bir az qulaq asdıqdan sonra Allah kəlamına yönəlmiş, bu kimsəsiz səhrada onunla "yoldaş" olmuş və onu oxumağa başlamışdı:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ ۚ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا ۚ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ (٥٣) وَأَنِيبُوا إِلَىٰ رَبِّكُمْ وَأَسْلِمُوا لَهُ مِنْ قَبْلِ أَنْ يَأْتِيَكُمُ الْعَذَابُ ثُمَّ لَا تُنْصَرُونَ (٥٤) وَاتَّبِعُوا أَحْسَنَ مَا أُنْزِلَ إِلَيْكُمْ مِنْ رَبِّكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَكُمُ الْعَذَابُ بَغْتَةً وَأَنْتُمْ لَا

تَشْعُرُونَ (٥٥) أَنْ تَقُولَ نَفْسٌ يَا حَسْرَتَا عَلَىٰ مَا فَرَّطْتُ فِي جَنْبِ اللَّهِ وَإِنْ كُنْتُ لَمِنَ السَّاخِرِينَ (٥٦)

"(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) **de: "Ey Mənim** (günah törətməklə) **özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!**

(Tövbə edib) **Rəbbinizə dönün. Əzab sizə gəlməmişdən əvvəl Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz!**

Qəfil əzab özünüz də bilmədən başınızın üstünü almamışdan əvvəl Rəbbinizdən sizə nazil edilmiş ən gözəl sözə (Qurana) **tabe olun!**

(Elə edin ki, sonradan) **bir kəs: "Allaha itaət barəsində etdiyim təqsirlərə görə vay halıma! Həqiqətən, mən** (Allahın hökmlərinə, Qurana, Peyğəmbərə və möminlərə) **istehza edirdim!" – deməsin."** (Zümər 39/53-56).

Əli əl-Əsədi mağaradan içəri girmiş, xəncərini çıxarmışdı. Ancaq eşitdikləri elə bil ki, onu yerindəcə dondurmuşdu. Qulaq asdı, asdı… Sonra addımlamağa başladı.

Ona tərəf gələrkən yolçu onu görmüşdü və qorxu içərisində yerindən qalxmışdı. Bu sahədə ad çıxaran dağların qulduru Əli əl-Əsədi onun qarşısında dururdu. Onu tanıyırdı. Çarəsiz idi. Qorxu sümüklərinə qədər işləmişdi, düşüncələri belə donub qalmışdı.

Ancaq ona tərəf irəliləyən Əli əl-Əsədi həmişəki Əliyə bənzəmirdi. Barmaqları ilə əlindəki xəncəri bərk sıxmamışdı bu dəfə. Qaşları yay kimi dartılmamışdı. O gün şikarını parçalamaq üçün atılan bir aslana oxşamırdı.

Yavaş-yavaş əlləri boşaldı. Xəncəri yerə düşdü və bir anda səssizliyi pozdu.

Əli əl-Əsədinin gözləri dolmuşdu. Yolçuya yalvarmağa başladı:

“Atam-anam sənə qurban olsun! Nə olar, bir də oxu!”

Yolçu onun duyğularını və nə demək istədiyini yaxşı başa düşmüşdü. Qorxuları azalmağa başladı. Özünü yığışdırdı və oxumağa başladı:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ ۚ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا ۚ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

“(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) **de: “Ey Mənim** (günah törətməklə) **özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah** (tövbə etdikdə) **bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!”** (Zumər 39/53).[175]

“Qurbanın olum, bir də oxu! Bir də oxu!”-sözləri dəfələrlə təkrarlandı.

❋

Qəlbi yumşalmış, ümidlə dolmuş Əli əl-Əsədi artıq Mədinə yollarına düşmüşdü. Yeni dost olduğu yolçunun tövsiyəsi ilə qüsl abdəsti aldı. Rəsulullahın məscidinə gəldi, sübh namazını orada əda etdi. Tövbə edib Rəbbindən məğfirət dilədi. Ortalıq tam aydınlanmadan və heç kimi onu tanımadan tez Əbu Hüreyrənin yanına getdi.

Əməvilərin xilafət dövrü idi. Əbu Hüreyrə hələ sağ idi. Ona tövbə edib gəldiyini söyləyərək ondan kömək istədi. İstədiyinə nail oldu…

Dan yeri ağarmağa başlayanda insanlar onu tanıdı. Pıçıldaşmalar, yayılan xəbərlər və qəribə izdihamın ardından onun ətrafında qəzəbli və çaşmış insanlar toplaşmağa başladılar. Dağların və səhraların yırtıcı aslanı Əbu Hüreyrəyə təslim olmuşdu. Onun mühafizəsi altında idi. O, nə deyirdisə onu yerinə yetirirdi, ona qulaq asırdı.

175. Hz. Əli bu ayeyi-kərimənin qəlbə ən çox rahatlıq verən ayə olduğunu, rəhmətin ən bariz göründüyü ayə olduğunu söyləmişdir. Abdullah ibn Ömər də ən çox ümid verən ayənin bu olduğunu bildirmişdir. (əl-Cami li-əhkamil-Quran, 15/269).

Əbu Hüreyrə oraya yığılmış insanların Əliyə hücum etməsinə mane oldu. Tövbə edərək gəldiyini söylədi. Ələ keçmədən tövbə edib gələn insanın hökmünü izah etdi və aşağıdakı ayəni oxudu:

إِلَّا الَّذِينَ تَابُوا مِنْ قَبْلِ أَنْ تَقْدِرُوا عَلَيْهِمْ ۖ فَاعْلَمُوا أَنَّ اللَّهَ غَفُورٌ رَحِيمٌ

"Sizin əlinizə keçməmişdən əvvəl tövbə edənlər müstəsnadır. Bilin ki, Allah bağışlayandır, rəhm edəndir!" (Maidə 5/34)

Sonra isə Mədinə valisinin yanına getdilər.[176] Əli əl-Əsədinin möminlər arasında sərbəst yaşamasına icazə verilirdi və bağışlanırdı.

❋

Artıq çox sevincli idi. Mömin qardaşları ilə birlikdə eyni səfdə namaz qılırdı. Küçələrdə möminlərlə salamlaşırdı. Acılı şirinli günləri onlarla bölüşürdü. Artıq dağlarda tənha dolaşmırdı. Hər bir qarətdən sonra içindəki vicdan əzabı ilə qıvranmırdı artıq. Qılıncını və xəncərini artıq qarət üçün, qəsb və zülm üçün sıyırmırdı. Allah yolunda, din iman uğrunda cihad üçün istifadə edirdi. Mücahidlərlə çiyin-çiyinə döyüşürdü. Ömrünün böyük bir hissəsini boş yerə keçirmişdi. Uca Allaha yönəlmək nə qədər gözəl duyğu idi.

Əli əl-Əsədi sonrakı illərdə dünyanın maddi baxımdan ən güclü ordusuna malik olan Bizansla dəniz döyüşündə müşahidə edilmişdir. Gəminin göyərtəsində yay kimi dartılmış yaxınlaşan Bizans gəmisini gözləyirdi. Səbri tükənən Əli, hələ gəmilər bir-biri ilə döyüşə başlamadan hücuma keçir, qarşısına çıxan Bizans əsgərlərini gəminin obiri tərəfinə qədər qovurdu. Bütün əsgərlər tək bir tərəfdə yığışanda, gəmi batmağa başlayır və içindəkilər də boğularaq ölürlər. Əli əl-Əsədi bir gəmi Bizans əsgərini sulara gömərək dəniz şəhidliyi rütbəsinə qovuşdu.[177]

❋

176. Həmin ərəfədə Mədinə valisi Mərvan ibn Hakəmdi.

177. Əli əl-Əsədi haqqında geniş məlumat üçün bax. (Müxtəsəri İbn Kəsir, (1/513. Maidə surəsi 34-cü ayənin təfsirində). İbn Cərir ət-Təbəriqən nəql etmişdir.

İslam tarixini varaqlayanlar bunun daha bir çox fərqli nümunələrinə şahid olacaqdır. Bizim üstümüzə düşən vəzifə isə haqqın səsini duyurmaqdır.

❋❋❋



Gözəl Əxlaq
Dərin Elm
Ölümü Qonaq Kimi Qəbul
Etmə Şüuru



Muaz ibn Cəbəl

-radiyallahu anhu-

معاذ بن جبل

Ənəs (radiyallahu anhu) belə nəql etmişdir:

جَمَعَ الْقُرآنَ عَلى عَهْدِ رَسُولِ اللَّهِ صَلَّ اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ أَرْبَعَةٌ؛ كُلُّهُمْ مِنَ الأَنْصَارِ: مُعَاذُ بْنُ جَبَل وَ أُبَيُّ بْنُ كَعْب وَزَيْدُ بْنُ ثَابِت وَأَبُو زَيْدٍ.

"Rəsulullah zamanında dörd nəfər Quranı başdan-sona toplayırdılar. Onların hamısı da ənsardan idilər: Muaz ibn Cəbəl, Übey ibn Kəb, Zeyd ibn Sabit və Əbu Zeyd."[178]

Muaz ibn Cəbəl bütün ayeyi-kərimələri əzbərləyən, diqqətli şəkildə həm yaşayaraq həm də yazaraq onu qoruyanlardan idi. İti zəkası və öyrətmə qabiliyyəti hamıya məlum idi.

Allah Rəsulu başqa bir hədisdə belə buyurmuşdur:

اسْتَقْرِؤُا الْقُرْآنَ مِنْ أَرْبَعَةٍ: منْ ابن مَسْعُودٍ وَسَالِمٍ مَوْلَى أَبِى حُذَيْفَةَ وَأُبَيِّ بْنِ كَعْبٍ وَ مُعَاذِ بْنِ جَبَلٍ.

"Quranı dörd nəfərdən öyrənin: Abdullah ibn Məsud, Əbu Hüzeyfənin azad etdiyi Salim, Übey ibn Kəb və Muaz ibn Cəbəl".[179]

Allah Rəsulu onun haqqında belə buyurmuşdu:

178. Səhihi-Buxari, Fəzail (13/348), Səhihi-Müslim, Fəzail (4/1914, 1915).

179. Hədis "müttəfəqun əleyhi" dərəcəsindədir. Bax. Səhihi-Buxari, Fəzail (13/321). Səhihi-Müslim, Fəzail (4/1914).

أَعْلَمُ أُمَّتِي بِالْحَلاَلِ وَالْحَرَامِ مُعَاذُ بْن جَبَل.

"Mənim ümmətimin halal və haram məsələsində ən yaxşı bilik sahibi olanı Muaz ibn Cəbəldir".

Rəsulullahın bu şəkildə təsvir etdiyi əziz səhabəni bir az da yaxından tanımaq yerində olar. Muaz səhabələrin ən məşhurlarından idi və ən çox sevilənlərdən biriydi. Əslən Xəzrəclidir. Uzun boylu, gözəl üzlü, qıvrım saçlı, iri gözlü, parlaq dişli, gülərüz və şirin sözlü bir gənc idi.

Kab ibn Malik onun haqqında belə demişdi: "Çox yaraşıqlı bir gənc idi. İstiqanlı hərəkətləri vardı. Hər kəs ona yaxınlıq hiss edərdi və insanlarla xoşrəftar idi. Qəbiləsinin ən xeyirxah gənclərindən biriydi."

Vaqidi onun haqqında "O, ən yaraşıqlı oğlanlardan idi"- deyərək Allahın ona verdiyi üz gözəlliyinə diqqət çəkmişdir.

❋

Muaz ibn Cəbəl hələ gənc olarkən Musab ibn Ümeyrin dəvəti ilə ikinci Əqəbə beyətində iştirak etmiş, Allah Rəsulu ilə görüşmə şərəfinə layiq olmuş, Əqəbədə ona beyət etmişdir. Mədinəyə qayıdanda gəncliyinin də verdiyi cəsarətlə öz həmyaşıdları olan bir neçə nəfər cavanla yığışaraq Mədinədə olan bütləri qırmaq üçün kiçik bir dəstə yaratmışdı.

Bütlərin olduğu yerləri müəyyənləşdirir, fürsət tapan kimi oraya girib onları parçalayır, bir quyuya yaxud da vadilərdən birinə tullayırdılar. Bu könüllü gənclər adətən o evlərdə olan bir gənci də səflərinə qatır, onun əli ilə evdəki bütü oradan çıxartdırır, sonra da istədiklərini edirdilər. Bu etdikləri hərəkətlər sonrakı illərdə onların bu hadisələri yada salıb istehza ilə gülməsinə səbəb olmuşdu.

Sələmoğulları qəbiləsindən və Mədinənin liderlərindən olan Amr ibn Camuh gəncliyinin ilk dövrlərində olan bu cavanların səyləri nəticəsində ələ keçirilən və sındırılan bütünün bir quyuya it leşi ilə birlikdə atılmasından sonra İslam dininə yönəlmişdi. Bütünü edən götürənlər arasında öz oğlu olan

Muaz da var idi. Muaz ibn Cəbəl ilə eyni adı daşıyan bu gənc İslam dininin həqiqi fədailərindən biriydi.

Amr ibn Camuh İslamla şərəfləndikdən sonra böyük xidmətləri olmuş, qəlbi ilə haqqa bağlanmış və Uhudda şəhid düşmüşdü. Onu Uhudda cihad meydanında tək ayağı üstündə axsayaraq döyüşərkən görənlər olmuşdu.

Muaz və yoldaşlarının bu bütləri yox etmə fəaliyyətləri Allah rəsulu hicrət edərək Mədinəyə gələnə qədər davam etmişdi. Rəsulullah Mədinəyə gəldikdə bir kölgə kimi onun arxasından gəzmiş və ondan ayrılmamışdı. Allah kəlamını Allah Rəsulundan öyrənir, şəri biliklərin, hökmlərin bütün incəliklərini, alimlər alimi, aləmlərin əfəndisi, iki dünya günəşi Hz. Məhəmmədən öyrənirdi.

Bu səyləri və israrları nəticəsində ən yaxşı Quran bilənlərdən və ən dərin fiqh biliyinə sahib olanlardan olmuşdu.

❋

Gənc yaşında göstərdiyi qızğın səylər, kəskin zəka, gözəl əxlaq, bəlağətli danışıq, geniş comərdlik xüsusiyyətləri ilə könülləri fəth etmişdi. Onunla bağlı tərif cümlələrini alt-alta yığsaq böyük bir yazının ortaya çıxacağı şübhəsizdir. Onun haqqında bəzi xatirələri yada salmaq yerinə düşər.

Əvvəlcə Hz. Ömərin dediklərinə nəzər salaq: "Qadınlar hələ Muaz kimi birisini doğurmayıblar. Muaz olmasaydı Ömər həlak olardı".

Hz. Ömər hər zaman onunla istişarə edərdi, onun biliyindən və ağlından istifadə edərdi. Onun düşüncə və davranışlarını yüksək qiymətləndirərdi.

Başqa biri onun haqqında belə demişdir. Rəvayət edən Yəzid ibn Küteybdir.

"Humusda məscidə girmişdim. İçəridə qıvrım saçlı bir oğlan vardı. İnsanlar onun ətrafında toplaşmışdılar. Danışanda elə bil ağzından dürr tökülürdü. Mən onun kim olduğunu soruşdum.

"Muaz ibn Cəbəldir"-dedilər.

Əslən Yəmənli olan Əbu Müslim əl-Həvlanı belə rəvayət etmişdir:

"Dəməşq məscdinə gəldim. İçəridə elm məclisi toplaşmışdı. Adətən bu elm məclisində Allah Rəsulunun yaşlı səhabələri olurdu. Onlar elmi müzakirələr aparırdılar.

İçəridə qara qaşlı, gözü sürməli, dişləri parıldayan və yaraşıqlı bir gənc var idi. Elm məclisində iştirak edənlər hansısa bir məsələdə ixtilafa düşəndə ondan soruşurdular. O da məsələnin həllini onlara söyləyir, son sözü deyən o olurdu.

Yanımda oturan adamdan soruşdum:

"Bu gənc kimdir?"

"Muaz ibn Cəbəldir"-dedi.

✺

O, Allah rəsulu ilə bütün qəzvələrdə iştirak etmişdi.

Rəsulullah hicrətdən sonra onu səhabələrin ən alimi, fiqh elmində dərin bilik sahibi Abdullah ibn Məsud ilə qardaş elan etmişdi. Elm və irfan dolu qardaşın elm və irfan dolu qardaşı. Bu qardaşlıqda alimlərin görüş birliyi vardır. Ancaq mənbələrdə onun Cəfər həzrətləri ilə də qardaş elan edildiyi bildirilmişdir. Bilindiyi kimi Hz. Cəfər Həbəşistandan Xeybərin fəthi günü gəlmişdi. Bu qardaşlıq ancaq Xeybərin fəthindən sonra ola bilərdi. Bu illərdə gələn qənimətlər və artan imkanlarla mühacirlərin çoxu kasıblıqdan xilas olmuşdu. Deməli onun Cəfər ilə qardaşlığı ikinci qardaşlıq ola bilər.

✺

Rəsulullah, Yəmənin müsəlman olmasından sonra onu Yəmənə, Yəmənin ən gözəl bölgələrindən biri olan Cənəd bölgəsinə göndərmişdi. Onlara Quran oxutmağa, İslamı öyrətməyə, İslamın hökmlərini açıqlamağa göndərilmişdi. Həmçinin orada hakim olacaqdı. Aralarında çıxan problemləri həll etməli və onların İslama görə yaşamasını təmin etməli idi.

Öz tabeçiliyindəki vəzifəli şəxslərə zəkatları yığdıracaq, verilməsi lazım olan yerlərə paylatdıracaqdı.

Allah Rəsulu onu Yəmənə göndərərkən yəmənlilərə yazdığı məktubda "Sizə səhabələrimin ən xeyirlilərindən birini göndərirəm"-buyurmuşdu. Bu, Muaz üçün ən gözəl tərif idi.

Muaz həzətlərinin Yəmənə göndərilməsi hadisəsində çoxlu ibrət dolu məsələlər var.

Hamının sevdiyi bu gülərüz, mülayim xasiyyətli, səmimi və ixlaskar gənc həm də çox əliaçıq biriydi. Əlində nə varsa ətrafındakılara paylayırdı. Ondan bir şey istəyəndə heç vaxt boş qaytarmazdı. Əziz qardaşı Abdullah ibn Məsud onun haqqında belə demişdi: "Muazı İbrahimə (əleyhissəlam), "xəlilur-Rəhmana" oxşadırdıq".[180] Bu xüsusiyyətinə görə də əlində heç nə olmazdı və tez-tez borca düşərdi.

İslam hüququndakı "iflas" hökmlərini oxuyan bir kimsə mütləq onun adına rast gələcəkdir. Rəsulullah Yəmənə getməmişdən qabaq onun iflasını elan etmiş, mallarını sataraq əldə olunan pulla borclu qaldıqlarının borcunu ödəmişdi. İflas etmiş bir kimsə üçün İslam hüququnda bu hökm əsas qəbul olunmuşdur.

Mənbələrdə bir səfər əsnasında baş vermiş dialoqdan bəhs olunur. Bu danışıq Rəsulullah ilə Muaz ibn Cəbəl arasında olmuşdu.

-"Ey Muaz, nə ilə hökm verəcəksən?"

-"Allahın kitabında olanlarla"

-"Əgər Allahın kitabında tapa bilməsən neynəyəcəksən?"

-"Rəsullahın sünnəsinə baxaram. Oradakılarla hökm verərəm"

-"Bəs əgər orda da tapa bilməsən neynəyəcəksən?"

-"İctihad edərəm. İslama ən uyğun olanla hökm verərəm. Çarəsiz qalmaram".

Beləliklə Alah və Rəsulunun hökmünə ən uyğun olanı tapmağa, Allah və Rəsulunun rizasına uyğun davranmağa, onla-

180. əl-Bidayə vən-Nihayə (7/97), əl-İsabə (3/427).

ra uyğun şəkildə hökm verməyə çalışacağını, bir mömin kimi çarəsiz qalmayacağını vurğulamışdı.

Bunu görən Rəsulullah buyurmuşdu: "Rəsulullahın elçisini Rəsulullahın sevdiyi bir işdə müvəffəq edən Rəbbimə həmd olsun!".

Yəmənə gedən dəstə hazırlanmışdı. Dəstə Muazın rəhbərliyi altında Mədinədən ayrılmaq üzrəydi.

Allah Rəsulu da bu hidayət və irşad karvanı ilə birlikdə yeriyirdi. Bir müddət onlarla birlikdə uzun bir məsafəni qət etdi. Elə bil ki, Rəsulullah Muazla birlikdə olduğu müddəti uzatmaq istəyirdi. Hər kəsin təxmin etdiyi yerdən daha uzaq məsafəyə onlarla birlikdə getdi. Sonra da Muaza son tövsiyyələrini verdi. Bu tövsiyələrdə çox müxtəlif məsələlər vardı.

"Ey Muaz, ola bilsin ki, bu ildən sonra məni bir də görə bilməzsən. Bəlkə də məscidimə, qəbrimə gələrsən!".

Rəsulullahdan ayrıldığına görə onsuz da duyğulanan Muaz bu sözləri eşidəndən sonra göz yaşlarını saxlaya bilmədi. O, ağlayırdı. Digər möminlər də onunla birlikdə ağlayırdı.

Sonra qəbilə bu yerdən uzaqlaşdı. Gedərək üfüqdə yoxa çıxdı.

Rəsulullahın bu sözləri əlbətdə ki, ayrılıq əsnasında deyilən sözlərə oxşamırdı. Bu gündən sonra həqiqətən də Muazın gözləri Hz. Peyğəmbəri görmədi.

Rəsulullahın vəfatından sonra xəlifə onun sadiq dostu Hz. Əbu Bəkr olmuşdu. Muaz onun istəyi ilə Yəməndəki vəzifəsinə davam etmişdi. Sonra Mədinəyə qayıtmışdı.

İllər keçdikdən sonra Mədinəyə qayıdan və Allah Rəsulunun qəbrinin üstünə gələn Muaz göz yaşlarını yenə saxlaya bilmədi. Rəsulullahın onu yola salarkən söylədiyi sözləri xatırladıqca ağladı və bunu heç vaxt yaddan çıxarmadı.

❋

Hz. Ömər xəlifəliyi dövründə Muazı Kilaboğulları qəbiləsinə göndərdi. Dövlət xəzinəsindən ayrılmış pulları ödəmək, ve-

rilməsi tələb olunan malları təhvil vermək, zənginlərdən alınan zəkatları ehtiyac sahibi insanlara paylamaq əsas vəzifəsi olmuşdu. Muaz üstünə düşən vəzifəni ən gözəl şəkildə yerinə yetirmiş, könülləri fəth edərək şirin xatirələrlə geri qayıtmışdı.

Geri qayıdarkən dünya mallarından sadəcə çiynindəki şalı vardı. Bu şal gedəndə də onun çiynində idi. Boynunu tozdan və günəşdən qorumaq üçün bu şaldan istifadə edirdi.

Xanımı dözə bilməyib ondan soruşdu: "Belə vəzifədə olanlar vəzifələrini yerinə yetirib qayıdanda müəyyən bir maaş alırlar, evlərinə hədiyyə ilə qayıdırlar. Sənin hədiyyən hardadı bəs?"

Muaz cavab verdi:

لَقَدْ كَانَ مَعَي رَقِيبٌ يَقِظٌ يُحْصِى عَلَيَّ.

"Mənim yanımda çox ayıq, ağıllı-başlı insanlar vardı. Onlar mənim həm verdiklərimi, həm də aldıqlarımı yaxşı bilirdilər."

Xanımı əsəbləşdi:

"Rəsulullah hər şeydə sənə etibar edirdi. Əbu Bəkr də eləydi. Ömər gəldi, sənin lə birlikdə nəzarətçimi göndərdi? Hər etdiyini izlətdirirmi?"

Bu söz Hz. Ömərin xanımına, ondan da Ömərə gedib çatdı. Hz. Ömər həm heyfslənmiş, həm də qəzəblənmişdi. Muazdan belə bir şey gözləmirdi. Çağırıb soruşdu:

"Mən sənin lə birlikdə nəzarətçimi göndərmişəm? Mənmi sənin etdiklərini izlətdirirəm?!"

Ancaq Muazdan eşitdiyi sözlər onun bütün qəzəbini soyutdu və incikliyini ortadan qaldırdı:

"Ey möminlərin əmiri! Zövcəmə bəhanə olaraq ancaq bunu söyləyə bildim".

Hz. Ömər onun nə demək istədiyini yaxşı başa düşmüşdü. Müaz özü üçün heç nə almadan geri qayıtmışdı. Evə qayıdanda ondan nəsə gözləyən xanımının sualı və Muazın verdiyi cavabı düşündü. Qəzəbli Ömər gülümsəməyə başladı. Sonra da Muaza bəzi şeylər verərək dedi:

“Get bununla xanımının könlünü al!”.

❋

Sonrakı günlərdə Hz. Ömər onu daha uzunmüddətli bir vəzifə üçün Fələstinə göndərdi. Elm və irfan mənbəyi olaraq Yəməndə olduğu kimi, bu yeni fəth olunan torpaqlarda Quran öyrətmək, Allahın hökmlərini insanlara başa salmaq və İslamı orada yaşatmaq üçün.

Fələstinə getdi. Orada Şam “fatehi” gözəl insan Əbu Übeydə ibn Cərrahın yanına getdi. Artıq o bu yeni ölkədə yaşayır, müsəlmalığı necə yaşamaq lazım olduğunu başa salır, onları irşad edir, təlim verir, gözəl danışığı ilə könülləri fəth edirdi. Ona qulaq asanlar onun ağzından nur yayıldığını bəyan edirdilər.

Əbu Übeydə bu bölgədə yayılmış vəba xəstəliyinə tutulmuşdu. Dünyadan köçərkən də idarəçiliyi ona təhvil verdi.

Ancaq bu əziz səhabə də həmin ildə vəbaya yoluxdu və yatağa düşdü.

Dünyadan ayrılma vaxtının gəldiyini başa düşəndə üzü qibləyə çevirdilər. Onun ağzında bu beytlər eşidildi:

مَرْحَبًا بِالْمَوْتِ مَرْحَبًا زَائِرٌ جَاءَ بَعْدَ غِيَابِ

وَحَبِيبٌ وَفَدَ عَلَى شَوْقٍ

“Salam olsun ölümə, salamlar!
Uzun bir ayrılıqdan sonra
Gəlib qapımızı döyən qonağa salamlar
Həvəslə gələn sevgilimə salamlar”

Bunları söylədikdən sonra üzünü səmaya qaldıraraq dua etməyə başladı:

“Ey Allahım! Sən mənim dünya sevgimin olmadığını, ağaclar əkib bağlar salaraq, arxlar qazıb su çəkərək dünyada uzun müddət qalma arzumun olmadığını bilirsən.

Elmə olan susuzluğumu, keçib-gedən saatları dəyərləndirmək, zikr məclislərində elm əhli ilə ola bilmək çün dünyada yaşadığımı bilirsən.

Allahım! Canımı mömin bir can kimi qəbul et! Canımı bu şəkildə al!"

Sonra vətəndən, ailədən, qohumlarından uzaqda, dini öyrətmək üçün getdiyi bir diyarda gözlərini yumdu.

Hələ çox gənc idi.[181]

O, bu qısa ömrə çox böyük xidmətlər sığdırmışdı. Hər kəsi özünə heyran qoyan bir elm zirvəsinə yüksəlmişdi.[182]

❋❋❋

181. Yaşı barəsində müxtəlif rəvayətlər var. Vəfat edərkən onun 33 yaşı olduğunu söyləyənlər var. Həmçinin bəzi mənbələrdə 34 və ya 38 yaşında olduğu qeyd olunmuşdur.

182. Muaz ibn Cəbəl haqqında daha geniş məlumat üçün bax.
Səhihi Buxari, Fəzail (13-321)
Səhihi Müslim, Fəzail (4/1914)
Xilyətul Evliya (1/228-244)
əl-İstiab (3/355)
əl-Bidayə (7/97)

İbrət və İrşad Üçün Diqqət Çəkən Nöqtələr

- Muazın Rəsulullah hələ sağ olarkən Quranı əzbərləməsi və onu diqqətlə qorumağa çalışması.
- Allahın halal və haram etdiyi şeyləri, şəri hökmlərini ən yaxşı bilənlərdən biri olması.
- Gülərüz, mülayim xasiyyətli, istiqanlı, səmimi davranışları insanlara özünü çox sevdirdiyi kimi, öz iddiasında, inancını təbliğ etmək məsələsində müvəffəq olması.
- Mənəvi duyğuların insan simasındakı gözəlliyə nurani bir gözəllik əlavə etdiyi.
- Gənclərin yaşlarına görə cəsarətli davranışlar sərgiləməsini normal qarşılamaq və bu zəhmətlərin müsbət nəticə verməsi.
- Muazın elmə qarşı düşgünlüyü və qısa zamanda böyük məsafə qət etməsi.
- Əzmkarlıq, zəhmət, zəka və diqqətin insanı necə ülvi zirvələrə çıxarması.
- Muazın bu qədər çox sevilməsinə, zəkasına, elminə, insanlarla yaxın ünsiyyətinə baxmayaraq kasıb olması və əlində heç pulunun olmaması.
- Muazın xərcləyərkən əliaçıq olması, ancaq heç kimdən özü üçün bir şey istəməməsi.
- Bir məsələdə hökm axtararkən ilk müraciət olunan yerin Qurani-Kərim, sonra Rəsulullahın sünnəsi olması, sonra icma və qiyasa müraciət olunduğu. Bu prinsipin hər elm sahibi üçün ümumi bir qayda olması.

- Şübhəsiz ki, icma və qiyasdakı prinsip də Allah Rəsulunun hökmlərinə ən yaxın olanı, rizasına ən uyğun olanı tapıb çıxarmaq olmalıdır.
- Öyrənməyə düşgün olduğu kimi, öyrətmə, təbliğ əzmkarlığı və bu işdə müvəffəq olması.
- Dünyadan köçərkən Uca Allah qovuşma şüuru və mətanəti.

❋❋❋

Bir Neçə Kəlmə

Gözəl Xüsusiyyətlərin İzində

İnsanların haqq və həqiqətdən uzaqlaşdırılmağa, xeyir və şər ölçülərinin dəyişdirilməyə çalışıldığı, həyata çökən mənəvi dumanların hər tərəfi gözəgörünməz etdiyi bu dövrdə özümüzü yenidən yığışdırmaq, dərindən nəfəs alaraq içimizdəki bulanıq havanı çıxarmaq, damarlarımızda axan qanları və hüceyrələrimizi oksigenlə təmin etmək, qəlbimizi və zehnimizi dincəltmək ən çox ehtiyacımız olan şeylərdəndir.

Necə ki, iş həyatının yorğunluğunu çıxarmaq, həmişə eyni yerdə olmağın və eyni işlərin görməyin bezginliyini üstümüzdən atmaq istərkən çəmənliklərə, yaşıllıqlara getmək, geniş üfüqlərin əhatə etdiyi mənzərəli dünyaya nəzər salma ehtiyacı hiss ediriksə, paslanmış, mənəvi gözəlliklərini itirmiş bir mühitin sıxıntılarını, gətirdiyi bezginlikləri, xəyal qırıqlığını atmaq üçün də mənəvi fərahlıq, könlə hüzur verən, eşq və həvəsi yeniləyən üfüqlərə ehtiyac vardır.

Muazı və digər səhabələri tanımaq, onların dünyasına uzanmaq həqiqətən qəlbə mənəvi rahatlıq, ürəyə hüzur verir. Çəmənliklərə, yaşıllıqlara çıxmaq, ucsuz-bucaqsız dənizləri seyr etmək qədər bunlara da çox ehtiyacımız var. Onlardan öyrənəcəyimiz şeylər isə kəlmələrə sığmayacaq qədər çoxdur.

Hər bir cəmiyyətdə inkişaf etdirilməsi, yerləşdirilməsi zəruri olan gözəl xüsusiyyətlər vardır. Elm, irfan sevgisi, öyrənmə həvəsi, öyrənilənlərlə əməl etmə səmimiyyəti, axtararaq həqiqəti

tapma istəyi, səhvləri qəbul edib onlardan əl çəkmə və doğruya yönəlmə, iradə və doğruluk, sağlam xarakterlilik, təvazökarlıq, gülərüzlük, şirin sözlülük, sıxıntılara sinə gərmə mətanəti bu əvəzolunmaz xüsusiyyətlərdən bir neçəsidir.

Onların itirildiyini, yoxa çıxmasını görmək fiziki yorğunluqdan daha ağır, daha təsiredici və məyusluq vericidir. Bəsit dünya mallarını arzulayanlar və onuçün çalışanların bu kimi xüsusiyyətlərin arxasınca düşməməsi da çox təəssüf doğuran hadisələrdən biridir.

Onları inkişaf etdirmək, canlandırmaq, yaymaq və sağlam bir nəsil yetişdirmək, bu istiqamətdə bütün imkanlardan istifadə etmək mümkünkən dəhşətli rəzalət yayan insanların çox böyük "zəhmətlər" çəkdiyinə şahid oluruq.

Bəzən düşünürük ki, görəsən bu xüsusiyyətlər illərlə əvvəlki dönəmdə qalmış, yenidən gündəmə gətirilməyi haqq etməyən bir şeydirmi?! Əgər bunlar qədim dövrlərdə qalan şeylər idisə, yeni nəsil hansı xüsusiyyətlərlə yetişməlidir bəs? Bu cəhdlər bizi necə toplum halına gətirə bilər? Biz niyə bu hala gəldik?

Yoxsa bizim gözəllik anlayışımzdamı bir problem var? Yaxud biz bir cəmiyyət kimi mənəvi paslanmayamı məruz qaldıq?

Öz-özümüzü bir hesaba çəkib "haradan gəldik, haraya gedirik?" və "bu gedişat doğrudurmu?"-deyə soruşsaq cavabımız nə olardı görəsən?

Niyə axı içimizdə yorğunluq, qəlbimizdə istəksizlik hiss etməyə başlamışıq? Nə üçün sevinc içərisində ümid dolu bir günə başlamaq bizə nəsib olmur? "Rəbbimizə həmd olsun!"-deyərək günümüzü yekunlaşdıra bilmirik. Niyə sabahın təravətini, könül fərahlığını hiss edə bilmirik, quşların səsindən zövq ala bilmirik, ailəliklə birlikdə olmaqdan xüsusi ləzzət ala bilmirik?

Şübhəsiz ki, bu sualları çoxaltmaq mümkündür. Ancaq ətrafımızda baş verənləri diqqətlə izlədikdə hər baxımdan "mən burdayam"-deyə bağıran bir həqiqət var. Bu xüsusiyyətlərin silinib yox olmasını, əvəzinə çılğın bir həyatın gətirilməsini istəyənlər və bunun üçün əlindən gələn hər şeyi edənlər mövcuddur. Sürüklənmək istədiyimiz bu həyatın pərdə arxasında çox

şey var. Öz-özümüzə soruşduğumuz bu suallar həqiqəti göz önünə sərir.

Bunlardan daha dəqiq olan bir həqiqət var:

إِنَّ الَّذِينَ يُحِبُّونَ أَنْ تَشِيعَ الْفَاحِشَةُ فِي الَّذِينَ آمَنُوا لَهُمْ عَذَابٌ أَلِيمٌ فِي الدُّنْيَا وَالْآخِرَةِ

"Möminlər arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) **pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir.** (Hamının əməlini, yayılan şayiələrin, atılan böhtanların doğru olub-olmadığını) **ancaq Allah bilir, siz bilməzsiniz!"** (Nur 24/19).

وَالَّذِينَ يُؤْذُونَ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ بِغَيْرِ مَا اكْتَسَبُوا فَقَدِ احْتَمَلُوا بُهْتَانًا وَإِثْمًا مُبِينًا

Mömin kişiləri və qadınları etmədikləri bir işdən (günahdan) **ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər!** (Əhzab 33/58)

Bu gün yeni bir dünya üçün murdar xüsusiyyətlər hazırlayanların o bataqlığın içərisində çırpındığını, möminlərə əziyyət verməkdən zövq alanların, öz acı və iztirabları ilə hələ dünya həyatında ikən qıvrandığına şahid oluruq. Sabahkı qıvranışları əlbətdə ki, daha acı və şiddətli olacaqdır.

Ancaq yolumuzdan başqa bir yol, istiqamətimizdən başqa bir istiqamət tutan insanlar necə davranırlarsa davransınlar, ətrafımızı hansı şərtlər əhatə edirsə etsin, yollarımıza nə qədər tikan səpilirsə səpilsin biz haqqa gedən yolu tapmaq və gələcək nəsillərə xeyirli xatirələr qoymaq məcburiyyətindəyik.

Dəniz səviyyəsindən yüksək dağlara, yaylaqlara çıxan insanlarda qəflətən xəstəlik əlamətləri müşahidə olunur. El arasında "dağ tutması" kimi tanınan bu xəstəlik dəfələrlə təcrübə olunmuşdur.

Günümüzdə sürətlə hərəkət etməyə imkan verən vasitələr bu yüksəlişi çox qısa bir müddətdə yerinə yetirdiyinə görə səviyyələr arasındakı bu uyumsuzluq daha da bariz görünür.

Beləliklə də vərdiş etmədiyi və alışmadığı bir mühitdən çıxıb dağlara, yaylaqlara çıxan insanlar yaşadıqları bu hava uyumsuzluğuna hazır olmalı, tədbirlər görülməli, yerinə yetirilməsi lazım olanlar yaxşı bilinməlidir. Əks təqdirdə ciddi problemlər yaşanacaqdır.

Bir neçə həftə dağda, yaylaqda qalan insanlar üçün bu uyumsuzluq yoxa çıxacaqdır. Çünki bədən özünü iqlim şərtlərinə və mühitə hazırlayacaqdır. Bu Yaradanın bədənimizə bəxş etdiyi saysız-hesabsın nemətlərdən biridir.

Belə bir insanın bədənini araşdırsaq, qanını təhlil etsək bədənində bir çox dəyişikliklərin baş verdiyini görəcəyik. Onun bədəni oksigeni saxlama gücü olan hemoqlabin miqdarı çoxalmış, zahiri dünyadakı oksigen azlığına uyğunlaşmış və ahəng qurulmuşdur.

Bizlər də hər zaman ətrafımızdakı mühiti istədiyimiz şəkildə görməyə bilərik. Bizə uyğunlaşsın deyə gözləyə bilmərik. Öz həvəssizliyimizə və tənbəlliyimizə bunu bəhanə gətirə bilmərik.

Mühitimiz necə olursa-olsun ən qısa vaxtda əlaqələrimizi qurmalı, zəhmət çəkənlər səfində yerimizi almalı, bütün axıntılara və sellərə sinə gərərək müəyyən yol məsafə qət etməliyik. Ətrafımızdakıları yaxşı tanımaq, istədiyimiz fürsətlər əlimizə düşəndə hədəfimizə doğru irəliləməli, mühitimizdəki şərtləri öz lehimizə çevirmək üçün çalışmalı və bunda əsla səhlənkarlıq göstərməməliyik.

Başqa bir ifadə ilə desək, həm özümüz bir an əvvəl bu mühitə uyğunlaşmalı, həm də zahiri şərtləri bizim hədəflərimizə uyğun hala gətirmək üçün cəhd etməliyik.

Buna bir misal olaraq qardaşlarımızla əl-ələ verməli, iş həyatında, ailə həyatında ətrafımızı könül dostları ilə doldurmalı, sıxıntılı dövrlərdə onların isti və səmimi dostluqlarından istifadə etməliyik.

Bir fərd kimi bizim buna ehtiyacımız olduğu kimi, ailəmizin, uşaqlarımızın, hətta valideynlərimizin belə buna ehtiyacı var. Saleh bir mühit, əlbətdə ki, insanın xeyrə və saleh əməllərə yönəlməsini asanlaşdırır.

Ətrafımızı könül dostlarımızla əhatə etməyimiz bizi təhlükələrdən xilas etdiyi kimi, içimizdə də bir güvən və hüzur hissi yaradacaqdır. Hər bir gəminin güvənli bir limana ehtiyacı var. Fırtına və dalğaların böyük olduğu bir dövrdə isə buna daha da çox ehtiyac hiss olunur.

Beləliklə də içində olduğumuz mühitə uyğunlaşmağı yerinə yetirməli, hansı şərtlər altında olursa-olsun fəaliyyət göstərmək üçün imkan tapmalı, gecikmədən praktiki tətbiqata keçilməlidir.

Kifayət qədər xüsusiyyətlərimiz yox edilmişdir. Başqa itkilərə yol verməmək lazımdır.

Bir an əvvəl itkilərin təsbit olunması, zəifləyənlərin gücləndirilib ayağa qaldırılması, unudulanların yada salınması lazımdır. Ciddi bir təlim mühiti yaradılmalıdır.

Dünyadan axirətə gedəcək və əbədi yurdu hər cür imkanlarla məskən yeri hazırlayan xüsusiyyətlər bunlardır. Şair bu haqda belə demişdir:

إِنَّمَا الدُّنْيَا إِلَى الْجَنَّةِ وَ النَّارِ طَرِيق وَالَّيالِي مَتْجَرُ الإِنسَانِ وَالأَيَّامِ سُوق

“Dünya cənnətə də cəhənnəmə də yoldur
Gecələr insanın mağazası, gündüzlər bazarıdır!”

❋

Bundan əlavə, xidmət etmək, xeyirə vəsilə olmaq insanın səadətinə yeni səadət əlavə edər. Ona görə də xidmət meydanı boş qalmamalı, mömin könüllər bəhrələrini vermədə səhvə yol verməməlidir. Muaz və digər səhabələr bunun çoxlu gözəl nümunələri vardır.

❋

Onun həyatı bizə çox şey danışır. Etdikləri, möminlərin ona baxışları, hüsnü-şəhadətləri, elm məclisləri, söhbət həlqələri, cihad meydanları, qürbətdə təbliğ, təlim-tərbiyə səyləri və dünyaya vida edərkən söylədiyi sözlər:

“Uzun bir ayrılıqdan sonra
Gəlib qapımızı döyən qonağa salam olsun

Həvəslə gələn sevgilimə salamlar!"

Unutmayaq ki, Rəbbimiz belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَكُونُوا مَعَ الصَّادِقِينَ

"Ey iman gətirənlər! Allah təqva ilə dolu olun və sadiqlərlə birlikdə olun!" (Tövbə 9/119).

Digər bir ayədə isə belə buyurmuşdur:

وَلَا تَرْكَنُوا إِلَى الَّذِينَ ظَلَمُوا فَتَمَسَّكُمُ النَّارُ وَمَا لَكُمْ مِنْ دُونِ اللَّهِ مِنْ أَوْلِيَاءَ ثُمَّ لَا تُنْصَرُونَ

"Zülm edənlərə (rəğbət bəsləməklə, kömək göstərməklə) **meyl etməyin, yoxsa sizə atəş toxunar** (cəhənnəmlik olarsınız)**. Sizin Allahdan başqa dostunuz** (himayədarınız) **yoxdur. Sonra sizə** (dünyada da, axirətdə də Onun əzabından heç bir) **kömək olunmaz!"** (Hud 11/113).

❋

Rəbbimizdən bizləri sadiqlərlə, salehlərlə, ariflərlə, alimlərlə, zahidlərlə, haqq yolundakı mücahidlərlə bərabər etməyi, zalımlara ən kiçik bir meyl etməməyimizi niyaz edirik. Yazımıza da aləmlərin əfəndisi Məhəmməd Mustafanın Muaz ibn Cəbələ tövsiyyəsi ilə son vermək istəyirik:

إِنَّ رَسُولَ اللَّهِ أَخَذَ بِيَدِهِ وَقَالَ: (يَا مُعَاذُ، وَاللَّهِ إِنِّي لأُحِبُّكَ.

فَقَالَ: أُوصِيكَ يَا مُعَاذُ، لاَ تَدَعَنَّ فِي دُبُرِ كُلِ صَلاَةٍ أَنْ تَقُولَ:

اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ وَشُكْرِكَ وَ حُسْنِ عِبَادَتِكَ.)

"Rəsulullah bir gün Muazın əlindən tutaraq "ey Muaz, vallahi mən səni çox sevirəm"-dedi və sonra da davam etdi: "Ey Muaz, sənə tövsiyəm olsun; hər namazdan sonra

"Allahım, Səni zikr etmək, Sənə şükr etmək və ən gözəl şəkildə Sənə ibadət etmək üçün mənə yardım et!" –deməyi unutma!"[183]

Kitabı Yekunlaşdırarkən:

Bu kitabı min bir çiçəyin, gülün olduğu zəngin bagçadan bir dəstə gül, bitməz xəzinədən bir ovuc mücəvhərat verə bilmək niyyəti ilə qələmə aldıq. Bu zəngin bağçadan çiçəklər, bitməz xəzinədən mücəvhərat bəxş etməyə davam etmək istəyirik. Onlara ehtiyacımız var.

Uca Mövladan hamımıza haqq yolda xidmət etməyi nəsib etməsini, Allah Rəsulunun və səhabələrinin əxlaqı ilə əxlaqlanmağımızı, onların getdiyi yoldan getməyimizi, haqqı haqq bilənlərə bağlananlardan, batili batil bilib ona nifrət edib uzaqlaşanlardan etməsini niyaz edirik..

آخر دعو انا أن الحمد لله رب العالمين.
والصلاة والسلام على من أرسله الله
رحمةً للعلمين وهداية للناس أجمعين
وعلى آله وصحبه الغرّ الميامين ومن سار
على نهجه إلى يوما لدين.

❋❋❋

183. Sünəni Əbu Davud, Səlat (2/181), Sünəni-Nəsai, Səlat (3/53). Hədisin isnadı səhihdir.

İstifadə Olunan Ədəbiyyat

***Qurani-Kərim**

***əl-Alam**

Təlif: Hayreddin Zirikli

Nəşr: Darul-ilmi lil-Məlayin, 6-cı nəşr, Beyrut.

***əl-Bidayə vən-Nihayə**

Təlif: Hafiz İsmayıl İbn Kəsir

Təhqiq: Dr. Əbu Mülhim və digərləri

Nəşr: Daru Kutubil-İlmiyyə, 2-ci nəşr, Beyrut.

***əl-Burhan fi Ulumil-Quran**

Muhəmməd ibn Abdullah əz-Zərkəşi

Təhqiq: Muhəmməd Əbul Fəzl

Nəşr: Darul Marifə, 2-ci nəşr, Beyrut.

***əl-Cami li-Əhkamil-Quran**

Təlif: Mühəmməd ibn Əhməd əl-Qurtubi

Nəşr: Daru Kutubil-Misriyyə, 3-cü nəşr, Qahirə

***Camiul-Usul Fi Əhadisil-Rasul**

Təlif: Mübarək ibn Məhəmməd ibn əl-Əsir əl-Cəzəri

Təhqiq: Abdulqadir əl-Arnaud

Nəşr: Darul-Bəyan, 1969.

***Dəlailun-Nübüvvə**

Təlif: Əbu Bəkr Əhməd ibn Hüseyn əl-Beyhaki

Nəşr: Daru Kutubil-İlmiyyə, 1-ci nəşr, 1985, Beyrut.

***Fiqhus-Sirə**

Muhəmməd Səid Ramazan əl-Buti

Nəşr: Darul-Fikr, 8-ci nəşr, Beyrut.

***Həyatus-Səhabə**

Təlif: Muhəmməd Yusif əl-Kandəhləvi

Nəşr: Darul-fikr, 8-ci nəşr, Beyrut.

***Xilyətul-Evliya və Təbəqatul-Əsfiya**

Təlif:Əhməd ibn Abdullah əl-İsbahani

Nəşr: Daru Kutubil-Arabi, 2-ci nəşr, 1967, Beyrut.

***İnsan Denen Meçhul**

Dr. Alexis Carrel, Çev. Refik Özdek

Yağmur yayınları, 1973, İstanbul.

***İrşadul-Aqlis-Səlim ilə Məzayal-Quranil-Kərim**

Təlif: Əbussuud Muhəmməd ibn Muhəmməd Əl-İmadi

Nəşr: İhyaut-Turasil-Arabi, Beyrut.

***əl-İsabə fi Təmyizis-Səhabə**

Təlif: Əhməd ibn Hacər əl-Askalani

Nəşr: İhyaut-Turasil-Arabi, 1-ci nəşr, 1328 Beyrut.

***əl-İstiab fi Mərifətil-Əshab**

Təlif: Yusif ibn Abdulah ibn Bərr əl-Qurtubi

Nəşr: İhyaut-Turasil-Arabi, Beyrut.

***Qısasi Ənbiya və Təvarixi Xüləfa**

Təlif: Ahmed Cevdet Paşa

Nəşr: M. E. B. , 1-ci nəşr, 1972 İstanbul.

***Lisanul Arab**

Təlif: Muhəmməd ibn Mukrim ibn Manzur

Nəşr: Daru Sadr – Beyrut

***Muxtəsəru Təfsiri İbn Kəsir**

Təlif: İsmayıl İbn ömər ibn Kəsir

Nəşr: Daru Qurani Kərim, 1399 Beyrut.

***Muaməratu faslid Dini anid-Dövlə**

Muhammməd Kazım Həbib

Darul-İman, 1-ci nəşr, 1974, Beyrut.

***Musnəd**

Təlif: Əhməd ibn Muhəmməd ibn Hənbəl

Nəşr: əl-Məktəbətul İslami, 2-ci nəşr, Beyrut.

***əl-Mustədrək alas-Sahiheyn**

Təlif: Muhəmməd ibn Abdullah, əl-Hakim Neysəburi

Təhqiq: Mustafa Abdulkadir Ata

Nəşr: Daru Kutubil İlmiyyə, 1-ci nəşr, 1990 Beyrut.

***Nasbur-Rayə li Əhadisil Hidayə**

Təlif: İmam Hafiz Cəmaləddin Abdullah ibn Yusif əl-Hənəfi

Nəşr: əl-Məktəbətul İslamiyyə, Darut-Turasil-Arabi, 2-ci nəşr, 1973 Beyrut.

***Riyazus-Salihin**

Təlif: Yəhya ibn Şərəf ən-Nəvəvi

Nəşr: Risalə Yayınları, 1980 Beyrut.

***Səhihi Buxari**

Təlif: Muhəmməd ibn İsmayıl əl-Buxari

Nəşr: Məktəbətul-Halebi və oğulları, 1-ci nəşr, 1972 Qahirə.

***Səhihi Müslim**

Təlif: Müslim ibn Əl-Həccac

Nəşr: Daru İhyayi Turasil-Arabi, Beyrut.

***əs-Sihah**

Təlif: İsmayıl ibn Hammad əl-Cövhəri

Nəşr: 2-ci nəşr, 1982 Qahirə.

***Sünəni Əbi Davud**

Təlif: Süleyman ibn Əşas əs-Sicistani

Nəşr: Muhəmməd Ali əs-Seyyid, 1-ci nəşr, 1969 Humusi Suriyə.

***Sünəni İbn Macə**

Təlif: əl-Hafiz Muhəmməd ibn Yəzid əl-Qəzvini

Nəşr: əl-Məktəbətul İlmiyyə, Beyrut.

***Sünəni Nəsai**

Təlif: Əhməd ibn Şueyb ən-Nəsəi

Nəşr: Daru Bəşairil-İslamiyyə, 1988 Beyrut.

***Sünəni Tirmizi**

Təlif: Muhəmməd ibn İsa ət-Tirmizi

Nəşr: Daru İhyaut-Turasil-Arabi, Beyrut.

***əs-Siratun-Nəbəviyyə**

Təlif: Hişam ibn Əyyub əl-Himyeri

Nəşr: 2-ci nəşr, 1955 Misir.

***əs-Siratun-Nəbəviyyə**

Təlif: Əbul Həsən, Ali əl-Hüseyni ən-Nədəvi

Nəşr: 2-ci nəşr, Daruş-şuruk, Ciddə.

***Siyəru Əlami-Nübəla**

Mühəmməd ibn Əhməd əz-Zəhəbi

Təhqiq: Şüeyb əl-Arnaud 10-cu nəşr, 1994.

***Tərbiyətul-Evlad fil-İslam**

Abdullah Nasih Ulvan

Darus-Səlam, 3-cü nəşr, 1981, Suriya.

***Umdətul-Qari Şərhi Səhihi Buxari**

Bədruddin Mahmud əl-Ayni

Məktəbətu Hələbi və oğulları, 1-ci nəşr, 1972, Qahirə.

***Usdul Qabə fi Marifətis-Səhabə**

Təlif: İzzəddin İbnul Əsir Ali ibn Muhəmməd əl-Cəzəri

Nəşr: Daruş-Şəb

***Vəfau-Vəfa bi Əxbari Daril-Mustafa**

Təlif: Nureddin Ali ibn Əhməd əs-Səmhudi

Nəşr: Daru ihyaut-Turasil-Arabi, 4-cü nəşr, 1984 Beyrut.

Mündəricat

Giriş.....7

- **Hira və Nur**.....11

  Vəhyin Başlanğıcı.....13

- **İslamın Səsi və Könüllərə Sirayəti**.....19

  Tüfeyl İbn Amr əd-Dövsi.....21

  İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....25

  Bir Neçə Söz.....25

  İlahi Vəhyin Könüllərə Təsirini Etiraf.....25

  Haqq Yola Çəkilən Sədd.....27

- **Bilmək-Yaşamaq və Gözəl Üslubla Çatdırmaq**.....31

  Həbəşistan Diyarında.....33

  İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....42

  Bir Neçə Kəlmə.....43

  Hicrət.....43

  Müsəlmana Söz Haqqı Verilməməsi Cəhdləri.....44

  Şəxsiyyət və Ədalət.....45

  İslamda Rəhbərlik Müəssiəsi.....47

  Gözəl Üslub.....48

- **Acı və Şirin, Yaxşı və Yaman Gündə Mömin Könüllərlə Bərabər Olmaq**.....53
  - **Osman İbn Mazun**.....55
    - İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....60
    - Bir Neçə Söz.....60
- **Səlim Fitrət-Güclü Şəxsiyyət Təbliğ Eşqi və Əzmi**.....67
  - **Zeydü-l-Xayr**.....69
    - İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....80
    - Bir Neçə Söz.....81
    - İnsanlar Təbii Sərvətlər Kimidir.....81
    - Milliyyətçilik və İrqçilik.....84
- **Qürbətdə İlk Dəvətçi**.....95
  - **Musab İbn Umeyr** 97
    - İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....103
    - Bir Neçə Söz.....104
    - İmanı Zəlalətdən, Haqqa Xidməti Dünya Malından Üstün Tutmaq.....104
    - Qürbətdəki Dəvətçi.....106
- **Məsuliyyət Hissi və Haqq Mübarizənin Cəfakeşləri ilə Birlikdə Olmaq**.....109
  - **Abdullah İbn Məktum**.....111
    - İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....117
    - Bir Neçə Söz.....117
    - Haqq Mübarizənin Cəfakeşləri İlə Bərabər Olmaq.....117
    - İlahi Əmr və Qadağalara Qarşı Həssaslıq.....121

- **Hicrətdən Xatirələr**.....125
  - **Hicrət.**.....127
    - Fədakarlıq Nümunələri.....131
    - Mədinə Yollarında.....133
    - Mədinədə ilk Dayanacaq.....137
    - İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....139
    - Bir Neçə Kəlmə.....140
    - Qardaşlıq.....140
    - Haqq Mübarizəyə Xidmət Etmək.....143
    - Uşaq Tərbiyə Etmək.....147
- **Haqqı Axtarış**.....157
  - **Salman Farisi**.....159
    - İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....168
    - Bir Neçə Kəlmə.....169
    - Haqqı Axtarış.....169
    - Məşvərət.....170
- **Böyük Qazanc**.....173
  - **Süheyb ər-Rumi**.....175
    - İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....181
    - Bir Neçə Söz.....181
    - Dünya Malı Uğrunda Yarış.....181
- **Yetimlikdən Cihad Rəhbərliyinə**.....185
  - **Zül-Bicadeyn**.....187
    - İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....191
    - Bir Neçə Söz.....192

- **Gözəl Əxlaq-Gözəl Sima (Ümmətinin Əmini)**.....195
  Əbu Ubeydə İbn Cərrah.....197
    İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....206
    Bir Neçə Söz.....207
    Hislərin Simaya Əks Etməsi.....207
    Unudulmayacaq Xatirələr.....212

- **Elm və Ədəb**.....215
  Zeyd İbn Sabit.....217
    İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....222
    Bir Neçə Söz.....223
    Elm və Ədəb.....223
    İmamlar Günəşi.....226

- **Arıların Qoruduğu Səhabə**.....233
  Asim İbn Sabit.....235
    İrşad və İbrət Almaq Üçün
    Bəzi Diqqət Çəkən Məqamlar.....240
    Bir Neçə Kəlmə.....240
    Asimi Yad Edərkən.....240

- **Allah Yolunda Olunca**.....**243**
  Hübeyb İbn Adiyy və Zeyd İbn Dəsinə.....245
    İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....251
    Bir Neçə Kəlmə.....251
    Əbədi Həyata Köç Edərkən Fani Həyata.....251
    Göndərilən İsmarıclar.....251

- **Ümmətin Hakimi (Qərbdə Keçən Dəqiqələrin Kədəri)**....255
  Əbu-d-Dərda.....257

İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....266
Bir Neçə Kəlmə.....267
Pis Əməllərin Edənlərə Xoş Görünməsi.....267
Elm və Əməl.....269
Dünya Yükünün Yüngül Olması.....271

- **Gözəl Bağça-Gözəl İnsan-Gözəl Ailə**.....273

Əbu Talha.....275
İrşad və İbrət Üçün Diqqət Çəkən Məqamlar.....284
Bir Neçə Kəlmə.....285
Birrə Çatmaq.....285
Gözəl və Dəyərli Mehr.....287
Son Nəfəsə Qədər İtməyən Xidmət Eşqi və Hissi.....290

- **Uhud Böyük İmtahan və İmtahan Ərənləri**.....293

Uhud Müharibəsi.....295

- **Uhuddan Xatirələr**.....317

Fədakarlıq Nümunələri və Döyüşdən Tablolar.....319
Ziyad İbn Səkən.....321
Hüseyl (Yəman) və Sabit.....321
Səd İbn Əbi Vaqqas.....322
Qatadə ibn Numan.....323
Əbu Dücanə.....323
Ümmü Ammara (Nəsibə).....323
Abdullah İbn Cahş.....324
Amr İbn Camuh.....325
Usayrim (Amr ibn Sabit).....326
Cabir İbn Abdullah.....327

Allah Rəsuluna Hücum və
Übeyy İbn Xələfin Aqibəti....328
Bəni Dinarlı Qadın....331
İrşad və İbrət Almaq Üçün
Bəzi Diqqət Çəkən Məqamlar....333
Bir Neçə Kəlmə....337
İslamı Yox Etmə Hazırlıqları və
İslama Qarşı Təhriklər....337
Birlik və Nizam İçərisində Olmaq....340
Uhud Hadisəsinə Bir Neçə Fərqli Baxış....342

• **Bərəkət və Dünya Malına Hakim Olmaq**....345
Abdurrahman İbn Avf....347
İrşad və İbrət Almaq Üçün
Bəzi Diqqət Çəkən Məqamlar....358
Bir Neçə Kəlmə....360
Zənginliklə imtahan....360
Ticari Qabiliyyət....367

• **Gözəl İnsan Mələklərin Heyran Qaldığı Tilavət**....371
Üseyd ibn Xudayr....373
İrşad və İbrət Almaq Üçün
Bəzi Diqqət Çəkən Məqamlar....384
Bir Neçə Kəlmə....386
Quran və Təbliğ....386
Quranın İrşadı İlə Bağlı Bir Neçə Nümunə....390
Əli əl-Əsədi....393

• **Gözəl Əxlaq Dərin Elm**
Ölümü Qonaq Kimi Qəbul Etmə Şüuru.....399
Muaz ibn Cəbəl.....401
İbrət və İrşad Üçün Diqqət Çəkən Nöqtələr.....410
Bir Neçə Kəlmə.....411
Gözəl Xüsusiyyətlərin İzində.....411
İstifadə Olunan Ədəbiyyat.....419